ALXAN BAYRAMOĞLU

# ŞAMAXIDA MAARİF VƏ MAARİFÇİLİK

## XIX ƏSRİN ORTALARINDAN MART 1918 -Cİ İLƏ QƏDƏRKİ ƏDƏBİ MÜHİT.

«MAARİF» NƏŞRİYYATI

BAKI- 1997

83. 3 Az
B 20

Rəyçilər: Məmməd MƏMMƏDOV, filologiya elmləri doktoru, professor;

Ağarəfi ZEYNALZADƏ, filologiya elmləri doktoru;

Əjdər AĞAYEV, pedaqoji elmlər doktoru.

Elmi redaktoru: Əziz MİRƏHMƏDOV, Azərb. EA-nın müxbir üzvü.

**Məmmədov A. B.**

B 20 **Şamaxıda maarif və maarifçilik** (XIX əsrin ortalarından mart 1918-ci ilə qədərki ədəbi mühit). Bakı, Maarif, 1997. 240 səh.

Kitabda qədim tarixə, zəngin ədəbi ənənələrə malik Şamaxının timsalında XIX əsrin ortalarından 1918-ci ilin mart qırğınlarına qədərki dövrdə Azərbaycanda maarif və mədəniyyətin, o cümlədən maarifçilik ədəbi hərəkatının yaranması və inkişaf xüsusiyyətləri araşdırılır. Müəllif elmi-tarixi mənbələrə, arxiv materiallarına və ədəbi-bədii nümunələrə istinadən ictimai-ədəbi və milli mədəni fikir tariximizin mənzərəsini ilk dəfə olaraq regional aspektdə işıqlandırmaqla bərabər, milli - mənlik şüurumuzun formalaşmasına nəzər salır, bu işdə xidmətləri olan ədəbiyyat və mədəniyyət xadimlərimizin əməyini obyektiv qiymətləndirməyə çalışır. Əsər polemikliyi ilə də diqqəti cəlb edir.

M 4700000000 – 20 Sifarişlə
M 652 - 97

83. 3 Az

© «Maarif» nəşriyyatı, 1997.

*Orta məktəbdə sevimli ədəbiyyat müəllimim olmuş Məhəmməd Nəsibovun və avtomobil qəzası ilə həyatdan vaxtsız köçmüş böyük qardaşım Elxan Yusifovun əziz xatirələrinə ithaf edirəm.*

## GİRİŞ

Dünyanın qədim insan məskənlərindən olan Azərbaycan təbii, maddi və mənəvi sərvəti ilə də məşhurdur. Onun mənəvi sərvətinin bir qolunu təşkil edən ictimai-ədəbi fikri rəngarəng çalarlarla yanaşı regional özgünlüyə malikdir. Bu özgünlüyün öyrənilməsi ictimai-bədii fikrin bütövlükdə və dərindən dərgi üçün zəruridir. Çünki ümumazərbaycan ictimai-ədəbi fikrində Şirvanın öz yeri var, Bakının öz yeri, Qarabağın öz nəfəsi, Naxçıvanın öz çəkisi, Qazax-Gəncə zonasının da öz siması. Lakin həmin regionlar bütövlükdə vahid Azərbaycanı və Azərbaycan milli təfəkkürünü ifadə edirlər. Tarixin müəyyən mərhələsində milli-ictimai şüurun inkişaf xüsusiyyətlərini bu və ya başqa region özündə daha qabarıq əks etdirir. Odur ki, həmin dövrün ictimai şüur səviyyəsi haqda müəyyən təsəvvür əldə etmək üçün dövrə görə potensial gücü nisbətən üstün olan regiondakı ictimai-ədəbi və mədəni mühiti öyrənmək lazımdır. Əlbəttə, iş yalnız bir, iki regionun tədqiqi ilə məhdudlaşa bilməz. Ayrı-ayrı regionların tədqiqindən əldə olunan nəticələrin ümumiləşdirilməsi və konkret yaradıcı şəxsiyyətlərin yaradıcılıq özgünlüyü və s. cəhətlərin diqqətlə nəzərə alınması şərtilə dövrün ictimai-bədii və mədəni inkişaf səviyyəsi haqda dolğun elmi fikir söyləmək olar.

XIX əsrin axırları, XX əsrin əvvəllərində Azərbaycan ictimai-bədii təfəkkürünün xarakter xüsusiyyətlərini özündə qabarıq əks etdirən regionlardan biri Şamaxı ədəbi-ictimai mühitidir. Bunun bir səbəbi Şamaxının zəngin və tarixi ədəbi ənənələrə malik olması idisə, digəri onun uzun müddət inzibati mərkəz rolunu oynaması və həmin rolu sonralar itirsə də, Bakı ilə coğrafi yaxınlığı və inzibati vəhdətindən irəli gəlirdi. Məhz bu imkanlara söykənən Şamaxı ədəbi mühiti XIX əsrin son rübünə doğru yaranmağa başlayan milli-mənəvi tərəqqi və milli özünüdərk prosesinin milli mənlik şüuru səviyyəsinə çatıb xalqı istiqlal mübarizəsinə qaldırmaqda oynadığı rolla ədəbi-ictimai fikir tariximizin araşdırıcılarının diqqətini cəlb etdi. XIX əsrin sonu, XX əsrin əvvəllərində Şamaxıda yazıb-yaradan şəxsiyyətlər haqqında xeyli məqalə, dissertasiya və monoqrafiyalar yazıldı. Bunların hər biri özlüyündə əhəmiyyətli olmaqla, həmin ədəbi mühitin ictimai-milli şüurun formalaşmasında oynadığı rola müəyyən aydınlıq gətirir. Məsələn, Firidunbəy Köçərlinin məşhur «Azərbaycan ədəbiyyatı tarixi materialları»nda (Bakı, 1926) Şamaxı ədəbi mühitinin S. Ə. Şirvani, Ağasəlimbəy Naseh və başqa nümayəndələri haqda həm bioqrafik məlumat verilmiş, həm də əsərlərindən nümunələr gətirilərək onların ədəbiyyat tarixindəki

yeri müəyyənləşdirilməyə çalışılmışdır.[1] F. Köçərli tədqiqatında XIX əsr Şirvan şairlərindən Seyid Əzimin yaradıcılığına daha geniş yer ayırmışdır.[2] Alimin qənaətinə görə, «Hacı Seyid Əzim Şirvani nəinki yalnız Şirvan vilayətinin, bəlkə tamami Azərbaycan türklərinin azim şüərasından biri olub. Onun namü şöhrəti və şan rütbəsi hal-hazırda ənbayi-vilayətimiz mabeynində (vətəndaşlarımız arasında - A. B) kamalınca iştihar (şöhrətlənmə, ad qazanma - A. B.) almayıbsa da, gələcəkdə almasına şübhə yoxdur».[3] Çünki S. Ə. Şirvaninin «elə gözəl və səlis qəsidələri, elə xoş məzmun müxəmməsləri və qitələri, elə ruhpərvər qəzəlləri var ki, Füzuli Bağdadinin kəlamına əvəz ola bilərlər».[4]

F. Köçərlidən sonra S. Ə. Şirvani yaradıcılığına xüsusi yer ayırıb daha geniş bəhs edən akademik Feyzulla Qasımzadədir. Onun əsərlərində, o cümlədən Azərbaycan ədəbiyyatı tarixinə həsr etdiyi fundamental tədqiqatlarında[5] Seyid Əzim XIX əsr ictimai-bədii fikrimizdə yaranan yeni meyllərin əsas təmsilçilərindən və yaradıcılarından biri kimi öyrənilmişdir. Bu əsərlərdə S. Ə. Şirvaninin çoxsahəli işi - şairin pedaqoji fəaliyyəti, mətbuatda iştirakı, bədii yaradıcılığı dərslik yazması və s. haqda müfəssəl danışılır.

S. Ə. Şirvaniyə elmi maraq getdikcə güclənərək, onun haqqında yeni monoqrafik tədqiqatlar yazılır, əsərləri dönə-dönə nəşr edilir. Kamil Mirbağırovun monoqrafiyasında Seyid Əzimin həyatı, pedaqoji və elmi fəaliyyəti, bədii irsi (lirikası, satiraları, maarifçi və didaktik şerləri, hekayə və təmsilləri) təhlil olunmuşdur. Alim, S. Ə. Şirvani haqqında bir sıra yeni material və sənədi də üzə çıxarmışdır.[6] Şair haqqında yazan müəlliflər sırasında Ə. Müznib, Ə. Ə. Səidzadə, S. Rüstəmzadə və başqaları da vardır.

Filologiya elmləri doktoru Sadıq Hüseynovun tədqiqatları[7] Seyid Əzimin yaradıcılıq yolu haqqında mövcud elmi qənaətləri xeyli genişləndirməsi ilə diqqəti cəlb edir. Alim yeni tapılan sənəd və materiallara əsasən şairin həyatının, elmi və pedaqoji fəaliyyətinin öyrənilməsində yol verilən yanlışlıqların üzə çıxarılıb dəqiqləşdirilməsinə çalışır. Seyid Əzimin bədii yaradıcılığının ideya-bədii istiqamətləri və qaynaqları da S. Hüseynovun əsərlərində, əvvəlki tədqiqatlara nisbətən, daha geniş və mükəmməl işıqlandırılmışdır.

Fologogiya elmləri doktoru Ağarəfi Zeynalzadənin tədqiqatlarında[8] Seyid

---

[1] F.Köçərli. Azərbaycan ədəbiyyatı tarixi materialları. İki cilddə. I hissə, Bakı, Azərnəşr, 1926, s. 1-145.
[2] Yenə orada, s. 34-129.
[3] Yenə orada, s. 34.
[4] Yenə orada, s. 95.
[5] F. Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, ADU nəşri. 1956; Yenə onun, XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair tədqiqlər. Bakı, APİ nəşri, 1969; Yenə onun, XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Maarif, 1974.
[6] K. Mirbağırov. (Seyid Əzim Şirvani. Bakı. Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı, 159.
[7] Sadıq Hüseynov. Seyid Əzim Şirvaninin yaradıcılıq yolu. Bakı, Elm, 1977; Yenə onun. Seyid Əzim Şirvani. Bakı, Yazıçı, 1987.
[8] A. R. Zeynalov. «Ziya (Ziyayi-Qafqasiyyə)» haqqında qeydlər. Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyinin əsərləri. Bakı, 1968, №3, s. 45-72; Yenə onun. «Əkinçi»nin nəşri tarixindən səhifələr. Azərb.

Əzimin ədəbi-ictimai fikir tarixində rolu, milli mətbuat orqanlarımızın ilk nümunələri olan «Əkinçi», «Ziya» (Ziyayi-Qafqasiyyə)» və «Kəşkül»də iştirakının xarakteri və istiqamətləri, pedaqoji fəaliyyətinin məqsəd və məramı kimi məsələlər haqda dəyərli elmi fakt və mülahizələr öz əksini tapmışdır. Bu əsərlərdə həmçinin həmin mətbuat orqanlarının Şamaxı ictimai-ədəbi və mədəni mühitindən çıxmış redaktor və naşirləri olan H. Zərdabi, Səid və Cəlal Ünsizadə qardaşları, onların mütərəqqi ictimai-bədii və pedaqoji xidmətləri və Seyid Əzimlə qarşılıqlı əməkdaşlıqlarının ayrı-ayrı cəhətləri haqda da müfəssəl elmi məlumatlar və faktlar söylənilmişdir.

S. Ə. Şirvaninin məktəbdarlığı, pedaqoji görüşləri, dərslik yaratmaq sahəsindəki xidmətləri Əlifağa Bağırovun tədqiqatında xüsusi təhlil obyektinə çevrilmişdir.[9] A. Abdullayev və H. Əhmədovun tədqiqatlarında, M. Məmmədov, Y. Babayev və T. Cavadovun birgə yazdıqları monoqrafiyada Azərbaycan pedaqoji fikir tarixinin tərkib hissəsi olmaqla, Şamaxı ədəbi mühitinin tək S. Ə. Şirvani deyil, digər nümayəndələrinin dərslik və uşaq ədəbiyyatı nümunələri yaratmalarından da bəhs edilmişdir.[10]

İramin İsayevin tədqiqatı A. Səhhətin, Əmir Tağıyevin əsəri M. Ə. Sabirin pedaqoji irsinin öyrənilməsinə həsr edilibsə,[11] Nəsrəddin Qarayevin dissertasiyasında Şamaxıdakı «Beytül-səfa» ədəbi məclisinə, onun üzvlərinin yaradıcılıqlarına və ədəbiyyatın inkişafında xidmətlərinə ayrıca bölmə ayrılmışdır.[12] Tanınmış ədəbiyyatşünas alimlərdən Kamran Məmmədov, Əziz Mirəhmədov, Xeyrulla Məmmədov və başqalarının tədqiqatlarında da Seyid Əzimin və onun müasirlərindən olub ədəbiyyat və mədəniyyət tarixinə Şamaxı mühitinin nümayəndəsi kimi daxil olan şəxsiyyətlərin ictimai-bədii fəaliyyətləri, milli-mənəvi fikir tarixində oynadıqları rol haqqında qiymətli elmi fikirlər var.[13]

Şamaxı ədəbi mühitinin nümayəndələrinin yaradıcılıq nümunələrinə Hüseyn əfəndi Qayıbovun «Məcmuə»sində, Seyid Əzimin «Təzkirə»sində və bir sıra başqa

---

SSR EA-nın məruzələri, 1984, №4, s. 65-69: Yenə onun. «Kəşkül»də bədii ədəbiyyat. Bakı, Elm, 1978; Yenə onun; Ünsizadə qardaşlarının qəzet çıxarmaq cəhdləri. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. II kitab, Bakı, Elm, 1979, s. 117-142.

[9] Ə. Bağırov. S. Ə. Şirvani və məktəb. Bakı, Maarif, 1986.

[10] A. Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, Maarif, 1966; H. Əhmədov. XIX əsr Azərbaycan məktəbi. Bakı, Maarif, 1983; Məmməd Məmmədov, Yaqub Babayev, Təyyar Cavadov. Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı, Maarif, 1992.

[11] İ. İsayev. Abbas Səhhətin təlim və tərbiyə haqqında fikirləri. Nam. dis-sı. Bakı, 1976; Ə. Tağıyev. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən. Bakı, 1961.

[12] N. Qarayev. XIX əsr Azərbaycan ədəbi məclisləri. Nam. dis-sı. B., 1971.

[13] Ə. Mirəhmədov. XIX əsr Azərbaycan satirasının inkişafı məsələlərinə dair. Nizami adın Ədəbiyyat və Dil inst-un elmi əsərləri (ədəbiyyat ser-sı), IX c., Bakı, 1956, s. 71 - 102; K. Məmmədov. XIX əsr Azərbaycan şerində satira. Bakı, Elm, 1975; X. Məmmədov. «Əkinçi»nin övladı (M. Əlizadə). «Ədəbiyyat və incəsənət» qəz., 24 aprel 1970, Yenə onun. Cəlal Ünsizadə. «Novruz» qəz. 27 mart 1991. Yenə onun. Günahsız müqəssirlərdən biri. «Azərbaycan» jurn., № 11-12, 1992, s. 65-74, Yenə onun, «Əkinçi»dən «Molla Nəsrəddin»ə qədər. Bakı, Yazıçı, 1987.

əsərlərində sıx-sıx rast gəlinir.[14]

XIX əsrin sonlarında Şamaxıda mövcud olan ictimai-mənəvi mühit və bədii fikrin vəziyyəti haqda yerli müəlliflərdən S. M. Qənizadə, M. Hadi, Ə. M. Mustafayev, C. Cəbrayılbəyli və b. xatirələrində[15] də diqqətəlayiq cəhətlər var.

Çar Rusiyası Azərbaycanın həm də mənəvi-psixoloji işğalına nail olmaq üçün buraya müxtəlif ixtisaslı mütəxəssislər göndərirdi. Həmin adamların və yerli ziyalıların bu yerlərin iqtisadiyyatı, tarixi, coğrafiyası, təbii hadisə və sərvətləri, təsərrüfat həyatı, etnik tərkibi, dini etiqad və inamları, məişət qayğıları və adətləri, həyata baxışları, folkloru, ədəbiyyatı, mədəni həyatı, maddi mədəniyyəti və s. haqda qələmə aldıqları yazılarda Şamaxı mühiti ilə bu və ya başqa şəkildə əlaqədar olan cəhətlər də diqqəti cəlb edir.[16]

Professor Xeyrulla Məmmədovun yuxarıda xatırlatdığımız tədqiqatları ilə bərabər, S. M. Qənizadə haqda çap etdirdiyi monoqrafiyada[17] və ayrı-ayrılıqda tərtib edib geniş ön sözlə oxucuların mühakiməsinə verdiyi S. M. Qənizadə və s. Ə. Şirvaninin seçilmiş əsərlərində[18] də Şamaxı ədəbi-mədəni mühiti diqqət mərkəzində dayanıb.

XIX və XX əsrlərin qovşağında Şamaxı ictimai-mədəni mühitində həyatın axarı daha sürəkli xarakter alır ki, bu da ümumən ölkədə gedən yenilənmə prosesinin əks-sədası idi. Üstəlik əvvəlki potensiyadan qüvvət alan Şamaxı ədəbi mühitində ədəbiyyat aləminə M. Hadi, M. Ə. Sabir, A. Səhhət kimi söz bahadırları daxil olur. Elmi ədəbiyyatın əsas diqqət mərkəzində yenə Şamaxı ədəbi mühitinin nümayəndələri dayanırlar. Onlar haqqında bir-birindən dəyərli monoqrafiyalar və digər tədqiqat əsərləri yazılır. Bu cəhətdən C. Xəndan, Ə. Mirəhmədov, K. Talıbzadə, M. K. Ələkbərli, Ə. Şərif, A. Zamanov, M. Məmmədov, T. Novruzov və başqalarının əməyi diqqəti cəlb edir.[19] Bu monoqrafiyalarda, xüsusən, Ə.

---

[14] H. Qayıbov . Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir: Azərb. EA Respublika Əlyazmaları İnstitutu. M 3046 s. 1037-1173; 1318-1324 və s; Seyid Əzim Şirvani. Əsərləri, Üç cilddə, III s., Bakı, Elm, 1974.

[15] Sultan Məcid Qənizadə. Gəlinlər həmayili. Bakı, Yazıçı, 1986, s. 159-244; M. Hadi. Tələbəlik xatirələrindən. «həyat» qəz,. 23. 26, 28 aprel 1906; Əliməmməd Mustafayev. Xatirələri, hekayə və felyetonları. Bakı, Yazıçı, 1985; C. Cəbrayılbəyli. Xatirələrim. Bakı, 1966.

[16] С. П. Зеленски. Садовство вь Закавказском крае. Сводь материаловь по изучению экономического быта государственных крестянь Закавказского края. том, IV, Тифлис, 1896, s. 1-137, Yenə onun, Описание города Шамахи. Тифлис, 1896; А. Захаров. Народное обучение у Закавказских татарь. СМОМПК. вып., IX, Тифлис, 1908, с., 7-52; Т. Г. Мамледзе. Садовая культуры и промышленная занятия в г. Шемахе и его уезде. Там же. вып. XXXIX Тифлис, 1908, с. 31-60; А. Мориц. Шемаха и ея землетрясения. В кн. Сборник сведений о Кафказе. том II. Тифлис, 1872, с. 196-206; «Нива» журн., 1902, № 8, с. 159-160, № 14, с. 283-284; Акты Кавказского Археографическое комиссии, том, XII, Тифлис, 1904, с. 391-398; Ə. Mirəhmədov. Seyid Əzim Şirvaninin bir elmi əsəri. Yazıçılar, talelər, əsərlər. Bakı, Azərnəşr, 1978, səh. 40-45.

[17] X. Məmmədov. Sultan Məcid Qənizadə. Bakı, Yazıçı, 1983.

[18] Sultan Məcid Qənizadə. Gəlinlər həmayili. Bakı, Yazıçı, 1986, Seyid Əzim Şirvani, seçilmiş əsərləri. Bakı, Maarif, 1990.

[19] C. Xəndan. Sabir. Bakı, 1940; M. K. Ələkbərli. Ağlar güləyən haqqında. Sabir (məqalələr məcmuəsi),

Mirəhmədov, K. Talıbzadə, M. Məmmədov, C. Xəndan, X. Məmmədov, K. Mirbağırov, S. Hüseynov, A. Zeynalzadə və başqalarının tədqiqatlarında öyrənilən şəxsiyyətlər, müəlliflərin tədqiqat istiqamətlərinə uyğun olaraq, ümummilli ədəbi prosesin tərkibində araşdırıldıqları üçün, onların həyatı və mühitləri haqqında müəyyən qədər bəhs edilsə də, Şamaxı ədəbi mühitinin kontekstində işıqlandırılmamışlar. Bu da həm mühiti, həm də orada yetişən müəllifləri daha yaxından tanımağa tam imkan vermir. Odur ki, biz burada, 1875-ci ildən 1918-ci ilin martına qədərki dövrdə Şamaxı ədəbi mühitinin ümumi mənzərəsini əks etdirmək yolu ilə onun spesifik regional xüsusiyyətlərini, ümumi ictimai-bədii fikirdə tutduğu yeri, həmin mövqeyin sosial-siyasi, mənəvi-psixoloji və b. səbəblərini aydınlaşdırmağa çalışmaqla ictimai-milli şüurun formalaşmasında Şamaxı ədəbi mühitinin oynadığı rola aydınlıq gətirməyə cəhd etmişik.

Mühit deyəndə, sözün geniş mənasında, təbii, ekoloji, iqtisadi, mədəni, mənəvi, siyasi, elmi, ədəbi atmosfer başa düşülür. Ədəbi mühit bütövlükdə bu atmosferin tərkib hissəsi olmaqla, cəmiyyət həyatının mənəvi dünyasının məcmuudur. Bu mənəvi dünyanın özünümüdafiəsi bədii və publisistik əsərlər, ədəbi yığıncaq, məclis və dərnəklər və b. vasitələrlə həyata keçir. Məktəb və maarif sahəsində görülən işlər də ədəbi mühitlə müəyyən dərəcədə bağlıdır. Deməli, ədəbi mühit konkret zaman və məkan çərçivəsində xalqın milli-mədəni təfəkkür, düşüncə və dünyabaxışının ictimai-bədii ifadəsini özündə əks etdirən, daim inkişafda olan canlı orqanizmdir. Odur ki, ədəbi mühit araşdırıcısı bu canlı orqanizmin bütün komponentlərini vəhdətdə götürməlidir. Milli ədəbiyyatşünaslıqda belə bir təcrübə yoxdur. Yalnız F. Köçərli məşhur əsərinə daxil etdiyi müəllifləri regionlar üzrə qruplaşdırmaqla kifayətlənib. Görünür, bu qruplaşdırma elmi-nəzəri şəkildə əsaslandırılmayıb, ancaq təcrübi xarakter daşıdığına görə həmin əsər məhz "materiallar", yəni "Azərbaycan ədəbiyyatı tarixi materialları" (Bakı, 1926) adı ilə çap edilib.

XIX əsrin sonlarına doğru başlayan bu yeniləşmə hərəkatı maarifin xalq arasında yayılması, geniş kütlənin savadlandırılması ilə müşayiət olunur. Ona görə bu hərəkatın nümayəndələri əməli işlərində maarifin xalq arasında praktiki yayılması, ədəbi fəaliyyətlərində isə maarifçiliyin təbliği ilə məşğul olublar. Maarif və maarifçilik, ölkədə olduğu kimi, Şamaxı ədəbi mühiti də vəhdətdədir.

---

Bakı, 1962, s. 12-53; Ə. Mirəhmədov. Sabir. Bakı, 1958, Yenə onun. Məhəmməd Hadi. Bakı, 1985; K. Talıbzadə. Abbas Səhhət. Bakı, 1986; A. Zamanov. Sabir və müasirləri. Bakı, 1973; M. Məmmədov. Sabir və mətbuat. Bakı, 1974; T. Novruzov. Sabir ədəbi məktəbi. Bakı, 1992.

# I FƏSİL

## XIX ƏSRİN İKİNCİ YARISINDA İCTİMAİ-ƏDƏBİ HƏRƏKAT VƏ ŞAMAXI MÜHİTİ

XIX əsrin 70-ci illərində ədəbi-ictimai aləmə yeni fikir və düşüncəli bir nəsil gəlməkdə idi. Həmin dövr ədəbiyyatının görkəmli tədqiqatçısı akademik Feyzulla Qasımzadə bu nəsil əvəzlənməsi haqda yazırdı:

«50-60-cı illərdə realist demokrat ədəbiyyatın əsas hərəkətverici qüvvəsi M. F. Axundov idi. Bu dövrdə onun elm və incəsənət sahələrində professor Mirzə Kazım bəy, Mirzə Qədim İrəvani kimi həmfikirləri olduğu halda, ədəbiyyat sahəsində həmməsləkləri yox idi. Öz realist qələmi ilə M. F. Axundova nisbətən yaxın olan Q. Zakir isə ömrünün son illərini yaşayaraq 1857-ci ildə ölmüşdü.

Yaradıcılığa hələ əsrin (XIX əsrin - A. M.) birinci yarısında başlamış Mirzə Baxış Nadim, Mirzə Nəbi Qaiboğlu Fədai (1810-1869) kimi satiriklər poeziya sahəsində az-çox fəaliyyət göstərirdilərsə də, ədəbiyyatda əsaslı dəyişiklik yaratmır, seyrçi realizmdən irəli gedə bilmirdilər. M. F. Axundovun ilk varisləri Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirov təhsil almaqla məşğul olaraq ədəbiyyat aləminə hələ gəlməmişdilər.»[20]

Ötən əsrin 70-ci illərində ədəbiyyat aləminə gələn nəsil öz fəaliyyət dairəsini tamamilə yeni bir coğrafi məkanda - Bakıda tapdı. Çünki 1859-cu ildə quberniya mərkəzinə çevrilməklə bərabər, neft sənayesinin sürətli inkişafı burada əsrin tərəqqisi ilə ayaqlaşmağa çalışan yeni qüvvələrin toplanmasına da şərait yaratdı. Beləliklə, «XIX əsrin 70-ci illərinə qədər Tiflis Azərbaycan üçün mədəni mərkəz rolunu oynadığı halda, 70-ci illərdən sonra bu rolu inkişaf etməkdə olan Bakı oynadı»[21]. Əsrin sonlarına qədər müəyyən məsələlərdə Tiflis öz əvvəlki funksiyasını saxlamağa çalışsa da, yeni əsrdə Bakı Qafqazın siyasi-ictimai və mədəni fikir mərkəzinə çevrilməklə qalmayıb, imperiyanın mühüm strateji obyektlərindən biri oldu. Yeni yaranan vətənpərvər və qabaqcıl görüşlü nəslin düşüncə axarını birləşdirib istiqamətləndirən mətbuat orqanı - «Əkinçi» də 1875-ci ildə Bakıda fəaliyyət meydanına çıxdı.

Hər bir millət kimi, Azəri türklərinin də milli-mədəni və ictimai bədii tərəqqisində onun mətbuat orqanları müstəsna rol oynayır. Azərbaycan mətbuat tarixinin ilk araşdırıcılarından Mirzə Bala Məhəmmədzadə bu məsələdən danışarkən, haqlı olaraq, yazır ki, Azərbaycan türklüyünün ictimai-mədəni intibaha başlayıb tərəqqi etməsində ən qüvvətli amillərdən birini mətbuat təşkil etmişdir.

Vaxtilə «mətbuat ikinci dövlətdir», deyənlər var idi. Azəri türklərinin intibahı dövründə mətbuat, bəlkə də, birinci dövlət olmuşdur. Bu zehniyyətin

---

[20] F. Qasımzadə. XIX əsr Azərbaycan Ədəbiyyatı Tarixi. Bakı, Maarif, 1974, s. 250.
[21] F. Qasımzadə. XIX əsr Azərbaycan Ədəbiyyatı Tarixi. Bakı, Maarif, 1974, s. 434.

qüvvəti hələ də davam etməkdədir.»[22]

Müəllif mətbuat dedikdə, haqlı olaraq, qəzet və jurnallarla yanaşı, kitabları və digər çap məhsullarını da nəzərdə tutur. Doğrudan da, ictimai-milli və mənəvi-psixoloji tərəqqi yolunda, milli mənlik şüurunun formalaşmasında mətbuat (dərslik və kitab çapı da) aparıcı rol oynayıb və oynamaqdadır. Milli-mənəvi oyanma və tərəqqi ideyaları da ilk mətbuat orqanımız «Əkinçi»də hazırlanıb intişar tapmışdır. «Əkinçi»də maarifçilik ideyaları təbliğ edilmişdir».[23] Bu da dövrün tələbindən irəli gəlirdi. İstehsal münasibətlərinin sürətli inkişafı, elm və texnikanın uğurlarına yiyələnən millətlərin tarixi səhnəsində irəli çıxıb, başqa xalqlar üzərində hökmranlıq etmələri qabaqcıl görüşlü vətənpərvər ziyalılarda vəziyyətdən çıxmaq üçün, haqlı olaraq, birinci növbədə xalqı savadlandırmaq qənaəti doğurmuşdu. Ona görə də onlar ictimai və mədəni tərəqqi naminə müxtəlif vasitələrə, yeni-yeni tədbirlərə müraciət edirlər. Tərəqqini sadəcə oxumaqda deyil, həm də dilindən və irqindən asılı olmayaraq, bütün xalqların bir-biriləri ilə qarşılıqlı faydalı əməkdaşlıq etmələrində, birinin əldə etdiyi nailiyyətlərdən digərinin faydalanmağını, bu yolla da «məişət əsbabın cəm edib dünyada zindəganlıqlarını» asanlaşdırmaqda olduğunu, bütün bunların da elmlə mümkünlüyünü anlayan «əkinçilər» valideynləri öz övladlarını bu «kilid açarından» - elmdən məhrum edib, onların bədbəxtliklərinə bais olmaqdan həzər etməyə çağırırdılar.[24] H. Zərdabi səsinin xalqa əsər eləmədiyini gördükdə təəssüf və yanğı ilə həmvətənlərimin elmdən vəbadan qaçan kimi qaçdığını göstərib söyləyirdi ki, əgər belə getsə, «biz müsəlmanlar elm təhsil etməkdən, yəni zindəganlıq cənginin əsasını ələ gətirməkdən qaçmaqlığa görə ol cəngdə (xalqların rəqabətindən - A. B.) məğlub olub mürur ilə tələf olacayıq» (səh. 72).

Müəllif bu fikri belə əsaslandırırdı ki, elmin nailiyyətlərinə yiyələnən xalqların nəfərlərindən» birisinin qazandığı dövləti əlli müsəlman qazanır. Əlbəttə, bu səbəblərə görə bizim ac qarnımıza ağrı, üryan bədənimizə soyuq dəyib bizləri tələf edəcəkdir». (s. 72)

H. Zərdabi vətəndaşlıq yanğısı ilə öz millətdaşlarını və millətpərvərlərini ayıqlığa, təşəbbüskarlığa, fəaliyyətə çağıraraq deyirdi: «Ey müsəlmanlar, heç mürvətdirmi ki, tamam dünya bizim qonşularımız ilə belə elm təhsil etməyə səy etsinlər ki, zindəganlıq cəngində düşmənə faiq gəlsinlər, amma bizlər allahdan buyruq, ağzıma quyruq deyib duraq? Ey müsəlmanların millət təəssübü çəkən kəsləri, bir açın gözünüzü, dünyaya tamaşa edin...» (s. 73)

Bu çağırış belə bir qənaətdən irəli gəlirdi ki, cəhalət bir atəşi-suzandır ki,

---

[22] Mirzə Bala Məhəmmədzadə. Azərbaycan türk mətbuatı (1875-ci ildən 1921-ci ilə qədər mətbuatımız). Bakı, Azərbaycan Xalq Təsərrüfat Şurası poliqraf şöbəsi nəşriyyatı. 1922, səh. 2.

[23] Məmməd Cəfər. Həmişə bizimlə. Bakı, Yazıçı, 1930;. s. 18.

[24] «Əkinçi» Bakı, Azərnəşr, 1979, s. 60. Qeyd: «Əkinçi»dən gətirilən bütün sitatlar qəzetin tam mətninin 1979-cu il nəşrindən götürülüb. Bundan sonra hər sitatın axırında mötərizədə «Əkinçi» (1875-1877) kitabının səhifəsi göstəriləcək.

şəxs öz cəhalətinin oduna yanar və onu da anlamaz...» (s. 116). Ona görə H. Zərdabi və məsləkdaşları öz həmvətənlərini başa salırdılar ki, dünya işlərindən, təsərrüfat və dolanışıq məsələlərindən baş çıxarmaq üçün oxumaq lazımdır. Çünki elmsiz heç bir uğur qazanmaq, fabrik və zavodların, maşınların «dilini» başa düşmək mümkün deyil. Ona görə də «insana vacibdir ki, elm ilə işlərə iqdam və ciddi-cəhd etsin, ta əməl fayda versin və hər bir tayfada olan yaxşı elmləri öyrənsin». (s. 123).

Deməli, dövrün mütərəqqi meylli ictimai-bədii fikri elm va maarifə işıqlı sabaha çıxmaq, zülm və sitəmdən azad olmaq vasitəsi kimi baxırdılar. Odur ki, bu hərəkatın simasını maarifçilik müəyyənləşdirdi. Ziyalılar xalqı işıqlı gələcək uğrunda mübarizəyə səfərbər etmək üçün maarifə xalqın əql və şüurunun elm nuru ilə ziyalandırılmasında ilkin və əsas hazırlıq mərhələsi kimi baxırdılar. Odur ki, «XIX əsr Azərbaycan maarifçiliyini səciyyələndirən əsas cəhət mübarizənin despotizmin, özbaşınalığın, fiziki və mənəvi zülmün əleyhinə, eləsə də xalqın, millətin iqtisadi və mədəni əsarətdən azad olması səmtinə yönəldilməsidir.

Azərbaycan maarifçiliyində elm-maarifi yaymaq, şəxsiyyət azadlığının təbliği, mövhumata, despotizmə qarşı mübarizə məsələləri qabarıq şəkildə özünü göstərir.»[25]

Azərbaycan maarifçiləri xalqa elmin, texnikanın sirlərinə yiyələnməyi, maariflənməyi təbliğ və təlqin etməklə öz işlərini bitirməyib, bu vəzifələrin həyata keçirilməsinin yol və üsullarını da görüb göstərməyə, əməli fəaliyyətə çalışırdılar. Onlar bu yolda olan əngəllərdən birini müvafiq dərsliklərin yoxluğunda və müəllimlərin köhnə üsulla, ancaq klassik şairlərin didaktik əsərlərindən istifadə ilə dərs keçmələrində görürdülər. Onların haqlı qənaətlərinə görə, xalqın savadsızlığının bir «illəti odur ki, bizim müəllimlər tufuliyyədə elmi-ədəb, elmi-süluk, elmi-xəvis, əşyayi-pəndiyyat və hikməti-qəvaid ilə tərbiyət etməyib, kitabi-Hafiz, Sədi, Leyli-Məcnun, Yusif-Züleyxa və hətta Qaani oxudub elmi-kəmal əvəzinə eşqbazlıq, cürəkeşlik, həzliyyət elmləri öyrədirlər. İnsafən bizim xalq ziyadə bahuşdur ki, elm-tərbiyət görməmək ilə belə dolanır. Yaxşı olurdu ki, ol kitablar ki, həqiqətdə kütbi-zəlamdır, mövquf olub özgə qism kitab, elmi-ədəblər bina edib ətrafla təlim edə idilər». (s. 131).

Xalqın istedad və qabiliyyətinə, öyrənmə bacarığına dərin inam bəsləyən Azərbaycan maarifçiləri onun savadlanmasına çalışırdılar. Bunun üçün, hələlik əldə elə bir dərslik olmadığını nəzərə alıb, Osmanlı türklərinin məktəblərində dərslik kimi istifadə olunan kitabları özümüzə uyğunlaşdıraraq, icma təşkili yolu ilə çapxana açıb yenidən çap etməyi məsləhət görürdülər. Onlar bu yolda qarşıya çıxan digər çətinliyi müəllimlərin birdən-birə yeni üsulla dərs keçə bilməyəcəklərində görürdülər. Lakin bu çətinliyin öhdəsindən gələcəklərinə inanırdılar.

---

[25] Nadir Vəlixanov . Azərbaycan maarifçi-realist ədəbiyyatı, Bakı, Elm, 1983, s. 9.

«Əlbəttə, bizim şair kitabları oxudan müəllimləri birdən elm kitabları oxudan etmək olmaz. Amma ümidvarıq ki, işin binası qoyulsa, mürur ilə yerisin. Elm kitablarımız olsa, onları oxurlar. Və necə ki, su damcı-damcı düşmək ilə daşı deşər, habelə ol kitabları oxumaqdan elm və ədəb mürur ilə xalqın könlündə nəqş bağlayıb möhkəmlənər». (s. 144).

Bununla bərabər, maarifçilər o dövrdə təlim-tərbiyə üsulunun yarıtmaz olduğuna, məktəblərdə fallaqqa, evdə və məktəbdə tətbiq edilən kötək «intizamı»nın qeyri-normallığına diqqəti cəlb edib, müəllim və valideynləri gənc nəslə qayğı ilə yanaşmağa, özlərinin nümunəvi hərəkətləri ilə onlara daha yaxşı təsir göstərməyə çağırırdılar.

Onlar dərs kitablarının da yarıtmazlığını, təlimə qətiyyən yaramadığını dönə-dönə qeyd edərək diqqəti həmin kitabların uşaqların yaş xüsusiyyətlərinə də zidd olduğuna yönəldirdilər: «Bizim məktəbxanada oxunan «Leyli-Məcnun, Hafiz və qeyrə uşaq kitabı deyil, onları ki, böyük oxuyanda şura gəlir, uşaq başına nə kül töksün, onları oxuyub eşqbaz, curəkeş olmasın. Və bir də bizi oxudanda məhz oxuyub yazmağı öyrədirdilər. Və dəxi səy edən yoxdur ki, bir xeyri olan şey də öyrətsin. Məsələn, Məcnun elədiyi qələti oxudunsa elmi-coğrafiya kitabı oxusaq, həm yazıb oxumağı öyrənərik, həm də dünya üzündə olan vilayətlərdən xəbərdar olarıq...» (s. 265-266).

Bəzi ziyalılar dərslik böhranı ilə əlaqədar yeni tipli məktəblərdə çıxış yolunu bir də təlimin rus dilində aparılmasında görürdülər. Eyni zamanda bu məktəblərdə ana dilinin tədrisini də vacib bir məsələ kimi irəli sürüb, gələcəkdə bütün fənlərin milli dildə aparılmasına nail olmaq üçün ziyalıları əməli işə, yəni dərsliklər yazmağa səsləyirdilər. (s. 248). Bu da Azərbaycan maarifçilərinin millətin milli müəyyənliyini nəinki qorumaq, hətta onu daha da möhkəmləndirmək, milli özünüdərk səviyyəsinə yüksəlməsinə nail olmaq cəhdindən irəli gəlirdi. Elə əslində onların fəaliyyətlərinin əsas məqsədi də xalqı özünə tanıtmaq, yəni onun milli mənlik şüurunun inkişafına və formalaşmasına nail olmaqla onda dostla düşməni, yaxşı ilə pisi və s. seçmək qabiliyyətinin yaranması ilə azad və xoşbəxt yaşamaq arzusunu oyatmaq idi. Bu işlər baş tutduqda isə, təbii ki, xalq öz hüququ, azadlığı, xoşbəxtliyi və hər cür tərəqqisi uğrunda əzmlə mübarizə apararaq gec-tez məqsədinə çatacaq. Maarifpərvər ziyalılar belə bir haqlı qənaətdə idilər ki, aydın məqsəd və yol olmadan mənzil başına çatmaq mümkün deyil. Xalqların tarixində isə onun milli müqəddəratının tale mənzilinə gedən yolunu maarif və elm ziyası nurlandırır. Əks təqdirdə hər hansı xalq tarix səhnəsində öz izini və simasını, bir sözlə milli müəyyənliyini itirmiş olar.

Cəmiyyət həyatını yeniləşdirmək üçün maarifçilərin irəli sürdükləri vəzifələrin həllinin qeyri-mümkünlüyü qənaətində olanlar da var idi. Belələrinin fikri əhalinin müxtəlif təriqətlərə parçalanmasına, geniş kütlənin savadsızlığından irəli gələn çox böyük çətinliklərə və üstəlik də savadlı kadrlarımızın barmaqla sayılacaq qədər azlığına əsaslanırdı. (s 305-306). Lakin bu cür fikir və mülahizələr

maarifçi vətənpərvərlərimizi qorxutmaq əvəzinə daha böyük fədakarlığa sövq edirdi. (s. 303-304; 311-312; 312-313). Bu cəhətdən aşağıdakı sətirlər xarakterikdir:

«Milləti-islamın cənab Vəkili - naməlumu » (M. F. Axundov - A. M.) yazdığı kağızdan belə məlum olur ki, islam tayfasının biistitaət, bivəsilə, biittifaq olmağı və öz dilində oxumaq, yazmaqdan məhrum olmağı onun yadına düşəndə biçarənin bədəni od tutub yanır və «Əkinçi» qəzeti yazdığı sözlər külək kimi anən-fəanən o odu yelləyib hərarətini artırmağa binaən, cənab Vəkil özünü bu suznak olan səhrada tənha görüb, bitab və bitaqətlik aləmində başlayıb küləyə dad-fəryad edir ki, ey külək, əsmə, yandım.

Mənim məxdumum Vəkili-naməlum, əvvələn, sizə lazımdır ki, odu söndürmək fikrinə düşəsiniz ki, odur sizi yandıran, küləkdə taxsır yoxdur və onu bica yerə məzəmmət edirsiniz» (s. 312-313).

Göründüyü kimi, müəllif (Məhəmmədtağı Əlizadə Şirvani) vəziyyətin çıxılmazlığı iddiasında olan həmvətəninə irad tutaraq, onu fəaliyyətə, milləti atəşin, zülm və zillətin cənginə salan ictimai-siyasi durumun islahı üçün mübarizəyə səsləyir. Bunun üçün azadlıq carçılarını, odu alovlandıran küləyi məzəmmətdənsə, odun özünü söndürməyə, yəni millətin tərəqqisinə mane olan səbəbləri tapıb, onun islahına yollar axtarmağa çağırır. O, Vəkili-naməluma bu yandırıcı səhrada tənha olmadığını da xatırladaraq sözünə belə davam edir:

«İkinci, cənab Vəkil, bu suznak olan səhrada özünüzü tənha hesab etməyin, sizdən əlavə neçə nəfərlər də bu səhrada, var ki, onların da bədəni od tutub yanmaqdadır. Lakin tən qəzaya verib, sükut aləmində durub gözləyirlər, haçaq bu suznak olan səhra dönüb onlar üçün gülzar olacaq.

Üçüncü, bu halda millət-islam qüvvətdən düşmüş yer kimidir. Lazımdır ki, neçə nəfər öz bədənini oda yandırıb, onun külü ilə bu yeri qüvvətə gətirsinlər ki, sizin övladınız bu yerdən bəhrəyab olsun». (s. 313).

Bu sözlər Azərbaycan maarifçilərinin vətəndaşlıq duyğularını bütün dolğunluğu ilə ifadə edir. Doğrudan da, onlar xalqın və vətənin tərəqqisi naminə, sözün həqiqi mənasında, özlərini oda atır, məqsədlərinə çatmaq üçün ağır və üzücü mübarizədən usanmırdılar. Çəkilən zəhmətlər öz bəhrəsini hələlik çox cüzi də olsa, göstərməkdə idi. Təkcə onu qeyd edək ki,, millətin gələcəyi üçün bir növ ümidsizliyə qapılan Vəkili-naməlumun üzüntüləri bu cür həmvətənlərinin: əzm və qətiyyəti qarşısında tezliklə qeyb oldu. O, növbəti məktubunda məktəb açmağın yolları haqda, bir qədər inamsızlıqla da olsa, bəhs etdi. (s. 332).

Maarifçilərin haqlı qənaətlərinə görə, savadsız, elm və texnikanın nailiyyətlərindən bixəbər olan hər kəs və millət ac-yalavac qalıb cərgərdan olmağa, digərlərinin əlində işlək heyvana çevrilib milçək kimi qırılmağa məhkumdur. Onlar öz fikirlərini sübut etmək üçün iranlıların o dövrkü acınacaqlı vəziyyətlərini, hindistanlıların ingilislər əlində yesir olduqlarını misal gətirir, bunu həmin xalqların elmsizliyi ilə əlaqələndirirdilər:

«Bu günlərdə Moskvanın küçələrində bir iranlı gördüm, baş açıq, özünə xaç çəkə-çəkə dilənçilik edən. Dedim, bu nədir? Cavab verdi ki, Allah İrana qəzəb edib, çörək tapmaq olmur.

Pəs, qardaşlar, bunun səbəbi elmsizlik deyil ki, bizim gözəl vətənimizdə çörək tapmaq mümkün olmadığına xalq baş götürüb diyarbədiyar gəzib, külfətindən, millətindən, məzhəbindən əl çəkib, acından milçəklər tələf olur. Və ya Hindistanın altmış milyon müsəlmanı bir neçə yüz ingilis əlində kiriftar olub, onlar üçün sağmal inək təki olmağı məkər elmsizlikdən deyil?» (s. 434).

Burada diqqəti cəlb edən maraqlı cəhətlərdən biri də odur ki, cahil iranlı düşdüyü acınacaqlı vəziyyəti özlərinin fəaliyyətsizliklərində, ətalətlərində deyil, «allahın İrana qəzəb etməsində» görür. Bu da savadsız, tərəqqidən geri qalan adamın zehni səviyyəsindən irəli gəlir. Maarifçilərin vətən və millətin savadlanması yolunda hər cür fədakarlığa hazır olmaları məhz bu həqiqəti dərk etmələri ila bağlıdır.

Azərbaycan maarifçiləri ədəbiyyat və incəsənətə də xalqı maarifləndirmək, milləti tərəqqi və inkişafa sövq etmək vasitəsi kimi baxır və ondan birinci növbədə elə bunu da tələb edərək yazırdılar:

«Hər tayfanın vətəndarlıq və millətin keçmişində olan yaman və yaxşı günlərini şərh edən mahnıları olur ki, bu mahnılar ağızdan-ağıza düşüb milləti birləşdirməyə bais olur.

Belədə yaxşı olurdu ki, bizim şüəralar bir-birini həcv, ya mədh etmək əvəzinə zikr olan məzmunda mahnılar düzəldəydilər ki, onlar ağızdan-ağıza düşüb xalqı nadanlıqdan danalığa təhrik etməyə bais oleydi». (s. 432).

Bu sətirlərdə bədii sənətin xalqı səfərbəredicilik gücünə dərin inam da ifadə edilib. Çünki bədii sənət və ədəbiyyat mənsub olduğu xalqın təxəyyülünün, düşüncə tərzinin məhsulu və ruhunun əksidir. Həmin fikri maarifçilər belə ifadə edirdilər:

Pəs hər zəmanənin bir qanacağı var ki, bu qanacağı ol zəmanənin kitablarından, xalqının adətlərindən işlətdiyi əsbab və qeyrətdən bilmək olur.

Gələcəkdə bizim tərəqqi etmək tarixini yazan indiki zəmanəyə baxanda məətəl qalacaqdır ki, nə yazsın. Həqiqət, bizim əsbablar və qeyrə yüz, bəlkə min il bundan əqdəm olandan tərəqqi etməyib.

Çünki bizim zəmanə tərəqqi zamanıdır və tərəqqi etməyən tayfa gün-gündən tənəzzül edib axırda puç olacaq. Ona binaən bizim şüəra qardaşlarımızdan - ki, onlar əlhəqq xalqın güzgüsüdürlər, - iltimac edirik, təqazayi-zəmanəyə müvafiq xalqın gözünü açmağa səy etsinlər. Yoxsa hədyan danışmaq çətin zad deyil və ondan heç kimsəyə bir nəf yoxdur». (s. 271).

Göründüyü kimi, maarifçilər bədii ədəbiyyatdan da tələb edirdilər ki, zamanın tələbinə uyğun olaraq, xalqı oyatmaqla onu tərəqqiyə, işıqlı gələcəyə çıxmaq uğrunda mübarizəyə səfərbər etsin. Onlar milli gerilik və ətalətdə ədəbiyyatın da böyük məsuliyyət daşıdığını qeyd etməklə, heç olmasa indi xalqı

milli-mənəvi oyaqlığa, fəaliyyətə, öz güc və qüdrətinə inandırmaq üçün bədii sənət adamlarını, şair və yazıçıları bütün güclərini səfərbər etməyə çağırırdılar.

Mövhumat və xürafatın törətdiyi rəzalətləri maarif ziyası ilə yox etmək, bunun əvəzində işıqlı, mədəni və azad cəmiyyət qurmaq ideyası Azərbaycan maarifçilərinin qarşısında duran əsas vəzifələrdən idi. Onlar zəka səltənətinin təntənəsinə inandıqları üçündür ki, maarifin yayılması, ölkədə elmin, mədəniyyətin inkişafı üçün son dərəcə ağır maddi və mənəvi əzablara belə dözməyə hazır idilər. Bu əqidə adamları öz amallarının yolunda olan bütün məsələri aradan qaldırmaq üçün bədii sözün güc və qüdrətinə arxalanır, cəmiyyət həyatını sarmış olan hər cür rəzalətə - dini cəhalət, ətalət, səbr və təvəkkül fəlsəfəsi, ictimai zülm və əsarətə qarşı onun vasitəsilə mübarizə aparırdılar.

Daim xarici basqınlar və daxili çəkişmələr meydanı olan Azərbaycanda kapitalist münasibətləri yaranmışdı. Bütün bunlar hələ qarşıda idi. Burjuaziya və proletariat yarananda, sinfi mübarizə kəskinləşdikcə maarifçiliklə, müəyyən qədər də olsa, inqilabi məzmun yaranacaqdı. Hələlik isə maarifçilik öz məqsədini-ölkəni maarifləndirmək vəzifəsini yerinə yetirdikcə kapitalist münasibətlərinin yetişməsinə də kömək edirdi. Çünki elə burjuaziyanın inkişafı üçün də elmin, texnikanın, sənayenin yaranıb inkişaf etməsi də lazım idi. Maarifçiliyin qarşısına qoyduğu məqsəd və vəzifələri şərh edən Azərbaycan maarifçilərindən birinin - S. Vəlibəyovun dediyi kimi: «Hər bir dövlətin və xalqın maddi vəziyyəti başlıca olaraq xalq həyatı yüksəlişinin nəinki təkcə dini, həm də iqtisadi münasibətlərinin bağlı olduğu maarifdən asılıdır. Maarif xalqın məişətini və rifahını yaxşılaşdırır, onun istehsalçılıq qabiliyyətini genişləndirir, xalqda zəhməti səmərəli etməyə tələbat yaradır, mövhumatdan azad edir, yerin təbii zənginliklərindən ağıllı surətdə istifadə etməyi öyrədir. Ancaq maariflənmək üçün hər şeydən əvvəl xalqı savadlı etmək lazımdır».[26]

Demək, maarifçilik cərəyanı öz funksiyasını yerinə yetirərkən bir tərəfdən əsil təsərrüfatçı burjuaziyanın, digər tərəfdən öz hüququnu tələb etmək üçün kafi qədər də olsa, gözü açılmış kütlələrin formalaşmasına da kömək etmiş olur. Əlbəttə, maarifçiliyin proqramına daxil olmayan, orada qətiyyən nəzərdə tutulmayan bu vəzifənin yerinə yetirilməyini onun boynuna qoyan tarixi-ictimai şəraitdən doğan zərurət idi.

Maarifçilər öhdələrinə düşən tarixi vəzifəni həyata keçirmək üçün mümkün olan bütün vasitə və imkanlardan istifadə edərək, məktəb, kitabxana-qiraətxana açır, müsamirələr təşkil edir, dərs proqramı və dərsliklərin yenidən tərtibi məsələsini qaldıraraq orada dünyəvi elmlərin əsas yer tutmasını vacib sayırdılar. Onlar bu yolda bədii sözün publisistik kəsərini artıraraq onun təsir gücünə böyük ümid bəsləyirdilər. Bunun üçün yorulmadan çalışaraq eyni ideyanı - ədəbi-bədii yaradıcılığın müxtəlif janrlarını (daha çox publisistika ilə) xalqa dəfələrlə izah edir,

---

[26] Sitat X. Məmmədovun «Əkinçi»dən "Molla Nəsrəddin"ə qədər. (Bakı, Yazıçı, 1987) monoqrafiyasından (s. 36) götürülmüşdür.

başa salır, onu ayıltmağa çalışır və bu zəhmətlərin gec-tez səmərə verəcəyinə inanırdılar. (Bax: s. 99-100; 144).

Maarifçilərin öz rəhbərlərinin - H. Zərdabinin səsinə səs verərək bu çətin işin öhdəsindən gəlmək üçün qarşıya çıxan hər cür çətinliyə mərdliklə və təmənnasız sinə gərməyə hazır olduqlarını bəyan edirdilər. Bu cəhətdən Petrovski - Razumovsk Akademiyasında oxuyan şamaxılı Məhəmmədtağı Əlizadə Şirvaninin Vəkili-Naməluma (M. F. Axundova) yazdığı və yuxarıda bəhs etdiyimiz cavab xarakterikdir. Cavabda deyilirdi: «Bu halda millәti-islam qüvvətdən düşmüş yer kimidir. Lazımdır ki, neçə nəfər sizin kimi öz bədənini oda yandırıb, onun külü ilə bu yeri qüvvətə gətirsinlər ki, sizin övladınız bu yerdən bəhrəyab olsun...» (s. 313).

Sevindirici haldır ki, bu çağırışlar hədər getmədi. Maarifçilik möhtəşəm bir ədəbi hərəkat kimi Azərbaycan ədəbi-ictimai fikri tarixində özgün yer tutdu. Həmin hərəkatın S. Ə. Şirvani, N. Vəzirov, N. Nərimanov, S. M. Qənizadə, C. Məmmədquluzadə, Ə. Haqverdiyev, M. Hadi, A. Səhhət, Ə. Sabir və b. qüdrətli nümayəndələri yetişdilər.

Əlbəttə, maarifçilik ədəbi hərəkatı ilə hər biri özgün - şəkildə bağlı olan bu ədəbi nəsillər içərisində Şamaxı ədəbi mühitinin də xüsusi səsi vardır: Bu, bir tərəfdən Şamaxının qədim ədəbi-mədəni ənənələrə malik olmasından irəli gəlirdisə, digər tərəfdən də, inzibati mərkəz rolunu itirsə də, Bakı kimi surətlə inkişaf edən bir mərkəzə yaxınlığı və mərkəzçiliyin bəzi cəhətlərini hələ də özündə saxlaya bilməsi ilə bağlı idi. Belə ki, o dövrdə quberniya mərkəzi Bakıya köçürülsə də, havasına, suyunu, ümumən iqliminə və yaşayış üçün əlverişli təbii şəraitinə görə bəzi inzibati idarələrin Şamaxıda saxlanılması lazım bilindi.[27]

Şübhəsiz, bütün bunlar Şamaxının yenidən abadlaşdırılması işinə, orada müəyyən maarif və mədəniyyət ocaqlarının şəbəkəsinin genişlənməsinə özünün müsbət təsirini göstərməyə bilməzdi. Odur ki, zəlzələlərdən və inzibati mərkəz hüququnu əsasən itirəndən sonra belə Şamaxı qəddini düzəltmək üçün özündə güc tapdı. S. Ə. Şirvaninin dediyi kimi, burda mərifət və elm xəzinəsi hələ puç olmamışdı. «Əkinçi»nin irəli sürdüyü məsələlərin birinci dərəcəli müdafiəçi və icraediciləri sırasına şamaxılılar da daxil idilər. Onlar başa düşürdülər ki, xalqın savadlanması üçün birinci növbədə müasir tələblərə cavab verən, dünyəvi elmləri tədris edən məktəblər, onlara müvafiq proqram və kitablar nəşr olunmalı, klublar, kitabxanalar təşkil edilməlidir. Zəmanəsinə görə yeni tipli məktəbi Seyid Əzim Şirvani hələ 1870-1871-ci ildə Şamaxıda açmışdı. Şamaxı ruhani məclisinin nəzdində Səid əfəndi Ünsizadənin təşəbbüsü və vasitəçiliyi ilə 1875-ci ildən fəaliyyətə başlayan «Məclis məktəb»ində də dünyəvi elmlərə o dövrdə mövcud olan digər məktəblərə nisbətən geniş yer verilirdi. S. Ə. Şirvani hər iki məktəbdə eyni şövqlə müəllimlik edirdi. O, dərs zamanı yalnız «şairlər kitabını oxutmaqla» kifayətlənmir, özünün səyahəti zamanı gördüyü, şahidi və iştirakçısı olduğu

[27] Ətraflı bax: Акты Кавказского Археографическое комиссии. том. XII, Тифлис, 1904, стр. 397.

hadisələri, hikmətamiz rəvayətləri dərsin müvafiq yerində uşaqlara çatdırmaqla həm digər məmləkətlərdə yaşayan insanların məişət və mədəniyyəti ilə onları tanış edərək məlumatlarını artırır, həm də şagirdlərə tərbiyəvi fikir və vərdişlər aşılayırdı. Şairin bu təcrübələrinin nəticələri sonralar dərslik şəklinə düşəcəkdi.

S. Ə. Şirvaninin məktəbdarlığı ilə yaradıcılığı üzvi şəkildə birləşirdi. Belə ki, o, H. Zərdabinin təbiri ilə desək, «Əkinçi»nin səsinə səs verərək maarifi təbliğ etməklə kifayətlənmirdi. Əslində bu səsvermə şairin əməli fəaliyyətindən - məktəbdarlığından doğan təbii bir hadisə idi. Bundan başqa, həm 1876-cı ildə yerli məktəblərdə rus dilinin məcburən keçirilməsi göstərişi, həm də şairin 1877-ci ildə Şamaxı şəhər məktəbinə Azərbaycan dili və şəriət müəllimi təyin edilməsi, Seyid Əzimin özünün də rus dili və mədəniyyətinə bələd olaraq bu nemətin, yəni başqa xalqların dil və mədəniyyətinə bələdliyin dadını şəxsi təcrübəsində hiss etdiyi üçündür ki, 1876-cı ildə o, oğlu Mir Cəfəri məclis məktəbinə qoyarkən qələmə aldığı mənzuməsində (s. 183-185) dil bilməyin əhəmiyyətindən danışırdı.

Bilməyəndən bilən kəsin, yəni ağılın sahildən yüksək tutulması maarifçiliyin prinsiplərindəndir. S. Ə. Şirvani Şamaxı zəlzələdən dağılsa da, orada elmli, aqil kəslərin mövcudluğundan, mərifətin, yəni mədəniyyətin bu şəhəri heç də tərk etmədiyini, elmli adama burada da qiymət verənin tapıldığını nəzərə çatdıraraq yazırdı:

Ey gözüm nuru, ey ətayi-xuda,
Sənə Şirvanda oldu nəşvü numa,
Lillahül-həmd, xitteyi-Şirvan
Saniyi-İsfahandır əlan.
Gərçi viranə oldu zəlzələdən,
Çıxmayıb mərifət bu mərhələdən.
Var hər guşədə yüz əhli-kəmal,
Hər biri əhli-elmü sahibi-hal.

Şair bu sözləri oğluna nahaqdan demirdi. Çünki onun oğlunu yeni tipli məktəbə qoymasına etiraz edənlər də var idi. «Əkinçi» həmin şeri belə bir qeydlə çap etmişdi: «Şamaxıda bir camaat uçqolası bina olub ruhani okrujnoy məclisinin nəzarətində. Şamaxı sakini Seyid Əzim Məliküşşüəra öz oğlu Mir Cəfər namı haman uçqolaya elm təhsil etmək üçün qoymaqdan xalqın məzəmmətin görüb öz oğluna nəzm ilə nəsihət verdiyinin bəyanıdır».

Seyid Əzim oğluna və bütün gənclərə müraciətlə bildirirdi ki, avamlıqdan doğan bu cür tənələrə əhəmiyyət verməyin. O, oğluna müraciətlə, «neməti-təmamə yetişmək» üçün onu «cəhd qılıb», «elm təhsil qılıb, məqamə yetişməyə» çağırırdı.

Qəzetin əhəmiyyətini, işıqlı ideyalarla zənginliyini, xalqın tərəqqisində rolunu elə ilk vaxtlardan dərk edib, «Əkinçi»nin nəşrini sevinclə qarşıladığı üçündür ki, Seyid Əzim redaksiyaya göndərdiyi mənzum təbrik məktubunda

yazırdı:

Həzəran şükr kim, bir şəxsi-aliqədr hümmətdən,
Qəzet bünyadına Rusiyyədə izn aldı dövlətdən.
Məlikzadə Həsən bəy arifi-dünya Zərdabi,
Götürdü əhli-islamı bu gün xaki-məzəllətdən.
Zəbani-türk ilə agah eylər əhli-Qafqazı,
Gəhi tazə xəbərlərdən, gəh asari-hökumətdən.
Olub sövdəgəri-xeyir ol mükərrəm əhli-islamı
Xəbərdar eylədi hər nəfü hər kəsbü ticarətdən.
Nəsimi-sübh tək feyzi olub bu aləmə sari
Oyatdı lütf əliylə qəflət əhlin xabi-qəflətdən... (s. 61-62.)[*]

Təbrik məktub - şerindən göründüyü kimi, Seyid Əzim «Əkinçi» qəzetini və H. Zərdabini «əhli-islamı» «xaki-məzəllətdən» qaldırdığı, xalqı öz ana dilində-zəbani-türk ilə günün bir sıra vacib problemləri ilə agah etdiyi üçün alqışlayır. O, «Əkinçi»nin gəlişini ruh təzələyən səhər nəsiminə bənzədir. Səhər mehi insanda xoş duyğular oyatdığı kimi, «Əkinçi» də müsəlman aləmini qəflət yuxusundan oyadır. Qəzetin müsəlman aləminə etdiyi bu yeni və mütərəqqi təsiri elə ilk günlərdən gördüyü üçündür ki, Seyid Əzim onu alqışlayaraq davamlılığını arzu edir. Çünki o, bu qəzetin uzunömürlülüyünün islam aləmini - müsəlmanların qəflət yuxusundan daha qəti şəkildə oyanmasını təmin edəcəyinə inanırdı.

Elmi ədəbiyyatda «Əkinçi» qəzetinin öz nəşri ilə S. Ə. Şirvani yaradıcılığında dönüş yaratdığı, qəzetin təsiri ilə şairin günün bir çox zəruri məsələləri ilə maraqlanması və yaradıcılığında yeni mövzulara keçib, müasir həyatın tələblərinə uyğun şerlər yazması[28] barədə çox doğru bir fikir söylənsə də, Seyid Əzimin yeni ədəbi prinsipləri mənimsəmə prosesi, yaradıcılığında baş verən dönüşün xarakteri və konkret ədəbi-tarixi faktları barədə heç nə deyilməmişdir. Belə çıxır ki, «Əkinçi» nəşrə başlayan kimi S. Ə. Şirvani də yeni ruhlu şerlər yazmağa başlayıb. Məsələyə bu cür baxılsa, yeni ictimai-ədəbi prinsiplərin milli-bədii şüurumuzda özünə yer tapmasında «Əkinçi»nin oynadığı rola kölgə salına bilər və belə çıxar ki, qəzet çıxmağa başlayanda, Seyid Əzim artıq hər şeyə hazır idi, sadəcə olaraq, özünə müvafiq tribuna tapmamışdı. Məsələnin bu cür qoyuluşu ilə bədii yaradıcılığın mürəkkəb inkişaf dialektikasını nəzərdən qaçırmış olarıq.

Xatırladaq ki, qəzetə göndərdiyi təbrik şerindən sonra S. Ə. Şirvani hələ bir

---

[*] Qeyd: Bu şerdən ilk dəfə Sadıq Hüseynov bəhs edib. (Bax: Azərb. SSR EA Ədəbiyyat və dil institutunun əsərləri (ədəbiyyat ser-sı. (IX c., Bakı, 1956, s. 151 - 152). Görünür, bu Ağarəfi Zeynalovun diqqətindən yayındığı üçün o, «Kəşkül»də bədii ədəbiyyat (Bakı, Elm, 1978, s. 48) monoqrafiyasında həmin şeri Seyid Əzimin naməlüm əsəri kimi təqdim edib.

[28] F. Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Maarif, 1974, səh. 410, 420.

müddət «Əkinçi»də fəal iştirak etmir. O, pedaqoji fəaliyyətlə yanaşı, «Beytüs-səfa»nın şer məclislərində əvvəldən hökm sürən ənənəvi şerlər yazmaqla məşğul idi. «Beytüs-səfa»da daha çox nəzirələr, qəsidələr, mənzum məktublar, aşiqanə qəzəllər, bəzən də həcvlər oxunurdu. Zamanla ayaqlaşa bilməyən belə şerlərlə yanaşı həcvlər də çox vaxt ictimai məzmun kəsb edə bilmirdi. Odur ki, başda Seyid Əzim olmaqla «Beytüs-səfa» şairləri hələ dövrlə ayaqlaşa, «Əkinçi»nin müdafiə və təbliğ etdiyi realist və ictimai mündərəcəli ədəbiyyat yaratmaq yoluna gəlib çıxa bilmirdilər.

Varlığının ilk günlərindən maarifçi-realist ədəbiyyat uğrunda qızğın fəaliyyət göstərən «Əkinçi»-də redaktor Həsənbəy Zərdabi ilə yanaşı Nəcəfbəy Vəzirov, Əhsənül-Qəvaid və b. fəal iştirak edirdilər.

Əhsənül Qəvaidin bir məqaləsində dini-sxolastik və mədhiyyə xarakterli, ictimai məzmundan uzaq olan ədəbiyyat kəskin tənqid olunurdu. O, yazırdı: «...Kəmal ibarətdir o elmi əməldən ki, onun millət, dövlət üçün bir faydası ola. Hər elmin faydasına qədər mərtəbeyi-kəmal mülahizə olunur, xah qövlü, xah feli və söz kəmalın kilididir. Kəlmeyi-daniş və hikmət daneyi-cəvahirdən mərğub və qiymətlidir». (s. 139-140).

Müəllif, millət xeyir verməyən ağlı, hikməti məqbul hesab etmir. Hər bir kəmalın qiymətini onun cəmiyyət üçün lazımlılıq dərəcəsi ilə ölçür. Poeziyaya da həmin meyarla yanaşan Əhsənül-Qəvaid fikrinə belə davam edir: «...Nəzmdə bir növ məlahət olduğuna əhli-daniş deyiblər əşşer fil-kəlam kəl-milhi fit təam[*] nəinki batil və bihudə sözlərdən kitablar yazıla və çap olub ətfal və sühhal əlinə düşə, hər laübalı adam pərpuç sözləri bir-birinə toxuyub birin mədh, birin həcv, şərab və əmrədləri vəsf ilə adın sahibi-kamal və həkim qoyub minnət xərcə versin, haşa və kəlla belə adam sahibi-kəmal olmaz, bəlkə müin zə ləşkəri şeytan olub xalqı gümrah edər». (Burada, yolundan azdırar. - A. B.).

Müəllif qəsidəçilik və həcvguluq yolunu tutan, şərabı və gözəli vəcf etməklə işini bitmiş sayaraq, qürrələnən şairlərin xalqa ancaq zərər verdiyini söyləyib onların bundansa «bu əşar əvəzinə bez toxuyub bir növ əhli-elm və kəmal hesab olmalarını, ya pinəduzluq öyrənib bir qardaşın başmağı yırtılanda pinə etmələrini» daha münasib hesab edir.

Əhsənül-Qəvaid xalqın tərəqqisi üçün dünyəvi elmlərə daha çox üstünlük verirdi. O, istər poeziyada, istərsə də bütün başqa sənətlərdə peşəkar sənətkar olmağın qızğın tərəfdarı olmuşdur. Buna görə də o, xalq kütlələrini tərəqqi yolundan uzaqlaşdıran, onu maarifə, mədəniyyətə deyil, köhnəliyə, orta əsri geriliyə (əsr geriliyinə olmalıdır - A. M.) çəkən şairləri sənət meydanından birdəfəlik çəkilməyə çağırırdı».[29]

Əhsənül-Qəvaidin bu məqaləsi, bir çoxları kimi, Şirvan şairlərinin də

---

[*] Kəlamda şer, xörəkdə duz kimidir.

[29] Sadıq Hüseynov. «Əkinçi» qəzetində ədəbiyyat məsələləri. Azərb, SSR EA Nizami adına Ədəbiyyat və Dil institutunun əsərləri (ədəbiyyat seriyası), IX cild, 1956. s, 141-142.

etirazına səbəb oldu və onlar öz narazılıqlarını ifadə edərək qələmə aldıqları məktub-məqalədə şərabın, gözəlin və ümumiyyətlə gözəlliyin vəsfini, mədhiyyəçilik və həcvguluğun tərəfdarı kimi çıxış etdilər. (s. 160-162). Onlar «şüəranın əşari-abdarında olan mühəssənət və lətaifi dərk etməyənləri» töhmətləndirərək həmin adamları şerdə olan lətafət və məlahəti duymaq qabiliyyətindən məhrum hesab edirdilər.

«Şüərayi-ərbəeyi-Şirvan» imzalı bu məktub-məqalə özündə Şirvan şairlərinin, o cümlədən «Beytüs-səfa» üzvlərinin sənətə baxışlarını əks etdirirdi. Bu şairlər poeziyada ancaq lətafət və gözəllik axtararaq, onun ictimai məzmun kəsb etməsinin vacibliyini dərk edə bilmirdilər. Əlbəttə, burada, ədəbiyyatımızın inkişafında müəyyən xidmətləri olsa da, sxolastikadan heç də tamamilə uzaqlaşa bilməyən ədəbi məclislərdə, o cümlədən «Beytüs-səfa»da hökmfərma olan ənənənin də xeyli rolu var idi. Həmin ənənənin təsirinin nəticəsi idi ki, Şirvan şairləri Əhsənül-Qəvaidin məqaləsini poeziyaya və şairlərə qarşı şəxsi qərəzlik kimi qəbul edərək, orada dövrlə əlaqədar irəli sürülən və ədəbiyyatın qarşısına qoyulan ictimai məzmunlu tələbləri dərk edə bilmirdilər. Ona görə Əhsənül-Qəvaid yenidən bu məsələyə qayıdaraq özünün şairlərlə heç bir ədavət və düşmənçiliyinin olmadığını, məqsədinin ancaq milli inkişafa mane olan illətləri bəyan edib, onları aradan qaldırılması yollarını axtarmaqdan ibarət olduğunu bildirdi. (s. 169-170). Əhsənül-Qəvaid poeziyada yenilik axtarışlarından başqa bir məqaləsində də ifadə etmişdi. (s. 193-194).

«Şüərayi-ərbeyi - Şirvan» imzalı məktub - məqalənin «dörd nəfər Şirvan şairi» tərəfindən qələmə alındığını qeyd edən S. Hüseynov yazır: «Bu məktubun yazılmasında Seyid Əzimin iştirak etməsi ehtimal olunur. Lakin bu barədə kifayət qədər əldə sənəd olmadığı üçün bu məsələ ilə əlaqədar danışmağı lazım bilmədik»[30].

Həmin məqalənin müəllifini müəyyənləşdirmək üçün elə «Əkinçi» qəzeti səhifələrində kifayət qədər material vardır.

Əhsənül-Qəvaid Şirvan şairlərinə yazdığı cavabı belə başlayır: «Cənab Ağa, cəddin fədası olum, məktubunuz mülahizə oldu» (s. 168). Həsən bəy Zərdabi isə S. Ə. Şirvaninin «Səfər, ey qönçeyi-gülüstanım!» misrası ilə başlanan şerinə verdiyi redaksiya qeydində yazırdı: «Cənab Ağanın kəlamı çox nazik eyham olduğuna qorxuram onu oxuyanlar başa düşməsinlər! Ona binaən lazım bilib bəyan edirəm ki, o cənabın kağızlarından məlum olur ki, bu şerlər ilə Ağa bizi və bizim qəzeti həcv edib. Ey Ağa, qurbanət şəvəm, biz haçaq demişik:

Demirəm rus, ya müsəlman ol,
Hər nə olsan get, əhli-ürfan ol...» (s. 185).

---

[30] Sadıq Hüseynov. Göstərilən məqalə. s. 142.

Bu qeyddə H. Zərdabinin bir redaktor ayıqlığı ilə «Əkinçi»ni və Seyid Əzimin şerini senzura və qəyrəzli hücumlardan qorumaq cəhdindən başqa diqqəti cəlb edən «Cənab Ağa» ifadəsi ilə Seyid Əzim Şirvaninin nəzərdə tutulmasıdır. Bu ifadə səbəbsiz deyil. Məlumdur ki, Seyidlərə, adətən, «Ağa» deyə müraciət olunur. Odur ki, H. Zərdabinin qeydində olduğu kimi, Əhsənül-Qəvaidin məqaləsindəki «Cənab Ağa» ifadəsi də Seyid Əzim Şirvaniyə aiddir. Əhsənül-Qəvaid məktub – məqalənin Şirvan şairləri adından Seyid Əzim tərəfindən yazıldığını bilməmiş deyildi. Yoxsa cavab məqaləsini «Cənab Ağa»ya yox, elə Şirvan şairlərinə müraciətlə başlayardı. Eyni zamanda, həmin məqalə Seyid Əzim qələminə məxsus olmasaydı, H. Zərdabi Əhsənül-Qəvaidin həmin müraciətini ya təshih edib, «Cənab Ağa» əvəzinə «Şirvan şairləri» yazar, ya da ona qeyd verərdi. Qəzetdə dərc olunan hər hansı yazının kim tərəfindən qələmə alınıb göndərildiyi H. Zərdabiyə məlum olduğuna görə «Əkinçi»də müəyyən məsələ ətrafında mübahisə və ya fikir mübadiləsi edən müəlliflər tərəf müqabillərini başqası ilə dəyişik salanda o, bu dolaşıqlığı aydınlaşdırırdı. Məsələn, Qubadan Əhsənül-Qəvaidin ünvanına yazılıb, səhvən H. Zərdabinin adına göndərilən həcv barədə redaktor yazırdı:

«Quba şəhərindən Hacı Nəcəfqulu və Məşədi Məhəmməd adından Əhsənül-Qəvaidə yazılıb, bizim adımıza göndərilən həcv yazana bəyan edirəm ki, cənab Əhsənül-Qəvaid bu halda İrana səfər edib. Çünki cənab molla bizi Əhsənül-Qəvaid hesab edib...» (s. 207). Məqalənin imzasına gəldikdə, deməliyik ki, Seyid Əzimin «Əkinçi»də çap olunan şerlərinin bəzisində Şamaxı camaatı adından danışılaraq bu fikrə ya onların tərəfdar olduğu, ya da həmin sözləri şirvanlıların söylədiyi qeyd olunur. Məsələn, S. Ə. Şirvaninin «Əkinçi»yə yazdığı təbrik şerində oxuyuruq:

Görüb ol kari-xeyri bu duanı eylədi Seyyid
Dedi əhli-Şamaxı cümləsi amin sədaqətdən, (s. 62).

Şair, «Əkinçi»ni müdafiə məqsədi ilə yazdığı şerini isə belə adlandırmışdır: «Məktubati-mənzumeyi-əhaliyi-Şamaxı» (s. 393-395). Əgər S. Ə. Şirvani Şamaxı əhli adından çıxış edirdisə, Şirvan şairlərinin tərəfindən məqalə yaza bilməzdimi?

Əlbəttə, «Beytüs-səfa»nın rəhbəri və Məlikşüəra adı qazanan bir şair olmaqla onu məqalə də S. Ə. Şirvani qələminə məxsus olub, onun və təmsil etdiyi şairlərin həyata və sənətə baxışlarının tarixən məhdud cəhətlərini ifadə etmək baxımından diqqətəlayiqdir.

N. Qarayev məktub-məqalənin imzasının mənasındakı «dörd Şirvan şairn»nin Seyid Əzim, Qafil, Zövi, Bixud olduğunu söyləyir.[31] Lakin yuxarıda deyilənlərdən bu fikrin doğru olmadığı aydınlaşır.

---

[31] Bax: N. Qarayev. Molla Ağa Bixud. «Elm və həyat» jurn. 1969, № 7, səh. 24, Yenə onun. XIX əsr Azərbaycan ədəbi məclisləri. nam. dis-sı. Bakı, 1971, s. 91. dis-ya Azərb. EA əsaslı kitabxanasında saxlanılır.

«Əkinçi»dəki tənqidi mülahizələr və fikir mübadiləsi səmərəsiz qalmadı. Əhsənül-Qəvaidin Şirvan şairlərinə cavab məqaləsindən az sonra öz səhvini dərk edən Seyid Əzim «Əkinçi»də «Səfər, ey qönçeyi-gülüstanım!» kimi şerilə çıxış etdi. Bundan sonra «Əkinçi» səhifələrində S. Ə. Şirvaninin maarifpərvər şerləri tez-tez görünməyə başladı. Odur ki, «Əkinçi»nin nəşrindən 1876-cı ilin iyununadək olan müddət yeni realist ədəbiyyatın prinsiplərinin S. Ə. Şirvani tərəfindən dərk və tətbiqetmə dövrü hesab edilməlidir.

* * *

«Əkinçi» qəzetində qaldırılan vacib məsələlərdən biri də məhərrəmlik zamanı baş çapmaq adətinin aradan qaldırılması tələbi idi. Bu məsələ ilə əlaqədar Əhsənül-Qəvaid çıxış edərək başçapma adətinin müsəlmanlara səfalət və ətalətdən başqa heç nə vermədiyini əsaslandırıb onun elm və təhsillə aradan qaldırılması məsələsini irəli sürürdü. (s. 297-298). Əhsənül-Qəvaidin bu fikirləri də cəhalətpərəstlər tərəfindən etirazla qarşılandı. Qubadan «Hadimül-Qəvaid kapitan Sultanov» imzalı bir nəfər cəhalətpərəstlərin fikrini ifadə edərək Əhsənül-Qəvaidə etiraz etdi. (s. 314-316). Şamaxılı Məhəmmədtağı Əlizadə səsini tərəqqipərvər ictimaiyyətin səsinə qataraq kapitan Sultanovu öz nəfsinin xeyrinə islam xalqlarının bütün millətlər arasında gülüş hədəfi etməkdə günahlandırdı. O, bu yolun tezliklə islam xalqlarının axırına çıxacağını söylədikdən sonra yazırdı: «...Neçə ildir «Əkinçi» qəzeti dad-fəryad edir ki, milləti-islam, ayıl bu qəflət yuxusundan, röhlət vaxtı qalma tənha bu pürxətər biyabanda. Və indi bir para adamlar ayılıb istiyirlər ki, qeyrilərin də ayıltsınlar. Onda da siz bir ağac qapıb gəlirsiniz ki, qalmaqal salmayın, qoyun yatıb istirahət etsin. Amma heç bilirsiniz ki, bu istirahətin nəticələri nə? bəlalardır?...» (s. 321-322).

«Əkinçi»nin ideyalarını müdafiə edərək, mövhumat və cəhaləti pisləyən Məhəmmədtağı Əlizadə maarifçilərə tərəfdar olmaqla bərabər, Şirvanda diş və cəhalət əleyhinə aparılan mübarizənin də əsas iştirakçılarından idi. H. Zərdabi, H. Vəzirov, M. Mahmudbəyov və başqa tərəqqipərvər xadimlərin Şirvanda hökm sürən mövhumat, cəhalət və təriqətçiliyə qarşı apardıqları mübarizə elmə məlumdur.[32] Bu mübahisə şiəlikdə mövcud olan fəna bir adət haqqında getdiyindən özünün məhz süini deyil, şiə ola-ola bu məsələyə etiraz etdiyini nəzərə çatdırmaq üçün müəllif məqaləsini belə imzalamışdı: «Xalis şiə, isna-əşəri Əlizadə Şirvani».

Həmin mübahisə ilə əlaqədar qaragüruhçuların bəziləri H. Zərdabini və Əhsənül-Qəvaidi həcv edərək, bu cür söhbətləri kəsməyi tələb edirdilər. Bunlardan biri də Hadiyül-Müzillin Qarabaği idi. Hadiyül Müzillinin və onun şəxsində qaragüruhçuların mürtəce fəaliyyətlərini və «Əkinçi»yə hücumlarını tərəqqipərvər ictimaiyyət qəzəblə qarşıladı. (bax: s. 338-339; 347-348; 359). S. Ə. Şirvaninin səsi

[32] Bax: Əhməd Həsənov. Azərbaycan maarifçiləri tərəfindən islamın tənqidi. Bakı, Yazıçı, 1983. s. 148-163.

bunların içərisində xüsusilə seçildi. (s. 369-371)* Təsadüfi deyil ki, Hadiyül-Müzillin Seyid Əzim Şirvaniyə cavabında həcvdən çəkinərək bir növ, izah və təbliğata keçmiş, Seyid Əzimi də öz tərəflərinə cəlb etməyə çalışmışdı. (s. 385-386).

Seyid Əzim Şirvani Hadiyül-Müzillinə yazdığı ifşaedici şerdə onların şəriət adına öz yanlarından «təriqət» və «dini ayinlər» icad edərək xalqı soymağa çalışmalarını nəzərə bu cür çatdırırdı:

...Leyk siz bir para büdətlər edibsiz iycad.
Qoymusuz adını siz təziyə, ey əhli-fəsad!
Sizə bu təziyədən ögə həvəslərdi murad,
Mən ölüm, sən bir özün eylə mürüvvət, Hadi!...

S. Ə. Şirvani, əvvəlki şerində olduğu kimi, burada da dil öyrənməyin mənfəətini, dünyəvi elmlərə yiyələnməyin xeyrini bir daha nəzərə çatdırırdı. Onun şerində məzəmmətlə bərabər dərin, kəskin istehza və oyanmaq çağırışı var idi.

Xaçpərəstlər hamısı açdı gözün, düşdü qabaq.
Dalda qaldıq tökülüb cəhl ilə biz, ay sarsaq!
Pəs nə vəqti bizə qismət olacaq göz açmaq?
Əqlə gəl, tanrıya bax, bəsdi bu qəflət, Hadi!

Seyid Əzimin yerində bir neçə başqa mühüm məsələyə də toxunulur; birincisi, şair göstərir ki, Hadiyül-Müzillin kimilər yalançı ikiüzlü tənqidçilərdir. Onlar müsəlman qardaşlarını din və məzhəb adı ilə yeni məktəblərdən uzaq tutmağa çalışdıqları halda, bir çoxları övladlarını məhz həmin məktəbdə oxudurlar. İkincisi, onlar rus dilinə münasibətdə də eyni ikiüzlülük edirdilər:

Tut Həsənbəy bizə təlim eləyir dərsi-zəlam,
Götürüb boynuna ol, kafir olub, vizrü vəbal
Niyə təlimə siz ətfalı qılırsız irsal,
Bilməyirsiz niyə bəs eybü qəbahət, Hadi?

Oxudur cümlə uşaqlarını xanü bəgüvüz,
Neməti-rus ilə pərvərdə olub cəmdəgüvüz,
Bilməyən rus dilini bəlkə ola tək-təküvüz,
Sizdə var hamıdan artıq ona rəğbət, Hadi!

S. Ə. Şirvani Şamaxı camaatı adından yazdığı «Məktubi-mənzemeyi-

---

* Qeyd: Qəzetin 31 mart tarixli 7-ci nömrəsindən aydın olur ki, Seyid Əzim bu şeri xeyli əvvəl göndəribmiş. Bax: səh. 343.

Əhaliyi-Şamaxı» (s. 393-395). başlıqlı şerində də xalqın nadanlıq və cəhalət torunda çabaladığını ürək ağrısı ilə qeyd edərək, onlara qəzetin xalqa verdiyi faydalardan, müasir tipli məktəblərin və dünyəvi elmləri öyrənməyin xeyrindən və s. danışır, xalqı doğru, düzgün yola təşviq edirdi

Bütün bunlar S. Ə. Şirvani, Məhəmmədtağı Əlizadə Şirvani və Şamaxının digər ziyalılarının «Əkinçi»nin təbliğ etdiyi qabaqcıl ideyaların, o cümlədən maarifçiliyin qızğın tərəfdarı olduğunu sübut edir.

Yuxarıda göstərdiyimiz kimi, xalqı maarifləndirmək üçün mövcud məktəb və dərsliklərin yaranmaması və bir çox başqa məsələlər xeyli əvvəl «Əkinçi» səhifələrində «Vəkili naməlum» və başqa xadimlər tərəfindən işıqlandırılmışdı. (s. 305-306; 396). Bu çatışmamazlıqları S. Ə. Şirvani özünün pedaqoji fəaliyyətində əyani şəkildə görürdü. Odur ki, Möhsün Bakuyinin xalqı elm və tərbiyə vasitəsi ilə qabağa aparmağın mümkünlüyü və vacibliyi haqqındakı məqaləsi (s. 403-404) ilə əlaqədar yazdığı şerində Möhsün Bakuyinin bu xeyirxah təşəbbüsünü alqışlamaqla bərabər milli məktəblərin, onlara müvafiq proqram, dərslik və dərs deyəcək müəllim kadrların yoxluğu ürək ağrısı ilə nəzərə çatdırılıb, bu barədə vaxtilə «Vəkili-naməlum»un da ifadə etdiyi narahatlığı yada salırdı.

Necə kim ol «Vəkili-naməlum»
Eyləmişdi bu nüktəni mərqum,
Əvvəla, bizdə yox o məktəblər –
Ki, verə kəsbi-elmi xəlqə səmər.

Nə o günə kitablar əlan -
Ki, ola öz lisanımızda bəyan
Bizə hasil nə şey olur yoxdan -
Ki, itibdir kitabımız çoxdan... (s. 419).

Şair bütün bu çatışmamazlıqları aradan qaldırmaq üçün kadr azlığını nəzərə çatdıraraq, ümidini Nəcəfbəy Vəzirov, Əsgərağa Gorani kimi ziyalı gənclərə bağlayıb bildirirdi ki, onlar öz mütərəqqi fəaliyyətləri ilə xalqı yeni və işıqlı yola istiqamətləndirəcəklər.

Yetmişinci illərin əvvəllərində Şamaxıda artıq dövrünə görə mütərəqqi məktəblər fəaliyyət göstərməkdə idi. S. Ə. Şirvani bu məktəblərdə dərs deməklə yanaşı, onlar üçün müvafiq dərslik hazırlamaqla da məşğul olmağa başlamışdı. Onun kimi Şamaxıda məktəbdarlıqla məşğul olan Mirzə Nəsrullah Didə də dərslik hazırlamışdı.

1857-ci ildə hazırlanaraq «Kitabi-nəsayeh» (Nəsihətlər kitabı) adlandırılan 150 səhifəlik bu kitabın müqəddiməsində müəllif bildirirdi ki, məktəblərimizdə ana dilinin layiqincə öyrənilməsi üçün müvafiq dərslik yoxdur. Bu dərslik həmin boşluğun, müəyyən qədər də olsa, doldurulması məqsədilə yazılıb. Professor A.

Abdullayevin yazdığı kimi, iki fəsil və bir xatimədən ibarət olan «Kitabün-nəsayeh»in birinci fəsildə insanlarda olan yaxşı sifətlərdən, ikincidə isə pis sifət və əməllərdən danışılır. Bütün bunlar kiçik hekayələr və bəzən cümlələr şəklində verilmişdir».[33] M. N. Didənin dövrünə görə mütərəqqi rol oynayan və hər fəsli 12 babdan ibarət olan bu dərsliyi elmi ədəbiyyatda təqdir olunmuşdur.[34] Lakin nə M. N. Didənin, nə də S. Ə. Şirvaninin dərslikləri müəlliflərin öz sağlıqlarında çap üzü görməyərək geniş yayıla bilməmişdir.

S. Ə. Şirvaninin dərslik hazırlaması prosesi və onun taleyi ilə əlaqədar A. Abdullayev yazır:

«Seyid Əzim Şirvani öz məktəbində Azərbaycan dili dərslərini və şagirdlərə ədəbi qiraət vərdişləri vermək məqsədi ilə Sədinin «Gülüstan» və «Bustan» əsərlərində və farsca yazılmış tərbiyəvi əhəmiyyəti olan başqa əsərlərdən müəyyən parçaları məharətlə Azərbaycan dilinə tərcümə etmiş, özü müasir ruhda kiçik və maraqlı şerlər yazmış və bütün bunlardan dərslik kimi istifadə etmişdir.

Seyid Əzim Şirvani bir neçə il bu cür dərs dedikdən sonra, həmin tərcümə etdiyi əsərləri və öz şerlərini toplayıb «Məcmuəyi-asari-Hacı Seyid Əzim Şirvani» adlı bir dərs kitabı tərtib etmişdir.[35]

1912-ci ildə Təbrizdə nəşr edilib, üç bölmədən ibarət olan dərsliyin birinci bölməsində 72 hekayə vardır. Üçüncü bölmədə oğluna nəsihət adı ilə yazdığı mənzum öyüdlər və hekayələr verilib.

Seyid Əzimin ölümündən sonra onum oğlu müəllim Mir Cəfər vaxtilə atasının əlyazması şəklində olan bu dərs materiallarını toplayıb nizama salmış və 1895-ci ildə Təbriz şəhərində daş basması ilə bir kitab halında çap etdirmişdir.[36]

Seyid Əzimin 1895-ci ildə Təbrizdə çıxan həmin kitabı (divan) 276 səhifədir. Bəzi mənbələrdə[37] o, «Pərişannamə» adı ilə qeyd olunub ki, bu da müəllifin o dövrkü əhvalına uyğundur.

Beləliklə, Seyid Əzimin dərslik və uşaq ədəbiyyatı yaratmaq sahəsindəki xidmətləri onun müəllimliyi ilə əlaqədardır. Digər tərəqqipərvər ziyalılarımız kimi, o da xalqın tərəqqisi yolunda qarşıya çıxan problemləri daha geniş planda həll etmək üçün əlindən gələni edirdi. A. Abdullayevin yazdığına görə, o, tərtib etdiyi dərsliyi çap etdirmək üçün əlyazmasını o zaman Qori müəllimlər seminariyasında işləyən A. O. Çernyayevskiyə göndərmiş, Çernyayevski isə dərsliyin tam çapına nail ola bilməyib, ondan bəzən əsərləri götürüb özünün «Vətən dili» dərsliyinə

---

[33] A. Abdullayev . Azərbaycan dilinin tədrisi tarixinə dair. Bakı, Azərnəşr, 1958, s. 57.

[34] Bax: A. Abdullayev. Azərbaycan dilinin tədrisi tarixinə dair. B. 1958, s. 57; N. Qarayev. XIX əsr Azərbaycan ədəbi məclisləri (1971) namizədlik dissertasiyası. Bakı, 1971, s. 103.

[35] A. Abdullayev. Azərbaycan dilinin tədrisi tarixinən. Bakı, Maarif, 1966, s. 121.

[36] Yenə orada. s. 122.

[37] Bax H. Qayıbov. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. RƏİ, M-134, 3046 səh. 1131-1160, F. Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı xrestomatiyası, Bakı, Azərnəşr, 1938, səh. 204.

daxil etmişdi.[38] Əslində tərtib etdiyi dərsliyin çapına və onun məktəblərdə tədrisinə nail olmaq üçün Seyid Əzim onu 1883-cü ildə Şamaxı şəhər məktəbinin inspektoruna təqdim etmiş, inspektor əsəri rəy üçün Qafqaz təhsil dairəsinin müdiri K. P. Yanovskiyə göndərmişdi. Yanovski də əlyazmasını Çernyayevskiyə göndərib ki, əsərin dərslik kimi yarayıb-yaramaması barədə o öz fikrini bildirsin. A. O. Çernyayevski öz növbəsində, Seyid Əzimin dərsliyi barədə o zaman Qori müəllimlər seminariyasında şəriət və ana dili müəllimi işləyən, 31 yanvar 1884-cü ildə Qafqaz Ruhani İdarəsinə müfti təyin olunan Hüseyn Əfəndi Qayıbovun fikrini öyrənmək məqsədilə əsəri məktubla ona göndərir. H. Qayıbov Çernyayevskiyə 4 yanvar 1884-cü il tarixli məktubunda dərslik barədə yazırdı: «Keçən sənə (1883-cü ildə - A. M.) dekabr ayının 24-də olan məktubunun cavabında kəmali-ehtiram ilə izah və bəyan edirəm ki, Şamaxı sakini müəllim Hacı Seyid Əzim Seyid Məhəmməd oğlunun şəhər məktəbinin müsəlman şagirdləri üçün təlif etdiyi dəftərçəyə mütaliə etdiyimdə mütəxəssis oldu ki, dəftərçənin birinci hissəsi tamamən Azərbaycan türk dilindədir və şagirdlərin oxuması üçün əl verər və yarar. Və ikinci hissəsi də bədəstur əl verər və yarar, hərgah şagirdlər haman məqamlarda farsca təlim alırlardısa. Çünki ikinci hissə fars dilindədir. Ancaq axırda dörd vərəq nəzm Azərbaycan türk dilindədirlər ki, bir hekayət «Çoban və Qurani-şərif» mənzuməsindən maəda ki, qaralanıbdır, oxumağa yarar və əl verər».[39]

S. Ə. Şirvani dərsliyi «Rəbiül-Ətfal» (Uşaqların baharı) adlanırdı. Həmin dərsliyin hazırlanmasını şair 1877-ci ildən başlayıb, 1878-ci ildə bitirsə də, onu çap etdirmək üçün göstərdiyi cəhdlər nəinki səmərə vermiş, əksinə bu dərsliyin üstündə Seyid Əzimin başı bəlalar çəkmişdir.[40]

Seyid Əzimin dərsliklə əlaqədar başının ağrıması səbəbləri haqda A. Zeynalov yazır: «S. Ə. Şirvani hələ 1878-ci ilin əvvəllərində Qafqaz müsəlman məktəbləri üçün dərslik olaraq yazdığı «Şəriət» kitabının (kitaba özünün mənzum hekayələrini də daxil etmişdi) əlyazmasını Bakı quberniyası xalq məktəbləri direktorluğuna göndərib çapını xahiş etmişdi. Əlyazması icazə üçün Tiflisə, oradan Peterburqa göndərilmişdi. Ali ruhani senzurası kitabın nəşrini qadağan etməklə, əsərində çoxlu «kafir» sözü işlədib özünün bədii hekayələrini kitaba salmış müəllifin müəllimlikdən azad edilməsini də Qafqaz təhsil popeçitelinə məsləhət görmüşdü. Müəllimlikdən qovulmuş S. Ə. Şirvani Tiflisə getməyə, haqsız çıxarıldığını sübut etməyə məcbur olmuşdu»[41]. Lakin bu tipli maneələrlə ruhdan düşməyən Seyid Əzim dərslik yaratmaq sahəsindəki fəaliyyətindən əl çəkməyib 1883-cü ildə bu məqsədlə ərsəyə gətirdiyi ikinci əsərimi - «Tacül-kütüb»u tamamlayaraq onun çapı və dərs proqramlarına salınaraq məktəblərdə tədrisi üçün

---

[38] Bax: A. Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı. 1966, s. 122.
[39] Gürcüstan MDTA, fond 422, iş 1752, vər.73.
[40] Bax: Sadıq Hüseynov. Seyid Əzim Şirvani. Bakı, Yazıçı, 1987, səh. 26-30.
[41] A. Zeynalov. Qafqazda Azərbaycanca ədəbiyyat nəşrinin ilk mərhələsi. Azərb. SSR EA-nın Xəbərləri (ədəb, dil və incəsənət ser-sı). 1990. №1, s. 12.

çalışır. Bizə belə gəlir ki, Hüseyn əfəndi Qayıbovun rəy verdiyi əsər S. Ə. Şirvaninin məhz «Tacül-kütüb» dərsliyindir. Çünki burada söhbət bir dəftərçədən gedir. Özü də həmin dəftərçədəki bədii nümunələr, axırdakı dörd vərəq nəzmdən başqa, hamısı nəsrlə yazılıb. Məlumdur ki, «Tacül-kütüb» də həcmcə «Rəbiul-ətfal»dan kiçik olub, nəsrlə yazılmış nümunələrdən ibarətdir. Rəydən o da məlum olur ki, dərsliyin sonunda nəzmlə yazılan nümunələrdən biri - «Çoban və Qurani-şərif» qaralanıb. Bəlkə əsəri rəyə göndərəndə bu bədii nümunəni müəllif özü qaralayıb. Çünki burada Quran çobanla «danışmadığı üçün» çomaqla cırıq-cırıq edilir ki, bəs, mollanı görəndə niyə dil-dil ötürsən?!

Burdan aydın olur ki, «Tacül-kütüb» Seyid Əzimin ikinci dərsliyidir. Odur ki, S. Hüseynovun həmin əsəri «Rəbiul-ətfal»ın ikinci variantı adlandırması[42] ilə razılaşmaq mümkün deyil. O ki qaldı kitabın adına, Seyid Əzim əsərini qurtardığı vaxtlar III Aleksandrın tacqoyma mərasimi keçirilirdi. Şair-pedaqoq dərsliyinin çapına müvəffəq olmaq üçün yuxarı dairələrin ona münasibətini bir qədər yumşaltmaq məqsədilə dərsliyinə çarın tacqoyma mərasimi şərəfinə «Tacül-kütüb» adı qoydu. Seyid Əzim bu «ithaf»la dərsliyinə bir növ «yaşıl işıq» yandırmağa çalışmışdı. Çara sədaqətini izhar etmək məqsədilə o, 1883-cü ildə III Aleksandrın tacqoyma mərasimi ilə əlaqədar bir qəsidə yazaraq, onu məktəb şagirdlərinə öyrədib padşahın tacqoyma mərasimi günü Şamaxıda keçirilən şənlikdə oxutmuşdur. «Mədhi-padşah» başlıqlı bu qəsidə «Ziyayi-Qafqasiyyə»lə aşağıdakı məlumatla birgə çap olunmuşdur: «Bu bir neçə beyti padşahın tacgüzarlığı xüsusilə Şamaxı şəhərinin üç klaslı məktəbxanasının zakon uçiteli xadimüşşüəra Hacı Seyid Əzim bin Seyid Məhəmməd riştəyi-nəzmə çəkib, persidski marş havasında ətfali-dəbistanə təlim veribdir»[43]

Seyid Əzimin «Ziyayi-Qafqasiyyə»də çap olunan qəsidələri, o cümlədən «Mədhi-Padşah»la əlaqədar filologiya elmləri doktoru Ağarəfi Zeynalov yazır: «Qeyd etməliyik ki, Azərbaycan şerində realizmin, xüsusilə satiranın inkişafında görkəmli rol oynamış olan S. Ə. Şirvani, görüşlərindəki tarixi məhdudluğun nəticəsi olaraq, öz müsbət yaradıcılıq xüsusiyyətlərinə zidd olan bəzi mənzumələr də yazmışdır. «Ziyayi-Qafqasiyyə»də şairin iki qəsidə-mədhiyyəsi çıxmışdır. Bunlardan birincisi «Mədhi-Padşah» başlığı altında kiçik bir redaksiya qeydi ilə qəzetin 1883-ci il 17-ci nömrəsində çap olunmuşdur. Əlbəttə, bu, padşahpərəst dairələrin təsiri altında baş vermiş bir hal idi».[44]

Bizə belə gəlir ki, Seyid Əzim bu addımı nə «görüşlərdəki tarixi məhdudluğun nəticəsi» olaraq, nə də «padşahpərəst dairələrin təsiri altında» atmışdır. Bu, sadəcə olaraq, şairin öz məqsədinə yazdığı dərsliyi çap etdirmək

---

[42] Bax: S. Hüseynov. Seyid Əzim Şirvani. Bakı, 1987, səh. 28.

[43] «Ziyayi - Qafqasiyyə» qəz., 10 iyun 1883.

[44] A. R. Zeynalov. Azərbaycan mətbuatının ekspozisiyada əksi («Ziya» qəzeti haqqında qeydlər). Nizami adına Azərbaycan - Dövlət Ədəbiyyat Muzeyinin əsərləri. III cild. Bakı, Azərb. SSR Elmlər Akademiyası nəşriyyat, 1968, s. 68-69.

arzusuna çatmaq üçün etdiyi, belə demək mümkünsə, manevrdən başqa bir şey deyil. O, bu cür şerlərlə, özünü yuxarı dairələrdə padşah-pərəst və Rusiya imperiyasına sadiq adam kimi qələmə verməklə «Tacül-kütüb»ün nəşrinə müvəffəq olacağına ümid edirdi.

Seyid Əzim bu addımı o dövrdə tərəqqipərvər ziyalıların xalqın maariflənməsi yolunda necə çətinliklərlə qarşılaşıb, nələrə əl atmağa məcbur olduqlarını göstərən bir fakt kimi də nəzərə alınmalıdır. Həmin qəsidədə də aparıcı ruh elm və maarifin təbliği, onun inkişafına çalışmağa çağırışdır. Şair belə bir fikir ifadə etməyə çalışırdı ki, guya, yüksək rütbəli məmurlar maarifin inkişafına kömək etməklə onlar xalq, vətən və təbəələr üçün böyük xidmətlər göstərirlər. Şair bununla yuxarı dairələrin ürəyinə yerlərdə maarifin inkişafına çalışmaq üçün, necə deyərlər, rəhm salmağa çalışırdı.

Təsadüfi deyid ki, S. Ə. Şirvani 1884-cü il martın 24-də «Ziyayi-Qafqasiyyə»də çap etdirdiyi 254 misralıq «Qəsidə»sini də yalnız «S. Ünsizadənin Tiflisdən Şamaxıya qayıtması münasibətilə»[45] yox, Səid Əfəndinin Şamaxıda maarif, mədəniyyətin inkişafı ilə əlaqədar gördüyü, həyata keçirmək istədiyi tədbirləri təqdir edərək qələmə almışdır. Bunu Səid Ünsizadənin Bakı əhl-təsənni qubernski məclisinin sədri kimi gördüyü tədbirlərin qəsidəsində sadalanıb təriflənməsindən başqa qəsidənin əvvəlində verilən ünvan xarakterli izahat da göstərməkdədir. Qəsidənin əvvəlindəki izahatda oxuyuruq:

«Alimül-üləma və əfzəl-ül-fəzl, xadimi-elmi-insaniyyət və talibi-mülki-əhriyyət, qabiliyyəti-xeyirxahi-dövlət, əbdşövkət və müruci-qüvvanini-millət bizaşöhrət xeyri əlhac və ümdeye-əlmecac Hacı Səid Əfəndi Ünsizadənin xütteye-şüruuna müşərrəf olub etilafi-klub üçün məsaiye-cəmilələr məbzul edib və qiraətxanə güşadilə millətin irşadi-ittihadlarına mübaşir olduqlarından aqilül-şüəra və xadimül-ürəfa Hacı Seyid Əzimin Hacı məzkurun (Hacı Səid Ünsizadənin - A. B.) mədhlərində və dövləti-aliyyənin mərhəməti-şahənələrinin ədayi-şükrlərində təngü təbəddinu şükrriz olduqlarını qəsideye-qəra türki dərameyd və arəm ke təb xaneye-elidə təb və nəşr olunmaqla məzbue təb ağası və ədani ola, Fi 20 mah. fevral 1884. Və balleye-əl-tofiq qal-əlnəbi səli alleye-əliyəvü ələvü sələm əza-ərad-əl-leye-bəqəvi yexrə-cəhl ləhm soltana-ədla»[46].

Göründüyü kimi, S. Ə. Şirvani bu qəsidəni Hacı Səid əfəndi Ünsizadənin Şamaxıya köçüb gəlməsi və bu şəhərdə maarif-mədəniyyət ocaqları təşkil etməyə başlamasından razılıq əlaməti olaraq qələmə almışdır.

Azərbaycanda uşaqlar üçün ədəbi əsərlər hələ orta əsrlərdə yaradılmışdır. Yeni dövrdə bu sahədə fəal çalışanlardan biri Seyid Əzim idi. Onun tərtib etdiyi dərsliklər və yazdığı əsərlərlə ədəbiyyatımızda sistemli uşaq ədəbiyyatının əsası qoyuldu. Bu sistem pedaqoq şairin uşaqların yaş psixologiyasını, ətraf aləmə maraq və qavrayış xüsusiyyətlərini və s. cəhətləri nəzərə almasındam ibarətdir. Görünür,

[45] A. Zeynalov. Göstərilən məqalə. s. 69.
[46] “Ziyayi - Qafqasiyyə” 24 mart 1884.

professor Xeyrulla Məmmədov «Bir sıra spesifik hallar nəzərə alınsa, hətta demək olar, uşaq ədəbiyyatımızın həqiqi tarixi «Rəbiul-ətfal»dan başlanır».[47] - deyəndə məhz bu cəhətləri nəzərdə tutub. Uşaq ədəbiyyatının yaranması və inkişaf mərhələləri barədə tədqiqat aparmış digər müəlliflərin bu sahədə Seyid Əzimin xidmətlərinə verdikləri qiymət də fikrimizə dayaqdır. Şairin bu sahədəki xidmətlərini geniş təhlil edən müəlliflər haqlıdırlar ki, «S. Ə. Şirvaninin uşaq şeri sahəsindəki yaradıcılığı timsalında uşaq şeri özünün məxsusi mövzu dairəsi, ideyalar aləmilə təzahür edir. Seyid Əzimin uşaqlarda görmək istədiyi bu əxlaqi keyfiyyətlərin təbliğinə az və ya çox dərəcədə onun özünə qədərki sənətkarların yaradıcılığında da rast gəlirik. Lakin Seyid Əzimin əsas xidməti ondan ibarət idi ki, o, sözünü məxsusi olaraq uşaqlara deyir və təbii ki, bu zaman uşaqların yaş, maraq və psixoloji tələblərini də nəzərə almağa çalışırdı. Öyüd-nəsihət, təmsil, mənzum hekayə janrları Seyid Əzimin yaradıcılığında uşaqlar üçün janr kimi xüsusi təzahür formasına malik olub, əgər belə demək mümkünsə, müəyyən qədər təkmilləşmiş formada meydana çıxır. Məhz bu xüsusiyyətləri ilə S. Ə. Şirvaninin yaradıcılığı uşaq poeziyasının təşəkkülünə və yüksələn sürətlə inkişafına daha əhəmiyyətli təsir göstərir».[48]

Doğrudan da, S. Ə. Şirvaninin uşaq şerləri və hekayələri gənc nəslin layiqli vətəndaş kimi böyüdülməsinə əhəmiyyətli dərəcədə təsir göstərə bilən əsərlərdir. Bunu XIX əsr Azərbaycan maarifi, o cümlədən şairin yeni üsulla təşkil etdiyi məktəbin işi ilə tanış olmuş müəlliflər də qeyd etmişlər. A. Zaxarov 1887-ci il məlumatına görə yazırdı:

«Мулла гадчи С. А. содержит школу 18 летъ: учился в Дагестане: знает языки: персидский, арабский и несколько наречий дагестанскихь горцевъ. Он известентъ-какь первостатейный поэтъ: одно из несколькихъ поэтических его произведений напечатано въ Тавризъ подъ заглавиемъ: «Въ минуты вдохновения». Им написана, но не издана еще «История Ширванского ханства», Учеников у него-36. Изь них 12 платят по 15 к. въ не-делию, 9 по 20 к:, и 12-по 25 к.: всего 6 р. 60 к. Этоть же мулла состоять законоучителемь татарского вероисповедания при местномъ городскомъ училище»[49].

Müəllif Şamaxıda mövcud olan digər şəxsi məktəblər və onların müəllimləri haqqında məlumat verdikdən sonra Seyid Əzim haqqında fikrinə belə davam edir:

«Изъ вышеупомянутых мулль одни только мулла-гаджи С. А. умеетъ читать и писать по русски, говорит плохо, но понимаетъ: онъ даже интересуется русс литературой: перевелъ на персидский языкъ несколько

[47] X. Məmmədov. Seyid Əzim Şirvani. Seçilmiş əsərləri. Bakı, 1990. Kitabına müqəddimə. səh. 14.

[48] Məmməd Məmmədov, Yaqub Babayev, Təyyar Cavadov. Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı, 1992, səh. 106.

[49] А. Захаров. Народное обучение у Закавказских татар. СМОМПК (сборник материалов описания местнестей и племнь Кавказа) вып. IX отд. II. Тифлис. 1890, с. 26.

стихотворений Пушкина, въ его школе преподается русски языкъ для желающихъ: преподавателемь-ученико-татаринъ изъ шестого отделения городского училища».[50] A. Zaxarovun bu materialları 1887-ci ilin sonunda topladıqda və Seyid Əzimin məktəbinin 18 ildir ki, mövcud olmağını göstərməsinə[51] istinadən S. Ə. Şirvaninin məktəbinin 1870-ci ildə açıldığını söyləyə bilərik. Qeyd edək ki, S. Ə. Şirvaninin məktəbinin açılma tarixi ilə əlaqədar fikir söyləyən mütəxəssislər daha çox 1869-1870-ci illərin üzərində dururlar. Məsələn, Ə. Bağırov bu tarixi 1869, S. Hüseynov 1869-1870, Ə. Ə. Səidzadə isə 1867 göstərmişdir.[52]

Şamaxıda XIX əsrin ikinci yarısında fəaliyyət göstərən dövrünə görə digər mütərəqqi təhsil ocağı Səid Əfəndi Ünsizadənin açdığı «Məclis» məktəbi idi. «Məclis» məktəbi Şamaxı şəhər ruhani məclisinin nəzdində olsa da, mollaxanalardan əsaslı surətdə fərqlənirdi. Burada şəriətlə bərabər dünyəvi elmlər də tədris olunurdu.

«Məclis» məktəbinin təşkili tarixi ilə əlaqədar müxtəlif mülahizələr vardır. Məsələn, A. Zeynalov məktəbin təşkili ilə əlaqədar yazır: «...O (S. Ünsizadə - A. B.), Bakı qubernatoru general-leytenant D. Staroselskinin 1875-ci ildə Şamaxıya gəlişindən istifadə edərək yeni şəhər məktəbi açmaq üçün tərtib etdiyi məramnaməni şəxsən ona təqdim edib məktəbin təşkilinə icazə almışdı»[53]. Məktəbin təşkili tarixini S. Hüseynov «1873 və ya 1874-cü il», Ə. Bağırov və N. Nəsrəddinov isə ayrı-ayrılıqda bu tarixin 1874-cü il olduğunu göstərirlər.[54]

Məlumdur ki, Səid Ünsizadə 1876-cı ildə Qafqaz ruhani idarəsinə üzv seçildiyi üçün Tiflisə köçmüş və «Məclis» məktəbi onun qardaşı Cəlal Ünsizadə, S. Ə. Şirvani və rus dili müəlliminin səyi ilə idarə olunmuşdur. Sonralar S. Ünsizadə və rus dili müəllimi də iş yerlərini dəyişərək Şamaxıdan köçməli olduqları üçün məktəb Seyid Əzimin öhdəsində qalmışdır. Şair «Məclis» məktəbinin davamı üçün olmazın məhrumiyyətlərə məruz qalmışdır. Çünki ruhani məclisi məktəbə heç bir maddi yardım göstərmirdi. Bununla əlaqədar «Ziyayi-Qafqasiyyə»də «s» imzası ilə çap olunan «Şamaxıdan məktub»da[55] deyilirdi ki, siz (Səid Ünsizadə nəzərdə tutulur) Şamaxıda olan vaxt binagüzarlıq etdiyimiz ümumi məktəbin maddi vəziyyəti ağırdır. Onu düzəltmək üçün məclis sədri İbrahimxəlil əfəndi səy göstərir. Qazi, molla Əli Əsgər isə bu işə mane olur.

---

[50] A.Zaxarovun. Göstərilən əsəri. s. 27.

[51] A.Zaxarovun göstərilən əsəri. s. 26.

[52] Bax: Ə. Bağırov. S. Ə. Şirvani və məktəb. Bakı., Maarif. 1986. s. 81. S. Hüseynov. Seyid Əzim Şirvani. B., Yazıçı. 1987, s. 15. Ə. Ə. Səidzadə К.Педагогический деятельности Сеид Азим Ширвани. Azərb. SSR EA Tarix və fəlsəfə institutunun əsərləri. IX c., 1956. s. 309.

[53] A.Zaxarovun. Göstərilən əsəri. s. 48.

[54] Bax: Bağırov. S. Ə. Şirvani və məktəb. B.,1986, s. 82, S. Hüseynov. Seyid Əzim Şirvani. B.. 1987, s. 17; N. Nəsrəddinov. Məclis məktəbini kim yaratmışdır? «Azərbaycan müəllimi» qəz., 23 fevral 1979.

[55] "Ziyayi-Qafqasiyyə". 28 may 1881, № 16.

Şamaxı mötəbərlərindən Həsən bəy, Mahmud əfəndi və Mahmud bəy qazinin yanına gedib məktəb üçün ianə toplanışını təşkil etməyi ondan xahiş etsələr də, qazi boyun qaçırıb. Belə olduqda həmin adamlar özləri ianə dəftəri açaraq məktəbin altı aylıq xərcini yığıblar. Məktəbin müəllimi və 30 şagirddən 25-i şiə olduğuna görə gələcəkdə şiə sərvətdarlarını da bu işə cəlb etmək nəzərdə tutulub. Məclisin katibi Ədil bəy də məktəbin davamı üçün çalışır.

Qəzetin məktuba verdiyi qeyddə (onu S. Ünsizadə yazıb) deyilirdi ki, beş-altı sənə bundan müqəddəm Şamaxıda açdığımız bu məktəbə nizam-intizamda heç bir məktəb çatmırdı. O, gün-gündən tərəqqi edirdi. Hətta dövlət məktəblərini təftiş etməkdən ötrü Şamaxıya varid olan Jilxovski həmin məktəbi orada olan dövlət məktəblərindən yaxşı hesab etmişdir. Məktəb ümumidir (yəni şiə və sünnülər üçündür). Orada ərəb, fars, rus, Azərbaycan, türk dillərindən başqa müqəddəmat elmindən də dəxi tədris olunurdu. Qeyddə məktəbin canlandırılmasına qazi molla Əli Əsgərin köməyi arzu olunurdu.

Həmin ilin sonunda qəzetdə «Məmləkət əhvalatı» rubrikası ilə dərc olunan xəbərdən[56] məlum olur ki, «Məclis» məktəbinin maddi cəhətdən tərəqqisi üçün Şamaxı mötəbərlərindən Məcid əfəndi Müftizadə, Sultan Mahmud bəy İbrahimbəyov, Həsənbəy Nəbibəyov və Ədil bəy Cəbrayılbəyov səy edərək məqsədlərinə çatmış, şiə və sünnülər arasındakı ixtilafı da aradan qaldırmağa nail olmuşlar. Bundan başqa şiə qazisi molla Əli Əsgər bu işə mane olmağa çalışsa da, şiə tərəfdən Hacı Əli Abbas bəy Məhəmmədov bu işin xeyrinə çalışmışdır.

«Kaspi» və «Tərcüman» qəzetlərinin «Məclis» məktəbi ilə əlaqədar dərc etdikləri tənqidə (bu məqaləni «Tərcüman» «Kaspi»dən götürmüşdü) cavab olaraq Səid Ünsizadə 1884-cü ilin 15 yanvarında yazırdı:

«...Yeddi, ya səkkiz il bundan müqəddəm Şamaxı qubernski məclisində üzv olduğumuz vəqtdə qərardade-ruhaniyyənin yüz birinci fəslinin məzmununa mütabiq haman məktəbin güşad olunmağı üçün o vəqtdə Bakıda qubernator olan general Staroselski Dmitri Semyonoviçin cəlahdidi ilə həmin məktəbin güşadına məzun olduq (izn aldıq. A. B.) və həmin məktəbi hər bir cəhətdən dövləti məktəb səyağında tərtib edib və çox rövnəq ilə pişrəftinə himmətgüzar olduq». Məqalədən aydın olur ki, məktəb ləvazimatını Səid Ünsizadə öz hesabına almış, lakin sonradan camaatdan yığılan pulla onun məxarici özünə qayıtmışdır.

Bu xəbərlərin birində S. Ünsizadə «Məclis» məktəbinin «beş-altı sənə bundan müqəddəm», digərində isə «yeddi və ya səkkiz sənə bundan, müqəddəm» açıldığını yazır. Birinci cəbərin 1881-ci il mayın 28-də, o birinin isə 1884-cü il yanvarın 15-də dərc olunduğunu nəzərə aldıqda «Məclis» məktəbinin 1875-ci ildə açıldığını güman etmək olar. Lakin K. Mirbağırov, Sadıq Şükürov, Hadı Rəhimbəyli, Hüseyn Əhmədov və Xeyrulla Məmmədov «Məclis» məktəbinin açılma tarixinin 1874-cü ilə aid olduğunu söyləyirlər.[57] S. Şükürov və H.

---

[56] Yenə orada, 3 dekabr, 1881.

[57] Kamil Mirbağırov. Seyid Əzim Şirvani, Bakı, 1959. s 37. S. Şükürov. H. Rəhimbəyli. Seyid Əzim

Rəhimbəylinin birgə yazdıqları məqalədə gətirdikləri sənədlərdən də (müəlliflərin naməlum kimi təqdim etdikləri həmin sənədlərin bəzisindən hələ 1959-cu ildə ədəbiyyatşünas Kamil Mirbağırov bəhs edərək konkret elmi nəticələrə gəlmişdir.[58] Görünür, bu, məqalə müəlliflərinin diqqətindən yayınmışdır) aydın olur ki, məktəb Bakı general-qubernatoru D. Staroselskinin şifahi razılığı ilə 1874-cü ildə açılmış, 1875-ci ildə isə general-qubernator bu iş barədə razılıq verdiyini təsdiqləmişdir. Bu hadisə (D. Staroselskinin öz razılığını təsdiqləməsi) 1875-ci ildə general-qubernatorun Şamaxıya gəlişi zamanı Səid Ünsizadənin məktəb haqqında tərtib etdiyi proqramı D. Staroselskiyə təqdim etdiyi vaxt olmuşdur.

S. Ünsizadə məktəbin açılma tarixini «Ziyayi-Qafqasiyyə» səhifələrində 28 may 1881-ci ildə «beş-altı sənə bundan müqəddəm» 15 yanvar 1884-cü ildə isə «yeddi ya səkkiz il bundan müqəddəm Şamaxı qubernski məclisində üzv olduğumuz vəqtdə», deyə qeyd etmişdir. Burdan belə çıxır ki, «Məclis» məktəbi 1874-cü ildə açılsa da, onun rəsmən təsdiqi (şifahi də olsa) 1875-ci ilə aiddir. Görünür, S. Ünsizadə də məktəbin əsas fəaliyyətini D. Staroselskinin öz icazəsini təsdiqlədiyi vaxtdan hesab etmişdir. Bununla belə, S. Ünsizadə göstərdiyi tarix təxmini olduğu halda, rəsmi sənədlərdə və S. Ə. Şirvaninin ərizəsində «Məclis» məktəbinin fəaliyyətə başladığı tarix konkret olaraq 1874-cü il göstərilmişdir ki, bizcə bu tarixi qəbul etmək daha doğru olardı.

Tarixən inzibati və mədəni mərkəz olan Şamaxıda maarifçilik ictimai-ədəbi və mədəni hərəkatına verilən reaksiya yeni məktəblər açılışı ilə bərabər, köhnə məktəbləri kamil mütəxəssislərlə təmin etmək cəhdləri ilə də müşahidə olunmaqdadır. Məsələn, «Ziyayi-Qafqasiyyə»də «Şamaxıdan aldığımız»[59] sözləri ilə başlanan məqalədə göstərilir ki, Şamaxıdan aldığımız mötəbər məlumata görə Şamaxı Cümə məscidinin təəllüqündə olan təlimin səviyyəsini yüksəltmək üçün qabil müəllimlər olmadığına görə Göyçay uyezdinin Diyallı kəndində yaşayan Hacı Əbdülməcid əfəndi Hacı Mustafa Əfəndizadəni dərs deməyə dəvət ediblər. Qəzet ümid edirdi ki, Hacı Məcid əfəndi kimi alim-(y)azil bir adam şamaxılılara əlindən gələn köməyi edəcək, bunun müqabilində Şamaxı əhli də daim minnətdarlıqla onun hörmətini saxlayacaqdır. Sonralar Şamaxı qazisi kimi yüksək hörmət və nüfuz qazanan bu adamın 1880-cı ildə şəhərə yüksək ixtisaslı bir kadr kimi dəvət olunması faktı, Hacı Məcid əfəndi Şamaxıya bir ruhani mütəxəssis kimi çağırılsa da, şamaxılıların o dövrdə mövcud olan hər hansı tədris ocağında təlimin keyfiyyətini yüksəltməyə xüsusi fikir verdiklərini göstərməkdədir.

Şamaxıda toxuculuğun və fabrik sənayesinin, ipəkçiliyin inkişafı ilə

---

Şirvaninin maarifçiliyi haqqında yeni sənədlər. «Azərbaycan məktəbi» jurn., 1969, № 4, s 63; H. Əhmədov. Şamaxı məclis məktəbi. V. İ. Lenin adına APİ-nin elmi əsərləri XI seriya, 1970, № 3. s. 3; Yenə onun. XIX əsr Azərbaycan məktəbi, Bakı, 1985. c 281. X. Məmmədov. Sultan Məcid Qənizadə. Bakı, Yazıçı, 1983, s. 16-17.

[58] K. Mirbağırov. Seyid Əzim Şirvani. Bakı, Uşaqgənc-nəşr, 1959, s 46-52.

[59] «Ziyayi-Qafqasiyyə», 3 aprel 1880.

əlaqədar qarşıya müəyyən problemlər də çıxırdı. Həmin problemlər sırasına sənayedə işləmək üçün ixtisaslı fəhlələrin hazırlanması məsələsi də daxil idi. Bu ehtiyacı dərindən duyan Şamaxı sərvətdarları sənət məktəblərinin açılması üçün də tədbirlər hazırlayırdılar. Məsələn, «Ziyayi-Qafqasiyyə»də xəbər verilirdi ki, Bakı quberniyasının Şamaxı şəhərində bir qrup kəsəbə və sərvətdar şəhərdə bir qadın məktəbi açıb orada palaz toxumaq, ip boyamaq, ipəkçilik, bədii tikiş, hörmələr hazırlamaq və s. sənətlərin öyrənilməsini nəzərdə tuturlar ki, həm Şamaxı məhsullarının ətrafındakı qiymət və şöhrəti artsın, həm çox gəlir götürülsün, həm də camaat işsiz qalmasın. Bunun üçün qadın müəllimələr dəvət olunması nəzərdə tutulurdu.[60]

Qəzet bu təşəbbüsü alqışlayaraq, digər bölgələri də bu təşəbbüsə qoşulmağa çağırırdı.

Qəzetin başqa bir nömrəsində[61] isə ipək və digər məmulatların Moskvadan təşkil olunan sərgisində Şamaxının iştirak etməməsinin səbəbi göstərildikdən sonra yerli sahibkar Ağa Məhəmmədəli Hacı Abdulla oğlunun ipəkçilik sənayesində qazandığı uğurlardan, keçənilki sərgidə gümüş medal almasından bəhs olunaraq, Şamaxıda ipəkçiliyi daha da inkişaf etdirmək üçün burada bir sənət məktəbi açmağın vacibliyi göstərilirdi.

Bütün bunlar şəhər həyatında baş verən canlanmanı əks etdirir. Həmin günlərdə Şamaxıda klub,[62] yetimlər üçün məktəb təşkil olunması[63] və s. bir-birindən əhəmiyyətli tədbirlər də həyata keçirilirdi.

Şübhəsiz, bu klub özündə «Beytüs-səfa» ədəbi məclisinə düşə bilməyən şair və ziyalı gəncləri daha çox birləşdirirdi.

Əlbəttə, D. S. Staroselski kimi hökumət məmurları istisna olunmaqla, çar çinovniklərinin əksəriyyəti yerlərdə qabaqcıl ruhlu maarif-mədəniyyət ocaqlarının inkişafına, açıqdan-açığa olmasa da, maneə olmağa çalışırdılar. Lakin tərəqqipərvər adamlar hər vasitə ilə xalqın tərəqqisinə çalışırdılar. Məsələn, Bakı quberniyasının qubernatoru 1883-cü il avqustun axırlarında Şamaxıya gəlib oranın vəziyyəti ilə tanış olarkən Cümə məscidində üzünü sünni məclisinin üzvlərinə tutaraq müntəzəm və qayda-qanunlu məktəblər açmaqla bərabər, mədrəsələri də layiqli hala salmağın vacibliyi fikrini irəli sürür.

Burada, təzə-təzə açılmaqda olan yeni tipli məktəblərin müqabilində məcsid məktəblərinin tənəzzülündən təşvişə düşən məmurun narahatlığını görməmək mümkün deyil. O, çox gözəl bilirdi ki, dünyəvi elmlərin tədrisinə üstünlük verən yeni tipli məktəblərin artması xalqın tərəqqisinin xeyrinədir. Bu isə çarizmin yerlərdə yeritdiyi siyasətin ruhuna uyğun deyildi.

«Ziyayi-Qafqasiyyə»də Şamaxıdan Tiflisə gələn «mötəbər bir şəxsin»

---

[60] «Ziyayi-Qafqasiyyə». 17 aprel 1881.
[61] Yenə orada, 30 iyun 1882.
[62] Bax: «Ziyayi-Qafqasiyyə». 14 dekabr 1882; 20 fevral 1883.
[63] Bax: Yenə orada, 26 mart 1881.

redaksiyaya verdiyi məlumat əsasında çıxan yazıda deyilirdi ki: «Şamaxının əhl-təsənni qazisi cənab İbrahimxəlil əfəndi* bir tərəfdən Came məscidinin barövnəq olmaq məsələsinə və bir tərəfdən məclisin təhd-nəzarətində açdığımız mübtədi məktəbinin («Məclis» məktəbinin - A. B.) pişrəfti xüsusunda bəzli-vəqt və sərfi-himmət eyləməkdə mizayiqə eyləmirmiş».[64]

Qazının bu hərəkətindən razı qalan Səid Ünsizadə (xəbər imzasız olsa da, S. Ünsizadənin qələminə məxsusdur) «dünyaya bikar və biəsər gəlib getməkdən xeyir yoxdur» prinsipi ilə fikrinə belə davam edir: «...Rəislərindən həqqaniyyətli və ümuma mənfəətli olan işlərdə iltifat və himmət görsələr, heç bir vəqt ittifaqu ittihaddan geri durmayıb lazım olan məsarifi cəmavərlik etməkdən istinab etməzlər. Baxüsus ki, cəmaətimiz dəxi bu vəqtlərdə ümurat aləmindən bir qədər xəbərdardırlar. Və görürlər ki, ülum və maarifinə mərtəbədə lazımdır və onlarda tərəqqi tapanlar nə günə qişrə düşüblər. Buna görə Hacı Soltandan bunu dəxi gözləmək olar ki, Cümə məscidində bir kitabxana ilə bir qiraətxana binasına dəxi hümmətgüzar olub axır ömründə bunu dəxi əmələ gətirə». Məqalə müəllifi Cümə məscidinin həyətində mükəmməl bir məktəb bina edərək, əlavə cəlb olunan müəllimlərin və mədrəsənin qabil tələbələrinin gücündən istifadə etməyi məsləhət görür, eyni zamanda Şamaxının ətraf kəndlərində nizamlı məktəblər açıb onlara nəzarət etməyin vacibliyini qeyd edirdi ki, heç olmasa oranı qurtaran şagirdlər kitabı üzündən oxumağısa bacarsınlar.

İbrahimxəlil əfəndi kimi, Səid əfəndi də, bir ruhani olaraq, dini məktəblərin səviyyəsinin yüksəldilməsinə xüsusi fikir verirdilər. Lakin onların bu meyllərini çar çinovnikinin həmin məsələdəki mövqeyi ilə eyniləşdirmək düzgün olmazdı. Hər iki din xadimi dünyəvi elmlərin mənimsədilməsinə, elm və maarifin tərəqqisinə də fikir verir, bunun üçün hər cür imkandan istifadə etməyə çalışırdılar. Bu zaman onların nə kimi çətinliklər, təzyiq və sıxıntılarla qarşılaşdıqlarını, lakin ən çətin məqamlarda belə vəziyyətdən çıxış yolu tapdıqlarını təsəvvür etmək üçün Qafqazın baş rəisi knyaz Dondukov-Korsakovun Zakavkaziya Ruhani idarəsinin sünni və şiə üzvləri ilə görüşünü əks etdirən yazıya[65] nəzər salmaq maraqlı olardı.

1882-ci il martın 12-də Baş İdarənin rəisi general-leytenant Staroselski və ruhani idarələrinin nəzarətçisi knyaz Sorsadzenin iştirak etdiyi bu görüşdə knyaz Dondukov-Korsakov özünün Qafqaz müsəlmanlarının xarakter və problemlərinə bələd olması, onların tərəqqidən qalmamalarının səbəbləri və bunların aradan qaldırılması yolları haqda ruhani idarəsinin üzvlərinə belə deyir:

«...Varansovun namestnikliyi vaxtında Qafqazda xidmət etdiyimiz sizlərdən müsinn olanların (köhnədən işləyənlərin - A. B.) xatirində olacaqdır. Əvvəl vaxt müsəlmanlar içində xidmət etdiyimdən əsl islamın adət və ətvarına bələd olmuşam;

---

* Sonralar Şamaxıda mütərəqqi tipli bir məktəb açan Əbdülxalıq əfəndinin atasıdır. Sabir ilk müəllimlik təcrübəsini Əbdülxalıq əfəndinin məktəbində keçmişdir.

64 «Ziyayi-Qafqasiyyə» 14 oktyabr 1883.

65 Baş rəis knyaz Dondukov - Korsakov cənablarının Tiflisə vürudi. «Ziyayi-Qafqasiyyə» 25 mart 1882.

müsəlmanlarda xeyli pəsəndidə (xoşa gələn, bəyənilən - A. B.) sifətlər olmaq ilə bərabər bir para qüsuratları dəxi varsa, o da onların tərbiyə və maarifdən bəhrəyab olmamaqlarındandır. Ümidvaram ki, nəşri-maarif vasitəsilə məzkur qüsurat dəxi rəf olunacaqdır».

Knyaz Dondukov-Korsakov Qafqaz müsəlmanları arasında maarifin yayılmasında Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin bu ilki (1982-ci ildəki) ilk məzunlarının da əhəmiyyətli rol oynayacaqlarına ümidvar olduğunu bildirərək, ruhani idarəsinin Tiflisdə Azərbaycan qız məktəbi açmaq ideyasını təqdir etdiyini də bildirir: «Tiflisdə müsəlmani qız məktəbi barəsində dəxi qeyrət və həmiyyət göstərməyiniz dəxi məhzuziyyətimə bais olmuşdur (xoşuma gəlmişdir - A. B.). Bu növ qız məktəbi gələcəkdə tərbiyəli və sahibi-cavad analar hazır edəcəkdir. Onda təhsil dərs edən qız şagirdləri öz milləti və dini adət və ayinlərinə əsla rəxnə vermədikləri halda bir qədər oxumaq, yazmaq və qədərincə lazım işləri öyrənməklə iktifa olunacaqdır (kifayətlənəcəkdir - A. B.).»

Göründüyü kimi, knyaz, Azərbaycan qızlarının savadlanmalarının müsəlman dininə zidd olmadığını göstərməklə bərabər, onların yalnız «bir qədər oxumaq, yazmaq və qədərincə lazımi işləri öyrənməklə kifayətlənmələrini», yəni son dərəcə məhdud dairədə təhsil almalarını arzu və tələb edir. O, həmin məktəbi yalnız bu şərtlə himayə edəcəyini bildirir. Bununla bərabər, Dondukov-Korsakov ruhani idarələrinin nəzdində olan məktəbləri də şəxsən yoxlayıb onları istədiyi, daha doğrusu, imperiya siyasətinin tələb etdiyi qaydada nizamlayacağını da elan edir: «Tiflisdə iki müsəlman idareyi-ruhaniyyələrinin (sünni və şiə ruhani idarələrinin - A. B.) təhdi-nəzarətində olan məktəbləri beşəxse müayinə etməyimlə onları bər vəz (səmərəli qaydada - A. B.) banizama götürmək amalındayam».[66]

Buradan bir daha görünür ki, rus imperiyası yerlərdə, o cümlədən Qafqazda xüsusən müsəlmanların bütün hərəkətlərini ciddi nəzarətə götürərək, onlardan imperiyaya sadiq təbəələr yetişdirmək üçün hər cür maddi, mənəvi, siyasi və inzibati vasitəyə əl atırdı. Qanundan kənaraçıxma, yaxud imperiyanın Qafqazı mənimsəmə siyasətinə azacıq xələl gətirən hər hansı ehtiyatsız cəhdin qarşısı amansızlıqla alınırdı. Bunu baş rəisin nitqinin əvvəlində ruhani idarələrinin rəhbər işçilərinə dediyi aşağıdakı sözlər də təsdiq edir:

«Rus dövlətinin ixlasmənd və sədaqətli təbəələrindən olmağınıza görə öz borcunuza və lazımələrinizə diqqətlə baxmalısınız. Qanuna müvafiq əməl və hərəkət edənlərə ehtiram etməyə hazır olduğum kimi, xilafkar olanlara dəxi şiddət və hiddətim olacaqdır.»[67]

Səid Ünsizadə imperiya siyasətinin Qafqaz müsəlmanlarının tərəqqi və inkişaf cəhdlərinə qarşı «şiddət və hiddətlə» yanaşdığı bir şəraitdə belə amalından dönməyib, xalqın maariflənməsi yolunda görmək istədiyi işlərin heç olmasa bir qismini həyata keçirilməsinə imkan qazanmaq üçün Dondukov-Korsakova cavab

---

[66] «Ziyayi-Qafqasiyyə» 25 mart 1882.
[67] «Ziyayi-Qafqasiyyə» 25 mart 1882.

olaraq Qafqazın həqiqətən nizamlı məktəblərə böyük ehtiyac duyduğunu bildirərək, bu cür məktəblərin dövlət tərəfindən maddi cəhətdən himayəyə götürülməsini xahiş edir. Eyni zamanda, çar məmurunu bu işə şirnikdirmək məqsədilə, Qafqaz müsəlmanlarının dünyəvi təhsil almalarının islam qanunlarına zidd deyil, əksinə islami dəyərlərin daha da möhkəmlənməsi istiqamətində olacağı təqdirdə qonşu İranın və digər sərhəd dövlətlərinin himayəsindəki müsəlmanların da nəzər-diqqətinin cəlbinə və onların həsədinə səbəb olacağını bildirir. S. Ünsizadənin nitqinin tonu belə bir nöqtəyə yönəlib ki, Qafqaz müsəlmanlarının maarif və mədəniyyət sahəsində bu cür tərəqqisi Rusiyanın şərq siyasətinin də xeyrinədir. Əlbəttə, bütün bunlar onun qarşıya qoyduğu başlıca məqsədə nail olmaq arzu və cəhdindən irəli gəlirdi. S. Ünsizadənin həmin nitqi ilə əlaqədar qəzetdə oxuyuruq:

«Onun (knyaz Dondukov - Korsakovun - A. B.) cavabında idareyi-ruhaniyyənin üzvü və «Ziyayi-Qafqasiyyə» qəzetinin sahibi-imtiyazı Hacı Səid əfəndi demişdir ki, həqiqətdə Qafqaz qitəsi münzəm (baxılan - A. B.) və baqaidə olan məktəbə möhtacdır. Qafqaz müsəlmanları bu növ məkatib və mədaris vasitəsilə bu dərəcədə təfəvvüq (burada, üstünlük qazanar - A. B.) və tərəqqi eyləyə bilərlər ki, həmsivar olduqları müsəlmanlar və İran dövlətlərinin təhdi-nəzarətində olan müsəlmanların məhsudi (həsəd olunanı - A. B.) olarlar. Ələlxüsus ki, hökumət müsəlmanların din və məzhəblərinə münfərid (biganə - A. B.) olmayıb, bəlkə onları öz qaydalarında saxlamağa təkid edib, tərbiyə və təlim almalarına lazımi əsbab və mayehtac verməyə müzayiqə göstərmir».[68]

S. Ünsizadə Qafqazda və Azərbaycanda müsəlmanlar arasında maarifin yayılmasına dövlət yardımını təmin etmək həsrət və yanğısı ilə yoğrulmuş bu çıxışının sonunda knyaz Dondukov-Korsakova bildirir ki, Qafqaz müsəlmanları arasında elm və maarifi yaymaq məqsədilə Şeyxülislamla birlikdə sünni və şiələrdən ibarət xeyriyyə cəmiyyəti təşkil etmək qərarına gəliblər. O, həmin cəmiyyətin qarşısına qoyduğu məqsədlərin həyata keçməsinə kömək üçün baş rəisdən onun da dövlət himayəsinə götürülməsini xahiş edir: «Bu halda müsəlmanlar təlim və tərbiyəyə mail olduqlarını Səid əfəndi müşahidə etdiyindən Şeyxülislam ilə müttəfiqə qərar qoyublar ki, Qafqaz müsəlmanlarına elm və maarifi nəşr etmək niyyətilə şiə və sünnidən mürəkkəb (ibarət - A. B.) bir cəmiyyəti-xeyriyyə təşkil eyləsinlər. Və onların bu növ niyyəti o vaxt müvafiq məram əncampəzir olacaq ki (məqsədinə çatacaq ki, - A. B.), bu barədə əyani-dövlətdən dəxi bir məanəti-vəhid və həmiyyət (misilsiz qayğı və diqqət - A. B.) görmüş ola».[69]

Bütün bunlar göstərir ki, hansı silkə aidiyyətindan asılı olmayaraq, Azərbaycan ziyalıları xalq arasında elm və maarifin yayılması, əhalinin savadlanması üçün mövcud imkanlardan maksimum istifadə etməyə çalışarkən

[68] "Ziyayi-Qafqasiyyə" 25 mart 1882.
[69] Yenə orada.

çarizmin müstəmləkə xalqlarına qarşı yeritdiyi «hiddət və şiddətlə» yoğrulmuş siyasəti ilə hesablaşmağa məcbur idilər. Bununla belə, onlar öz amallarından dönməyib fədakarlıq nümunəsi göstərirdilər. Təsadüfi deyil ki, knyaz Dondukov-Korsakovla ruhanilərin görüşü, orada elm və maarifin Qafqaz müsəlmanları arasında yayılmasının zəruriliyi ruhunda söylənən nitqlərin məzmununu verən qəzet qarşıda duran bu mühüm vəzifənin yerinə yetirilməsi üçün xalqı əl-ələ verməyə çağıraraq yazırdı:

«Gərəkdir əl ələ dəysin
Ki, əllər sədalansın.»[70]

Bunlar gəlişi gözəl çağırışlar deyildi. Səid əfəndi hələ 1881-ci ilin sentyabrında yerlərdə maarif və mədəniyyətin vəziyyətini öyrənmək üçün baş çəkdiyi mərkəzlərdən biri də Şamaxı idi. O, burada yerli xadimlərlə maarifin səviyyəsinin yüksəldilməsi yolları haqda fikir mübadiləsi etmiş, sonra Tiflisə qayıtmışdı. Bu haqda qəzetdə oxuyuruq:

«Zaqafqaziya ruhani idarəsinin üzvlərindən olan (qəzetimizin müdiri) Səid əfəndi Qafqazı dolanmaqda idi. Dünən Şamaxıdan aldığımız teleqrama görə bu gün Tiflisdə gözlənilir».[71]

Şamaxıdan Tiflisə qayıtdıqdan sonra ümumən səfər təəssüratını öz qəzetində çap edən S. Ünsizadə Qafqazı gəzərək mövcud məktəblərə baş çəkən zaman dərsliklərin yoxluğu üzündən qarşıya çıxan çətinlikləri nəzərə alıb çoxdan bəri hazırladığı «Sühulət (asanlılıq, əlverişlilik - A. B.) təlimi ilə tədris» kitabının çapına çalışacağını vəd edirdi. O öz işinin uğurla nəticələnəcəyinə və səmərəliliyinə «indi Qafqaz şəhərlərində həmfikirlərin çoxluğu»[72] qənaəti ilə inanırdı.

Səid Ünsizadə verdiyi sözə tezliklə əməl edərək «Məktəb uşaqlarımız oxumaqdan ötrü sadə türkü dilində tərtib olunmuş əqaid və nəsayeh risaleyi-mənzuməsidir» adlı dərsliyini 1882-ci il fevralın 4-də tamamladı. Dərslik 1883-cü il aprelin 9-da Tiflisdə «Ziya» mətbəəsində çapdan çıxdı. Müəllif, kitabın yazılma səbəbindən bəhs edərkən bildirirdi ki, bizim dildə məktəb uşaqları üçün dərslik olmadığına görə oğlu Əbdürrəhmanın xahişi ilə bu işi öhdəsinə götürərək həyata keçirib.

A. Abdullayev Səid Ünsizadənin 98 səhifəlik bu dərsliyindən bəhs edərək yazır:

«Səid Ünsizadənin yazdığı dərslik əsasən dini, islamiyyəti təbliğ etmək məqsədini güdməsinə baxmayaraq, uşaqlar üçün burada bir sıra xeyirli cəhətlər də tapmaq mümkündür. Bu kitab dil və ifadə etibarilədə dövrünə görə sadə və

[70] "Ziyayi-Qafqasiyyə", 25 mart 1882.
[71] "Ziyayi-Qafqasiyyə", 25 sentyabr 1881.
[72] Yenə orada, 4 oktyabr 1881.

anlaşılan bir dildə yazılmışdır. Məsələn, «Vədəyə vəfa» adlı fəsildə belə bir qeyd edilmişdir:

Xilaf etsən əgər, dönsən sözündən
Kişilik adını qaldır özündən.
O iş ki, edə bilməzsən demə həm,
Deyəndən sonra et nə artıq, nə kəm.[73]

S. Ünsizadə gənc nəslə bir sıra əxlaqi sifətləri aşılamaqla yanaşı, onlara oxumağın, elm öyrənməyin vacibliyini də təlqin etməyə çalışırdı. O, üzünü şagirdlərə tutub onları bəlmədiyini öyrənməkdən çəkinməməyə, elmə can yandırmağa çağıraraq yazırdı:

Utanma mərifət kəsbindən, ey yar,
Cəhənnəmə özünü etmə zinhar,
Utanmazlar talib əmrin alanlar,
Həmişə mərifət kəsbin qılanlar.
Beşikdən əhdəcən elm eylə təhsil,
Əlindən gəlsə, ol kamali-mükəmməl.[74]

S. Ünsizadə şagirdlərə oxumağın, elm öyrənməyin vacibliyini islam qanunlarına istinadən izah etməklə bərabər, həyatda elmli adamla nadan arasında olan böyük fərqi də nəzərə çatdırmaqla fikrinin daha böyük təsir qüvvəsinə cəhd edirdi:

Savadi-mərifətlə, ey bəradər,
Deyildir cəhlü nadanlıq bərabər.
Deyil, dünyadə olan hər nə ki var,
Bərabər kövhəri-ürfanə, ey yar[75]

Elmi, maarifi bütün kövhərlərdən, qiymətli daşlardan üstün tutub gənc nəsli bu nemətə yiyələnməyə çağırması və əməli fəaliyyəti ilə Səid Ünsizadə Azərbaycan maarifçiləri ilə bir sırada durur.

Səid Ünsizadə 1881-ci ildə «Təlimül-ətfal, təhzibül-əxlaq» adlı daha bir dərslik çap etdirmişdir. O birindən fərqli olaraq, bu dərslik nəsrlə yazılıb.

Əsərdə əsas məqsəd gəns nəslin fiziki, əqli və mədəni cəhətdən kamil

---

[73] A. Abdullayev. Azərbaycan dilinin tədrisi tarixinə dair. Bakı, 1958. səh. 59-60: Yenə orada. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, 1966, səh. 139-140.
[74] Səid Ünsizadə. Məktəb uşaqlarımız oxumaqdan ötrü sadə türkü dilində tərtib olunmuş əqaid və nəsayeh risaleyi-mənzuməsidir. Tiflis, 1883, səh. 5.
[75] Səid Ünsizadə. Göstərilən əsəri. səh. 6.

vətəndaş kimi böyüməyinə nail olmaqdır. Bunun üçün uşaqlara ata-ananın onların həyatlarında yeri, dostluq və qardaşlığın, sözü bütövlüyün insan ləyaqətində mövqeyi, çalışqanlıq və səmərəli zəhmətlə məşğul olmağın əhəmiyyəti barədə bəhs olunaraq, bu məziyyətlər haqda ibrətli, hekayəvari söhbətlər aparılır.[76]

Kitabın bu hissəsində valideynlərin qədrini bilib ona hörmət etmək, dostluqda möhkəm olmaq, verdiyi sözə əməl etmək, təlim-tərbiyə zamanı öyrənməkdən, bilmədiyini soruşmaqdan çəkinməmək və s. kimi əxlaqi, mənəvi keyfiyyətlər aşılanırsa, sonrakı hissəsində yemək və içməyə, süfrə mədəniyyətinə, ətraf mühitə münasibət, geyim və təmizlik qaydaları öyrədilir. Müəllif, şagirdləri yeməklərinə fikir verməyə çağıraraq hansı ərzaqdan nə vaxt və nə miqdarda qəbul etməyin xeyirliliyi, havanın təmizliyinin insan orqanizminə təsiri, paltar və bədənin gigiyenasının sağlamlığında rolu, bu cəhətlərə xüsusi diqqət yetirməyin vacibliyi və s. barədə anlaşıqlı, oxunaqlı təhkiyə ilə məlumat verir.[77]

Dərsliyin növbəti hissəsində ilin fəsilləri, onların xüsusiyyətləri və yaşayışda yeri barədə ibtidai biliklər aşılanır, ikibaşlı söz danışmağın, böhtan, iftira, yalançılıq, hirs və qəzəbin cəmiyyətin və insanın həm mənəvi-əxlaqi, həm də fiziki sağlamlığına sağalmaz yara vurduğu əsaslandırılır, insanın əməlləri ilə özünə etimad və etibar qazanmasının, xeyirliliyindən bəhs olunur.[78]

Kitabın «Xatimə» hissəsində deyilənlərə bir növ yekun vurularaq, axırda insanın yaşayışı, mənəvi-əxlaqi keyfiyyətləri barədə ibrətamiz kəlamlar verilir.

Şübhəsiz, öz səfəri zamanı Şamaxıda olarkən S.Ünsizadə S. Ə. Şirvani, M. N. Didə və başqa elm mədəniyyət xadimləri ilə də görüşüb onlarla maarif və mədəniyyətin vəziyyəti, onun inkişaf etdirilməsi yolu ilə xalqın tərəqqisinə kömək etməyin vasitə üsulları haqda fikir mübadiləsi etmiş, onların dərsliklərinə də baxmışdır. Bu zaman o, öz dərsliyini çap etdirmək üçün çalışan Seyid Əzimin nə cür maneələrlə qarşılaşdığını da öyrənmişdi. Odur ki, növbəti yazısını "Məktəblər və mədrəsələrimiz barəsində bir neçə söz"[79] adlandırdı.

Səid Əfəndinin bəzi məqalə və fikirləri səhvən Seyid Əzimin adına çıxılaraq qeyde-şərtsiz onun kitabına salınmışdır ki, onlardan biri də "Məktəblər və mədrəsələrimiz barəsində bir neçə söz"[80] məqaləsidir.

Məsələn, dos. Əsəd Yəqubi həmin məqaləni Seyid Əzim qələminin məhsulu kimi təqdim etmiş,[81] filologiya elmləri doktoru Zaman Əsgərli isə "Məktəblər və mədrəsələrimiz barəsində bir neçə söz"ü geniş təhlil edib məqalədə qoyulmuş məsələlər haqqında dəyərli, Seyid Əzim barədə isə yanlış qənaətlərə gələrək yazır:

"Bədii yaradıcılığında olduğu kimi, publisistik fəaliyyətində də Seyid Əzim

---

[76] Bax: Səid Ünsizadə. Təlimül-ətfal, təhzibül-əxlaq. Tiflis, 1882, səh. 10-61.
[77] Bax: Səid Ünsizadə. Təlimül-ətfal, təhzibül-əxlaq. Tiflis, 1882, səh. 70-100.
[78] Yenə orada, səh. 102-118.
[79] "Ziyayi-Qafqasiyyə". 26 noyabr 1881.
[80] Bax: Seyid Əzim Şirvani. Əsərləri, 3 cilddə, III c. Bakı, Elm, 1974, s. 440-441.
[81] Əsəd Yəqubi. "XIX əsr Azərbaycan məktəbi" haqqında qeydlər. "Azərbaycan məktəbi" furnalı, 1988, № 7, s. 57.

maarifçi idi. O, təbii-elmi bilikləri yaymaqla xalqı cəhalət və geriliyin pəncəsindən azad edib, işığa, maarifə və mədəniyyətə qovuşdurmaq, ictimai tərəqqiyə yol açmaq, yeni vətəndaşlar yetişdirmək istəyir, bundan ötrü dünyəvi təhsili, mükəmməl zəruri sayılır. Bu dəfə Qafqaziyada neçə-neçə şəhər və qəsəbələri seyr elədik. Səyahət etdiyimiz yerlərdə mövcud olan məktəb və mədrəsələri müayinə edib, müdərris və müəllimləri ilə uzun-uzun danışdıq. Heç bir yerdə qaydalı və nizamlı bir məktəb və mədrəsəyə rast gəlmədik".

"Məktəblərimiz və mədrəsələrimiz barəsində bir neçə söz" məqaləsində S. Ə. Şirvani yeni məktəb və təlim qaydaları haqqında M. F. Axundov və "əkinçilərin" ənənələrini davam etdirirdi. Vaxtilə "Əkinçi" qəzeti köhnə məktəblərin təlim və tərbiyə metodlarına qəti surətdə etiraz edərək gənc dramaturq Nəcəfbəy Vəzirovun dili ilə vaxtı keçmiş dərs kitablarını, tədris üsullarını, fiziki cəza yollarını və s. pisləyib, onların elmi-pedoqoji baxımdan əsassız olduğunu, tərbiyə işinə yaramağıdını göstərirdi.

Lakin Seyid Əzim yeni tipli məktəb problemini izah edərək 70-ci illər maarifçiliyinin dotələb mövqeyindən uzaqlaşır, mötədil bir cəbhədə dayanırdı. O, məktəb ideyasını irəli sürərkən məsələnin siyasi tərəfini aydınlaşdıra bilmir, başlıca günahı dövlətdə yox, ruhani idarələrin, quberniya məclislərinin və məhəllə qazilərinin passivliyində görürdü".[82]

S. Ünsizadənin "günahı dövlətdə yox, ruhani idarələrin, quberniya məclislərinin və məhəllə qazilərinin passivliyində görməsinə" səbəb, onun siyasi səriştəsizliyindən çox real müşahidələri, şahidi olduğu vəziyyət idi ki, "Məclis" məktəbinin yaşamasına mane olmaq istəyənlərdən Şamaxı şiə qazisi Molla Əli Əsgər də o cür tiplərdən biri idi. S. Ünsizadə belələrini öz qəzetində layiqincə ifşa etdiyinə görə başı az bəla çəkməmişdi.[83]

Lakin Səid əfəndinin bu çağırışından az sonra "Ziyayi-Qafqasiyyə"də İbrahimxəlil əfəndi Hacı İsrafil əfəndi oğlunun vəfatı"[84] başlıqlı məlumat çıxdı. Mərhumun yerinə isə Zaqafqaziya ruhani məclisinin üzvü, "Ziyayi-Qafqasiyyə"nin sahibi-imtiyazı, Şamaxı sakini Səid Ünsizadə təyin olundu və qəzet vasitəsi ilə irəli sürdüyü ideyaların Şamaxıda əməli həlli onun öz öhdəsinə düşdü. Bununla əlaqədar S.Ünsizadə yazırdı: "Bu halda xidmətimiz yenə Şamaxıya təyin olunub. Bakı əhli-təsənni qubernski məclisinə sədri-məclis təyin olunduğumuzdan ümid tuturuq ki, məzkur məktəbi ("Məclis" məktəbini - A.B.) haləti-əsliyyəsinə gətirməyimizdən başqa Şamaxıda olan və ədəbi elmi oxunan böyük mədrəsəni və sair məscid cünbündə və kəndlərdə olan məktəb və mədrəsələri çox başlıca qaydalar ilə saxlayıb pişrəftinə himmətgüzar olaq və onlar barəsində etdiyimiz

---

[82] Zaman Əsgərli. S.Ə.Şirvani və dövrü mətbuat. Azərbaycan SSR EA-nın Xəbərləri (Ədəbiyyat, dil və incəsənət ser-sı) 1988, № 2, s. 10-11.
[83] Bu haqda ətraflı bax: A.Zeynalov. Ünsizadə qardaşlarının qəzet çıxarmaq cəhdləri. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri, II kitab, Bakı, Elm, 1985, s. 96-100.
[84] "Ziyayi-Qafqasiyyə" qəzeti, 6 dekabr 1883.

sərəncamlar nə olmuş olsa, əlbəttə qəzetimiz vasitəsilə nəşr olunacaqdır. Və bu xidməti öhdəmizə götürməkdən əsl məqsədimiz əməl ilə sair qazilərə misal göstərməkdir”.[85]

Səid Əfəndi Şamaxıya gələn kimi, sözünə əməl edərək, geniş miqyada mədəni-kütləvi tədbirlər görməyə başladılar. Əgərki bu hala kimi bizim tərbiyət aləminin zövqündən bixəbər olan əhalidən bir həmiyyət müşahidə olumamışdır, amma ümidvaram əfəndi həzrətləri (yəni S.Ünsizadə - A.B.) öz niyyəti-həsənələrinə təğrib verməyəcəkdir. Və məsaiyi - camilər məbzul qılıb ətfali-millətin pişrəftinə itmani-malakəlam göstərəcəkdir”.[86]

S.Ünsizadənin Şamaxıda həyata keçirməyə çalışdığı bu tipli mütərəqqi tədbirlər, bir çox tərəqqipərvər ziyalılar kimi, “Beytüs-Səfa” şairlərinin, o cümlədən S. Ə. Şirvani və Müşviq Şirvaninin çox sevindirmiş, hər iki şair S.Ünsizadənin xidmətlərini vəsf edən qəsidə yazaraq “Ziyayi-Qafqasiyyə”də çap etdirmişlər.[87]

S. Ə. Şirvani 254 misralıq bu qəsidəsinin əvvəllində çarı, onun vəliəhdini və b. tərifləyərək imperatorun ədalətindən, millətlərin hamısını, guya, bir gözdə görməsindən, zəlzələlər[88] zamanı dağılmış Şamaxını imperatorun “memar lütfü”nün yenidən qurmasından, onun təyin etdiyi rəislərin, o cümlədən qubernator Lebidovun adilliyindən və sairdən danışır.[89]

Qəsidənin sonundakı hissəsi Səid Ünsizadənin Şamaxıda başladığı maarifpərvərlik fəaliyyətinə həsr olunmuşdur. Bununla əlaqədar qəsidədə oxuyuruq:

Büllur nabdan gül düşsə artıq yandırar, saqi,
Büllurun sağərlərinə tök ol rahi - reyhani.

Bu günlərdə Şamaxı səhfəsi gülzarə dönmüşdür.
Bəli, gülzar olur, bir mülkün olsa dehqani.

Gəlib Şirvanə bərabər maarif abiyar üçün,
İlahi, qıl bizə şəqayi-xeyir ol əbri-şərqani.

Odur, Hacı Səidin əxtəri Mur Hümmət göstər
Ki, Səid hücui bəxtinə olur əz ismi bir hani.

---

[85] “Ziyayi-Qafqasiyyə” qəzeti, 15 yanvar 1884.
[86] “Kəşkül” qəzeti, 4 may 1884.
[87] Bax: “Ziyayi – Qafqasiyyə” qəzeti, 24 mart və 18 aprel 1884.
[88] Şamaxı zəlzələləri ilə əlaqədar ətraflı bax: A Морич. Шемаха и ея землетрясения. Сборник сведений о Кафказе. том II. Тифлис, 1872, стр. 196-206.
[89] Bax: “Ziyayi-Qafqasiyyə” qəzeti, 24 mart 1884.

Səid ol Zadeyi-Ünsi ki, zatı ünsdən müştaq,
Ənis əhli-ürfan munis hər dörd pünhanı

İmam əhli-sənət xeyirxah dövlət, millət,
Qövdümündən fərəhnak oldu əhli-mərifət canı.

Şairin, S.Ünsizadənin Şamaxıya gəlişindən bu qədər vəcdlə, təşbehlərlə danışmasının səbəblərini daha aydın görmək üçün sonrakı misralara nəzər salmaq kifayətdir:

Həqiqət var idi bundan əzəl çox nəqsi Şirvanın,
Gəlib bu şəhrə ol mah oldu şəhrin cəbri-nöqsani.

Neçə illər çəkib qürbətara Tiflisdə zəhmət,
Kəmali-pişrəfti-qövm üçün tərk etdi ovtani.

Edib tərtib çap əsbabın yüz min mərarətlə,
Ziyaya izn alıb qıldı «Ziya» afaqını rani.

Həqiqət əyyamında millətə bir xidmət etmiş kim.
Zəban acizdir ovsafında təqrir etməkə ani.

Həmişə fikri samidir tərəqiyyəti-millətçün,
Hümarə, xeyrə dayədir, edər tərğib-əqrani,

Seyid Əzimin yazdığından məlum olur ki, S. Ünsizadə

Kələntək verdi ruhi məclisi-ruhaniyyə zinət,
Kəmali-ruhi-ruhanəndən oldu bəzm ruhani.

Şərif-məsnədəndən mərkəzhəq tək qərar etdi,
Olub ol dairəyə məşmul lütü feyz səcani.

S. Ünsizadə Şamaxıda məscid və məscid məktəblərini, ruhani məclisini qaydaya salır, eyni zamanda dünyəvi elmlərin yayılmasın və mənimsənilməsi üçün tədbirlər tökür:

Düşüb ol fikrə kim, Şirvanı darülfünun eyləsin,
Qiraətxana açsın, nəşr qılsın elmü ədyani.

Bilibdir kim, cəhalət mayeyi-fəğru kəsrətdir,

Təriqi-elmə tərğib eyləmək vacibdir insani.

Bu rümuzu guş qıldım ol əzizin öz zəbanından,
Açıb dürci-dəhanın eylədi. Belədir əfşani:

Qeyd edək ki, S. Ə. Şirvaninin əsərlərində «Üç dil adı ilə bir şer çap olunmuşdur. Həmin şerdə dil bilməyən əhəmiyyətindən, ərəb, fars, rus dillərinin lazımlılığından, Azərbaycan türk dilini kamil bilməyin vacibliyindən və s. danışıldığı məlumdur. «Üç dil» adı ilə çap olunan şer qəsidənin yuxarıda gətirdiyimiz parçasından sonrakı hissəsidir. Qəsidənin dil bilməyin vacibliyinə aid olan hissəsinin əvvəl şair həmin fikri «ol əzizin (S. Ünsizadənin - A. B.) öz zəbanından guş qıldığını» nəzərə çatdırdıqdan sonra Səid əfəndinin dil bilməyin vacibliyi haqqındakı fikrini nəzmə çəkmişdir. Axırda S. Ə. Şirvani bu sözlərin məhz Səid Ünsizadəyə məxsus olduğunu bir daha nəzərə çatdırır:

...Çü ol kani-ədəbdən guş qıldım bu bəyanatı,
Yəqin etdim ki, həq xoşbəxt edi əhli-Şirvani.

Qəsidənin dil haqqında olan hissəsi «Üç dil» adı, ilə ayrıca çap olunaraq, həmin fikirlərin kimə aid olmasını bildirən ünvan xarakterli beytlərin atılması elmi təhrifə səbəb olmuşdur. Belə ki, burada dil bilməyin vacibliyi fikri S. Ünsizadəyə, onun nəzmə çəkilməsi isə S. Ə. Şirvani qələminə məxsus olduğu halda, həmin fikir indiyədək səhvən S. Ə. Şirvaniyə aid edilmişdir. Bu isə elmi və ədəbi yanlışlıqdan başqa bir şey deyil.

Qəsidədən həmçinin məlum olur ki, S. Ünsizadə Şamaxıda yeni tipli məktəblərin şəbəkəsini genişləndirmək, ona uyğun olaraq tədris proqramları və dərsliklər nəşr etmək, falaqqanı məktəbdən götürmək, «bizimçün millət təvarixin cəm və tərtib etmək» fikrindədir.

A. Zaxarovun yuxarıda haqqında danışaraq xeyli sitat gətirdiyimiz məqaləsindən də məlumdur ki, S. Ə. Şirvaninin çap olunmamış «Şirvan xanlığının tarixi» adlı bir elmi əsəri də olub. Bu əsərin 1882-ci ildə Tiflisdə çıxan «Известия Кавказского общества истории и археологии» adlı məcmuədə çap olunan hissəsi haqda Əziz Mirəhmədov özünün «Seyid Əzim Şirvaninin bir elmi əsəri»[90] adlı məqaləsində ətraflı məlumat vermişdir. Həmin məqalədən də göründüyü kimi, Seyid Əzim öz vətəninin və xalqının tarixi və taleyinə, gözəllik və sərvətinə daxilən bağlı olmuşdur. Odur ki, S. Ünsizadənin tərəqqi üçün görməyə başladığı işlər o cümlədən millətin tarixinin yazılması üçün təşəbbüs göstərməsindən vəcdlə danışmaya bilmir:

[90] Əziz Mirəhmədov. Yazıçılar, talelər, əsərlər. Bakı, Azərnəşr, 1978. s. 40-45.

Könül, şad ol ki, gəlmiş bu diyarə elm bəqrəti,
Pəsənd etməz Şamaxi əməldə min bədəv ani.

...Çe məktəb, çe mədrəsələr tapar min bəd arayiş,
Salır tərtibü nizamə himməti hər bir dəbistani.

Bütün bu mədəni-kütləvi tədbirlərlə yanaşı, Seyid Əzimi S. Ünsizadənin bir işi də çox razı salmışdı.

O da şəhərdə şiə-sünni ədavətinin aradan qaldırılması və qaçaqçılığa qarşı qəti tədbirlər görməsidir.

S. Ə. Şirvani bu tədbirlərin əhəmiyyətini dərində dərk edirdi. Çünki şiə və sünni ədavətinin camaatı zillətə salmaqdan başqa xalqa heç bir xeyir vermədiyini o bilir, dərk edirdi. Bunu həyati təcrübəsində də çox görmüşdü. Məsələn, Şamaxıda mütərəqqi, ümumxalq üçün əhəmiyyətli bir tədbir keçirmək məsələsi ortaya çıxanda şiələrlə sünnilər arasında çəkişmə düşür və istənilən tədbir baş tutmurdu. Çox vaxt qaragüruhçular da bu ədavətdən istifadə edərək mütərəqqi tədbirlərin qarşısını alır, xalqın ətalət və cəhalətdən xilas olmasına hər vasitə ilə mane olurdular. Tərəqqipərvər ziyalılar, o cümlədən H. Zərdabi, S. Ə. Şirvani və b. Şirvanda və ümumən müsəlman aləmində xalqa olmazın müsibətlər gətirən bu təriqətlərə qarşı çıxış edir, xalqı düz yola çağırırdılar. O ki, qaldı qaçaqçılıq, bunun xalqa vurduğu ziyan, törətdiyi dağıntı, dinc əhalinin başına açdığı müsibətlər haqda Seyid Əzim Mətbuatda publisist yazılarla çıxış etmişdi. Ona görə bu tədbirlərin əhəmiyyəti haqda şair yazırdı:

Gələn tək gördü kim, var köftguyi-şiəvu sünni,
Solu bir parə müfsidlər əracif eyli qovqani

Çəkirlər bir-birinin büxldən məxfi ayağından,
Salırlar şübhəyə təzvirilə umal-dəbvani.

Ağa Seyid Əlinin xəlqi cəm etdi otağına,
Götürdü aralıqdan hökmət ilə kid əxvani.

Belə getsə, Şamaxıda işlərin qaydaya düşəcəyinə böyük ümidlər bəslədiyini yazan şair ehtiyatı əldən vermir, qarşıya qoyulan, irəli sürülən vəzifələrini lazımınca reallaşması üçün hansı yol və vasitələrdən istifadə etməyi, kimlərlə necə iş görməyi yaddan çıxarmamağı tövsiyə edir, konkret məsləhətlər verirdi. Şəhərin ictimai-mədəni həyatının, demək olar ki, mərkəzində olan bir şair həssaslığı və müdrikliyi ilə onun mənəvi-psixoloji ab-havasının incəliklərinə bələd olan S. Ə. Şirvani bu tədbirlərin reallaşması üçün S. Ünsizadənin şəhərin hansı sərvət və ya nüfuz sahibindən necə istifadə etməyin, onların öz tərəfinə çəkməyin yollarını

göstərir. Bütün bunlar Seyid Əzimin ayıq və tədbirli, müdrik şəxsiyyət olduğunu bir daha göstərir.

Səid Ünsizadənin Şamaxıya gəlişi ilə əlaqədar ona qəsidə yazanlardan biri də Müşviq Şirvanidir. Şairin bu məqsədlə yazdığı 130 misralıq qəsidəni qəzet aşağıdakı qeydlə çap etmişdir: «Bizim millətdən ədəbiyyat ilə məşğul olanı var isə, onlar da təbiəti-şeriyyələri olanlardır ki, qəsidəsi zeyldə gətirilən tazə bir şairi qəzetəxanlarımıza aşina edirik»[91]. Müşfiqin cavan şair olmağını onun özü qəsidəsinin sonunda belə göstərmişdir:

Müşfiqi tazə çəkib ərsəyə əyyami-zəman,
Ona layiqdi çata xələti-bərran, Ziya.

Ona görə də qəsidənin altında təzə şairin inisialı və yeri ətraflı göstərilmişdir: «Müşfiq Xaksər İbn Mehdi Məhəmməd, sakini-şəhri-Şirvan məhəlleyi-Qələbazar».

Müşfiq Xaksərin qəsidəsində S. Ünsizadənin vətən və xalq yolunda xidməti, xüsusən «Ziya» qəzetinin naşiri və redaktoru olması və s. cəhətləri təmtəraqlı bənzətmələrlə təriflənir. Məsələn, S. Ünsizadənin müsbət keyfiyyətlərini dəryaya bənzədən şair öz təbini bu dərya müqabilində çox kiçik bir zərrəyə bərabər tutur, onu Süleyman peyğəmbər və s.-lə müqayisə edir.

Qəsidədə bir cəhət maraqlıdır ki, o da «təzə şair»in S. Ünsizadəyə olan rəğbətinin daha çox «Ziya» ilə bağlı olmasıdır. Qəsidənin əvvəlindən axırınadək hiss olunur ki, Müşfiq, Səid əfəndiyə daha çox «Ziya» qəzetinə görə vurulub. Elə qəsidə də «Ziya» rədifi ilə yazılmışdır. Bu da səbəbsiz deyil. Xalqımızın mətbuat aclığı dövründə, irticanın tüğyan etdiyi bir zamanda müsəlmanların qəzetinin olması böyük nailiyyət idi.

«Ziyayi-Qafqasiyyə»nin Şamaxıya köçməsinin şəhərin ictimai-mədəni həyatında canlanmaya səbəb olduğunu yuxarıda göstərmişdik. Qəzetin öz səhifələrində Müşfiq kimi «təzə şair»in əsərinə yer verməsi faktı (bu əsər redaktorun ünvanına yazılmış qəsidə olsa belə) bizə belə bir fikri söyləməyə əsas verir ki, «Ziyayi-Qafqasiyyənin Şamaxıya gəlişi şəhərin ədəbi-mədəni həyatında canlanmaya səbəb olduğu kimi, qəzet öz səhifələrində bu canlanmanın real məhsuldarına yer verib, təzə imzaları üzə çıxartmaqdan da qaçmırdı. Təəssüf ki, «Ziyayi-Qafqasiyyə» 1884-cü il 11-ci nömrəsindən sonra həmişəlik qapandı.

Qəzetin bağlanmasının bir səbəbi maddi çətinlik idisə, digər və əsas səbəb donosbazların, qaragüruhun Səid Ünsizadəyə qarşı hücumunun kəskinləşməsi və onun mötəbər himayəçisi D. S. Staroselskinin artıq həyatda olmaması idi. Qəzetin 31 mart 1884-cü il tarixli nömrəsində D. S. Staroselskinin 1884-cü il martın 11-də, axşamüstü saat 5-də qəflətən vəfat etməsi xəbəri və ömürnaməsi verilmiş, az sonra

[91] "Ziyayi-Qafqasiyyə" 18 aprel 1884.

«Ziyayi-Qafqasiyyə» qapanmışdı. Qaragüruhçular S. Ünsizadəni köməksiz görüb daha da azğınlaşmış, ondan əvvəlki qisaslarını da almaq fikrinə düşmüşdülər nəhayət məqsədlərinə çatdılar. Hətta S. Ünsizadə 1900-cu ildə «Ziyayi-Qafqasiyyə»ni yenidən canlandırmaq istəyəndə 1884-cü ildən olan danoslar öz mənfi təsirini yenə göstərdi.[92]

Əldə etdiyimiz bəzi arxiv sənədləri həm Səid Ünsizadəyə olan bu hücumların səbəblərini açmağa, həm Şamaxı mühitinin o dövrkü ictimai-mədəni atmosferi haqda təsəvvür almağa kömək edir, həm də həmin hadisələrin işığında Səid əfəndinin ağır məhrumiyyətlər şəraitində göstərdiyi fəaliyyəti daha dolğun təsəvvür etməyimizə imkan verir.

Səid Ünsizadənin hələ Qafqaz Ruhani idarəsinə üzv qəbul ediləndən əvvəl Şamaxıda «Məclis» məktəbi təşkil etdiyi, mütərəqqi işlərlə məşğul olduğu məlumdur. Həmin fəaliyyət Şamaxıda heç də birmənalı qarşılanmayıb Səid Ünsizadəyə qarşı köhnə fikirli, dar düşüncəli adamlar arasında müəyyən narazılıqlar da yaradırdı, Lakin o, bu cür adamların heç bir nüfuz və təzyiqləri ilə hesablaşmayıb öz işini qətiyyətlə həyata keçirirdi. Bakı general-qubernatoru D. S. Staroselskinin onun arxasında durub gördüyü mütərəqqi işlərə kömək etməsi S. Ünsizadənin düşmənlərinin əl-qollarını bağlasa da, ürəklərini qəzəb və kinlə doldururdu. S. Ünsizadə də öz növbəsində həmin adamlara qarşı amansız idi. Yəni gördüyü mütərəqqi işlərdə qaragüruhun deyil, millətin mənafeyini güdürdü. Arxiv sənədlərindən aydın olur ki, Şamaxıdan Tiflisə getməsi həm də qaragüruhun gözündən bir qədər uzaqlaşmaq məqsədi güdmüşdür. Belə ki, Səid Ünsizadə Şamaxı qazisi olarkən ondan yazılan böhtan xarakterli məlumatları yoxlamaq üçün statski sovetnik Bezobrazovun sədrliyi ilə təşkil olunan komissiyaya Zaqafqaziya Ruhani idarəsinin sədri Müfti Hüseyn əfəndi Qayıbovun imzaladığı 3 fevral 1885-ci il tarixli məlumatda[93] deyildiyi kimi, 2 yanvar 1873-cü ildə Bakı quberniya məclisinə üzv qəbul edilən S. Ünsizadə özünü yaxşı aparmadığına görə, təhlükəsizliyi naminə 1876-cı ildə doğma şəhəri Şamaxını tərk edib Tiflisə gələrək ruhani idarəsindəki boş olan vəzifəni tutmuşdu.

Burada S. Ünsizadənin «özünü yaxşı aparmaması» mütərəqqi xarakterli işlər görməsi idi. Qaragüruh onun bu hərəkətlərini islama zərər vuran əməllər saymaqla xalqın mənafeyini şəxsi mənfəətlərinə qurban verirdilər.

Səid Ünsizadənin «islama zidd» hərəkətləri 1873-cü ildə Bakı quberniya sünnü məclisinə üzv qəbul olandan sonra başlayıb. Zaqafqaziya Ruhani idarəsi təsis edilənədək, 1867-ci ildən Şamaxı şəhər şəriət məclisinin üzvü seçilən S. Ünsizadə barədə yoxlama aparan keçmiş Zaqafqaziya - müftisi Məhəmməd əfəndi Muftizadə 29 iyun 1867-ci il tarixli hesabatında onun haqqında heç bir pis rəy

---

[92] Ətraflı bax: A. Zernalov. Ünsizadələrin qəzet çıxarmaq cəhdləri. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. İkinci kitab. Bakı, Elm, 1985, səh. 96-100.

[93] Bax: Azərbaycan MDTA, fond 291, siy. 1, sax. Vah. 577, vərəq, 22-32.

söyləmir.[94] Ancaq 1873-cü ildən başlayaraq Şamaxı ruhani idarəsi nəzdində məktəb açmağa çalışması və digər maarifpərvərlik fəaliyyəti S. Ünsizadəyə qarşı ruhanilər arasında narazılıqlar yaratmağa başlayır. Lakin o, qeyd etdiyimiz kimi, özyolundan dönməyib, xalqın tərəqqisinə mane olan adamları, yüksək ruhani və dövlət silkinə aid olsalar da, ifşa etməkdən çəkinmir. Yuxarıda xatırlatdığımız 3 fevral 1885-ci il tarixli məlumatda bu barədə göstərilir ki, S. Ünsizadə nəşr etdiyi «Ziya» qəzetinin 1879-cu il tarixli nömrələrinin birində Qurban bayramına mənfi qiymət vermiş, 1881-ci ildə buraxdığı təqvimdə Qurana toxunan şer çap etmiş, bundan narazı olanları öz qəzetində qəliz sözlərlə pisləmiş, 1882-ci ildə «Ziyayi-Qafqasiyyə»də Ərəbi paşanı tənqid etməklə ruhani idarəsinin nüfuzuna xələl gətirmişdir. Sənəddə həmçinin qeyd olunur ki, hərəkətlərində hədsiz sərbəstliyə yol verən S. Ünsizadə hətta Zaqafqaziya Ruhani idarəsinin keçmiş müftisi, mərhum Hacı Həmid əfəndi nə idarənin keçmiş üzvü Mahmud əfəndi Rəhim Əfəndizadə ilə də hesablaşmayıb.

Ruhani idarəsinin böyük üzvü Əhməd əfəndinin Səid Ünsizadə haqda verdiyi 29 yanvar 1885-ci il tarixli məlumatından belə məlum olur ki, S. Ünsizadə fəaliyyəti ərzində, guya, dinin və dövlətin əleyhinə işləmiş, 1882-ci ildə öz qəzetində Əhməd əfəndini, Müfti Hacı Həmid əfəndini və knyaz Corcadzeni ifşa etmişdir.[95]

Ümumiyyətlə, S. Ünsizadə haqda verilən bu məlumatlarda onun ruhani işlərinə səhlənkar yanaşıb barmağarası baxdığı, bunun əvəzində digər işlərlə məşğul olduğu dönə-dönə, həm də açıq-açığına qərəzkarlıqla qeyd edilir.[96]

Görünür, elə ona görə də 1883-cü ildə müfti Hacı Həmid əfəndi vəfat etdikdə onun yerinə Hacı Səid əfəndi Ünsizadənin namizədliyi irəli sürülərkən «statski sovetnik» A. Berje və «taynoqo sovetnik» knyaz Corcadze bunun əleyhinə çıxmışdılar.[97]

Bütün bu yazışmalara səbəb Səid Ünsizadə Bakı quberniya Ruhani idarəsinə sədr və Şamaxı uyezdinə qazi təyin olunandan sonra onun haqqında Quşçu kəndinin prixod mollası Hacı Molla Baba Molla İbrahim oğlunun müxtəlif vaxtlarda yazdığı danoslar idi.[98] Bu işdə ona Quşçu kənd sakinləri Məmməd Məmmədəziz oğlu, Nəbi Sadıqoğlu, Nuru Dəmiroğlu, Feyzulla Həsənoğlu və başqaları da havadarlıq edib. Ünsizadənin əleyhinə yazılan sonrakı danosları imzalamışdılar.[99]

Onların yazdıqlarına görə, guya, S. Ünsizadə rüşvətxorluq, qanunsuzluq, idarənin əmlakını mənimsəməklə və sairlə məşğuldur. Bundan başqa, o,

---

[94] Bax: Yenə orada, vər. 46.
[95] Azərb. MDTA, fond. 292, siy. 1, sax. vah., 577, vər. 15-17.
[96] Yenə orada, vər. 20-21.
[97] Yenə orada, vər. 22-32.
[98] Azərb. MDTA, fond. 292, siy. 1, sax. vah., 577, vər. 101.
[99] Yenə orada, vər. 2-13.

qohumbazlıq edərək öz başına qohum-qardaşını yığıb.

Bu məktublarda yazılanların hamısı ağ yalan və böhtan idi. Sonrakı yoxlama və məlumatlardan da məlum olur ki, S. Ünsizadənin camaat arasında böyük hörməti var. Bunu Bakı qubernatorunun Zaqafqaziya sünnü ruhani idarəsinə göndərdiyi 9 fevral 1885-ci il tarixli məktubu da təsdiq edir.[100] Belə ki, Zaqafqaziya sünnü Ruhani idarəsi Səid Ünsizadənin Şamaxıya yeni vəzifəyə təyin edilməsindən dərhal sonra başlanan danoslardan yaxa qurtarmaq üçün «sakitlik naminə» onu 1884-cü il 20 avqust tarixli sərəncamı ilə işdən azad etmək istədiyini bildirib, bu məsələdə Bakı quberniya idarəsinin mövqeyini soruşarkən[101] həmin məktuba cavab vermişdi ki, qubernatorun 1884-cü ilin yayında Şamaxıya etdiyi səfər zamanı onun müşahidələri, camaatla söhbətləri və Şamaxı şəhər rəisinin rəyinə, hətta bir qrup adamın qubernatora yanvar (1885) ayında etdiyi müraciətə əsasən tam yəqinliklə göstərmək olar ki, S. Ünsizadə işinin öhdəsindən bacarıqla gəlir. O, əhali arasında böyük hörmət və nüfuza malikdir. Bununla belə, yerli narazılıqlara da biganə yanaşmaq olmaz.

Görünür, danosbazlar da məhz bu məqamdan, yəni yerli narazılıqlardan hökumətin biganə qalmayacağına arxayın olub yazmaqlarından əl çəkməyirlər. Özü də Şamaxıda Quşçuya yaxın olan digər kəndlərdə yalandan adamın üzünə duranlar «Quşçu şahidi» kimi xarakterizə edilirlər. Yəqin ki, bu məsəlin yaranmasında Hacı Molla Baba və onun havadarları kimi adamların dırnaqarası xidmətlərinin rolu böyükdür.

Səid Ünsizadə Şamaxı Quberniya məclisinə sədr və Şamaxı qazisi təyin olunandan sonra onun əleyhinə belə bir kompaniya başlamasının bir səbəbi qaragüruhun öz rahatlığına çalışması idisə (S. Ünsizadə qəzet və digər vasitələrlə də xalqın maariflənməsi və tərəqqisi uğrunda çalışırdı.), digər tərəfdən həmin vəzifədə yüksək rütbəli başqa ruhanilərin də gözünün olması ilə əlaqədar idi. Belə ki, Bakı quberniya idarəsinin Zaqafqaziya sünnü ruhani idarəsinə göndərdiyi 8 dekabr 1883-cü il tarixli məktubunda bildirilirdi ki, 1883-cü il noyabrın 23-də vəfat edən uyezd qazisi və məclis sədri İbrahimxəlil əfəndinin yerinə təyin olunmaq üçün Şamaxı qəza idarəsi 30 noyabr 1883-cü il tarixli raportunda məclis üzvü Məhyəddin əfəndi Lətif əfəndi oğlunun, onun yerinə isə Cümə məscidinin baxıcısı və prixod mollası Hacı Səid əfəndi İsmayıl əfəndi oğlunun namizədliyin irəli sürüb. Lakin cənab qubernator öz tərəfindən boş olan qazi və quberniya məclisinin sədri vəzifəsinə Səid Ünsizadənin təyin olunmasını məsləhət bilir. Etirazınız yoxdursa, idarə onun sənədlərini göndərsin.[102]

Öz növbəsində Səid Ünsizadə ruhani idarəsinə yazdığı 9 dekabr 1883-cü il tarixli ərizəsində xahiş edirdi ki, Bakı quberniya məclisinin 25 noyabr 1883-cü il tarixli məlumatına görə, həmin ayın 23-də vəfat edən quberniya məclisinin sədri

---

[100] Azərb. MDTA. Fond 291, siy. I, sax. vah. 577, vər. 44; 56.
[101] Yenə orada, vər. 22-32.
[102] Azərb. MDTA. Fond 291, siy. I, sax. vah. 511, vər. 3.

İbrahimxəlil, əfəndi Hacı İsrafil əfəndi oğlunun yerinə onu ruhani məclisinin sədri təyin etsinlər.[103] (Görünür, S. Ünsizadə bu ərizəni yuxarıdakı idarələrarası yazışma və müvafiq razılaşmadan sonra yazıb).

Yazdığı ərizəyə və Bakı qubernatorunun rəyinə əsasən Zaqafqaziya sünnü ruhani idarəsi 24 dekabr 1883-cü ildə S. Ünsizadəyə bildirdi ki, dekabrın, 10-dan o, Bakı quberniyasının Şamaxı uyezdinə qazi və quberniya məclisinə sədr təyin olunduğu üçün tezliklə yeni iş yerinə gedib fəaliyyətə başlasın.[104]

Bu sərəncamı alan kimi Səid Ünsizadə yeni iş yerinə - doğma Şamaxıya gedib maarif və tərəqqi işlərinə başlamaq üçün hazırlaşır; 9 yanvar 1884-cü ildə Tiflisdən Şamaxıya köçməsi üçün ona minik ayrılmasını xahiş edir. Ruhani idarəsi isə Tiflis Qubernatorundan S. Ünsizadənin köçməsi üçün dörd poçt atı istəyir.[105]

S. Ünsizadə 21 yanvar 1884-cü il tarixli məlumatı ilə Zaqafqaziya sünnü ruhani idarəsinə bildirirdi ki, xidməti vəzifəsi ilə əlaqədar Tiflisdən Şamaxıya getdi.[106] (S. Ünsizadənin Tiflisdən Şamaxıya köçmə tarixini filologiya elmləri doktoru A. Zeynalov səhvən 1883-cü il kimi göstərib).[107]

Şamaxıya köçüb gələn S. Ünsizadə dərhal «Şirvanı darülfünun edib, şiə-sünnü ixtilaflarını aradan qaldırmaq» (S. Ə. Şirvani) və s. mütərəqqi tədbirlərin həyata keçirilməsi üçün qızğın fəaliyyətə başladı. Bu da qaragüruhçu ruhanilərlə onun yerində gözü olanları Səid əfəndi əleyhinə əlbir fəaliyyətdə birləşdirdi.

S. Ünsizadə heç bir müqavimətlə hesablaşmayıb tərəqqipərvər işlərində davam etdiyi kimi, köhnəpərəstlər də onun əleyhinə yuxarı dairələrə şikayət ərizələri yazmaqdan əl çəkmirdilər. Hətta 1887-ci ilin mayında Zaqafqaziya sünnü ruhani idarəsinin Müftisi Hüseyn əfəndi Qayıbov Şamaxıya ruhani işlərini yoxlamağa gələrkən əvvəldən hazırlanmış bir qrup adam S. Ünsizadədən ona şikayət edib, vəzifədən çıxarılmasını da təkid etdi.[108]

Şikayət və ərizələr öz işini görməkdə idi. Bu dedi-qodulardan Zaqafqaziya sünnü ruhani idarəsi də, Səid Ünsizadə də, Bakı quberniya idarəsi də bezmişdi. Odur ki, 13 avqust 1887-ci il tarixli məlumatla Zaqafqaziya sünnü ruhani, idarəsi Bakı quberniya idarəsinə bildirirdi ki, çoxsaylı ərizə və şikayətləri və Şamaxıda olarkən ona Şamaxı və ətraf kəndlərindən edilən çoxsaylı müraciətləri nəzərə alıb Səid Ünsizadəni və Cümə məscidinin baxıcısı, məclis üzvü Məhyəddin əfəndi Lətif əfəndi oğlunu (onlar qohumdurlar) vəzifələrindən azad edib, yerlərinə Göyçay uyezdinin Diyallı kənd sakini Hacı Məcid əfəndi Hacı Mustafa əfəndinin oğlu məclis sədri və Şamaxı qazisi, Hacı Səid əfəndi İsmayıl əfəndi oğlunu isə Cümə

---

[103] Yenə orada, vər. 1.
[104] Yenə orada, vər. 8.
[105] Yenə orada, vər. 10-13.
[106] Yenə orada, vər. 14.
[107] Bax: A. Zeynalov. «...«Ziya» qəzeti haqqında qeydlər». Nizami adına Azərbaycan Dövlət Ədəbiyyat muzeyinin əsərləri. III c., Bakı, 1968, s., 55; Yenə onun. Ünsizadə qardaşlarının qəzet çıxarmaq cəhdləri. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. İkinci kitab. Bakı, Elm, 1985, s 83 84.
[108] Bax: Azərb. MDTA. Fond 291, siy. 2, sax. vah. 687. vər. 149.

məscidinin baxıcısı qoymaq istəyir.[109]

Zaqafqaziya sünnü ruhani idarəsinin Bakı quberniya idarəsinə göndərdiyi 20 aprel 1888-cü il tarixli məlumatından məlum olur ki, idarə Hacı Səid Ünsizadə və Hacı Məhyəddin əfəndinin vəzifələrindən azad edilməsi barədə göndərdiyi 13 avqust 1887-ci il tarixli məktubuna hələ rəy almayıb.[110]

Nəhayət, Hacı Səid əfəndi İsmayıl əfəndi oğlu 15 fevral 1889-cu il tarixli məlumatla Zaqafqaziya sünnü ruhani idarəsinə bildirdi ki, Bakı qubernatorunun 8 fevral 1889-cu il tarixli məktubunda S. Ünsizadənin öz ərizəsi ilə işdən azad olunaraq, ondan işlərin təhvil alınması mənə tapşırıldığı üçün fevralın 14-də idarəyə gələrək öz işimə başlamışam.[111]

Yoxlamalar göstərdi ki, Səid Ünsizadə heç bir dövlət vəsaiti mənimsəməyib. Yalnız sənədlə konkret bir adama 200 manat yardım kimi verib.[112] Həmin puluda evindən götürdüyü bir tirmə şalı satdıraraq, oğlu Ağa əfəndinin vasitəsilə ödəyib.[113]

Bütün bu yazışmalar göstərir ki, Səid Ünsizadə fəaliyyəti ərzində xalqın tərəqqisi və maariflənməsi üçün bacardığını etmiş, bu yolda qarşısına çıxan çətinlik və maneələrdən çəkinməyib, onlara qarşı qətiyyətlə mübarizə aparmışdır. Onun məqsədinə çatmaq üçün müəyyən məqamlarda atmağa məcbur olduğu addımlar bəzi müasirləri və mütəxəssislər tərəfindən əvvəllər S. Ünsizadənin liberallığı və çara xidməti kimi qiymətləndirilmişdir. Lakin onun bu hərəkətləri səbəbsiz etmədiyi, əksinə, millətə xidmət yanğısından irəli gəldiyi bu gün elmi ədəbiyyatda təsdiq olunmaqdadır. Məsələn, professor Xeyrullah Məmmədov S. Ünsizadənin fəaliyyətini əvvəllər birtərəfli işıqlandırdığı halda,[114] sonrakı tədqiqatlarda onun xidmətlərini müsbət qiymətləndirmişdir.[115]

Yuxarıda qeyd etdiyimiz kimi, S. Ünsizadənin vətən və xalq qarşısında xidmətləri onun əleyhidarları, daha doğrusu, qaragüruh tərəfindən qəzəblə, kəskin əks-hücumlarla qarşılansa da, demokratik körüşlü bir sıra müasirləri tərəfindən yüksək qiymətləndirilib. Fikrimizə Seyid Əzimlə Müşfiq Xaksərin yuxarıda haqlarında bəhs etdiyimiz qəsidələri də misaldır. Təsadüfi deyil ki, həmin qəsidələr müsbət əks-səda doğurdu. «Ziyayi-Qafqasiyyə»də Alibekov imzası ilə çap olunan bir məktubda da Səid Ünsizadənin qəzet çıxarmaq və digər mədəni-kütləvi tədbirlər vasitəsi ilə xalqa, vətənə etdiyi xidmətlər təqdir olunmuşdur. Məktubda deyilir: «Ziya»nın 4 və 7 nömrələrində Seyid Əzim və Müşfiq cənablarının

---

[109] Yenə orada. vər. 159; 161.
[110] Bax : Azərb. MDTL. Fond, 291, siy. 2. sax. vah. 687, vər. 160.
[111] Yenə orada, sax, vah. 874.
[112] Yenə orada, sax. vah. 879, vər. 1.
[113] Yenə orada. vər. 16, 17; 25-27.
[114] Ətraflı bax: X. Məmmədov. «Əkinçi»dən «Molla Nəsrəddin»ə qədər. Bakı, Yazıçı, 1987, səh. 19-21.
[115] Bax: X. Məmmədov. Günahsız müqəssirlərdən biri... «Azərbaycan» jurn., 1992, № 11- 12, səh. 167.

qəsidələrini kəmali-həzz və məmnuniyyətlə oxuduq. Məzkur qəsidə müəllifi Ünsizadə haqqındə xeyli insafən sürud məqal ediblər. Zira Ünsizadənin dəröhdə olduğu əmr və niyyət mətbuat vasitəsilə rus müsəlmanlarını yuxudan oyatmaqdır. Biz və cümlə qəzetxanlar Ünsizadənin xidmətini və millət uğrunda çalışdığını qəsidələrsiz etiraf edənlərdənik. Amma bunun ilə böylə yenə özümüzə borc bilirik ki, məzkur Seyid Əzim ilə Müşfiqdən qaibanə izhari-təşəkkür edək. Zira onlar Ünsizadə haqqında insafanə cürud-məqal ediblər. Biz ümidvarıq ki, Şamaxı şəhəri Ünsizadənin yol göstərməsi ilə gündən-günə tərəqqi edəcək və «Ziya»nın nömrəsində əhvalı şərhi-bəyan olunan bir çox sərandab Nuxu şəhərlərindən mümtaz olacaqdır. Müsəlmanlardan sahibi-mərifət olanları etiraf edirlər ki, Ünsizadə biz bir cüt iki tək müştərilərdən ötrü bizlərə qəzetə verir, məktəblər açıb öz dilimizdə hər dürlü kitablar təsnif edib intişar etmək ilə və hər dürlü çox nəfe işlər görmək ilə biz rus müsəlmanlarının tərəqqi və nəfinə çalışır»[116].

Qəzet bu məktubu belə bir qeydlə çap etmişdir: «Bizim qəzet işlərinin tərəqqi və rəvacını dost tutanlardan bir möhtərəm zatın mətbəəmizə göndərdiyi rusiəl-ibarə bir məktubun tərcüməsini burada gətirdik. Bu məktubu dərc eyləməkdən məqsud ancaq bizim qəzetə işlərinə millətimizin nə göz ilə baxdıqlarını göstərməkdir».

Bütün bunlar o dövrdə tərəqqipərvər ictimaiyyətin «Ziya»ya münasibətini göstərmək baxımından da qiymətlidir. Məktub və qəsidələrdən görünür ki, S. Ünsizadənin qəzetçiliyi, məktəbdarlığı, dərslik yazıb çap etməsi və b. vətənpərvərlik fəaliyyəti müasirlərin bir çoxu tərəfindən düzgün qiymətləndirilib.

O ki qaldı «Əkinçi» və «Kəşkül»ün «Ziya»dan mütərəqqi mövqe tutmasına, bizcə, bu, H. Zərdabi ilə Cəlal Ünsizadənin aldığı təhsil və işlədikləri mühitdən irəli gəlir.

Vətənpərvərliyə gəldikdə isə o illərin mətbuatından alınmış aşağıdakı parçalar S. Ünsizadənin xidmətdəri haqqında müəyyən təsəvvür verir:

«Məlumdur ki, qəzet nəşr etmək kimi məsul bir iş üçün mətbəə, müxtəlif formalı və həcmli şrift, lap kiçik də olsa, bir mənzil, mürəttib, korrektor, ekspeditor və unutmamalı ki, kağız və s. üçün pul lazımdır. Hər bir dövrü mətbuatın nəşri və dəyəri bu amillərin məcmuu ilə ölçülür.

Tiflisdə nəşr olunan «Ziya» qəzeti zahirən maddi cəhətdən nə haldadır? Səid əfəndinin əzmi, öz işinə olan sədaqəti, rəğbəti bir çoxları üçün nümunə ola bilər. O, Şamaxıdan Tiflisə köçüb bu qərib şəhərdə özü üçün yenidən təsərrüfat yaratmış, qəzet nəşrindən ötrü öz hesabına lazım olan hər şeyi düzəltmişdir. Səid əfəndi mətbəə üçün ev almış, az qala özü şrift hazırlamış (çünki ustaların bu barədə təsəvvürü yox idi), qardaşlarını özünə köməkçi, oğullarını özünə mürəttib, qohumlarını korrektor, eskpeditor və s. qohum-əqrəbasını mətbəə və redaksiya

[116] «Ziyayi-Qafqasiyyə». 26 iyun 1884. Qeyd: Bu məktub müəllifinin XX əsrin əvvəllərində Bakıda vəkillik və jurnalistlik edən Mustafabəy Əlibəyov olduğunu güman edirik.

əməkdaşlarına çevirmişdir».[117]

Bu məqalədən başqa «Ziyayi-Qafqasiyyə»nin səhifələrində çap olunan digər məktubda isə S. Ünsizadə haqqında oxuyuruq: «...Başqa qəzetlər... iyirmi min müştəriləri ilə yenə görürsən ki, qəzetələrinin intişarına çətinliklə davam edirlər. Ünsizadənin bu növdən olan zəhmət və əməyini görüb etiraf eyləməməklik insaniyyətsizlik deyilmi? Bu fəqərəni qəvi ərbab mütalieyi-etiraf eyləsin.

Bu mülahizati-naçizanəmi ərz ilə izhari-təəssüf etməmək olmaz ki, bizim «rus müsəlmanları namına təsis olunan «Ziya» və «Tərcüman» və, «Kəşkül» qəzetlərini müsəlmanlar almayırlar. Məəhaza ki (halbuki - A. B.), bizimlə həmcüvar olan qəliləl əhdaz erməni və gürcü millətləri bir çox övraqi-həvadisi dara olmağı ilə bərabər hər tərəfdən o qəzetlərə kömək və himayət verirlər. Və onların davamına çalışırlar. Aya, onlardan bir misal əxz eyləmiyəkmi!»[118]

S. Ünsizadənin, ruhani silkinə mənsub olsa da, dövrünün tərəqqipərvər xadimlərindən olduğunu filologiya elmləri doktoru A. Zeynalov daha aydın və geniş izah etmişdir: «Ziya»nın redaktoru Səid Ünsizadə ruhani silkinə mənsub idi, uzun müddət ruhani idarələrində rəsmi vəzifə daşımışdı. Onun təhsilinin, dünyagörüşünün əsasını islam zehniyyəti təşkil edirdi. Lakin ruhani təhsilinə və ruhani məmuriyyətində olmasına baxmayaraq S. Ünsizadə ictimai həyatda baş verən yeniliklərə də biganə qalmamışdı. O, yenilikləri xalq arasında yaymaqla onları tərəqqiyə çatdırmaq istəyirdi. Redaktorun yaşayıb fəaliyyət göstərdiyi Tiflis mühitinin və qəzet ətrafında toplanmış mütərəqqi fikirli mühərrirlərin də ona müəyyən təsir göstərmiş olduğunu qeyd etmək lazımdır. Şübhəsiz, din məsələsində «Ziya» («Ziyayi-Qafqasiyyə») «Əkinçi»dən xeyli fərqlənirdi... O («Əkinçi» - A. B.), «dünya elmləri» təbliğ etməklə daha böyük faydalı xidmət göstərmişdi. Bu cəhəti biz zəif şəkildə «Ziya»da görürük».[119]

Bizsə, S. Ünsizadənin qəzet çıxarmağa təhrik edən amillər sırasına A. Zeynalovun dediklərindən əlavə onun vətənpərvərliyidir. S. Ünsizadə daha çox Qafqaz müsəlmanlarının tərəqqisi üçün çalışırdı. Yəqin ki, 76 nömrədən sonra qəzetin adının dəyişdirilərək «Ziyayi-Qafqasiyyə» qoyulmasını da burada axtarmaq lazımdır. İdarə bu addımını, gözdən pərdə asaraq, belə izah edir ki, guya təzə işə götürdükləri həkkak və nəqqaş ustaların hazırladıqları «Ziyayi-Qafqasiyyə» sərlövhəsi cazibədar olduğu üçün onu rədd eyləməyi rəva bilməyiblər.[120] Əslində qəzetin adında edilən bu düzəliş «Ziya»nın ümumi ziyalıqdan çıxıb Qafqaza məxsus olması məqsədinin ifadəsidir. Çünki digər

---

[117] «Kavkaz» qəz., 5 mart 1881. Sitat A. Zeynalovun Azərbaycan dövri (mətbuatının ekspozisiyasında əksi («Ziya» qəzeti haqda qeydlər) məqaləsindən götürülmüşdür. Bax: Nizami adına Azərbaycan Dövlət Ədəbiyyatı muzeyinin əsərləri, Bakı, 1968, s. 56. Qeyd: İbrahim Əmirxanyansın bu məqaləsinin xülasəsi «Ziyayi-Qafqasiyyə»nin 11 aprel 1881-ci il tarixli nömrəsində də verilmişdir.

[118] «Ziyyi-Qafqasiyyə», 26 iyun 1884.

[119] A. Zeynalov. «...«Ziya» qəzeti haqqında qeydlər». Nizami adına Azərbaycan Dövlət Ədəbiyatı Muzeyinin əsərləri B, 1968. s. 63.

[120] «Ziyayi-Qafqasiyyə» dekabr 1880.

müsəlman məmləkətlərində az-çox qəzet çıxdığı halda Qafqaz müsəlmanları belə bir nemətə «Əkinçi»dən sonra yalnız «Ziyayi-Qafqasiyyə» ilə çatmışdılar. Odur ki, S. Ə. Şirvani qəzetin nəşrini sevinclə qarşılayaraq yazırdı:

Xeyli dəmdən bu feyzə raqib idik,
Bir əziz ustada talib idik.
Şükr-lillah ki, hasil oldu məram,
Seyyida, şükr qıl bu halə mudam.[121]

Qəzetdə Şamaxı ədəbi mühitindən ən çox Seyid Əzim Şirvani iştirak etmişdir. Onun «Ziyayi-Qafqasiyyə»də çıxan şerlərinin əksəriyyəti şairin «Əkinçi» səhifələrində müdafiə və təbliğ etdiyi maarifpərvərlik ideyalarının davamı və inkişafı idi.

Məsələn, onun şerlərinin birində oxuyuruq:

Oxuyuruq biz qəzetlər əhvalın,
Ta bilək əhli-aləmin halın
Ki, görək xalq nə kəmaldadır,
Qeyr nə fikru, nə xəyaldadır.
Özgələr eyləyib tərəqqiyi-tam,
Niyə biz qalmışıq bu növ avam?
Niyə biz bunca bikamal olduq?
Ayaq altında payimal olduq?
Bəsdi tədrisi dərsi - «Kürbəvü muş».
«Leyli-Məcnun», «Bəsfi-badəfuruş».[122]

Bu tipli şerlərdə tərəqqipərvər, maarifçi ideyaların təbliğindən əlavə Seyid Əzim «Leyli və Məcnun» xarakterli əsərlər, ümumiyyətlə, məhəbbətin tərənnümünə həsr olunan, meyin tərəfindən dəm vuran ədəbiyyat, daha doğrusu, belə əsərlərə aludə olub müasir ideyalara biganəlik göstərənlər haqqında tənqidi fikirlər yürüdür. Deməli, 1876-cı ildə «Əkinçi» səhifələrində Əhsənül-Qəvaidin məqaləsinə etiraz edən Seyid Əzim 1880-cı ildə artıq mey və badəni tərənnüm etməklə işini bitmiş hesab edən ədəbiyyatdan, qismən də olsa, imtina edirdi. Bu, şairin ideya-bədii inkişafındakı yeni əlamətlərdən xəbər verirdi.

Onu da qeyd edək ki, şairin özünün yeni ruhlu əsərləri forma cəhətdən də təzədir. Lakin «Ziya» («Ziyayi-Qafqasiyyə») səhifələrində çap olunan əsərlərin çoxunda qəsidəçiliyin hökm sürdüyünü təəssüflə qeyd etməklə, onu da göstərməliyik ki, bu, bir tərəfdən XIX əsr Şərq şerinə xas olan məhdudluqdan irəli gəlirdisə, eyni zamanda Şamaxı («Beytüs-səfa») şairlərinin epiqonçu poeziya

[121] "Ziya" qəzeti, 24 Aprel 1880.
[122] Yenə orada.

məngənəsindən hələ tam yaxa qurtara bilməmələri ilə bağlı idi. Təsadüfi deyil ki, «Beytüs-səfa»nın aparıcı şairlərindən olan Molla ağa Bixudun «Ziya»da dərs olunan yeganə şeri də mədhiyyədir. Şer belə başlayır:

İlahi, dövləti-Rusiyyə daim bərqərar olsun,
Binayi-şövkəti-mülki cahandan istihar olsun!
Aleksandr ki, zilli-həqq şahənşahi-mütləqdir
Ona əltafi-yezdan, fəzli-sübhan bəxtiyar olsun.[123]

Qəzetdə çap olunan «Tiflis 7 fevral» başlıqlı yazıda II Aleksandra olunan sui-qəsdin baş tutmamasından danışılır və bu zaman S. Ə. Şirvaninin «Necə gör şahə bəxti yar oldu» misrası ilə başlanan mədhiyyə xarakterli şeri yada düşür.[124] Bu da təsadüfi deyil. A. Zeynalovun yazdığına görə, «S. Ünsizadə, eyni zamanda şair idi. (Bunu yuxarıda onun dərsliyindən bəhs edəndə də gördük - A. B.). Köhnə formada, çox vaxt sxolastik məzmunda şerlər yazırdı, əldə dəqiq məlumat olmasa da, ehtimal ki, o, «Beytüs-səfa» şairlər məclisinə yaxın olmuşdur. Əsərləri qəzəl, qəsidə və oğluna nəsihət tərzində yazılmış mənzumələrdən ibarətdir. Sənətkarlıq cəhətindən zəif olan bu mənzumələrin ictimai əhəmiyyəti də çox azdır».[125]

Bu mülahizələrlə yanaşdıqda varlığı ərzində «Ziya»nın elan etdiyi yeganə ədəbi müsabiqənin[126] nə üçün məhz güldən, bülbüldən bəhs edən qəzəl üzrə olduğu aydınlaşar.

Türkiyə şairi Münif paşanın qəzəlinin dərsində (qəzet şairlərə Munif paşanın «Ey bülbül» qəzəlini təqdim etmişdi) iyirmi gün sonra «Ziyayi-Qafqasiyyə»də çap olunan «Qəzəli-Türki»[127] belə təqdim olunmuşdu: «Şüərayi-vətəndən səadətməab Hacı Seyyid Əzim Şirvaninin idarəmizə göndərdiyi vərəqədir». S. Ə. Şirvani qəzəllə birlikdə S. Ünsizadəyə aşağıdakı məktubu da yazmışdı:

«Mövlana... - Ünsizadə.

Cənab Münif Paşanın «Ziya»da dərc olunan «Ey bülbül» rədifli qəzəli-abdarı şüəra və ürəfaya biş ərməğani-vafi və hədiyyeyi-kafi olduğundan bizləri nəhayət mərtəbədə məsrur eylədi. Ərbabi-zövqə fərəh-bəxş olduğundan ümidvarıq ki, ona nəzirə olan qəzəllər tədris ilə təb və nəşr oluna.

Rica edirəm ki, qəzəli-məzkurə nəzirə hesabında yazdığım qəzəli-naçizimi «Ziya»nın bir guşəsində dərc edəsiniz».

Seyid Əzimin bu qəzəli nəzirə olsa da, sənətkarlıq cəhətdən yaxşıdır. 12 beytlik həmin qəzəl ictimai məzmundan da xali deyil. Məsələn:

---

[123] "Ziya" qəzeti, 20 dekabr 1879.
[124] Yenə orada, 7 fevral 1880.
[125] A. Zeynalov. «...«Ziya» qəzeti haqqında qeydlər». s. 63-64.
[126] «Ziyayi-Qafqasiyyə» qəz., 7 may 1882.
[127] «Ziyayi-Qafqasiyyə» qəz., 27 may 1882.

...Xəzan qəmilə məgər xatirin hərasandır,
Bahari-vəcldə artar fəğanın, ey bülbül?
Baharım oldu xəzan, qoy mən eyləyim nalə,
Sənin ki, döndü bahara xəzanın, ey bülbül.
...Zaman-zaman fərəhin var təbəssümi-güldən,
Xoşa bu günə, keçə hər zamanın, ey bülbül.
...Hə ayı xar ilə dutma sən qərarü şəkib,
Qızıl qəfəs ola gər aşiyanın, ey bülbül.

İctimai həyatın məşəqqətlərindən zara gələn şair zaman-zaman gülün təbəssümündən fərəhlənən bülbülə qibtə ilə özünün də ömrünün bu cür keçməsini arzulayır. «Şair və bülbül» kimi Şərq şeri üçün ənənəvi mövzuda yazılmış bu əsərində Seyid Əzim öz lirikası üçün səciyyəvi olan şux əhvali-ruhiyyə ilə bərabər həzin bir qüssə də ifadə etmişdir.

Bununla belə, XIX əsrin 80-ci illərində Şamaxı ədəbi mühitinə mənsub şairlərin yaradıcılığında ictimai motivlər güclənməyə başlayır. Bu hal onların yaradıcılıq əməkdaşlığı etdikləri Bakı, Qarabağ, Lənkəran və başqa yerlərdə fəaliyyət göstərən ədəbi məclis üzvlərinə göndərdikləri şerlərdə nəzərə çarpmaqla, Azərbaycan ictimai-ədəbi fikrinin o zamankı axtarış və uğurlarından xəbər verir. Çünki Şamaxıdakı «Beytüs-səfa» ədəbi məclisinin üzvləri və digər müəlliflər Azərbaycanın başqa inzibati və mədəni mərkəzlərində fəaliyyət göstərən qələmdaşları ilə həm fərdi, həm də kollektiv yaradıcılıq əlaqələri saxlayırdılar. Digər həmkarları kimi, Şamaxı ədəbi məclisinin üzvləri də həm şəhər, həm də bütövlükdə ölkə həyatında gedən yeniləşmənin fəal iştirakçısı kimi mətbuatda, məktəblərdə və digər maarif-mədəniyyət obyektlərində fəal iştirak edirdilər. Onlar xalqı maarifə səsləyir, gözəllik və incəliyi vəsf edir, ictimai həyatda qarşılaşdıqları eybəcərlikləri isə kəskin tənqid atəşinə tuturdular. Bu ədəbi məclislərin hər biri vahid Azərbaycan ədəbi-bədii fikir axarının qolları olmaqla, birinci növbədə Azərbaycan ədəbiyyatının ənənələrinə söykənirdi. Eyni zamanda, onlar özlərində fəaliyyət göstərdikləri regionun xarakter cəhətlərini də əks etdirirdilər. Belə ki, Şamaxıda ədəbiyyatın Əfzələddin Xaqani, İmamәddin Nəsimi, S. Ə. Şirvani və b. zirvələri bu regionda fəlsəfi; lirik, satirik və ictimai ənənələrin aparıcılığına zəmindirsə, Qazax və Şuşa ədəbi məclislərində lirikanın, xalq şeri və klassik ədəbiyyatının ən mövqədə olması bir tərəslidən M. V. Vidadi, M. P. Vaqif poeziyası və aşıq şerinin təsiri ilə bağlı idisə, digər tərəfdən hər iki regionun güclü musiqi ənənələrinə malik olmasından irəli gəlirdi. Bunlardan Şuşa (Qarabağ) mühitində satiranın davamlılığını bir tərəfdən Q. Zakirin yaradıcılığının təsirində axtarmaq lazımdırsa, eyni zamanda, onların «Beytüs-səfa» ilə yaradıcılıq əlaqələri də nəzərə alınmalıdır. Bakıdakı ədəbi-ictimai mühit burada sənayenin inkişafı ilə əlaqələr özünü göstərən rus və Qərbi Avropa ruhunu da ifadə etməyə çalışırdı.

Bakı Azərbaycan dərdlərinin çarəsini aramaq funksiyasını (Səhhət) inzibati, ictimai-siyasi və ideya-bədii cəhətdən öz üzərinə götürməyə başlayırdı. Həm tarixi əlaqələri, coğrafi yaxınlıqları, həm də inzibati cəhətdən bir quberniyaya daxil olmaları Bakı və Şamaxı ədəbi mühitləri arasında daha sıx və rəngarəng yaradıcılıq əməkdaşlığına meydan açırdı. Bütün bunlar xüsusi tədqiqat mövzusudur.

* * *

Ədəbiyyatşünaslıqda S. Ə. Şirvaninin elmi publisist əsərləri haqqında da söhbət getmişdir. Filologiya elmləri doktorları Sadıq Hüseynov, Ağay rəfi Zeynalov, Zaman Əsgərli, filologiya elmləri namizədi Əlifağa Bağırov isə şairin publisist fəalliyyətinə xüsusi məqalələr həsr etmişlər.[128] Həmin məqalələrdə Seyid Əzimin əsasən «Ziya» («Ziyayi-Qafqasiyyə») qəzetindəki (qismən də «Kəşkül»də) müxbir yazılarından söhbət açmışlar.

S. Ə. Şirvaninin ilk məqaləsi 1876-cı ildə «Əkinçi»də Əhsənül-Qəvaidə cavab olaraq yazılan «Şüərayi-ərbəeyi-Şirvan» imzalı məktubdur. Onun müxbirliyindən bəhs edən müəlliflər bir qayda olaraq, «Ziya»da («Ziyayi-Qafqasiyyə») «S» imzası ilə çıxan yazıların əksəriyyətini Seyid Əzimə aid etmişlər. Məsələn, Ə. Bağırov «Ziya»nın Tiflisdə rast gəldiyi əlli nömrədən ibarət 1879-1880-ci illəri əhatə edən) komplektinə əsasən qələmə aldığı məqaləsində yazır ki, «Ziya» qəzetində Şamaxının vəziyyəti haqqında müxbir məktublarının əvvəlinci ikisi «S» imzası ilə, beşi imzasız, dördü... (üç nöqtə) imzası ilə çıxmış, birinin isə Seyid Əzimdən gəldiyi redaksiya qeydində göstərilmişdir. Həm də «S» imzası ilə və imzasız verilən məktublarda «ikinci qism məktublardan fərqli olaraq, Şamaxının «mötəbər adamları»na toxuna biləcək iradlar vardır. Görünür, Seyid Əzim nöqsanlardan danışmaya bilməmiş, lakin «nüfuzlu adamların» təqibindən qorunmaq üçün məktublarına açıq imza atmamışdır. «S» imzası ilə və çap olunan məktublarla imzalı məktublar arasında üslub, dil etibarilə əhəmiyyətli fərq yoxdur. Buna görə də həmin məktubların hamısının Seyid Əzim tərəfindən yazıldığını ehtimal etmək olar».

Ə. Bağırov kimi, A. Zeynalov da Seyid Əzimin «Ziya»ya «S» imzalı müxbir yazıları göndərərək burada şairin qəhətlikdən, Şamaxıda neft quyusunun qazılmasından, məktəb, əkin, qaçaqçılıq və sairdən danışdığını göstərir. Görünür, mərhum mətnşünas alim, filologiya elmləri namizədi Süleyman Rüstəmovun «S» imzalı həmin məqalələri S. Ə. Şirvaninin üç-cildlik əsərlərinin üçüncü cildinə (Bakı, Elm, 1974) salmasında yuxarıdakı mülahizələr də öz rolunu oynamışdır. Nəticədə, bu mənbələrə istinadən yazdığı «S. Ə. Şirvani və dövri mətbuat» məqaləsində Z. Əsgərli «S» imzalı məqalələri Seyid Əzim qələminin məhsulu kimi

---

[128] Bax: S. Hüseynov. Seyid Əzim Şirvaninin yaradıcılıq yolu. Bakı, Elm, 1977, s. 36-38; Ə. Bağırov. Seyid Əzimin müxbir məktubları. «Ədəbiyyat və incəsənət» qəz., 9 iyul 1960; A. Zeynalov. S. Ə Şirvani dövri mətbuatda. «Ədəbiyyat və incəsənət» qəz., 10 İyul 1965; 3. Əsgərli. S. Ə. Şirvani və dövri mətbuat. Azərb SSR EA-nın Xəbərləri (ədəbiyyat, dil və incəsənət ser-sı) 1988, №2, s. 9-13.

təhlil edərkən, yuxarıda bəhs etdiyimiz kimi, elmi mülahizələrdə şair haqqında bir sıra dolaşıqlığa yol vermişdir.

Şairin kitabına salınan həmin məqalələrin çoxu Seyid Əzimə mənsub olmadığı kimi, oradakı uğurlu və ziddiyyətli fikirlər də S. Ə. Şirvaniyə aid deyil.

«S» imzalı məqalələri qeyd-şərtsiz şairin adına çıxanlar belə bir mülahizəyə əsaslanmışlar ki, «Ziyayi-Qafqasiyyə» və «Kəşkül»ün Şamaxı üzrə müxbiri, guya, məhz Seyid Əzim olmuşdur. Həmin mülahizə səhv olduğu kimi, ona əsasən Şamaxıdan göndərilən məqalələri ucdantutma Seyid Əzimə aid etmək də yanlışdır. Hətta redaksiyanın müxbir məktubları əsasında yazdığı açıq-aşkar bilinən məqalə də şairin adına çıxılıb. Bunlardan biri kitabın (S. Ə. Şirvani. Əsərləri. Üç cilddə. III c., Bakı, 1974,) 424-cü səhifəsindəki «Şamaxıdan əfsəhüşşüəra Hacı Seyid Əzim Şirvani...» sözləri ilə başlanan məqalədir.

Məqalədən məlum olur ki, S. Ə. Şirvani şerlə birgə Şamaxıdakı mövcud vəziyyətdən bəhs edən məktub da göndəribmiş. Şeri çap edən redaksiya onun əvvəlində Seyid Əzimin məktubunun mətnini deyil» onun redaksiya xülasəsini vermişdir. Bu xülasə Seyid Əzimin məktubu əsasında yazıldığı üçün olsa-olsa həmin şerin («Əla, ey müxbiri-sadiq...») salındığı ikinci cildin izahlarında verilə bilər. Onu şairin orijinal məqaləsi kimi təqdim etməksə, düz deyil.

Bunu yenə bərk ayaqda «müdafiə etmək» olar ki, hər halda fikir, xəbər S. Ə. Şirvaninindir. Növbəti 425-ci səhifədəki «Şamaxıdan yazırlar ki,... » sözləri ilə başlayan məqalə isə tamamilə başqa bir müəllifə aiddir. Özü də imzasız. Halbuki, Seyid Əzim Şirvani «Ziyayi-Qafqasiyyə»də çap etdirdiyi müxbir yazılarını açıq imza ilə göndərmiş, elə qəzetdə o cür çıxmışdır. Yalnız bir dəfə imzasını «H. S. Ə» şəklində inisialla göstərmişdir ki, bu da əslində tam gizli imza deyil.

Redaksiya, Seyid Əzimin həm şerini, həm müxbir məktubunu çap olanda isə, haqlı olaraq, eyni nömrədə bir müəllifin iki müxtəlif janrlı əsərini verməyi məqsədəuyğun saymasa da, həmin məktub və məlumatın başqa bir şamaxılı tərəfindən deyil, məhz Seyid Əzimin kəraməti sayəsində redaksiyaya daxil olduğunu bildirməyi lazım bilmişdir. Bu cür təqdimatın özündə də Seyid Əzimə olan dərin hörmət və ehtiramı görmək mümkündür.

«Şamaxıdan yazırlar...» ifadəsindən və bütün mətndən məlum olur ki, bu yazı müxbir məktubları əsasında məhz redaksiya tərəfindən yazılıb. Əgər oradakı xəbərlər də digər müəllifə deyil, Seyid Əzimə aid olsaydı, redaksiya öz ənənəsinə və şairə olan ehtiramına sadiq qalaraq, bunu oxucuların nəzərina çatdırırdı.

Ə. Bağırov «S» imzasını Seyid Əzimə aid edərkən həmin yazılarda Şamaxının mötəbər adamlarının tənqid olunduğunu və şairin özünü bu nüfuz sahiblərindən qorumağa çalışmaq cəhdi ilə əlaqələndirir. Bu, doğru deyil. Əvvəla, ona görə ki, «S» imzalı həmin məqalələrdə əksərən yalnız təsvir və məlumatdan başqa bir şey yoxdur. Odur ki, «tənqidə» görə heç bir hücum ola bilməzdi. İkincisi də etdiyi tənqid müqabilində baş verə biləcək hücumdan qorxan adam Şamaxının bəylərini, digər «mötəbər» adamlarını açıq-açığına həcv etməzdi. Əksinə, bu nüfuz

sahibləri Seyid Əzimin poetik istedadı, Seyidliyi, nüfuzlu olması ilə hesablaşırdılar. Bir də şair kimi ifşa etməyi, kimə hörmət etməyi çox yaxşı bilirdi. Bundan başqa rəsmi sənədlərin birində deyildiyi kimi, Seyid Əzim çox arxalı adam idi... Belə olmasaydı, müəllimlikdən çıxarılanda ruhani məclisinin təkidi ilə yenidən əz yerinə bərpa edilməzdi (yəqin ki, bu işdə Zaqafqaziya ruhani idarəsinin üzvü Səid əfəndinin də müəyyən rolu olmuşdur). Eyni zamanda, əleyhdarı onu xaincəsinə yox,* xüsusi qurğu ilə açıq-açığına məhv edirdilər.

Məqalələrin dil və üslub yaxınlığı isə həm də onların eyni mətbuat orqanında çap olunmasından irəli gəlir.

Bir məsələni də qeyd etmək yerinə düşər; S. Ə. Şirvani müxbir məktublarında da öz şairliyinə sadiq qalaraq mətn daxilində şer parçalarından (s. 426-427-dəki məqalə istisna olmaqla) istifadə etmişdir. Bu hal onun «Əkinçi»dəki məqaləsində də görünməkdədir. «S» imzalı məqalələrdə isə bu səciyyəvi hal yoxdur.

Kitabın 418-419-cu səhifələrindəki (...) imzalı məqalədə bir beyt şer verilməsi həmin məqalənin Seyid Əzimə aid olması haqda kifayət qədər əsas verməsə də, o məqalənin müəllifliyi barədə hələ bir söz deyə bilmirik.

«Keçən həftədən bəri Şamaxıda...» sözləri ilə başlanan «Şamaxıdan məktub» (s. 417) isə qəzetdə «S» yox, «Həsən» imzası ilə çap olunmuşdur. Bu məqalə barədə danışan mütəxəssislər ərəb əlifbası ilə Həsən sözünün yazılışının şəkilcə sad hərfinə oxşamasına fikir vermədiklərindən Həsən sözünü «S» oxuyaraq səhvə yol vermişlər.

Seyid Əzimə aid edilən məqalələrdən biri də «Siz Şamaxıda olan vəqtdə» sözləri ilə başlanan «Şamaxıdan məktub»dur (s. 439) Bu məqalədən məlum olur ki, Səid Ünsizadənin Şamaxıda açdığı «Məclis»si axund Ələsgər məktəbə kömək etmək istəyənlərə, və Məktəbin davamına mane olmağa çalışır. O, Şamaxının sünniməzhəb mötəbərlərindən Həsən bəyin, Məcid əfəndi və sultan Mahmud bəyin məktəbə kömək etməklə əlaqədar xahişlərinə qulaq asmamışdır. Şamaxı ruhani məclisinin sədri İbrahimxəlil əfəndinin bu barədəki xeyirxah cəhdləri də səmərəsiz qalır və s.

Həmin məsələ ilə əlaqədar bəhs edən müəlliflər məqalənin «S» imzasına və Seyid Əzimin «Məclis: məktəbində müəllim işləməsinə istinadən bu məqaləni də onun qələminin məhsulu hesab etmişlər. Halbuki məqalənin axırlarında oxuyuruq: «Bu ixtilaf Molla Əliəsgər axundun (şiə qazisinin-A. B.) dövlətindəndir.

Mahəza ki, məktəbin müəllimi və onda oxuyan otuz nəfər uşaqdan iyirmi beş nəfəri şiəməzhəbdir. Amma biz bu vaxta qədər fərq verməmişik ki, bu şiədir ya sünnidir».

Burada müəllim S. Ə. Şirvani idi. Onun şiəməzhəb olması isə faktdır. Əgər

---

* Seyid Əzimin ölümü ilə əlaqədar bax: Seyid Əzim Şirvaninin yaradıcılıq yolu. Bakı, Elm, 1974, səh. 56-57; K.Məmmədov. XIX əsr Azərbaycan şeirində satira. Bakı, Elm, 1975, səh. 136; Ə.Mirəhmədov. Azərbaycan Molla Nəsrəddin. Bakı, Yazıçı, 1980, səh. 30.

məqalə müəllifi Seyid Əzim olsa idi, o, müəllimin və otuz nəfər şagirdən iyirmi beşinin şiə olması haqda «amma biz bu vaxta qədər fərq verməmişik ki, bu şiədir, ya sünnidir» sözlərini qətiyyən yazmazdı. Həmin cümlələrdən aydın olur ki, məqalə müəllifi sünniməzhəbdir.

Deməli, «S» imzası haqda hələlik iki şey aydın olur; birincisi, bu imza S. Ə. Şirvaninin deyil, ikincisi həmin imzadan «Ziyayi-Qafqasiyyə»də Səid Ünsizadə və sünniməzhəb başqa bir adam istifadə etmişdir. Eyni zamanda «Ziyayi-Qafqasiyyə»nin Şamaxı müxbiri Seyid Əzim olmadığı kimi, Şamaxı müxbirindən alınan məktublar da S. Ə. Şirvaninin deyil başqa bir adamın qələm məhsuludur.

Deyilənlərdən aydın olur ki, «S» imzalı və digər məqalələri S. Ə. Şirvaniyə aid edən müəlliflər aşağıdakı cəhətləri nəzərdən qaçırmışlar; birincisi Seyid Əzimin öz məqalələrini «Ziyayi-Qafqasiyyə»də açıq imza ilə çap etdirməsini, ikincisi, məqalələrində də, şairliyinə sadiq qalaraq, şer parçalarından istifadə etməsini, üçüncüsü, məqalənin yaranma səbəbi və ya müəllifin aydınlaşdırılması üçün mövcud olan faktları, dördüncüsü məqalə daxilində onun müəllifini müəyyən qədər də olsa, nişan verə biləcək cümlə və ifadələrin ola biləcəyini, beşincisi, Seyid Əzimin «Ziyayi-Qafqasiyyə»nin Şamaxı müxbiri olmadığını altıncısı, məqalələrin redaksiya tərəfindən də yazıldığını və hamısının eyni mətbuat orqanında çıxdığı üçün dil və üslubca yaxın ola biləcəyini, yeddinci, imzanı düzgün oxumağı. Bütün bunlar atribusiya məsələsində nəzərə alınması vacib olan şərtlərdəndir.

***

«Ziyayi-Qafqasiyyə» bağlanmamışdan qabaq Tiflisdə Səid Ünsizadənin kiçik qardaşı Cəlal Ünsizadənin redaktor-naşirliyi ilə «Kəşkül» məcmuəsi (sonralar qəzet şəklində çıxmışdır) nəşrə başlandı. Maraqlıdır ki, XIX əsrdə Azərbaycan türk dilində intişar tapan bütün mətbuat orqanlarının («Əkinçi», «Ziya», «Ziyayi-Qafqasiyyə» və «Kəşkül») redaktor-naşiri Şamaxı ictimai-ədəbi mühitindən çıxmışdır. Təkcə bu faktın özü XIX əsrin sonlarında Şamaxı ədəbi-ictimai mühitinin necə potensial imkanlara malik olduğundan xəbər verir. Bunun nəticəsi idi ki, XX əsrin əvvəllərində ədəbi-ictimai-mədəni mübarizə meydanına Şamaxıdan M. Ə. Sabir, M. Hadi, A. Səhhət, S. M. Qənizadə (XIX əsrin sonlarından), M. Mahmudbəyov və b. şəxsiyyətlər atılaraq, geniş fəaliyyət göstərib Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində silinməz izlər qoydular.

«Kəşkül»ün də əsas müəlliflərindən biri Seyid Əzim Şirvani idi. Seyid Əzimdən başqa burada Müşfiq Xaksər Şirvani, Nazim Şirvani kimi Şamaxı şairlərinin də şerləri çap olunmuşdur. Bundan başqa, Seyid Əzim haqda buraxılan bir neçə məqalə, Cəlal Ünsizadənin tərcümələri, Aleksandr Şirvanzadənin «Əsəd və Fatma» hekayəsi və s. də Şamaxı ədəbi mühitinin məhsulları sırasına daxildir. «Beytüs-səfa» şairlərinin, tək-tək də olsa, çıxan kitabları, rusdilli çap məhsullarında gedən əsərlər də Şamaxı ədəbi mühitinə aid edilməlidir. Bütün bunlar XIX əsrin sonlarına doğru Şamaxı ədəbi mühitinin ictimai-bədii boyartımını təsəvvür etməyə imkan verir.

S. Ə. Şirvaninin mətbuat aləmində «Əkinçi»dən başlayan fəaliyyəti «Kəşkül»də daha məhsuldar olmuşdur. Bu, «Kəşkül»ün redaktor-naşiri Cəlal Ünsizadənin mütərəqqi görüşləri və ədəbi-ictimai yazılara xüsusi fikir verməsi ilə də əlaqədar idi.

Seyid Əzimin «Kəşkül»də iştirakı ilə əlaqədar Ağarəfi Zeynalov yazır:

«Qəzetdə Seyid Əzimin bir neçə şerinə rast gəlirik. Burada həyatı və fəaliyyəti ən çox işıqlandırılmış şair də S. Ə. Şirvanidir. Özündən əvvəlki Azərbaycan qəzetlərindən fərqli olaraq «Kəşkül» şairin yaradıcılığından da bəhs etmişdir. Bu məqalələrdəki bəzi məlumatlar Seyid Əzimin həyatını, habelə yaradıcılığını öyrənmək üçün çox faydalıdır.

Bu mülahizələrə görə güman etmək olar ki, S.Ə.Şirvani "Kəşkül"ün nəşrə başladığı ilk günlərdən onun işində yaxından iştirak etmiş, şeirlərini orada dərc etdirmişdir".[129]

Son tədqiqatlar alimin bu fikrinin təsdiq etmişdir. Filologiya elmləri doktoru İslam Ağayev "Kəşkül"ün həmin nömrələrini tapmışdır.[130]

İkinci şer isə "Çoban və yexisərd"[131] adlanır ki, bu şer S.Ə.Şirvaninin əsərləri külliyyatlarında "Çoban və hekayəsi" şəklində verilmişdir. Lakin şerin sonuncu -

"Burada adın qoyub yexisərd"

misrası təhrif edilib.

Onun da deyək ki, rəvayətin adı İ.Ağayevin göstərdiyi kimi "Atalar sözüdür" deyil. Başlıq belədir: "Kor atlandı, öz kəndini basdı". Başlığın altında verilən ("Atalar sözü") ifadəsi isə rəvayətin başlığı yox, başlıq haqda bir növ qeyddir.

"Kor atlandı, öz kəndini basdı" atalar sözünü açan rəvayətin maraqlı olacağını və "Kəşkül"ün nadir nüsxəsində qaldığını nəzərə alıb burada tam mətnini veririk.

"Kəşkül"ün həmin nömrəsində çap olunan "Qurani-əzimüşşan və çobani-nadan" şerində isə şair maarif ziyasından uzaq qalan çobanın nadanlığına gülür. Belə ki, yolda Quran görən çoban özünə həmsöhbət tapdığına sevinir. Lakin onun nə qədər vərəqləyirsə, Quran çobanla "danışmır". Bundan qəzəblənən çoban kitabı çomaqla döyür:

...Urdu Qurana bir neçə cəgənək,
Dedi: Gördü çobanı oldu gənək.

---

[129] A. Zeynalov. "Kəşkül"də bədii ədəbiyyat. Bakı, Elm nəşriyyatı. 1978, s. 80-81.

[130] İslam Ağayev. "Kəşkül" jurnalının yeni tapılmış altı nömrəsi barədə. Azərbaycan SSR EA-nın məruzələri, cild XLV, 1989, № 2, s. 80-82.

[131] Yexisərd – farsca, buz.

Mollanı görsə, mırt-mırt danışar,
Lal olur, bizdə bildigin də çaşar.[132]

Əsərin əsas ideyası oxucuları elmə, biliyə yiyələnməyə çağırışdır. Bununla belə, o dövrdə Şamaxıda qəzəlxanlıq, qəsidəçilik də öz mövqeyini saxlamaqda idi ki, həmin mövqeyi o illərdə Şamaxı şairləri tərəfindən «Kəşkül»də dərc olunan əsərlər də əks etdirməkdədir. Fikrimizə S. Ə. Şirvaninin «Nədəndir gec açırsan ruyi-rəvanədən niqab, ey gül»,[133] «Gərçi dil seydinə, ey dil, xəttilə xalın var»,[134] misrası ilə başlanan qəzəlləri, «Aasar və əşarı ləzzətbəxşi-məzaqi-ürfan olan mərhum «Nazim» Şirvaninin «Bahariyyə üsni-əşriyəsindən iki fəqərə»si[135] dayaq ola bilər. Bu da Şamaxı ədəbi mühitinin ümumən Azərbaycan ədəbi mühitinin tərkib hissəsi olmasından irəli gəlir. A. Zeynalovun dediyi kimi, o dövrdə «baharı, azad sevgini, intim hissləri tərənnüm edən qəzəl, müsəddəs və başqa formada şerlər «Kəşkül»də daha çox çıxmışdır».[136] Onu da qeyd edək ki, o dövrdə «Beytüs-səfa» və başqa ədəbi məclislərin üzvlərini «eşq» haqqında şerlər yazmağa çağıran adamlar da var idi.[137] Bu, adamların hələ qəzəl, qəsidə ədəbiyyatına olan tələbatından irəli gəlirdi ki, dövrün sənət ustaları, o cümlədən Şamaxı şairləri ictimaiyyətin tələbi ilə bu və ya başqa dərəcədə hesablaşırdılar. Əlbəttə, əsrlərdən bəri davam edən ədəbi ənənələrdən yeni normalara keçidin mürəkkəb ideya-bədii və mənəvi-psixoloji dövründə bu cür hallar təbii idi. Lakin Şamaxı ədəbi mühitində zəmanədən şikayət motivləri, ictimai haqsızlıqların tənqidi və başqa cəhətlər də aparıcı qollardan olmuş, getdikcə öz mövqelərini möhkəmlətmişdir ki, bu da yeni meyllərin güclənməsindən, təsir qüvvəsinin artmasından irəli gəlir. Məsələn, əsasən qəzəl və qəsidə şairi kimi tanınan Müşfiq Şirvaninin Cəlal Ünsizadəyə nüraciətlə yazdığı şerdə[138] elmə və biliyə dərin rəğbətlə bərabər dövrün, zamanın cövhəri-səfasından şikayət motivləri də qüvvətli idi.

...Bir yan zəmanə mahnəti, bir yan fələk qəmi,
Bir yan eydü bəd'i-kukəlmi nar-cəfa, Cəlal.
Qalmış qəmu müsibətə dövr-qəza məni,
Eylər qəmim həmişə qəza ittiza, Cəlal.
Ləbər bəla, zəmanə bəla, dərtəza bəla,
Oldum əsəb bəlalara mən mübtəla, Cəlal.

Şair bu bəlaların nədən, haradan, hansı səbəbdən yarandığını da izaha

---

[132] Yenə orada. s. 24.
[133] "Kəşkül", 5 may 1885, № 14.
[134] Yenə orada. 10 may 1885, № 21.
[135] "Kəşkül", 24 may 1885.
[136] A.Zeynalov. "Kəşkül"də bədii ədəbiyyat. Bakı, Elm, 1978, s. 80.
[137] "Kəşkül", 4 dekabr 1890.
[138] Yenə orada, 4 sentyabr 1885.

çalışaraq yazır:

> ...İş bir yerə çatıb ki, bu aləmdə hər kimin
> Yaxşı libası olsa, deyirlər Ağa, Cəlal.
>
> Hər kim ki, mən kimin ola köhnə libaslı,
> Bir kimsə saymaz, olsa əgər padşah, Cəlal...
>
> Ahu fəğan qəsəmni qıldı payimal,
> Bu dövrdən bana yetişir çox əna,   Cəlal.

Göründüyü kimi, müəllifi narahat edən əsas cəhət cəmiyyətdə fəzilət əhlinə deyil, zinət, var-dövlət sahibinə daha üstün yer verilməsi məsələsidir. Dövrün ziyalıları vəziyyətdən çıxış yollarından birini mətbuat şəbəkəsinin genişləndirilməsində görürdülər. Bu cəhətdən «Ziyayi-Qafqasiyyə»nin nəşrini bərpa etmək üçün göstərilən cəhdlər diqqətəlayiqdir .«Kəşkül»də dərc olunan bir xəbərdə oxuyuruq: «Ziyayi-Qafqasiyyə»nin Tiflisdəki mətbəəsi və bu mətbəənin litoqraf və tipoqraf dəstgahı bu halda Şamaxıya nəql olunur. Mətbəə hürufat və sair xüsusatca təkmil olunub yanvar ibtidasından məzkur qəzetə orada təzədən təcəddüdü-intişar edəcəkdir».[139]

Lakin «Ziyayi-Qafqasiyyə» öz nəşrini Şamaxıda bərpa edə bilməyib, onun mətbəəsi kitab və təqvimlər nəşri ilə kifayətlənməli oldu. Bu haqda yenə «Kəşkül» belə məlumat verir:

«Ziya» mətbəəsi Tiflisdən Şamaxıya nəql olunmaqla işə başlamışdır. Mətbəə kitab və risaleye-nəfeə təb» və nəşrinə xidmət edir. Bu cümlədən rus və islam tarixini tətbiqa müxtəsər bir təqvimi mətbəə nəşr eyləmişdir».[140]

Deməli, Şamaxıda qəzet çıxarmaq təşəbbüsü baş tutmamışdır. Çünki başqa mütərəqqi tədbirlərlə yanaşı bu təşəbbüs də yuxarı və aşağı dairədərdə qaragüruhun törətdiyi ciddi maneələrin qurbanı olmuşdur.[141] Lakin bu cür maneələrdən ruhdan düşməyən vətənpərvər ziyalılar elə düşən hər bir imkandan istifadə etməyə çalışırdılar. Məsələn, 1889-cu ildə Səid Ünsizadə Şamaxı qazisi vəzifəsini tərk edərkən onun yerini tutmağa çalışanda namizədlər arasında «Kəşkül» iki nəfərə, daha çox isə Hacı Məcid əfəndiyə üstünlük verərək, onun dövrünə görə mütərəqqi işlər görəcəyinə ümid bəslədiyini bildirib, gələcək qazinin öz fəaliyyətini məhz bu istiqamətdə qurmağa çağırırdı.[142] Təsadüfi deyil ki, öz xətti-hərəkatında, izlədiyi məqsəddə daim ayıq və diqqətli olan «Kəşkül» bir il sonra Şamaxının təmə qazisi

---

[139] "Kəşkül", 4 oktyabr 1885.
[140] Yenə orada, 3 fevral 1886.
[141] Bax: Ağarəfi Zeynalov. Ünsizadə qardaşlarının qəzet çıxarmaq cəhtləri. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. II kitab. Bakı, Elm, s. 99-100.
[142] "Kəşkül", 12 aprel 1889.

Hacı Məcid əfəndinin maarif və mədəniyyətin yüksəlməsi yolunda gördüyü işləri təqdir edib, bu cür fəaliyyətin ardıcıl və geniş miqyaslı olmasını arzulayırdı.[143]

Şamaxı ziyalıları, xüsusilə Seyid Əzimin xatirəsinin əziz tutulması və ədəbi irsinin xalqa çatdırılıb, vətən əhlinin ondan faydalanması üçün əllərindən gələni edirdilər.[144] Bundan başqa Ağəli bəy Nasehin «Seyid Əzimin ölümünə»[145] yazdığı şer və s. dəst itkisindən doğan yanğıdan əlavə, elmi və bədii dühaya, onun ictimai dəyərinə verilən qiymətin əks-sədası kimi də əhəmiyyətlidir.

Şamaxı ədəbi-mədəni mühitində dərindən başa düşülürdü ki, xalq arasında qabaqcıl ictimai və ədəbi-bədii ideyaların yayılmasına dünyanın qabaqcıl fikir bahadırlarının və möhtəşəm sənət abidələrinin tərcümə edilib yayılması da əhəmiyyətli kömək edə bilər. Odur ki, onlar bədii tərcümə və təbdillə də çox məşğul olurdular. Bu cəhətdən S. Ə. Şirvani, Səid və Cəlal Ünsizadə qardaşlarının ayrı-ayrılıqda etdikləri tərcümələr diqqətəlayiqdir.

S. Ə. Şirvani və C. Ünsizadə şərq ədəbiyyatı klassiklərindən S. Ünsizadə isə «Kəlilə və Dimnə»dən maraqlı nümunələr seçərək tərcümə və nəşr edirdilər. Bəzən eyni nümunə bir neçə müəllif tərəfindən tərcümə edilirdi ki, bu da sənətkarlığın inkişafı və müraciət baxımından qiymətlidir. Misal üçün, "Aslan ilə iki öküz" əsərini həm Seyid Əzim həm də Cəlal Ünsizadə ərəbcədən tərcümə etmişdilər.[146]

S. Ünsizadə rus və Qərb ədəbiyyatından tərcümə etdiyi nümunələri isə "Kəşkül"də "Təfəkkür və düşüncə"[147] ümumi başlığı altında dərc edirdi.

"Kəşkül"ün ilk altı nömrəsi, oradakı müəllif və əsərlər haqda bəhs edən İslam Ağayev, Səid Ünsizadə haqqında doğru olaraq yazır: "Kəşkül"ün ilk altı nömrəsinin iştirakçıları və yazıları haqqında bəhs açıldığı bir vaxtda, C.Ünsizadə ilə əlaqədar bəzi faktların üzərində dayanılmalıdır. Çünki bu faktlar ədəbi-ictimai fikrimiz tarixində həmişə ziddiyətli bir şəxsiyyət kimi tanıdılan Səid Ünsizadə barədə bəzi işıqlı cəhətləri də üzə çıxarır".[148]

Qeyd edək ki, yuxarıda biz Səid Ünsizadənin mütərəqqi fəaliyyəti və onun ziddiyətli şəxs kimi "tədqim edən" əməl və hərəkətlərinin səbəbləri haqda bəhs açmışıq. S.Ünsizadə haqqında ayrı-ayrılıqda təqdiredici məqalələr çap etdirmişlər.[149] Həmin yazılar S. Ünsizadənin «Ziya» («Ziyayi-Qafqasiyyə») qəzetindəki fəaliyyətini əhatə edir.

Səid Ünsizadənin «Kəlilə və Dimnə»dən seçib tərcümə etdiyi «hekayəti-

---

143 Yenə orada, 29 may 1890.

144 A.Zeynalov. "Kəşkül"də bədii ədəbiyyatı. Bakı. 1978, səh. 75-81.

145 Poetik məclislər. Toplayıb, tərtib edən Nəsrəddin Qarayev, Bakı, Yazıçı, 1987, səh. 146-147.

146 "Kəşkül" 1883, yanvar, № 1, s. 23-24.

147 "KƏşkül" 1883, 1 yanvar, № 1. s. 25.

148 İslam Ağayev. "Kəşkül" jurnalının yeni tapılmış altı nömrəsi barədə Azərbaycan SSR EA-nın məruzələri. 1989 № 2, s. 82.

149 Bax: A.Zeynalov. Ünsizadə qardaşlarının qəzet çıxarma cəhdləri. XX əsr azərbaycan ədəbiyyatı məsələləri. II kitab, Bakı, Elm, 1985, s. 82-101; A.Məmmədov. Səid Ünsizadənin maarifçilik fəaliyyətləri. "Azərbaycan məktəbi" jurnalı, 1989, № 2, s. 45-51.

muşe-tələfkar»da[150] oxucuya öz qazancından, əldə etdiyi nemətdən israfçılıqla yox, qənaətlə istifadə etməyin zəruriliyi, əks təqdirdə isə qarşılaşacağı acınacaqlı aqibətin ibrətamizliyi fikri təlqin edilir Burada hər səni tərifləyənin toruna düşməmək, ayıq olmaq, həqiqi dostla tikə dostunu fərqləndirə bilmək qabiliyyəti olmayanların faciəli taleyi ibrətamiz bədii nümunə əsasında əks olunmuşdur.

Tərcümə üçün seçilən nümunələrdə də izlənən başlıca məqsəd xalqın əqli inkişafına kömək edib onun haqla nahaqqı, yaxşı ilə pisi seçib nəticə çıxarmasına nail olmaqdır.

Bədii tərcümənin ideya-estetik dəyərini dərindən dərk edən Şamaxı ədibləri - S. M. Qənizadə, A. Səhhət, M. Ə. Sabir, M. Hadi və başqaları sonralar bu sahədə də öz sələflərinin işlərini davam və inkişaf etdirdilər...

Dünya ictimai-ədəbi fikrinə yaxından bələd olduqca bu müəlliflərin orijinal yaradıcılıqlarında da yenilik ruhu daha qabarıq duyulmağa başlayırdı. «S. M. Qənizadə yaradıcılığında meydana çıxan yeni keyfiyyətlər isə XIX əsrin axırlarında həm də ümumən Azərbaycan ədəbiyyatında maarifçilik ideyalarının getdikcə kamilləşdiyini göstərməkdədir. Ədibin «Gəlinlər həmayili» dilogiyası, «Allahın xofu», «Sərgüzəşt, yaxud Məşədi Qurbanın dəftərçəsindən bir nəbzə» və s. əsərlərində qabarıqlığı ilə üzə çıxan maarifçi baxışlara görə, məktəb və maarifi inkişaf etdirmək hər bir millətin inkişafı üçün başlıca vasitədir.

S. M. Qənizadənin fikrincə, «əqsayi-aləmdə baş qaldıran mədəniyyət tərəqqisi görübən arzusun diləyən bir millət o tərəqqinin tərtiblərin də bilmək borcudur... Bu sözlərdən muradım tərəqqi tərtibinin mülahizəsidir ki, tərəqqiyi-səlmiyyənin əvvəlinci pilləsi məktəbxana astanasından başlanır. Əsrimizin təqazası buna olduqda, o təqazaya müvafiq əməl lazımdır...»[151] Bu əməlin həyata keçirilməsi üçün əsas yer məktəbə verən müəllifin fikrincə, sultanlıq istər hər bir fərd və millət məktəbdə xadim olmağı özünə şərəfli borc bilməlidir. Çünki tərəqqi və inkişaf məktəb astanasından başlanır. Məktəbin xalqın tərəqqisinə təsir etmək funksiyasının başlıca icraçısının müəllim olduğunu qeyd edən S. M. Qənizadəyə görə müəllimin öz soydaşlarına verdiyi nemətin qiyməti xalqın taleyində onun oynadığı rolla ölçülür, Ona görə də həmin nemətə bütün millətlər möhtacdırlar:

«Bəradərim, bizim əqidəmizə sədəqə nə nəzir bəla qaytarır və hər kəs öz kəsb və varından sədəqə verər. Müəllimin sədəqəsi zəmirindəki nicat kasasının şərbətidir ki, əbnayi-millət ona müstəhhəqdirlər...»[152]

Deməli, professor Xeyrulla Məmmədovun dediyi kimi, «Şeydabəy müəllimlik şərəfi ilə ona görə fəxr edir ki, ona cəmiyyətin tərbiyəsi kimi məsul bir iş etibar edilmişdir. Bu isə hər kəsə nəsib olmur. Sənət müqəddəs olduğu kimi ona

---

[150] "Kəşkül" 1883, aprel, № 4, s. 99-102.

[151] Sultan Məcid Qənizadə. Gəlinlər həmayili. Tərtib, ön söz, şərh və lüğətin müəllifi prof. Xeyrulla Məmmədovdur. Bakı, Yazıçı, 1986, s. 30.

[152] Sultan Məcid Qənizadə. Gəlinlər həmayili. Tərtib, ön söz, şərh və lüğətin müəllifi prof. Xeyrulla Məmmədovdur. Bakı, Yazıçı, 1986, s. 30.

xidmət edənlər də nümunəvi adamlar olmalıdır. Şeydabəyin müəllimin şəxsiyyəti, onun cəmiyyət qarşısında vəzifələri, ictimai mübarizədə mövqeyi haqqında xüsusi qənaətləri vardır. O, bu əqidədədir ki, müəllimin bütün mənəvi keyfiyyətləri peşəsi ilə həmahəng olub ona bənzəməlidir. Müəllim hər şeydən əvvəl həsəd, dargözlük qibtə, paxıllıq kimi sifətlərin nə olduğunu bilməməlidir. Çünki müəllim «mal və əcnas yoxluğunda çox dövlətlidir». O, təlim-tərbiyə, mərifət, təmiz əxlaq kimi yüksək keyfiyyətlərə malikdir. Şeydabəy bu keyfiyyətləri əsil əmlak sayır və maddi sərvətdən üstün tutur».[153]

S. M. Qənizadəyə görə, bu cəhətlərin təmiri, yəni nümunəvi məktəb və müəllimin mövcudluğu tərəqqi və inkişaf üçün bəs eləmir. Bunun üçün fərdlər, həm də əxlaqi cəhətdən kamil olmalıdırlar. Çünki əqidə və əxlaqı kamil olmayan elmli adamdan xeyir yox, bəla gözlənilir. Həmin fikri qabarıq əks etdirmişdir.

«Gəlinlər həmayili»ndə belə bir fikir təlqin olunur: nümunəvi cəmiyyətin yarandığını o vaxt iddia etmək olar ki, xalq elmli olmaqla bərabər, insanlıq üçün tələb olunan digər mənəvi-əxlaqi keyfiyyətlərə də yiyələnmiş olsun. Yəni cəmiyyətdə doğruluq və düzlük, mərdlik və sədaqət, humanizm, insanpərvərlik, bərabərhüquqluluq və s. hökm sürsün. Həmin keyfiyyətlərin qazanılmasında saf ailə münasibətlərinə üstünlük verən müəllif qadın azadlığı və cəmiyyətdə qadının yerini də aydınlaşdırmağa, özü də hər şeyi təbii inkişaf və qabiliyyətlərin verdiyi imkanlar baxımından müəyyənləşdirməyə çalışır. Onu da deyək ki, qadın azadlığına münasibətdə təbii inkişaf qanunları ilə bərabər milli xüsusiyyətlər də nəzərə çarpır. Bu, Şeydabəyin Pavel Petroviçlə mübahisələrində özünü göstərir...

Qəhrəman öz səyahəti zamanı millətinə qarşı törədilən ictimai-mənəvi haqsızlıqları, millətin geriliyinə səbəb olan milli-psixoloji cəhətləri müşahidə etdikcə təəssüb və vətənpərvərlik hissi ilə alışıb yanır. Bu yanğıda xalqın işıqlı gələcəyi uğrunda çarpışmağı özünə amal seçən ədəbin mənəvi narahatlıqları, axtarış və qənaətləri, uğur və büdrəmələri, dünyagörüşünün məhdud və işıqlı cəhətləri əks olunmuşdur.[154]

Vicdanın hökmranlığı ilə idarə olunan cəmiyyət arzusu S. M. Qənizadənin «Allahın xofu» əsərində də əks olunmuşdur. Müəllifin qənaətinə görə, vicdanın hökmran olduğu yerdə insan öz nəfsinin əsiri olmayıb, ağıl və təmiz əxlaqın, düzlük və halallığın, nəfs toxluğunun qanunları ilə hərəkət edər ki, bu da gələcəkdə mövcudiyyəti arzu olunan cəmiyyətdir. Ədibin həmin baxışları Sədrəddin bəyin şəxsində öz ifadəsini tapmışdır.

Sədrəddin bəy milli təəssüb hissi güclü olub, maarifçiliyin humanist keyfiyyətləri - xeyirxahlıq, səmimilik, kasıb-kusuba əl tutmaq, halallıq və s. xüsusiyyətlərlə zinətlənmiş ziyalıdır. O, «...ədibin moralist baxışlarının ifadəçisidir».[155]

---

[153] Xeyrulla Məmmədov. Sultan Məcid Qənizadə. Bakı,Yazıçı, 1983, s. 122-123.
[154] Ətraflı bax: X.Məmmədov. Sultan Məcid Qənizadə, Bakı, Yazıçı, 1983, s. 115-141.
[155] X.Məmmədov. Sultan Məcid Qənizadə. Bakı, Yazıçı, 1989, s. 190.

Sədrəddin bəyin fikrincə, gələcəkdə cəmiyyətdə vicdanın hökmranlığı bərqərar olacaq və bununla da həyatda mövcud olan bütün ictimai və mənəvi naqisliklər aradan qalxacaqdır. «Onda ürf işığında hər kəs pak ilə napak fərqini görüb, əlbəttə ki, murdar cəmdək üstünə qədəm qoymayacaqdır, yəni ürfdə göstərilmiş üsyan işlərdən istinab edəcəkdir (...) Bir vaxt olar ki, maarif məşəlinin işığı aləmi basar ölkələrdə, şəhərlərdə, qəsəbələrdə, kəndlərdə, obalarda məktəblər bina olunar, qiraətxanalar açılar, əsl ürf tiryəki insanların təbiətinə yerləşib vicdanlarına sirayət edər... Onda... Hər kəsin başı üstündə öz vicdanı qılınc olub dayandıqda əlləri hərgiz oğurluğa uzana bilməz...»[156]

Bütün bunlar ədibin şüurlu ömrü boyu uğrunda mübarizə apardığı gələcək işıqlı cəmiyyət haqqında arzularının tərkib hissəsidir.[157] Müəllifin qənaətlərinə görə, gələcək cəmiyyət vicdanın hökmranlığı altında mənəviyyatca saf, əxlaqi cəhətdən kamil olmalıdır. Həmin cəmiyyət, əlbəttə, məktəbin və qeyrətli, vətəndaş müəllimlərin kəraməti ilə maarif və mədəniyyət ziyasına boyanmalıdır. Belə cəmiyyətdə isə milli mənlik duyğusu güclü olub, milli özünüdərk və qeyrət hissi inkişaf edər. Azadlıq və bərabərlik uğrunda mübarizə isə özünüdərkdən başlanır. Milli mənlik duyğusundan məhrum olan, ətalət və kəsalət basmış şüurla millət tərəqqi edə bilməz. Bu fikirlər ədibin «sərgüzəşt, yaxud Məşədi Qurbanın dəftərçəsindən bir nəbzə»[158] əsərinin ideyasından doğur.

Əsərdə Məşədi Qurbanın milli bir fərd kimi nadanlığı və şəxsiyyətsizliyi, kənar millətlər qarşısında ifrat itaətkarlıqla bərabər, öz həmmillətinə qarşı ədalətsizliyi, qəddarlırı, milli-mənəvi keyfiyyətlərdən məhrum olub, ancaq cismani və maddi ehtiyaclarını düşünməkdən o yana gedə bilməyən dargözlüyü tənqid hədəfinə çevrilməklə, xalq həmin sifətlərdən azad olmağa səslənilir. Müəllifin öz millətdaşlarında müşahidə etdiyi bu tipli milli-mənəvi naqisliklər bir cəhətdən «Məktubati-Şeydabəy Şirvani» əsəri ilə səsləşir. Lakin ədib həmin milli-mənəvi naqisliklərin ifşasını «sərgüzəşt, yaxud Məşədi Qurbanın dəftərçəsindən bir nəbzə»də xeyli inkişaf etdirmişdir.

Əsərdə qabarıqlığı ilə nəzərə çarpan müəllif «mən»inin köməyi ilə ədibin vətən və xalq barədə bir vətəndaş yanğısı ilə çalışdığı, əlindən gələn yollarla mübarizə apardığı da görünməkdədir.

XIX əsrin sonlarında S. M. Qənizadənin yaradıcılığı və dünyagörüşünün ümumi vəziyyəti o dövr Azərbaycan ictimai-ədəbi və mədəni səviyəsi üçün xarakterik olmaqla bərabər, Şamaxı ədəbi mühitinin səciyyəvi cəhətlərini də özündə əks etdirməkdədir.

Maraqlıdır ki, cəmiyyətin tərəqqisi üçün. məktəb və maarifin inkişaf etdirilib, vicdan hökmranlığının təlimindən o yana gedə bilməyən Şamaxı ədiblərinin, demək olar, hamısı - S. Ə. Şirvani, M. N. Didə, M. M. Müşfiq, S. M.

---

[156] Sultan Məcid Qənizadə. Gəlilər həmayili. Bakı, Yazıçı, 1986, s. 122.
[157] Ətraflı bax: X.Məmmədov Sultan Məcid Qənizadə. Bakı, 1983, s. 185-192.
[158] Sultan Məcid Qənizadə. Gəlinlər həmayili. Bakı, 1986, s. 129-131.

Qənizadə, sonralar A. Səhhət, M. Hadi, M. Ə. Sabir və başqaları ictimai-ədəbi baxışlarını əməli şəkildə məktəbdarlıqla həyata keçirməyə çalışırdılar. Lakin ictimai-tarixi hadisələrin sonrakı inkişafı XX əsrin əvvəllərindən başlayaraq həmin şəxsiyyətlərin baxışlarında inqilabi ideyaların meydana gəlib, onların əsərlərində öz əksini tapmasına şərait yaratdı... S. M. Qənizadənin «XIX əsrin axır illərində maarif və ədəbiyyata dair xatiratım»ından da aydın olur ki, bu proses son dərəcə çətin, ağrılı və enişli-yoxuşlu olmuşdur.[159] Çünki xalqların ictimai-milli şüurca püxtələşməsi hakim sinfin xeyrinə və ürəyincə deyildi. Ona görə tərəqqi və inkişafa, ictimai-siyasi oyanmaya müxtəlif yollarla təriqət nifaqı, mütərəqqi meylli adamların təqibi və sıxışdırılması və s. vasitələrlə maneçilik törədilirdi. Amma bunlar, bütün ölkədə olduğu kimi, Şamaxıda da ictimai-siyasi və milli-mənəvi oyanmanın qarşısını tam ala bilməyib, ancaq ləngidə bildi.

[159] Ətraflı bax: Sultan Məcid Qənizadə. Gəlinlər həmayili. Bakı, Yazıçı, 1986, s. 159-244.

## II FƏSİL

## İCTİMAİ-MİLLİ VƏ ƏDƏBİ BƏDİİ UĞURLARIN ŞAMAXIDA İFADƏ XÜSUSİYYƏTLƏRİ

XX əsrin başlanğıcında Şamaxı ədəbi mühitində maarifçiliyə meyl güclənmişdi. Bu işdə, qeyd etdiyimiz kimi, Tiflis Aleksandrovski müəllimlər institutunun və Qori müəllimlər seminariyasının məzunları olan şamaxılıların - S. M. Qənizadə, M. Mahmudbəyov və b.-rı ilə yanaşı A. Səhhət, Ə. Sabir, M. Hadinin də müəyyən rolu vardı.

Qori müəllimlər seminariyasının məzunlarında maarifçi demokratik ədəbiyyata meyl güclü və aydın ədəbi-ictimai mövqedən idi. Odur ki, onlar yaradıcı qüvvələri daha çox epik əsərlər yazıb xalqı tərəqqiyə sövq etməyə çağırmaqla bərabər, özləri bu sahədə, imkanları daxilində, bədii nümunələr yaradırdılar. Bu cəhətdən S. M. Qənizadənin təxminən 1894-cü ildə Məhəmmədtağı Sidqiyə yazdığı məktubundakı aşağıdakı sətirlər diqqətəlayiqdir:

«...Bəndə təlim və tədris işlərində millət nağıllarının faydaların dərk etdiyimə laməhalən bir neçəsinin dildən qələmə düşməgin çox arzu edirdim. Buna binaən öz həmvətənlərim - Şirvanın növcavan şairlərinə bu təklifi etdim və hakəza onlar həm hekayənəvisliyi şəni-şairliyə layiq görmüyüb baş qaçırtdılar... Lazım gəldi ki, imtahan üçün bir nəql yazıla ki, ta Xaqanilik iddiasilə şöhrət diləyən xudpərəstlərə isbat olsun ki, bu zəmanədə hekayənəvislik bazarı Xacə Hafiz xətm etdiyi qəzəliyyatın təhrifatından rəvacdır. Məlumi-ümumidir ki, hər bir əsrin öz toqazasına müvafiq əməl etmək şərti-əqldir. Hala bu əsrdə əbnayi-ruzigar milli-mədəniyyət ilə tömələndikdə daha əşari-məcazi xəncəsinin güclü mülşəhdü-şəkərinə xəridar olmazlar... İmdiki bu mədəniyyət əsrində ki, hər şey öz rəngində dolanıb, qeyri bir səliqə üzrə təbdil olmuşdur və meydani-nəzmdə kuyi-məcazidən daha bir nişan qalmamışdır, köhnə sələh-şurluq şivəsilə çövkani-zəban oynadıb, zülf və kakilə mədh və rəvac oxumaqlıq süni-şeriyyətdə hünər sanılmayıb, məsxərəbazlıq görünür. Bəs bu əsrin şairləri üçün hekayənəvislik qəzəlxanlıqdan müstəfid və vacibraqdır. Hərgah şer yazmaqla bir nəfərin mənzuri şöhrət olmuş olsa da, bişəkk ki, yenə öz əsrinə xidmət etməklə muradına nail ola bilər...»[160]

Burada diqqəti cəlb edən məsələlərdən biri odur ki, Şamaxı mühitindən çıxaraq dünyəvi elmlərlə daha yaxın təmasda olan yazıçılar dövrün ədəbi-bədii fikrin qarşısına qoyduğu vəzifələri dərindən dərk edərək realizmə, epik əsərlərə daha artıq fikir verməyin vacibliyini duyur və bu yolda həm özləri çalışır, həm də həmkarlarını səfərbərliyə çağırırdılar. S. M. Qənizadə də «özgələrə ibrət olsun», deyə özü süjetli əsərlər yazırdı.

Digər tərəfdən, maraqlıdır ki, «Şirvanın növcavan şairləri» həmin

---

[160] S.M.Qənizadə. Seçilmiş əsərləri, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1985, s. 279.

çağırışlara tərəfdar çıxmayaraq «hekayəpəvisliyi şəni-şairliyə layiq görmüyüb» bu işdən boyun qaçırırlar. Onlar süjetli və realist ruhlu tərbiyəvi əsər yazmaqdansa, insanlara ruh verən, onların zövqlərini oxşayan lirik əsərlərlə məcazi gözəlliklərin vəsfini daha üstün tuturlar. Bu halı biz «Əkinçi» qəzeti səhifələrində Əhsənül-Qəvaidə Şamaxı şairləri adından Seyid Əzim Şirvaninin «Şüərayi-ərbəeyi-Şirvan» imzası ilə yazdığı məqaləsində[161] də müşahidə edirik.

Şamaxı şairləri Əhsənül-Qəvaidin dövrün ədiblərindən qəzəl, qəsidə yazmaqla gün keçirməkdənsə, xalqa xidmət göstərməyi tələb etməsinə etiraz edərək onu zövqsüz və ruhsuz adlandırmış, poeziyanın məlahət və lətafətindən, orada gözəlin və gözəlliyin bəlağətli vəsfinin, şərabın tərifinin vacibliyindən və s. bəhs etmiş, fikirlərini əsaslandırmaq üçün hikmət sahiblərinə istinad etmişdilər. Az sonra yalnız S. Ə. Şirvani, qismən də digər həmkarları öz səhvlərini anlayaraq maarifçi-realist ədəbiyyatın cəbhəsində ardıcıl və sürəkli çıxış etməyə başlamışdı. Lakin bir tərəfdən «Əkinçi»nin tezliklə bağlanması, digər tərəfdən irticanın təzyiqi nəticəsində «Ziya» (Ziyayi-Qafqasiyyə)», «Kəşkül» kimi mətbuat orqanlarının mütərəqqi ideyalar cəbhəsində o qədər də ardıcıl çalışa bilməmələri və Seyid Əzimin vəfatı Şamaxı mühitində ədəbiyyatda əvvəlki ənənələrin yeni meyllər üzərində güclü təzyiq göstərməsinə və öz mövqeyini hələlik əzmlə qoruyub saxlaya bilməsinə zəmin yaratmışdı. «Şirvanın növcavan şairləri» həmin keçmiş ənənələrin cazibəsindən çıxmaqda çətinlik çəkirdilər. Həmin ədəbi ənənələrin Ağəlibəy Naseh kimi nüfuzlu nümayəndələrinin təsiri də bu işdə az rol oynamırdı. Klassik ədəbi ənənələrin Şamaxıda güclü olmasının səbəblərini, müəyyən qədər də olsa, təsəvvür etmək üçün Şamaxı sakini, tanınmış maarif və mədəniyyət xadimi Əliməmməd Mustafayevin xatirələrindən gətirilən aşağıdakı sətirlərə nəzər yetirmək pis olmazdı:

«Şamaxı şəhəri Zoğalavay çayının sol kənarında yerləşir. Bu çaydan arxlar vasitəsi ilə su aparmaqla bağlar salınmışdır. Yaz və yay fəsillərində, cümə günləri bu bağlar seyirçilər ilə dolu olur. Burada cürbəcür dəstələrə təsadüf edirsən. Şairlər və ürəfa dəstəsi, sənətkarlar dəstəsi, ziyalılar dəstəsi, molla və axundlar dəstəsi və s. Burada onların əyləncələri yemək-içmək, çalıb oxumaqdan ibarətdir. Axşam çağı evə yığışmadan bir saat qabaq dəstələrdə meyxanalar başlanır. Meyxanaçılar hər bir dəstədə tapılır. Burada şair və ürəfalar dəstəsində Sabir, Səhhət, Qırxayaq, Tərrah, Ağəli bəy Naseh və başqalarını görmək olur...

Payız və qış fəsillərində şəhərdə cürbəcür dərnəklər fəaliyyət göstərir. Bu gün kimin nəyə meyl olarsa, öz istədiyi dərnəyə gedə bilər. Axır zamanlara kimi bu dərnəklərdən ancaq üçü davam edir. Şairlər dərnəyinin rəhbəri Ağəlibəy Nasehdir.

Və əyləncə yerləri də onun öz otağıdır. Bu əyləncə yerini, səhv eləmirəmsə, kiçik miqyasda klub da adlandırmaq olar».[162]

Həmin dövrdə «Şirvanın növcavan şairləri»nin daha çox hansı ədəbi

---

[161] Bax: "Əkinçi" qəzeti, 28 aprel 1876.
[162] Əlməmməd Mustafayev. Xatirələr, hekayə və felyetonları, Bakı, Yazıçı, 1985, s. 41-42.

ənənələrin təsiri altınla olduqlarını bir qədər də aydın təsəvvür etmək üçün Nəsrəddin Qarayevin aşağıdakı mülahizələri də maraq doğurur:

«A. Naseh F. Köçərli ilə yaxın dost olmuş, hətta ona Şirvan şairlərinin əksəriyyəti haqqında xeyli material vermişdir. «Beytüs-səfa» məclisinin son dövründə Şamaxı şairləri tez-tez bir-birinin evlərinə toplaşar, yazdıqlarını oxuyub müzakirə edərdilər. Bir zamanlar M. Ə. Sabir, A. Səhhət və Tərrah da yeni yazdıqları şerləri müntəzəm olaraq «Müzanüş-şüəra» adlandırdıqları Nasehin yanına gətirər, onun məsləhətlərini və rəyini bilmək istərdilər. Naseh də həmişə onlara qanıedici cavablar verərdi».[163] Göründüyü kimi, «Şirvanın növcavan şairləri» klassik poeziya ənənələri ilə nəfəs alır, bu ədəbi ənənəyə və onun canlı təmsilçisinə - A. Nasehə sonsuz etiqad bəsləyirdilər. Əlbəttə, onlar «Müzanüş-şüəra» (şairlərin tərəzisi) kimi özlərinə ustad hesab etdikləri bir adamın illərdən bəri mövcud olan güclü nüfuzundan birdən-birə çıxa bilməzdilər. Odur ki, S. M. Qənizadənin məsləhətindən onların o zaman - XIX əsrin sonlarında boyun qaçırmaları bir qədər təbii görünməlidi.

Bununla belə, Şamaxıda şəhər məktəbinin açılması ilə bərabər yeni tipli digər məktəblərin fəaliyyəti, yeni istehsal münasibətlərinin şəhər həyatına da ayaq açaraq burada sənaye obyektlərinin - ipəkçilik, toxuculuq və s. yaranması, eyni zamanda Firidun bəy Köçərli kimi şəxsiyyətlərin Şamaxı şairləri ilə əlaqəsi də şəhərin mənəvi həyatında, ədəbi mühitində yenilik meylinin qüvvətlənməsinə təkan verdi; XX əsrin astanasında «Şirvanın növcavan şairləri»nin yaradıcılıqlarında əmələ gələn yeniləşmə prosesi keçmiş ədəbi ənənənin kəskin müqaviməti ilə rastlaşsa da, onlar öz yollarından dönməyib, yeniliyə daha əzmlə can atırdılar. Bu cəhətdən Abbas Səhhətin ilkin qələm məhsullarından bəzisinə və sənət mübahisələrinin əldə olan nümunələrinə diqqət yetirmək maraqlı olardı.

XX əsrin astanasında A. Səhhətin əldə olan poetik nümunələrindən biri «Şeyx Sədi», digəri ilə «Xacə Hafiz» adlanır. Hər iki əsər 1889-cu ilin məhsuludur. Şeyx Sədinin məzarı önündə yazılan «Şeyx Sədi»[164] şerində «Gülüstan» və «Büstan» müəllifinin poetik dühasına böyük qiymət verən A. Səhhət onun vətəninin tarümar olmasına təəssüflənib, böyük şairin nəsihətlərinin asanlıq və insafsızlıqla unudulduğunu bildirərək yazır:

...Aç gözünü, bax vətən övladına;
Sevgili əqabına, əhfadına
Oddu fəramuş nəsihətlərin,
Vermədi heç faidə zəhmətlərin.
Hikməti-əşarına biixtilaf
Eylər ikən əhli-cahan etiraf.

[163] Nəsrəddin Qarayev. XIX əsr Azərbaycan ədəbi məclisləri, namizədlik dissertasiyası. Azərbaycan EA-nın əsaslı kitabxanası. Bakı, 1971, s. 109-110.
[164] Abbas Səhhət. Əsərləri. İki cilddə. I cild. Bakı. Azərbaycan Dövlət Nəşriyyatı, 1975, səh. 7

Qədr qoyarkən hamı asarına,
Sözlərinə, şiveyi-köftarına.
Hər dilə nəql oldu kəlamın sənin,
Tutdu bütün aləmi namın sənin.

Sədi şeri aləmdə danışıqsız təqdir olunub, başqa dillərə çevrilərək qiymətli inci kimi qorunub öyrənildiyi halda ustadın vətəni və vətən övladları nə vəziyyətdədir? Onlar şairin adını əbədiləşdirmək, nəsihətlərini əməli şəkildə həyata keçirmək üçün nə iş görüblər? Səhhətin fikrincə, real vəziyyətin həmin suallara verdiyi cavablar acınacaqlıdır:

Yatdılar əhfadların xabdə,
Etmədilər rəkz adına abidə,
Qədrini bilsəydi əgər əğniya,
İsminə min məktəb olurdu bina.

Maraqlıdır ki, A. Səhhət ustadın - Şeyx Sədinin adına qoyulan ən gözəl abidəni məktəb hesab edir, xalqın və vətənin tərəqqisini, birinci növbədə, məktəblərin açılmasında görür.

Bu meyl «Xacə Hafiz»[165] şerində də müşahidə olunmaqdadır. Hafizin həyat amalının nədən ibarət olduğunu göstərən A. Səhhətə görə, şairin həmvətənləri bu mətləbi dərk edə bilməyərək tərəqqidən qalmışlar:

Düşünülsə nədir mətalibini,
Dərk edər əhli-həq məratibini.
...Olsa idi iranlılar arif,
Elmü fənni'zamanədən vaqif,
Qədrini kamilən bilərlər idi,
Həykəlin burda rəkz edərlər idi.

A. Səhhətə görə, iranlılar zamanın nəbzini tuta bilmədiklərinə görə inkişafdan öz mütəfəkkir ədiblərinin adına, şöhrətinə qətiyyən uyuşmayan bir səviyyədə - ətalətdə qalıblar.

Göründüyü kimi, XIX əsrin sonlarına doğru «Şirvanın növcavan şairləri»ndə maarif və mədəniyyətə, dünyəvi elmlərə, dünya mədəniyyətinə yiyələnmə meyli, maarifçilik ideyalarına rəğbət hissi güclənməyə başlayır. XX əsrin astanasına yaxınlaşdıqca bu şairlərin yaradıcılıqlarında yeni ədəbi ənənələrin təsirinin artdığını görmək olur. Həmin dövrdə onların başbilənlərindən sayılan A. Səhhətin yaradıcılığında tərəqqiyə çağırış ruhlu süjetli şer nümunələri görünməyə

[165] Abbas Səhhət. Əsərləri. İki cilddə, I cild. Bakı. 1975, s. 8.

başlayır.

A. Səhhətin real həyatı təsvir edən epik şerləri də həmin illərin məhsuludur. Məsələn, onun 1902-ci il 31 yanvar zəlzələsinə həsr etdiyi «Şamaxı zəlzələsi» şerində şəhərin keçmiş füsunkar mənzərələri romantik bir dillə təsvir olunduqdan sonra hazırkı, yəni o dövrdə zəlzələdən sonrakı vəziyyəti haqda oxuyuruq:

...Bir növ olub zəlzələdən yeksərə viran,
Tapmaz dəxi azadlığı sifəti-imkan.
Daşlar tarışıb torpağa, evlər mütəlaşi,
Xaki-siyəh ətfali sitəmdidə fəraşi...
...Hər yanda böyük xəndəkü, hər küçədə min dağ,
Əzbəs tökülüb bir-birinin üstünə torpaq.
Murdarlıq ilə həp dolu əsvaqü məabir,
Yağmurlu həvalərdə dolaşmaq mütəəzzir...[166]

Bütün bunlar A. Səhhətin vətənə döndüyü zaman gördüyü real, acınacaqlı mənzərənin epik təsviri olsa da, şerdə dərin lirizm və romantik ruh aparıcıdır.

M. Ə. Sabir yaradıcılığında isə eyni hadisənin - Şamaxı zəlzələsinin real və epik təsvirinin şahidi oluruq.

Sankt-Peterburqda çıxan həftəlik «Niva» jurnalında həmin zəlzələ ilə əlaqədar oxuyuruq: «Bir vaxtlar Şamaxı ayrıca xanlığın paytaxtı olub. Həmin gözəl şəhər şərqi Qafqazın ticarət mərkəzi idi. Uzun zamanlardan, hələ Böyük Pyotrun vaxtından Rusiya Şamaxı ilə geniş ticarət əlaqələri saxlayırdı. Şirvan xanlığı Rusiyaya birləşdiriləndən sonra Şamaxı quberniya mərkəzi elan olundu. Lakin 1859-cu ildə baş verən zəlzələdən sonra quberniya mərkəzi Bakıya köçürüldü. Bundan sonra uyezd şəhəri olan Şamaxı da 22000 əhali yaşayırdı...

Bu dəhşətli bəladan bir qədər əvvəl seysmoloq alim Əbih öz müşahidə və tədqiqatlarına əsasən bildirmişdi ki, şübhəsiz, Şamaxı zəlzələnin qurbanı olacaq. Bu fikri o, 1860-cı ildə rus imperatorunun coğrafiya cəmiyyətində etdiyi məruzəsində əsaslandıraraq demişdi: «Şamaxı üçün nicat yoxdur. O, nə vaxtsa bədbəxt hadisənin qurbanı kimi bir neçə dəqiqə ərzində yerlə yeksan olacaq».[167]

Məqalədə qeyd olunduğu kimi, Ə. Morisin elmi qənaətləri düz çıxdı:[168] 1902-ci il yanvarın 31-də Şamaxı bir neçə dəqiqə ərzində yerlə yeksan oldu.

Səhər-səhər şəhər özünün sakit günlərindən birini yaşayırdı. Əvvəlcə camaat bir neçə yüngül təkan hiss etdi. Günorta, saat birin yarısında şəhərin şimal-qərb tərəfindəki dağdan bir uğultu eşidilməyə başladı və yerdə bir-birinin ardınca olan beş güclü təkan nəticəsində Şamaxı dağıldı. Ətrafı toz-duman bürüdü. Bütün

---

[166] Abbas Səhhət. Əsərləri. İki cilddə. I cild. Bakı, 1975, s. 14.
[167] Şamaxıda zəlzələ (imzasız). "Niva" jurnalı, 23 fevral, 1902, səh. 158.
[168] Ətraflı bax: А. Мориц. Шемаха и ея землетрясения. В кн. Сборник сведений о Кавказе, том III, Тифлис, 1872, səh. 196-206.

canlılar və şəhər əhli baş verən dəhşətli hadisədən vahimələnib qışqırmağa başladı. Hamı vəhşət içərisində öz canının hayına qalmışdı.

Sabirin də yazdığı kimi, nahara yaxın bir vaxtadək şəhər salamat idi. Qış fəsli olsa da, hava xoş, camaatın da əhvalı yaxşı idi. Qəflətən baş verən zəlzələ hər şeyi alt-üst etdi:

...Etdi bir növ zəlzələ dili-xak,
Az qalırdı ki, sinələr ola çak;
Dəkktül-ərz zahir oldu haman.
Tarmar oldu xitteyi-Şirvan...[169]

Baş verən dəhşətli təbii hadisədən bütün canlıların vahiməyə düşərək, hər kəsin öz canının hayına qalmasını da Sabir inandırıcı təsvir edib:

Allah, allah, nədir bu tufanlar?!
Az qalır vəhmdən çıxa canlar.
Oldu guya dəmidə nəfxeyi-sur,
Macərayi-qiyamət etdi zühur.
Əhli-Şirvan hayilü heyran,
Əhli-məhşər tək oldu sərgərdan;
Qəlblər doldu röbü vəhşətdən,
Qayəti-şiddəti - məhabətdən;
Olmadı kimsə kimsədən müxbir,
Aşikar oldu sirri yövmi-yəfirr;
Hər kəs öz nəfsini çəkirdi kənar,
Ata övladdan edirdi kənar.[170]

Hadisənin canlı iştirakçısı olan Sabir onun mənzərəsini əyani təsvir etməklə qalmayıb, zəlzələnin vurduğu zərəri, insan tələfatını da konkret detallarla əks etdirib. Məsələn, «Şamaxıda zəlzələ» məqaləsindən məlum olur ki, birinci yeraltı təkandan sonra şəhərdə yanğın baş verib. Soyuq qış günündə şəhərin müsəlmanlar yaşayan hissəsində dükanlarda sanki manqal qalanmışdı. Alov dilləri ətrafı götürmüşdü.

Zəlzələ nəticəsində 2000-dən çox adam ölüb, 16000 adam evsiz-eşiksiz qalıb. 4000 ev, o cümlədən doqquz yüz il əvvəl tikilərək əsrlərin sınağından çıxmış olan və Şamaxının fəxri Cümə məscidi, digər yeddi məscid və bazar tikililəri tamamilə dağılmış və yanğına düşmüşdür. Ümumiyyətlə, şəhərin müsəlmanlar yaşayan hissəsi tamamilə xarabazarlığa çevrilmişdir.[171]

---

[169] M.Ə.Sabir. Hophopnamə. Üç cilddə, III cild. Bakı, 1965, səh. 12.
[170] M.Ə.Sabir. Hophopnamə, Üç cilddə. III cild. Bakı, 1965, səh. 13.
[171] "Niva" jurnalı, 23 fevral, 1902 № 8, səh. 159.

Müəllifin (Məqalə  imzasızdır.) təsvirinə görə, Şamaxı bir-birindən  kəskin fərqli olan iki hissə - Avropa, yəni xristianlar məskunlaşan və azərbaycanlılar yaşayan hissələrdən ibarətdir. Şəhərin bir qədər ruslar və əsasən ermənilər yaşayan «Avropa hissəsi» dağın yuxarı tərəfində, «azərbaycanlılar hissəsi» isə nisbətən düzənlikdə yerləşməklə özündə əhalinin əsas kütləsini, şəhərin baş küçəsi boyu sıralanan qədim dükanları, bazarı və səkkiz məscidi cəmləşdirib. Birinci hissədə küçələr yaxşı planlaşdırılmaqla geniş olduğu halda, dar, əyri-üyrü küçə və dalanlardan, qarmaqarışıq və biri digərinə çox yaxın tikilmiş evlərdən ibarətdi. İki hissə arasındakı bu fərq zəlzələ zamanı tələfatın şəhərin müsəlman əhalisi arasında daha çox olması ilə nəticələnib. Burada evlər uçarkən bir-birini basaraq daha çox dağıntı və tələfata səbəb olub.[172]

Şamaxı  zəlzələsi  zamanı müsəlmanlar arasında daha  çox tələfat olması və bunun əksəriyyətinin qadınlarla uşaqların təşkil etməsinin bir səbəbi də hadisənin cümə axşamı, yəni həftənin dördüncü günü baş verməsi ilə əlaqədardır. Çünki cümə axşamı müsəlmanların istirahət günü idi. Hər istirahət günü şəhərdə olan 11 hamamın  hamısında  saat  12-dən-15-dək qadın  və uşaqlar, saat 15-dən axşamadək  kişilər çimirdi.[173] Şamaxı zəlzələsinin ilk güclü təkanını, yəni başlanmasını seysmik mərkəzin aparatları $12^{13}$ göstərib.[174] Odur ki, zəlzələ başlayanda Hamamlarda olan qadın və uşaqların, demək olar ki, hamısı uçqunun və yanğının qurbanı olub.

Bu bədbəxt saatda iki müsəlmanın cənazəsi üstün ağlayan qadınlardan 70 nəfər ölüb.

Ermənilər arasında cəmi 32 nəfər tələfat olub.[175] Zəlzələnin dəhşətlərini təsvir  edən  Sabir  baş verən yanğınlar və tələfatın miqdarı haqda yazır:

...Hamı bu halə valehü məftun,
Nagəhan hadis oldu bir yanğın;
Tutdu dünyanı od şərarələri,
Yaxdı dükkanları, imarələri...
...İki mindən ziyadə əhli-diyar
Torpaq altında can verib naçar.[176]

Onu da qeyd edək ki, zəlzələ zamanı Şamaxının 30 kilometrliyində yerləşən Mərəzə şəhərin yanındakı dağdan vulkan püskürüb. Vulkandan ucalan alovun dilləri üç gün müddətində axşamlar şəhərdən görünürmüş. Mərəzə vulkanı nəticəsində ətrafa çoxlu palçıq məhlul səpələnmiş və vulkanın yeri uzun müddət

---

[172] Bax: "Niva" jurnalı. 23 fevral 1902, № 8, səh. 158.
[173] Yenə orada, səh. 159.
[174] Yenə orada, səh. 160a.
[175] Yenə orada, səh. 159.
[176] M.Ə.Sabir. Hophopnamə. Üç cilddə. III cild, Bakı, 1965, səh. 12-13.

qaynamışdır. İstidən uzun müddət oraya yaxın düşmək mümkün olmamışdır.[177] Şamaxının ətraf yaşayış məntəqələrində - Sündü, Saqiyan və b. kəndlərində də tələfat və dağıntı baş vermişdi. Zəlzələdən dərhal sonra Şamaxıya dövlət və xalq yardımı axıb gəlməyə başladı. Məqalə müəllifi daha çox rus dövlətinin və xristian əhalisinin humanistliyindən və Şamaxı zəlzələsinin zərərdidələrinə yardımından, o cümlədən Bakı qubernatoru, general-mayor D. A. Odinsovun şəhəri başdan-başa piyada gəzib əhaliyə ürək-dirək verməsindən ətraflı bəhs etdiyi halda, orada işləyən beş müsəlman komissiyasının - zərərdidələrə yardım üçün ziyalılar komitəsi, tibbi, yardım, köçürmə və axtarış və tikinti komissiyalarının yalnız adlarını çəkir.[178] Zəlzələdən hətta doqquz gün sonra uçqun altından sağ çıxarılanlar olub. Belələrindən biri doqquz yaşlı müsəlman Ümmü Müslüm qızı idi.[179] Jurnalda həmin qızın şəkli də verilib.[180]

Sabir isə Şamaxı zəlzələsindən sonra adamların ah-nalə ilə öz doğmalarını axtarmasını, ölənlərin uçqun altda eybəcər hala düşməsini, əhalinin yasa batmasını, soyuq və açıq havada evsiz-eşiksiz qalıb əziyyət çəkməsini və s. təsvir etməklə bərabər, şamaxılılara göstərilən dövlət və xalq yardımını da minnətdarlıqla qələmə alıb...

Bütün bu müqayisələrdən də görünür ki, Şamaxı zəlzələsinə Sabirin həsr etdiyi şerdəki təsvirlər real olmaqla bərabər, hadisələrə münasibət də konkret və aydındır. Eyni hadisənin A. Səhhətə nisbətən Sabirdə daha aydın və realistcəsinə təsviri onun (Sabirin) hadisələrin canlı iştirakçısı olmasından əlavə, yaradıcılığında realist meyllərin yaranmasından da xəbər verirdi.

Sabir yaradıcılığında, ümumiyyətlə dünyagörüşündə yenilik, maarif və mədəniyyətə, elmə, tərəqqiyə meyl hissi getdiksə güclənməkdə idi. O, H. Zərdabi və onunla birlikdə Şamaxıya zərərdidələrə yardım üçün gələn komissiya üzvlərinə də elm və qabiliyyətlərinə xalq və vətən qarşısındakı xidmətlərinə görə qiymət verərək, onların xalqın yaralarına öz rəftarların ilə necə məlhəm qoymalarını təqdir edir. Şair, Həsən bəy Zərdabinin vətən övladlarının tərəqqisi, dünyəvi elmlərə yiyələnməsi uğrunda çəkdiyi zəhmətləri belə alqışlayır:

Məlikov, o Həsən bəyi-zişan,
O əmini-xazineyi-ehsan,

Elmu fəhmu kəmalilən mümtaz.
Sineyi-safi kafi-löloi-raz;

Hünəri fəzldir, ədəb kari,

[177] "Niva" jurnalı, 6 aprel 1902, № 14, səh. 283.
[178] Yenə orada, 23 aprel 1902, № 8, səh. 160a.
[179] Yenə orada, 6 aprel 1902, № 14, səh. 283.
[180] Yenə orada, səh. 284.

Əqli pakizə, hüssət iqrari.[181]

Sabirin «Əkinçi» redaktoruna, ağıl və elmi ilə başqalarından seçildiyinə görə də, rəğbət bəsləməsi səbəbsiz deyil. Artıq o, tərəqqi və inkişaf üçün elmin, mətbuatın rolunu bütün aydınlığı ilə dərk edirdi. 1903-cü ildə «Şərqi-Rus» qəzetinin nəşrini xalqın tərəqqisi üçün açılan yeni və işıqlı nicat, yüksəliş yolu kimi qarşılayaraq yazırdı:

...Var ümidim ki, əxtəri-iqbal
Övsi məqsuddə tuta məva;
Ola bidar talei-məsud,
Aça minbəd dideyi-şəhla;
Ola kəsbi-ülumə səyi-bəliğ.
Qıla təhsili-elm sübhi-məsa.
İndi bir əsrdir ki, elm gərək!
Dolub alati-elmlən dünya.[182]

Sabir 1903-cü ildə artıq bütün aydınlığı ilə dərk edirdi ki, əsrin tələbi elm öyrənməkdir. Elmsiz heç cür irəli getmək mümkün deyil. İndiyədək xalqın geriliyinə, ətalət və cəhalətinə səbəb onun əsrin tələbləri ilə hesablaşmayaraq, dünyəvi bilik xəzinəsinin açarını əldə etməyə cəhd göstərməməsidir:

Ah kim, xabi-qəflət ilə bizim
Ömri-pürmayəmiz keçibdi rəna.

Dolub elm ilə sahəti-aləm,
Bizə yox bəhrə elmdən əsla.

Rəmz həl-yəstəvi müdəlləldir,
Bir deyil şəxsi-kurlən bina.

Kəsbi-elmə səbəb fərahəmdir,
Sabira, bir zaman ayıl, yatma!

Qıl dualar ki, «Şərqi-Rus»muzun
Tələtindən ola cahan beyza.[183]

Vəziyyətdən çıxış yolunu şair konkret əməli fəaliyyətdə, məktəblər

---

[181] M. Ə. Sabir. Hophopnamə, Üç clddə, III cild, Bakı, 1965, s. 15.
[182] Yenə orada, səh. 18.
[183] M.Ə.Sabir. Hophopnamə, Üç cilddə, III cild, Bakı, 1965, səh. 18.

açmaqda, açılan məktəblərdə elm öyrənib onu həyata tətbiq etməkdə görür. Mətbuatın bu yolda əvəzsiz rolunu dərk etdiyi üçündür ki, o, «Şərqi-Rus»un ömrünün uzunluğunu və onun ziyasından vətənin və vətən övladlarının nura, elm, ürfan nuruna qərq olması üçün dua edir.

Getdikcə şəhər həyatında mədəni-maarif ocaqlarının artması və inqilab dalğasının təsiri ilə hökumətin geri çəkilməsi, milli mətbuat şəbəkəsinin genişlənməsi və sair də Şamaxı ədəbi mühitində dünyəvi elmə, yeni ədəbi prinsiplərə meyli qüvvətləndirdi. Maraqlıdır ki, dövrün yeni şer probleminin ilkin manifesti də nəzəri və əməli şəkildə bir çox cəhətdən «Şirvanın növcavan şairləri» tərəfindən hazırlandı. 1905-ci il fevralın 23-də «Həyat» qəzetində çap etdirdiyi yazısında «Təzə şer necə olmalıdır?» sualını qoyan A. Səhhət bu sualın meydana çıxma səbəbini izah edərək yazırdı ki;

«Şüərayi-sabiqəmiz əşar və əbyatının təbii əhvala müğayir olduğundan oxuyan kəslərə kəsalət və nifrət gətirməyi və heç bir surətdə insan üçün mərifət və ibrət dərsi ondan hüsulə gəlmədiyi məlumdur. Məsələn: qəddin sərv ağacına oxşadılması, ya məhbubun üzünü bədr aya bənzətdikləri kimi və yainki qaşları yaya və kirpikləri oxa təşbih tutduqları qəbil. Və bu qədər var ki, təzə səpgidə bu anacan bizim şüəralardan bir nəfər olmayıb ki, bu mətləbə mültəfit olub, öz şerini təbii hissiyatın məzmununa dair nəzm etmiş olsun».[184]

Buradan aydın olur ki, «Şirvanın növcavan şairləri» artıq köhnə ədəbi ənənələrin dövrlə ayaqlaşa bilməyib ictimai ideal əvəzinə, necə deyərlər, söz; oyunu ilə xalqı xülyalar qoynunda uyutduğunu dərk etməyə başlayırlar. Onların fikrincə, bu əhval sənətkarı ictimai həyatdan təcrid edir. Halbuki dövr bədii söz sənətkarlarından, o cümlədən şairlərdən «azadə» dolanıb «laübalı» həyat sürməyi yox, xalqın və vətənin ictimai-siyasi və milli-mənəvi problemlərinin tərcümanına çevrilməyi tələb edir.

Köhnə ədəbi ənənələrin real həyata «təbii əhvala müğayir olduğundan oxuyan kəslərə kəsalət və nifrət gətirməyini və heç bir surətdə insan üçün mərifət və ibrət dərsi hüsula gətirmədiyini» başa düşərək fikrini ifadə etməsi Şamaxının yeni ədəbi nəslinin dövrlə ayaqlaşmağa daha çox maraq göstərdiyini sübut edir. Maraqlıdır ki, A. Səhhət köhnə ədəbi ənənələrin bədii təsvir və ifadə vasitələrini də kəskin tənqid edib, onların hazırda yaranmalı olan ədəbiyyat üçün uyğun gəlmədiyini bildirirdi. Müəllifin fikrincə, ədəbiyyatın mövzusu həyatdan götürülməli, aydın mütləbə və ideyaya malik olmaqla bərabər, bədii cəhətdən təsirli olmalıdır ki, oxucunun fikrinə aydınlıq gətirə bilsin. Bunun üçün sənət əsəri ruhən, qəlbən yaşanaraq sənətkarın təbii, faydalı hislərinin gücündən qüvvət almalı, oxucu qəlbinə sirayət etməlidir. «Bu mənada A. Səhhət həmin məqaləsi ilə gələcəkdə inkişaf etməsi zəruri olan ədəbi-nəzəri fikrin manifest müəllifi kimi çıxış edir».[185]

---

[184] Abbas Səhhət. Əsərləri, İki cilddə, II cild, Azərbaycan Dövlət nəşriyyatı, Bakı, 1976, səh. 7.

[185] Kamran Əliyev. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı, Elm, 1985, səh.

A. Səhhət fikrini əyaniləşdirmək üçün məqaləyə bir şer də əlavə etmişdi... O, öz fikirlərini 1906-cı ilin axırlarında Abdulla Şaiqə göndərdiyi başqa bir şer və məktubunda daha ətraflı şərh və ifadə etməyə cəhd göstərmişdi. Həmin şerlərlə akademik Kamal Talıbzadə haqlı olaraq yazır ki: «Bu şer nümunələri ədəbiyyata yeni, orijinal bir istedadın, özü ilə sənətə təravətli məzmun və forma xüsusiyyətləri gətirməyə can atan bir şairin gəldiyini xəbər verirdi. Həm də bu ədəbi yeniliyin ümumi istiqaməti bir cəhəti də aydın göstərirdi; şairin yaradıcılıq metodu, hər şeydən əvvəl romantizmin ideya-bədii xüsusiyyətləri ilə səsləşir».[186]

Yeni şerin bu manifesti özündə daha çox romantizmin ideya-bədii keysriyyətlərini ifadə etmişdi. Ancaq bu romantizm həyatdan uzaqlaşmağa yox, ona yaxınlaşmağa daha çox meyl edib, poetik hiss və duyğuların real həyatdan doğması tərəfdarı kimi meydana çıxaraq, özünün realizmə yad olmayıb mücərrədlikdən uzaqlığını da nəzərə çarpdırırdı.

A. Səhhət qələm dostu Sabirin yaradıcılığına qiymət verərkən də onun əsərlərində dövrün ruhunun öz əksini tapmasını təqdir edirdi. O, sənətdə vətəndaşlıq ruhunun qabarıqlığını bir tələb kimi irəli sürməklə, bu cəhətdən Sabirin Firdovsidən ayrıldığını qeyd edib yazırdı: «Sabir əfəndi millətdən ötrü çalışırdı. O, aşiq idi. Ondan (millətdən - A. B.) gördüyü tə'n və lə'ndən və təhqirlərdən, yağış kimi üstünə yağan töhmət və nifrətlərdən əsla geri getməyib öz məsləkində kəmali-səbati-əzmlə davam etdi və sevgili millətinə xidmətindən bir an qafil olmadı».[187]

Burada Səhhət onu da qeyd etməyi unutmurdu ki: «Firdovsi də əgər bu vaxtda, bu zamanda, belə bir mühitdə yaşasaydı, o da, yəqin ki, Sabir əfəndi kimi qüssəmərg olardı».[188]

Sabir poeziyası məhz dövrün tələbi ilə yaranıb, özündə zamanın problemlərini bədii cəhətdən, özü də yüksək poetik bir dillə əks etdirdiyi üçündür ki, həm ədəbiyyat, həm də «siyasət aləmində» «əzim bir inqilab yaratdı».[189]

Səhhət poeziyasında dil sadəliyini, ifadə gözəlliyini xüsusi olaraq gözləməyin sənətkar qarşısında mühüm bir vəzifə olduğunu nəzərə alaraq, Sabir poeziyasının dil, üslub sadəliyinn təqdir edib yazırdı ki, Sabir nöqsanlarımızı, eyblərimizi məzhəkə va məzah təriqilə qayətdə şirin və hər kəsin anladığı bir dil ilə, qəhqəhələrlə oxudub islaha çalışırdı».[190] Dil gözəlliyi, şerdə ifadə zənginliyindən danışarkən A. Səhhət orada xalqın əxlaqına mənfi təsir edə bilən ifadələr işlədilməsinin də qəti əleyhinə idi. Odur ki, razılıq hissi ilə yazırdı ki, Sabir ictimai-milli nöqsanlarımızı kəskin satiralarla ifşa etməklə bərabər, «...Hər kəsin fikrinə gələn əlfazi-mərdudəni heç vaxt şerdə işlətmədi».[191]

---

63.

[186] Kamal Talıbzadə. Abbas Səhhət. Bakı, Gənclik, 1986, səh. 72.

[187] A.Səhhət. Əsərləri II cilddə, II cild. Bakı, 1976, səh. 20.

[188] Yenə orada.

[189] Yenə orada, səh. 14.

[190] A.Səhhət. Əsərləri, II cilddə, II cild, Bakı, 1976, səh. 13.

[191] Yenə orada, səh. 22.

A. Səhhət bir romantik kimi, sənətdə «hissiyyati-təbiiyyə»yə üstünlük verirdi. Onun fikrincə, əsərdə qoyulan problem sənətkar tərəfindən «hissiyyati-təbiyyə», dərin vətəndaşlıq duyğusu ilə yanaşıb qələmə alınarsa, oxucu qəlbini fəth edər ki, bunun da xeyri daha çox olar. O, Sabir poeziyasının oxucu qəlbinə təsir gücünü özünün «Sabir» şerində belə təqdir edirdi:

...Tərzü üslubi-bəyanın sadədir,
Cəzbi-qəlb etməkliyə amadədir.[192]

Səhhət oxucu qəlbinə «od salmağı» sənətin əsas meyarlarından hesab etdiyi üçündür ki, «Şərarə» şerində qələmə müraciətlə onu «yazmaqda atəşbar olmağa»[193] səsləyirdi. Bununla şair, oxucu qəlbini ehtizaza gətirib onu daha tez oyandırmağa çalışırdı. Bu mövqedə, yəni insan kədərinin bədii ədəbiyyatda qabarıqlaşdırılaraq bəşəri kədər səviyyəsinə qaldırılmasında A. Səhhət M. Hadi ilə yaxınlaşırdı. Daha doğrusu, K. Əliyevin yazdığı kimi: «M. Hadi və A. Səhhət... insan kədərindən yazmağı sənətkar qarşısında bir vəzifə kimi irəli sürürdülər».[194]

Göründüyü kimi, A. Səhhətin təzə şerin necə olması sualına cavabı realist şerə aid deyiddi. Daha doğrusu, o, təzə şerin romantik qolunun ədəbi prinsiplərini izah edirdi.

Yeni realist poeziyanın manifestini A. Səhhətin sənət həmkarı, məslək və əqidə dostu M. Ə. Sabir öz dostundan düz bir il sonra - 1906-cı il fevralın 10-da, 0 da «Həyat» qəzeti səhifələrində poetik şəkildə elan etdi. Bu, «Bir məclisdə on iki kişinin söhbəti» satirası idi. Həmin şerin ruhu, canı, ideya-bədii xüsusiyyətləri bütünlüklə realizmin tələb və prinsiplərini ifadə edir.

Məlumdur ki, ictimai-siyasi və milli-mənəvi həyatımızın inkişafı, tərəqqisi yolunda əngələ çevrilən bəlalara hələ Q. Zakir, S. Ə. Şirvani poeziyasının da kəskin ifşa hədəfinə çevrilmiş, lakin bu ideya-bədii çarpışmalar istənilən nəticəni verməmişdi. Odur ki, həmin bəlaların daha təsirli bədii vasitə və metodlarla, özü də hərtərəfli ifşası vacib idi ki, əsərin ictimai-bədii təsir qüvvəsi güclü olsun. Sabir bütün bu ədəbi-bədii fəaliyyət proqramını, onun əhatə dairəsini və həyata keçirilməsinin forma və üsullarını konkret poetik nümunə əsasında hazırlayıb elan etdi. Bu poetik proqramın ideya-bədii səviyyəsi, yığcam və sərrastlığı, tendensiyalılığı, publisist ruhu və poetik pafosunun gücü ədəbiyyat və sənət meydanına tamamilə aydın ictimai ideala malik, poetik səriştəli bir istedadın gəldiyini xəbər verirdi.

Satirada Sabir üslubunun ən səciyyəvi xüsusiyyətlərindən biri - tipin daxili aləminin onun öz dili ilə ifşası üsulu ilə qarşılaşırıq. Müxtəlif zümrəni təmsil edən

---

[192] A. Səhhət. Əsərləri, II cild, Bakı, 1976, səh. 42.
[193] Yenə orada, səh. 96.
[194] K. Əliyev. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı, Elm, 1985, səh. 66.

bu on iki tipin danışıq tərzi, söz və ifadələri çox dəqiq ölçülüb-biçilmişdir: hərə öz danışığı, öz mükaliməsi, öz avtoxarakteristikası ilə mənsub olduğu zümrənin iç üzünü açır. Satirada ifşa hədəfinə çevrilən tiplər əslində bir-birləri ilə söhbət etmirlər. Onlar sanki ayrı-ayrılıqda rüsvayçılıq kürsüsünə qalxaraq öz iç üzləri haqda oxucu və dinləyicilərə məlumat verərək səhnə arxasına çəkilirlər. Bu «məclis» «Sabir satira teatrı»nın aləmə «nərilti və gurultu» salan (C. Məmmədquluzadə) əzəmətli, hay-küylü tamaşasının proloqu, bu satira həm də Sabir satira üslubunun proqramı idi. Təsadüfi deyil ki, on iki kişinin məclisində öz «monoloqlarını» söyləyib, «səhnə arxasına çəkilən» ictimai-tiplər Sabir yaradıcılığının sonrakı dövründə şairin kəskin satira qələminə hədəf oldular. Onlar geniş fəaliyyət meydanına çıxdıqca şarin satira oxları ifşa hədəfinə kəskin qəzəb və nifrətlə sancılmağa başladı. Bu zümrələrin qalın riyakarlıq pərdəsi arxasında gizlənən əsl sifətləri açılıb ifşa olunduqca xalq özünə, öz vəziyyətinə yenidən və kənardan baxmağa məcbur oldu. Şairin ictimai tiplər qalereyası böyüdükcə, onun fırçası da, cilalanmağa, ictimai bəlaların üfunət qoxuyan mənzərələrini daha kamil canlandırmağa başladı.

Sabir satirası tənqid hədəfi və bədii tutum etibarı ilə kamilləşdikcə özünə kənardan və daha ayıa nəzərlərlə baxmağa məcbur olan xalq bədii sənətin təsvir gücü ilə gördüyü mənzərə qarşısında əvvəlcə heyrətdəndi, sonra xəcalət tərinə batdı, özünə qarşı qəzəbləndi və nəticə etibarilə mövcud vəziyyətindən qurtarmaq üçün əsəbiliklə, kəskinliklə silkələnmək üçün özünü səfərbər etdi.

Beləliklə, Sabir satirası öz inqilabi rolunu, dəyişdirici gücünü göstərməyə, ətrafına yeni həmkarlar yığmağa başladı. Çünki K. Marksın dediyi kimi: «...xəcalət də bir növ inqilabdır. ...Xəcalət bir növ qəzəbdir. Ancaq insanın özünə qarşı çevrilmiş qəzəbdir. Bütöv bir millət həqiqətən xəcalət çəksəydi, sıçramağa hazırlaşaraq yığışan bir şirə bənzərdi... Bu aqibət isə qarşımızda duran inqilabdır».[195]

Sabirin inqilabi satirası, demək olar ki, onun bütün satiralarında olan ictimai özünüinkar və danlaqlarda, kəskin etiraz və qəzəblərdə, inqilabi yüksəliş və milli mənlik şüurunun oyanmasından doğan sevincə bərabər, bütövlükdə ictimai eybəcərliklərdən yaranan ikrah və nifrətlərdə təcəssüm edir. Şair tərəfindən təsvir və təsdiq olunan ictimai eybəcərliklər xalqın öz-özünə qarşı xəcalət və qəzəb hissi keçirməsinə səbəb olur.

Şairin satirası milli-mənəvi ruhun sındırılmasına, öldürülməsinə deyil, mənəvi dünyasında özünü qoruyub saxlamış olan müsbət və onun tərəqqisinə kömək edəcək keyfiyyətləri üzə çıxarıb hərəkətə gətirmək məqsədi güdürdü. Çünki onun tənqidi ifaçılıqdan çox səfərbəredicilik xüsusiyyəti daşıyır. Belə ki, Sabir poeziyasında ifaçılıq xalqın yüksək mənəvi keyfiyyətləri, şərəf və ləyaqətinin fonunda baş verdiyindən özünün mənliyini dərk edən tənqid hədəfi acınacaqlı

[195] K.Marks və F.Engels. Seçilmiş məktublar. Bakı, Azərnəşr, 1955, səh. 9-10.

vəziyyətdən çıxmaq üçün səfərbər olunur. Bu cəhətdən K. Talıbzadənin aşağıdakı qənaətləri maraq doğurur:

«Sabir müsbəti, idealı, gələcəyi tənqid edən tənqidin, inamı rədd etməyən qəzəb və kədərin tərəfdarı idi. Gələcəyin insanlarını hazırlaya bilən inkarı faydalı sayırdı. Buna görə şair xalq həyatına müşahidəçi münasibət bəsləyən, real əsası və həqiqi olmayan tərif və təsviri rədd edirdi, müasir cəmiyyətin qaranlıq, kədərli, qüssəli, qəzəb oynadan tərəflərini qələmə almağa üstünlük verirdi».[196]

Sabir sözə haqqın nazil etdiyi bir nuri-həqiqət kimi baxır, bəşər övladının düzgün yola istiqamətlənib ictimai-mənəvi zülmətdən çıxmasında hikmətli, bədii sözün oynadığı əvəzsiz rola xüsusi qiymət verirdi. Odur ki, «söz» şerində yazırdı:

...Növ'i-bəşərə tərbiyəbəxş olduğun üçün-
Gər densə cəzadır sənə ümmül-ədəbiyyat.
...Mümtaz elədin növ'i-bəni-adəmi əlhəq,
İnsan sənin ilə edib ehrazi-məqamat.[197]

Demək, Sabir sözün insanı digər canlılardan tamamilə seçilib yüksəkdə duran bir varlıq səviyyəsinə qaldırdığını qəbul edirdisə, bədii sözü insanların mühüm tərbiyə, onların haqqa yaxınlaşdırılması vasitəsi kimi baxırdı. Odur ki, hər bir sənətkardan onun qədrini bilməyi tələb etməklə bərabər, qiymətsiz bir gövhər dənəsi adlandırdığı şeri, ümumən bədii sözü boş-boş yalanlarla qiymətdən salmayacağını elan edirdi:

Şer bir kövhəri-yekdaneyi-ziqiymətdir,
Salmaram vəsfi-duruğ ilə onu qiymətdən.
Deyərəm həcv, sözüm doğru, kəlamim şirin,
Əhli-zövqə verərəm nəş'ə bu xoş şərbətdən.[198]

Şair bədii sözün qarşısında həyatın bayağı şəkildə deyil, olduğu kimi, yəni realist səpkidə təsvir tələbini qoyurdu. O, «həcv» sözünü hərfi yox, satira mənasında işlədərək bədii sözdəki tənqidi insanların qəlbinə dəyib əxlaqının korlanmasına yol verilməsinin də əleyhinə idi. Sabirə görə, poeziyanın tənqid ruhu və üslubu da oxucuya, zövq əhlinə nəşə verən xoş şərbət təsiri bağışlamalıdır ki, onun bədii təsir gücü yüksək olsun.

Demək, Sabir bədii söz sənətinin qarşısına həqiqətpərəstlik, yəni həyat həqiqətinə sadiqlik, üslubi gözəllik, dil sadəliyi və aydınlığı və poetik pafosun (ifadənin yüksəkliyi tələbini qoyurdu. Çünki poetik pafosun, yəni fikri ifadə

---

[196] Kamal Talıbzadə. Seçilmiş əsərləri. İki clddə, I c., Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1991, səh. 140.
[197] M. Ə. Sabir. Hophopnamə. Üç cilddə, III c., Bakı, 1966, səh. 23.
[198] M. Ə. Sabir. Hophopnamə. Üç cilddə, III c., Bakı, 1966, səh. 9.

gücünün təsiri poeziyanın-oxucu qəlbinə və ruhuna hər an «nəşə»sinin gücünü müəyyənləşdirir. Poeziyanın oxucuya verdiyi «nəşə nə qədər güclü olsa, həmin əsərdə izlənən qayənin oxucu varlığına hakimkəsilmə imkanı geniş olar.

Sabir sənətkarın qarşısına bədii sözün qədrini bilmək, ondan şəxsi mənafe və qərəz üçün deyil, ictimai-milli mənafe naminə istifadənin vacibliyi tələbini qoyurdu. Şairin qənaətinə görə, sənətkar bədii sözdən əsrin, dövrün tələbinə müvafiq istifadə etməli, mədhiyyə xarakterli «qəzəliyyatlarla» sözü ucuzlaşdırmaqdan çəkinməlidir. Pul, şəxsi mənfəət naminə əqidəsini hər an dəyişməyə hazır olan şairi Sabir sənətkarın mənəvi fahişəliyi hesab edirdi. Odur ki, «Təraneyi-şairanə» şerində bu haqda yazırdı:

...Valeyk caizəculuqla vəsfgu şair
Şu məsləkində yavuncu gəda deyil də, nədir?
Pula sitayiş edən şairin bu qəhbəliyi,
Nəhayət, əqbəh olan bir əda deyil də nədir?
Düri-xəzaneyi-əhli-kəmal ikən əşar,
Xəzəf bəhasına satmaq cəfa deyil də, nədir?[199]

Sabir şair adına ləkə gətirən belələrinin «kəmal əhlinin dürr xəzinəsi»ni - sözü gil qab-qacaq bazarın da «xəzəf bahasına» satmağın yolverilməz olduğun bildirirdi. Beş-on günlük ömrü bu yolla xoş keçirəcəyini zənn edən həmin məsləksizlərə belə şərəfsiz həyatdan ölümün daha üstün olması qənaəti ilə deyirdi:

Təbəsbüsatlə hasil olan beş-on günlük
Ömürdən isə bir ölmək cəza deyil də, nədir?[200]

Sabirə görə, sənətdə tənqid xatirinə ifşa, yaxud tərif xatirinə mədhiyyə qədər haqsız yerə yaxşıya yaman, yamana da yaxşı demək eyni dərəcədə yolverilməzdir. Əsl sənətkar heç nəyin küyünə getmədən həmişə haqqı, həqiqəti, düzlüyü və milli-bəşəri mənafeyi əsas tutaraq bu yolda hər bir əzaba özünü hazır saxlamağı bacarmalıdır:

Rizayi-həqqi gözət, get rəhi-həqiqətlə,
Bu yolda gəlsə bəla, həq riza deyil də, nədir?[201]

Sabir sənətin və sənətkarın qarşısına qoyduğu bu ictimai vətəndaşlıq tələblərinə yaradıcılığı boyu sadiq qaldı. O, realist Azərbaycan poeziyasının -

---

[199] M. Ə. Sabir. Hophopnamə. Üç cilddə, III c., Bakı, 19 səh. 29.
[200] M.Ə.Sabir. Hophopnamə. Üç cilddə, III cild, Bakı, 1965, səh. 29.
[201] Yenə orada, səh. 30.

inqilabi satiranın proqramını əsərdən-əsərə əməli şəkildə təkmilləşdirdi, kamilləşdirdi.

Beləliklə, müəyyən formalaşma dövrü keçirən realist poeziyanın proqramının bir çox mühüm cəhətləri «Bir məclisdə on iki kişinin söhbəti»ndə, romantik poeziyanın prinsiplərinin əsas cəhətləri «Təzə şer necə olmalıdır?» - sualına verilən elmi və poetik cavabda, A Səhhətin dostlarına göndərdiyi məktub və şerlərdə meydana çıxdı. Ədəbiyyatımızın bu qoşa qanadının hər ikisini təmsil edən qüdrətli qələm sahibləri öz yaradıcılıq yolları ilə hər iki proqramı daha da zənkinləşdirdilər.

A. Səhhətlə M. Ə. Sabirin hazırlayıb elan etdikləri ədəbi yaradıcılıq proqramlarının zənginləşib Daha da bərkiyərək rövnəqləndirməsində Şamaxının ictimai-mədəni həyatında yaranan canlanma da zəmin yaradırdı. Şəhər həyatında görülən mədəni-kütləvi tədbirlər ictimai, milli-mənəvi həyatın keyfiyyət dəyişikliyi ilə yanaşı, yeni ədəbi yaradıcılıq proqramına maarifçilik ideyalarını da hopdururdu.

Belə ki, Şamaxının ziyalı və vətənpərvər cavanları şəhərdə bir kitabxana - qiraətxana açmaq qərarına gələrək, bu məqsədlə vəsait toplamaq üçün ədəbi gecə təşkil etdilər. Görülən tədbirlərdən əsas məqsəd xalqın ictimai-mənəvi və milli-mədəni şüur səviyyəsinin yüksəldilməsinə müəyyən qədər kömək etmək idi.

Şamaxıda bu cür mədəni-maarif ocaqları açmaq fikri və meylləri hələ XIX əsrin 80-cı illərində yaranmağa başlamışdı. Lakin bu yolda atılan addımlar elə bir səmərə verməmişdi. Bununla belə Şamaxıda camaat üçün kitabxana - qiraətxana təşkili tarixi elmi ədəbiyyatda 1859-cu ilin 15 sentyabrından göstərilir.[202] Lakin bu kitabxananın «Nücabə», daha doğrusu erməni nücabə cəmiyyətinə məxsusluğu, malik olduğu ədəbiyyat və fəaliyyətinin xarakteri göstərir ki, onun geniş kütləyə, o cümlədən şəhərin müsəlman əhalisinə heç bir dəxli yoxdur. Bu cür mədəni-maarif ocaqlarının təşkili ideyası azərbaycanlı ziyalıları arasında XIX əsrin 70-ci illərinin sonlarından yaranmağa başlayıb. Təsadüfi deyil ki, o dövrkü mətbuatın yazdığına görə yalnız 1882-ci ildə azərbaycanlı ziyalılar vaxt keçirmək üçün bir klub təşkil etmişdilər ki, bunun da nəzdində cüzi ləvazimatdan ibarət «kitabxana» (əgər buna kitabxana demək mümkünsə) da var idi. Bu haqda oxuyuruq:

«Şamaxıda bir klub (yəni gecələr arifanə vaxt keçirməyə məxsus olan mehma) bina ediblər. Onda neçə qəzetlər olub, bir kitabxanası dəxi vardır».[203]

Göründüyü kimi, bu, müstəqil kitabxana deyil. Odur ki, «Ziyayi-Qafqasiyyə» qəzeti 1883-cü ilin dekabrında dərc etdiyi redaksiya məqaləsində artıq müsəlmanların ayrılaraq öz xeyir-şərlərini başa düşüb elmin, maarifin qədrini bildiyini qeyd etməklə, tərəqqipərvər sərvətdarları və rəhbərləri mədəni-maarif ocaqlarının şəbəkəsinin genişlənməsinə köməyə səsləyirdi.[204]

Lakin irticanın get-gedə qüvvətlənməsi Şamaxıda kütləvi milli kitabxana və

---

[202] Bax: Hüseyn Tağıyev. Azərbaycanda kitabxanaçılıq işi. Bakı, Azərnəşr, 1964, səh. 35-37.

[203] “Ziyayi-Qafqasiyyə” qəzeti, 14 dekabr 1882.

[204] Bax: Orada, 14 dekabr 1883.

qiraətxana açmaq arzusunun qarşısını bir müddət ala bildi. 17 oktyabr manifestinin verdiyi imkanlardan məharətlə istifadə etməyə çalışan Şamaxı ziyalıları yeni tipli məktəblərlə bərabər, şəhərdə kitabxana - qiraətxana açmaq qərarına gəldilər. Bu işə lazım olan vəsaiti əldə etmək üçünsə, ədəbi-bədii gecə təşkil etdilər.

Şamaxıda açılan bu ilk müsəlman kitabxana - qiraətxanası haqda sovet hakimiyyəti illərində mətbuatda ilk dəfə qocaman müəllim, mərhum Camo Cəbrayılbəyli məlumat vermişdir.[205] Onun məlumatı özlüyündə əhəmiyyətli olsa da, burada bəzi mühüm məsələlər dolaşıq salınmışdır ki, onların aydınlaşdırılması vacibdir. Çünki həmin dolaşıqlıqlar sonradan elmi ədəbiyyata yol tapmışdır.[206] Professor Məmməd Məmmədov inqilabdan əvvəlki mətbuat səhifələrindən tapdığı materiallar əsasında Şamaxıda açılan ilk müsəlman kitabxana - qiraətxanası haqda yol verilən dolaşıqlığın çoxunun aradan qaldırılmasına nail olsa da,[207] görünür, bu məsələdən xüsusi olaraq danışmaq onun məqsədi olmadığı üçün bəzi nöqtələrə fikir verməmişdir. Həmin qaranlıq nöqtələrin işıqlandırılması isə bir çox cəhətdən vacibdir. C. Cəbrayılbəyli, A. Xələfov və H. Tağıyev göstərirlər ki, guya, Şamaxıdakı ilk müsəlman kitabxana-qiraətxanasının açılmasının əsas səbəbkarı o zaman Şamaxıda aptek açıb işləyən Mamladze familiyalı bir gürcü olub. K. Talıbzadə və M. Məmmədov isə bu barədə danışmayıblar.

Əldə etdiyimiz materiallardan məlum olur ki, Şamaxıdakı ilk müsəlman kitabxana-qiraətxanasının ətrafında onun açılmasından təxminən iki ay əvvəl mübahisə başlanmışdır. Kitabxana-qiraətxana özü isə 1906-cı ildə «Şamaxıda Cəbi bazarında Hacı Səfdər Məhərrəmovun evində mayın yeddisində»[208] açılmışdır. Həmin il martın ikisində «Həyat» qəzetində «Yenidən quberniya mərkəzi olmaq istəyən Şamaxı bir əsr tərəqqi göstərməlidir» adlı məqalə ilə çıxış edən İsmayıl bəy Həsənbəyov yazısının axırlarında gileylənərək yazırdı ki: «Deyilənə görə bir aptek sahibi rus ya polyakmı bilmirəm, Şamaxıda bir qiraətxana ixtira eyləyibdir».[209] Bu sözlərdən sonra müəllif təəssüflə milli ziyalı və cavanlarımızı günahlandıraraq fikrinə belə davam edirdi: «Gör nə günə qalmışıq ki, bizimçün xaricilər qiraətxana açır».

Az sonra (16 mart 1906) «İrşad» qəzetində həmin yazıya verilən cavabda

---

[205] Bax: C.Cəbrayılbəyli. Sabir haqqında xatirələr. "Ədəbiyyat qəzeti", 24 noyabr 1936; Yenə onun. Xatirələrim. Bakı, Azərnəşr, 1956, səh. 66.

[206] Bax: Kamal Talıbzadə. Abbas Səhhət. Bakı, SSR EA Nəşriyyatı. 1955, səh. 17-18; Yenə onun. Abbas Səhhət, Azərnəşr, 1986, səh. 66.

[207] Ərtaflı bax: M.Məmmədov. Sabir və məktəb. Bakı, Maarif. 1968, səh. 34-39. Yenə onun. Sabir və mətbuat, Bakı, Elm. 1974, səh. 129-133.

Abuzər Xələfov. Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920) Bakı. ADU nəşr. 1960, s. 100-101.

Hüseyn Tağıyev. Azərbaycanda kitabxanaçılıq işi. (XII əsrdən 1920-ci ilə qədər) Bakı, 1964, səh. 72-77.

[208] "Həyat" qəzeti, 5 may 1906.

[209] «Həyat» qəz. 2 mart 1906.

deyilirdi: «...Az olursa da, çox hörmətli nücəbazadə və tüccarzadə və oxumuşlarımızdan gərəkli cavanlarımız elm və maarif yolunun qurbanları olaraq kamili-cavanmərdlik ilə öz vəzifeyi fədakaranələrini bu sayədə care etməkdədirlər. Odur ki, hələlikdə bəd və əmr olunduğuyçün bir qiraətxanaya kifayətlənib təxminən üç ay bundan müqəddəm cənab qubernatora Şamaxıda bir qiraətxana açmaq xüsusunda uçitel cənab Abbas Minasazov adına ərizə verib icazə istəmişlər. Və həmin qiraətxananın xeyrinə gözəlcə teatr məclisi bərpa edib həm tamaşaçıları məmnun, həm də bir qədər cəm ediblər ki, lazım olan yerdə qiraətxanaya xərc etsinlər. Bəli bu vəqtə kimi nədən isə təxirə düşüb bir cavab gəlməyibdir. Aptek sahibinin qiraətxana ixtiyarı almaq şayiəsi gəzibdir».

Deməli, aptekçinin Şamaxı müsəlmanları üçün kitabxana-qiraətxana açması və ya bu məqsədlə çalışması faktı düz deyil. Onu da deyək ki, cavab-məqalə «N. S» (yəni Nəcəf Sadıqov) imzası ilə yazılmışdır. Nəcəf Sadıqov kitabxana-qiraətxananın təşkili və fəaliyyətində yaxından iştirak etmişdir. Abbas Minasazov isə Bakıda yazdığı 2 dekabr 1931-ci il tarixli tərcümeyi-halında[*] göstərir ki, Şamaxıya gələntək (noyabr 1905) ətrafıma qabaqcıl görüşlü cavanlardan toplayıb tərəqqi və maarifə dair tədbirlər keçirməyə başladım. Əvvəlcə Şamaxıda teatr, ədəbi axşamlar keçirdik, eyni zamanda, pulsuz kitabxana-qiraətxana açdıq.

Şamaxı kitabxana-qiraətxanası ilə əlaqədar inqilabdan əvvəlki mənbələrdə çap olunan materiallanın heç birində Mamladze familiyasına rast gəlməmişik. Elmi ədəbiyyatda Mamladze haqda söhbət C. Cəbrayılbəylinin yuxarıda göstərdiyimiz xatirəsindən sonra getməyə başlamışdır.

SMOMPK-da (Сборник материалов для описание местностий племен Кавказа) rast gəldiyimiz bir məqalə Mamladzenin Şamaxıdakı fəaliyyəti haqda müəyyən qədər söz deməyə imkan verir. SMOMPK-ın 39-cu nömrəsində Mamladze «Şamaxı şəhəri və uyezdinin bağçılıq mədəniyyəti və sənaye məşğuliyyəti»[210] adlı məqalə ilə çıxış edərək şəhərin coğrafi mövqeyi, iqlimi, təsərrüfat həyatı, tarixi, ictimai vəziyyəti və s. haqda ətraflı məlumat verdikdən sonra özünün Şamaxıdakı fəaliyyəti ilə əlaqədar yazır ki, o, (yəni Mamladze) vaxtı ilə Şamaxı realnı məktəbində inspektor işləyərkən 1899-cu ildə Şamaxı dairə popeçitelindən icazə alaraq məktəbin yaxınlığında olan boş sahədə məktəb şagirdlərinin gücü ilə nümunəvi bağ və bostan salmışdır. Elə həmin 1899-cu ildə kənd təsərrüfatının elmi təşkili ilə əlaqədar Tiflisdə təşkil olunan sərkidə məktəbin həyətində yetişdirilən bostan məhsulları da elmi izahatla bir yerdə nümayiş etdirilərək 3-cü dərəcəli diplom, 1900-cü il Bakı sərkisində isə kiçik gümüş medal almışdır. Həmin məktəbin məzunlarından biri, sonralar maarif və mədəniyyət sahəsində (o cümlədən Şamaxı kitabxana-qiraətxanasının təşkili və fəaliyyətində) qızğın fəaliyyət göstərən əməkdar müəllim Əliməmməd Mustafayev bu haqda

---

[*] Qeyd: Bu materialı bizə verən prof. Xeyrulla Məmmədova təşəkkür edirik.

[210] Т. П. Мамладзе. Садовая культуры и промышленная занятия в г. Шемахе и его уезде, СМОМПК. Тифлис, 1908, № 39, 1 отделение. с. 31-60,

xatirələrində[211] yazmışdır: «Məktəbin inspektoru gürcü Mamladzedir. (s. 49). Məktəbdə bir neçə əsas dərslər keçirik: ana dili, rus dili, riyaziyyat, tarix, coğrafiya, rəsmxətt və i. a. Peşə-sənət dərslərinə də maraq göstəririk. Məktəbdə bizə dülgərlik, arıçılıq öyrədilir, musiqi təlimi verilir. Əməklə də məşğul oluruq. Məktəbimizin yanında boş bir yer vardır. Camaat bura zir-zibil tökür. Məktəbin inspektoru bu yeri şəhər idarəsindən alıb məktəbə verir.

Biz burada gözəl bir meyvə bağı salırıq. Yazda və payızda dərsdən sonra bağda işləyirik. Bir də görürük ki, ağaclar meyvələrlə doludur. Ancaq heç birimiz meyvələrə əl vurmuruq. İşimizi qurtarandan sonra inspektor bizi cərgəyə düzüb hərəmizə bir alma yaxud bir armud verib yola salır». (s. 57).

Demək, Mamladze Şamaxıda aptekçi yox, məktəb inspektoru işləmişdir. Bunu onun öz məqaləsi, Ə. Mustafayevin xatirəsi ilə yanaşı, həmin məqalənin imzasından sonra verdiyi qeyd də sübut edir. Məqalə belə imzalanmışdır: «Т. Г. Мамладзе. Бывший инсп. Шемах. гор. училище».

Şamaxı kitabxana-qiraətxanasının 1906-ci ildə açılmasına, Mamladzenin məqaləsinin 1908-ci ildə çap olunmasına və imzadan sonrakı «Şamaxı şəhər məktəbinin keçmiş inspektoru» qeydinə əsasən belə bir fikir irəli sürülə bilər ki, bəlkə elə Mamladze 1906-cı ilədək Şamaxıda məktəb inspektoru işləmiş, Həmin ildə və sonralar isə orada aptekçi kimi fəaliyyət göstərmişdir?

Şamaxı şəhər müsəlman kitabxana-qiraətxanasının hər hansı bir aptekçi tərəfindən açılması fikrinin düzgün olmadığını yuxarıda göstərdik. «Кавказский календар»dan aydın olur ki, XIX əsrin sonlarından 1906-cı ilədək Şamaxı şəhər məktəbinin inspektoru işləyən Taras Davidoviç Mamladze[212] 1907-ci ildən etibarən öz pedaqoji fəaliyyətini Kutaisidə davam etdirmişdir. Bu haqda yenə « Кавказский календар»dan öyrənirik ki, Kutaisi real uçilişində «русскяз. ариом. и чистоп. КСв» vəzifəsini tutanlardan biri Taras Davidoviç Mamladze olmuşdur.[213] SMOMPK-da Mamladzenin inisialının «T. D.» deyil, «T. Q» kimi göstərilməsinin mətbəə xətası olması şübhəsizdir.

Gətirilən faktlardan aydın olur ki, Şamaxıda açılan ilk müsəlman kitabxana-qiraətxanasının təşkili və fəaliyyəti ilə hər hansı, o cümlədən Mamladze familiyalı bir aptekçinin əlaqəsi olmamış. T. D. Mamladze isə Şamaxıda aptekçi yox, məktəb inspektoru kimi fəaliyyət göstərmişdir.

Şamaxıda açılan ilk müsəlman kitabxana-qiraətxanası haqda 1906-cı ilin martında verilən xəbərlərdən aydın olur ki, şəhərin tərəqqipərvər ziyalı və cavanları Şamaxıda kitabxana-qiraətxana açmaq üçün qubernatora ərizə verməklə bərabər, «həmin kitabxananın xeyrinə gözəlcə teatr məclisi bərpa edib həm

---

[211]Əliməmməd Mustafayev. Xatirələri. Hekayə və felyetonları. Tərtib edəni: Mərziyə Qiyasbəyli, Bakı,1985.

[212] Вах: Кавказский календар на 1898; 1990; 1902; 1904; 1905; 1907; 1908; год Тифлис, 1899, 1901, 1903, 1904, 1906, 1907, 1908, с. 323, 339, 361, 382, 415, 424, 268.

[213] Вах: Кавказский календар на 1907; 1908 год Тифлис, 1907, 1908, с. 250, 249.

tamaşaçıları məmnun və həm də bir qədər pul cəm etmişlər». Bu xəbərdən az sonra qubernatordan gələn 27 mart tarixli cavab ziyalıları sevindirdi, kitabxana qiraətxananın açılmasına izn verilmişdi[214]. Şamaxılılar son hazırlıq işlərini sürətləndirdilər. Artıq kitabxana-qiraətxananın açılması üçün vaxt və yer də müəyyənləşdirilmişdi. Bu haqda mətbuatda deyilirdi: «Şamaxıda Cəbi bazarında Hacı Səfdər Məhərrəmovun evində mayın yeddisində müsəlman qiraətxanası açılacaqdır».[215] Açılışda iştirak etmək üçün ölkənin müxtəlif yerlərindən Şamaxıya qonaqlar dəvət edilməyə başlamışdı. Belə dəvətnamələrdən biri də «İrşad» qəzetinin redaktoruna gəlmişdi. Qəzetdə bu barədə oxuyuruq: «Müdirimiz Əhmədbəy Ağayev cənablarına Şamaxıdan böylə bir məktub gəlmişdir:

Hörmətli əfəndim!

Şamaxı şəhərinə təşrif gətirib bu mayın 7-sində güşad ediləcək müsəlman qiraət və kitabxanasının rəsmi-güşadında hazır olmağınız kəmali-ehtiram ilə rica edilir».[216]

Nəhayət, mayın yeddisində (1906) Şamaxıda ilk müsəlman kitabxana-qiraətxanası açıldı. Açılışa gələ bilməyənlər təbrik teleqramları, bəziləri isə hətta ianə də. göndərmişdilər. Bu haqda rəsmi açılışdan cəmi bir həftə sonra «Həyat» qəzetində dərc olunan bir müxbir məktubunda deyilirdi:

«Abbas bəy Minasazov cənabları Qoridən, Tiflisdən, Bakıdan, Salyandan göndərilən teleqramları camaata oxudular. O cümlədən müəllimlərdən Əlicabbar İsmayılov və Bababəy Səfərəlibəyovun teleqramları idi ki, hər biri beş manat da ianə etmişdilər. Camaat isə teleqram göndərən zəvata qaibanə rizaməndlik ilə təşəkkürlər etdilər».[217]

Kitabxana-qiraətxana «Molla Nəsrəddin», «Türk» «Tazə həyat», «İrşad», «Tərcüman», «Bürhani-tərəqqi» «Vətən», «Həblülmətn», «Kaspi» və s. mətbuat orqanlarını alırdı.[218] Daha şəhər cavanlarının bir çoxu boş vaxtlarını kitabxana-qiraətxanada keçirirdilər. Onlar burada mütaliə edir, dövrün tələbi ilə əlaqədar bəzi mədəni-kütləvi tədbirlərin planını tutur hazırlıq və təşkilati işlər görürdülər.

Bəzi mənbələrdə Abbas Səhhətin də bu kitabxana-qiraətxana açılışında yaxından iştirak edərək açılış günü məruzə söylədiyini də göstərirlər.[219] Professor Məmməd Məmmədov Şamaxıda açılan bu ilk müsəlman kitabxana-qiraətxanasının açılışından cəmi bir həftə sonra 14 may 1906-cı ildə mətbuatda çıxan müxbir

---

[214] Bax: "İrşad" qəzeti, 5 aprel 1906.
[215] "Həyat" qəzeti, 5 may 1906
[216] "İrşad" qəzeti, 5 may 1906.
[217] "Həyat" qəzeti, 14 may 1906.
[218] "Tazə həyat" qəzeti, 2 yanvar 1908.
[219] Camo Cəbrayılbəyli. Xatirələrim. Bakı, 1966, səh. 66. Kamal Talıbzadə, Abbas Səhhət. Bakı. Azərb. SSR EA nəşriyyatı. 1955; səh. 17-18. Yenə onun. Abbas Səhhət. Bakı. Gənclik, 1986, səh. 24. A. A. Xələfov. Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920) Bakı, ADU - nəşriyyatı, 1960, səh. 73-75.

məktubunu üzə çıxarmaqla həmin məsələyə xeyli aydınlıq gətirmişdir.[220] Çünki müxbir məktubu Şamaxıda açılan ilk müsəlman kitabxana-qiraətxanasının «rəsmi-güşadına» həsr olunmuşdur. Lakin M. Məmmədovun həmin məsələ ilə əlaqədar söylədiyi elmi mülahizələrində Şamaxıya Fyodrovun qəza rəisi təyin olunması tarixi haqda qənaətinin bir qədər dəqiqləşməyə ehtiyacı var. M. Məmmədov yazır: «...Fyodorov qiraətxananın təşkilindən təxminən iki ay sonra Şamaxıya qəza rəisi təyin olunmuşdur. Xalq şairi Sabirin 1906-cı il iyulun 24-də mətbuatda dərc etdirdiyi və «Hophopnamə»nin yalnız son nəşrinə («Hophopnamə»nin 1962 və 1965-ci illərdə çıxan üççildliyinin üçüncü cildinə, Bakı, Azərb. SSR EA nəşriyyatı 1965, s. 157-159. - A. B.) daxil edilmiş məqaləsinda ki: «tazə varid olmuş naçalnikimiz kapitan Fyodrov cənabları» ifadəsi də bu fikrin doğruluğunu təsdiq edir».[221]

M. Məmmədovun müəyyənləşdirdiyi kimi, o zaman bu vəzifəni müvəqqəti olaraq Afanasyevski idarə edirdi.

Abbas Minasazov yuxarıda xatırlatdığımız tərcümeyi-halında naçalnik Afanasyevskinin xeyirxahlığını və tərəqqiyə, inkişafa bəslədiyi rəğbəti xüsusi qeyd edir.

Lakin Fyodrov Şamaxıya 1906-cı ilin iyul ayında «təzəcə varid olsa»da, Şamaxıya həmin ilin mayında qəza rəisi təyin olunmuşdur. Bu barədə mətbuatda dərc edilən bir xəbərdə deyilir:

Cavad Uyezdinin naçalniki Fyodorov Şamaxıya naçalnik təyin olunubdur. Bu cənab sabiqən şəhərimizdə böyük köməkçi olub əhvalımıza layiqincə bələd olduğundan bizim ilə rəiyyətpərvəranə rəftar etməsinə ümidvar olub nəhayət məsruriyyət ilə təşəkkürlər ediriz».[222]

Bu xəbər 1906-cı il mayın 26-da dərc olunub. Kitabxana-qiraətxana isə həmin ayın 7-də açılıb. Deməli, Fyodrov 1906-cı ilin iyul ayında yox, mayın təxminən 10-u 20-ci arası, yəni kitabxana-qiraətxananın açılışından təxminən on, on beş gün sonra Şamaxıya naçalnik təyin olunmuşdur. Lakin Fyodorov Şamaxıya xeyli sonra gəlmişdir. Belə ki, mətbuatın xəbər verdiyinə görə iyun ayında Şamaxıda naçalnik vəzifəsini Afanasyevski icra etmişdir. Məsələn, 31 yanvar 1902-ci il Şamaxı zəlzələsi zamanı dağılan binalardan biri olan Came'i-şərifin bərpasına 1906-cı il iyunun 5-də başlanarkən Afanasyevski təntənəli mərasimdə iştirak etmişdir. «Həyat»da bu haqda oxuyuruq: «...Sonra Ağa cənabları (şiə qazisi Ağa Mir Mehdi ağa - A. B.) və Hacı əfəndi (sünni qazisi Hacı Əbdülməcid əfəndi - A. B) hər biri binaya daş qoymaqla işə şüru olundu. Bu əsnada naçalnik əvəzi Afanasyevski bir ağ (gümüş) manat binaya qoyub və dedi:

«Mən də öz rəsmimizə görə bu xeyir işə iştirak edib həmin məbləği binaya

---

[220] Məmməd Məmmədov. Sabir və məktəb. Bakı. Maarif, 1968, səh. 34-40. Yenə onun. Sabir və mətbuat. Bakı. Elm. 1974, səh. 130-133.

[221] M.Məmmədov. Sabir və mətbuat. Bakı, 1974, səh. 132.

[222] "Həyat" qəzeti, 26 may 1906.

qoymaqla özümü xoşbəxt hesab edəcəgəm!»[223]

Onu da deyək ki, Fyodorovun gəlişindən sonra Afanasyevski Şamaxıda qalaraq naçalnikin «böyük köməkçisi»[224] işləmişdir. Fyodorovun Şamaxıya gəlişi haqda xəbəri isə Sabir ilk dəfə iyulun 24-də deyil bir qədər əvvəl vermişdir. «Həyat» qəzetində oxuyuruq: «Qobustan mahalının pristavı maxoş olduğuna görə naçalnik Fyodorov cənabları şəhərin birinci çast pristavı Vahabbəy Rəhimbəyovu Qobustana göndərdi.

Şamaxıda olan çayçı dükanlarının əvvəl axşamdan bağlanmağına naçalnik hökm etdi».

«Şamaxıya naçalnik təyin olunmuş kapitan Fyodorov cənabları vürudunun ikiminci günü islam üləmalarının didinə müşərrəf oldular. Bu cənabın təşrifi ilə şad olan biz Şamaxı əhli mərhəməti-rəiyyətpərvəranəsi sayəsində minbəd fariğülbal (budan sonra asudə - A. B.) asudə güzəran etməyimizə əmin oluruq».[225]

Bu xəbərlər Fyodorovun naçalnik kimi Şamaxıda gördüyü ilk tədbirlərdən bəhs etməklə bərabər, Sabirin qələm məhsulu kimi qiymətlidir. Lakin nədənsə tərtibçi həmin xəbərlərlə alt-alta çap olunan məqaləni («İslamiyyətin insanpərvərliyi») «Hophopnamə»yə daxil etdiyi halda[226] onlara əhəmiyyət verməyib, diqqədən kənar saxlamışdır.

Beləliklə, Fyodorov Şamaxıya 1906-cı ilin mayında naçalnik təyin olunsa da, bu xəbərdən göründüyü kimi, həmin il iyulun 10-dan sonra gəlmişdir.

Fyodorovun Şamaxıda nə vaxtdan naçalnik işləməyə başlaması kimi ilk baxışda əhəmiyyətsiz görünən bir məsələyə bu qədər yer ayırmaqda əsas məqsəd Şamaxıda açılan ilk müsəlman kitabxana-qiraətxanasının açılış mərasimində kimlərin iştirak etməsi haqda mövcud elmi həqiqəti daha da dolğunlaşdırmağa çalışmaqdır.

Kitabxana-qiraətxananın idarəsi və maliyyə məsələlərinin həllini təşkil etmək üçün cəmiyyət təşkil edilmiş, onun üzvlərindən biri kitabxana-qiraətxananın vəkili seçilmişdir. Az sonra cəmiyyət üzvlərinin bəzisi, o cümlədən Abbasbəy Minasazov müxtəlif səbəblər üzündən Şamaxıdan başqa yerə getmişdir. Vəziyyəti belə görən Ağa Nəcəf Yəhyayev və Məşədi Abduləli Abdullayev adlı şəxslər meydanın boşluğundan istifadə edərək, kitabxana-qiraətxananın vəkilliyini və xəzinədarlığını elə keçirmiş və çox keçmədən müxtəlif bəhanələrlə onun maliyyə vəsaitini mənimsəyib fəaliyyətini dayandırmışdılar. Bu haqda mətbuatda deyilir:

«Biz Şamaxı camaatı xeyli çalışmaqdan, naşi bir qiraətxanaya nail olduğumuz cəmi Şamaxı camaatına məlumdur.

Lakin əfsus ki, bu yavuq zamanlarda haman qiraətxana naməlum səbəbə bağlandı. Eşitdiyimizə görə qiraətxananın öz pulu var. Qiraətxanə vəkilləri olan

[223] "Həyat" qəzeti, 14 iyun 1906.
[224] Bax: "İrşad" qəzeti, 31 oktyabr 1906.
[225] "Həyat" qəzeti, 18 iyul 1906.
[226] M.Ə.Sabir. Hophopnamə. III cild, Bakı, 1965, səh. 155-156.

cənabən Ağa Nəcəf Yəhyayev və Məşədi Abduləli Abdullayevdədir. O cənablar da nə pulu qiraətxanənin davamına sərf edirlər, nə bir şeyə.

Bu barədə artıq təvəqqə olunur qiraətxanə vəkilləri olan Ağa Nəcəf Yəhyayevdən və Məşədi Abduləli Abdullayevdən ki, qiraətxanənin yenidən açılmasına səy etsinlər...»[227]

Yenə həmin günlərdə «İrşad»da çıxan bir xəbərdə kitabxana-qiraətxananın vəkilləri haqda oxuyuruq:

«Naməlum səbəblərə görə Şamaxıda iki il müddəti yaşamış müsəlman kitabxanası qapandı. Məhəlli cavanları onu təzədən açmağa səy edirlər.

Ələlxüsus, necə ki, deyilir qiraətxananın bir cüzi mayəsi də var. Böylə fayidəli idarənin qapanmasını camaat onu dolandıran adamlardan görür və bəyan edir ki, bu adamlar işə kutahlıq və soyuqluq ilə münasibət edirmişlər».[228] «İrşad»ın 20 iyun 1907-ci il tarixli nömrəsində Şirvandan Soltan Məcid» imzası ilə göndərilən müxbir məktubunda da kitabxana qiraətxananın bağlanması «ağalar»dan görülürdü. Şamaxıda açılan ilk müsəlman kitabxana-qiraətxanasının bağlanmasını «Molla Nəsrəddin» jurnalı da tənqid edərək yazırdı:

«Şamaxıda müsəlman qiraətxanasına yığılan pullar nagəhan düşdü bir cavanın cibinə»[229]. Bu adamlar isə özlərini təmizə çıxarmaq üçün bütün günahı cəmiyyət üzvlərinin üstünə atmağa çalışırdılar ki, heç kəs kitabxana-qiraətxananın fəaliyyətinə yardım etmir. Əslində isə belə deyildi. Şəhərin qeyrətli və ziyalı cavanları min bir əziyyətlə başa gətirilən kitabxana-qiraətxananın yenidən canlandırılması üçün yollar axtarır, qızğın müzakirələr keçirirdilər. Onlar bunun üçün vəsait toplamağa da səy edirdilər. Bununla əlaqədar Şamaxıdan yazılan müxbir məktublarından birində deyilirdi ki, həmin cavanlar kitabxana-qiraətxananın «davamı üçün varidat çeşməsi aramağa qeyrət göstərdilər.

Qiraətxanaya mədaxil üçün bir çeşmə də şəhərdə teatr qoymaq ilədir ki, Nəcəfbəy Vəzirovun altı məclisli «Müsibəti Fəxrəddin» faciəsi Şamaxıda mövqeyi-tamaşaya qoyulacaqdır. Oynuyanlar gümləsi könüllü cavanlardır».[230]

N. Vəzirovun «Müsibəti-Fəxrəddin» əsəri təsadüfən seçilməmişdi. Belə ki, kitabxana-qiraətxananı» təşkilində əsas məqsəd xalqın maarif və mədəniyyət, tərəqqi yolunda daha da irəliləməsinə kömək etmək, nadanlıq üzündən vətəndaşların bir-birini didib-parçalamasının, bununla da xalqın ictimai-mədəni yüksəlişdən geri qalmasının qarşısını almaq idi.

«Müsibəti-Fəxrəddin» əsərində də yeniliyə, elm və maarifə çağırış, qan düşmənçiliyinə, nadanlığa etiraz ön plana çəkilmişdir. Şübhəsiz, tamaşanın təşkilatçıları çalışırdılar ki, əsərin ana xətti təşkil edən həmin ideyaları tamaşaçılara bütün qabarıqlığı ilə çatdırsınlar. Bu məqsədlə M. Ə. Sabir «faciə göstərilməzdən

---

[227] "İrşad" qəzeti, 8 iyun 1907.
[228] Yenə orada.
[229] "Molla Nəsirəddin" jurnalı, 27 yanvar 1908, № 4.
[230] "Tazə həyat" qəzeti, 28 avqust 1907.

əvvəl dramaturqun əsas qayəsini - yeniliyə, elm və maarifə çağırış kimi mütərəqqi ideyalarını qabarıq şəkildə tamaşaçılara çaşdırmaq və onlarda dərin əxlaqi estetik təsir hissi oyatmaq üçün xüsusi bir nəğmə yazmışdı».[231]

«Müsibəti-Fəxrəddin» əsərini addım-addım izləyən həmin şerin ayrı-ayrı parçaları müvafiq olaraq pərdələrin arasında uşaqlar tərəfindən «həmavaz olub oxunurdu». Faciədə qarşıya qoyulan əsas ideyanın tamaşaçılara bütün aydınlığı ilə çatmasında Sabirin şeri son dərəcə gözəl rol oynamışdır. Hər pərdədən sonra, yəni pərdələrarası səhnəyə çıxan uşaqlar tamaşaçılara xitabən oxuyurdular:

Elmin izzəti payidar olur,
Cəhlin nisbəti canşikar olur;
Hər kəs elm oxur, bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.

Oxuyun, əzizlər, oxumaq zamanıdır!
Oxumaq hər adamın ədəbi nişanıdır!

Elm ilə sərəfraz olmasaq biz.
Cümlədən biniyaz olmasaq biz, -
Bizdə fəxrü mübahat olurmu?
Qeyrilərə müsavat olurmu?[232]

Sabirin şerinin tamaşaçılara təsiri ilə əlaqədar həmin günlərdə tamaşa haqqında dərc olunan məqalədə deyilirdi: «Həqiqətən o uşaqlar ağzından eşidilən maarifə, tərəqqiyə, milliliyə dair olan əbyat cümləni tərənnümeyi-təəşşüqə gətirir idi».[233]

Həm yuxarıda xatırlatdığımız müxbir məktubundan, həm də tamaşaçıya hazırlıq işinin gedişindən aydın olur ki, 1907-ci il avqustun 17-də Şamaxıda tamaşaya qoyulan «Müsibəti-Fəxrəddin» tamaşasından yığılan pul kitabxana-qiraətxananın «davamı üçün varidat çeşməsi» rolunu oynamalı imiş. Bu haqda Fayiz imzalı bir müəllif «Şamaxıya səyahətim»[234] adlı müxbir məktubunda yazırdı:

«Qiraətxanaya mədaxil üçün bir çeşmə də şəhərdə «teatr» qoymaq ilədir ki, bu avqust ayının 18-ci şənbə gecəsi Nəcəfboy Vəzirovun altı məclisli «Müsibəti-Fəxrəddin» faciəsi Şamaxıda mövqeyi-tamaşaya qoyulacaqdır. Oynuyanlar cümləsi könüllü cavanlardır».

Görünür, kitabxana-qiraətxananı yenidən canlandırmaq hələlik baş

[231] Məmməd Məmmədov. Sabir və məktəb. Bakı, Maarif. 1968, səh. 46.
[232] "Tazə həyat" qəzeti, 31 avqust, 1907, M.Ə.Sabir. Hophopnamə, III clddə, III cild, Bakı, Azərbaycan EA nəşriyyatı, 1965, səh. 90.
[233] "Tazə həyat" qəzeti, 31 avqust, 1907.
[234] Yenə orada, 27 avqust, 1907.

tutmayacağına görə əsər «yetim uşaqların mənfəəti üçün»[235] oynanılmışdır.

Bu vəziyyət üç il davam etdi. Cəmiyyətin üzvləri uzun çarpışmadan sonra, nəhayət, keçmiş vəkilləri kitabxana-qiraətxananın rəhbərliyindən kənar edərək yerinə Ağalarbəy Hüseynbəyovu seçdilər. Ağalarbəy Hüseynbəyov kitabxana-qiraətxananın ilk təşkilatçılarından idi. O, həm də 1906-cı il avqustun 3-də N. Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» əsəri Şamaxıda tamaşaya qoyularkən Əşrəf rolunu ifa etmişdir.

Kitabxana-qiraətxananın yenidən canlandırılmasında onun ilk təşkilatçılarından, «Yağışdan çıxdıq, yağmura düşdük» əsərində (Şamaxıda tamaşada) Cəbi rolunun ifaçısı, qocaman müəllim Əliməmməd Mustafayev də mühüm rol oynamışdır. O, bu sahədə gördükləri işlər barədə yazırdı:

«Dərs ili başa çatır. Yay fəsli Şamaxıya gedirəm. (O zaman Ə. Mustafayev Bakıda müəllim işləyirdi - A. B.) Şamaxıda şəhər məktəbinin bir qiraətxanası vardır. Bu qiraətxana şəhər məktəbinin müəllimi Abbas Minasazovun təşəbbüsü ilə açılmışdır. A Minasazovu bütün Bakı müəllimləri tanıyır. Rusca mükəmməl savadı var. Uzun müddət ali-ibtidai məktəbdə? dərs demişdir...

1908-1909-cu illərdə mən və Baba bəy Səfərəliyev Şamaxıda «Nicat» cəmiyyəti şəklində bir cəmiyyət düzəldirik və adını da «Axivvət» (qardaşlıq) qoyuruq. Cəmiyyətin əsas məqsədi kütlələri maarifləndirmək, şəhər məktəbində oxuyan yoxsul uşaqlarına kömək etmək və qiraətxananı yaşatmaqdan ibarətdir. Qolçomaqlar, ələlxüsus mollalar qiraətxananın üstünə hücum çəkib, onu bağlamağa çalışırlar. Biz «Əxivvət» cəmiyyətinin nizamnaməsini yazıb Bakı qubernatoruna göndəririk. Burada görəcəyimiz işlərin hamısı vardır. Qubernator cürbəcür bəhanələr gətirib nizamnaməni təsdiq etmək istəmir, qiraətxanə üçün heç bir maddi vəsait vermir. Axırda biz qiraətxananın nəzdində kiçik bir teatr dərnəyi təşkil edirik. Bunun katibliyini Hüseyn Mirzəyevə, xəzinədarlığını Ağalar Hüseynbəyova tapşırırıq».[236]

Şəhərdə tərəqqi əlamətlərinin artması qaragüruhçuları razı salmırdı. Onlar əllərində olan bütün imkanlardan istifadə edərək tərəqqipərvər ziyalıları şəhər mühitindən uzaqlaşdırmağa çalışır, bununla yenilik duyğusunu «beşikdəcə boğacaqlarını», zənn edirdilər. Bu təlibin izləri dövri mətbuatda və arxiv materiallarında qalmaqdadır. Elə Ə. Mustafayevdən gətirdiyimiz sitatdan da görünür ki, tərəqqipərvər ziyalılar və onların gördükləri mütərəqqi tədbirlər qaragüruh tərəfindən ciddi təqibə məruz qalır, həyata keçirilən hər cür mütərəqqi tədbir ağır və kəskin mübarizələr hesabına başa gəlirdi Bundan başqa Şamaxıda qəzet və jurnalla əlaqəsi olub, ona yazı göndərən adamlar təqib olunaraq, onların üzərinə ciddi nəzarət qoyulurdu.[237] Bu cür adamları qaragüruhçular hər addımda camaatın gözündən salmağa çalışırdılar. Bələlərindən biri də M. Ə. Sabir idi. Onun

---

[235] "Tazə həyat" qəzeti, 31 avqust, 1907.
[236] Əliməmməd Mustafayev. Xatirələri, hekayə və felyotonları. Bakı. Yazıçı. 1985, səh. 63.
[237] "Tazə həyat" qəzeti, 6 may, 1907.

1907-ci ildən başlayaraq qaragüruhçular tərəfindən təqibi və maddi və mənəvi cəhətdən sıxışdırılması həm dövrü mətbuatdan, həm özünün məktublarından, həm müasirlərinin yazılarından həm də elmi ədəbiyyatdan məlumdur. Xalq şairinin müasiri və dostlarından, dövrünün tanınmış publisisti və müəllimi Əbdürrəhman Tofiq Əfəndizadənin «Məktub»[238] adlı yazısı bu cəhətdən xarakterikdir. Müəllif yazırdı: «Keçən yayda (1907-ci ilin yayında - A. B.) mən Şamaxıda ikən bir cümə günü bir yerdə oturub mədəniyyət və tərəqqi xüsusunda iki zat ilə söhbət edirdik. Əsnayi-söhbətdə rəfiqlərdən birisi bir ədəd qəzetə gətirdi. Mən bir qədər qəzetə maraqlısı olduğumdan bunlar qəzetəni mənə verib oxunmasını xahiş etdilər.

Binaən-əleyh bən də qəzetəni açıb adətim olmaq üzrə ibtida səhifələrə baxdım. Bu halda üçüncü səhifədə Şamaxıdan Sabir imzası ilə yazılan bir məktub gözümə çarpdı.

Mən - Əfəndilər! Dinləyiniz! Sabir əfəndinin məktubunu oxuyuram, baxalım şəhərimizin hankı eybini göstərir.

Birisi - Öylə ilə daha oxumağa lüzum yoxdur. Bir gözü, bir fikri ki, Sabirlər yazacaq, onun nə qaydası olacaqdır? Bunun cavabən:

Digəri - Görünür, qəzetin nə olduğunu siz indi bilirsiniz ! Qəzetə yazanlar cümləsi Sabir gibi adamlardır. Vallah, yaxşı adam qəzetəyə yavuq olmaz.

Mən bunların böylə cahilanə sözlərindən darılır, «Canım! Gözüm - Biz Sabirə baxmayalım. Sabir nə olursa olsun, yalnız sözünə baxalım. Görəlim yazdıqları səhihdir ya yanlışdır.

Onlar - Rica edirik, oxumayınız! Kəndi söhbətimiz daha şirindir.

Buna görə də bunların sözünə heyran-heyran baxıb çar-naçar qəzetəni büküb saxladım. İşbu hali-əsafə iştimal üçün dərin-dərin düşünərkən, üdəbadan birinin şu «(insan olmalı ki, mətbuatın nə olduğunu anlamalı!)» sözü yadıma gəldi».

Göründüyü kimi, üzdə özünü mədəniyyət tərəfdarı) kimn göstərən, «tərəqqi xüsusunda söhbət edən», məsələnin qəlizləşdiyini görəndə isə əsil simalarını üzə vuran bu «iki zat» Sabirin şəhərin hansısa «eybini göstərdiyinə» qulaq asa bilmir. Çünki onlar Sabir satirasının və publisistikasının gücünə, ideya-bədii istiqamətinə çox gözəl bələd idilər və bütün bunlar onların mənafeyinə ziddi olduğu üçün hər yerdə Sabirləri xalqın gözündən salmağa çalışırdılar. Bu işdə qaragüruha bəzi səbatsız ziyalı cavanlar də kömək edirdilər. Bunu kitabxana-qiraətxananın timsalında da görürük. Təsadüfi deyil ki, kitabxana-qiraətxananın cəmiyyət üzvləri həmin təqiblərin ürək ağrısı ilə xatırlayaraq yazırlar:

«Şamaxı mollaları və qolçomaqları qiraətxananı dağıtmaq istəyir. Onlara mən və yerli realistlər ciddi müqavimət göstəririk. Qiraətxana üçün lazımi şeylər - bədii kitablar, jurnal və qəzet, cürbəcür şəkillər əldə edirik. Çatışmayan bəzi avadanlığı realistlər[*] (Əmin Əfəndiyev, Hacı Murad Orucəliyev, Lətif Əfəndiyev,

---

[238] "İrşad" qəzeti, 24 yanvar 1908.

[*] «Реалное училище» tələbələrin ixtisarla verilən addır.

Qasım Hüseynov, Məhəmmədhəsən Atamalibəyov - A. B) öz evlərindən gətirirlər və beləliklə, qiraətxananı qoruyuruq.

Bir yay fəsli yenə Şamaxıya gəlib qiraətxananın varidatını yoxlayıram. Böyük stolun örtüyünün cırılmasını və stulların sınmasının səbəbini kuryerdən soruşduqda deyir: «...bəy böyük stolu və stulları Muğanlı toy məclisinə verib, ona görə bu günə düşüblər».

Bir dəfə Şamaxıdakı müəllim dostum Qasım bəydən bu məzmunda məktub alıram: «Qiraətxana dağıldı, varidatı da... bəyin qohum-qardaşı arasında pay-püşk edildi». Mən bu xəbərdən çox bədbinləşirəm. Haşım bəy Vəzirovun «Məzəli» jurnalına, «Şamaxı qiraətxanasının tərəkə olunması» adlı bir məqalə yazıb göndərirəm. Məqalədəki səbəbkarın adını aşkarca göstərirəm. Məqalə çap olunur və jurnal Şamaxıya gəlib çatanda bəyin adı dildən-dilə gəzir. «Bizim bəy» əl-ayağa düşür, Bakıya, Haşım bəyin yanına gəlib mənim (Məqaləmə cavab yazmaq istədiyini bildirdikdə Haşım bəy ona belə deyir: «O məqaləni bizə müəllim Əliməmməd Mustafayev yazmışdır, biz ona inanırıq. Biz jurnalımızda heç bir cavab yazmalı deyilik».[239]

Görünür, H. Vəzirovun cavabı ilə qane olmadığı üçün həmin adam daha doğrusu, Camo Cəbrayılbəyli Əliməmməd Mustafayevə yazdığı cavabı «Yeni İqbal» qəzetinə verir. C. Cəbrayılbəyli öz cavabında kitabxana-qiraətxananın varidatının dağılmasında öz günahı olmadığını, bu işlərə digərlərinin bais olduğunu iddia edirdi.

Ona görə də, Ə. Mustafayev onun cavabına cavab yazaraq həqiqətin hamıya aydın olmasına çalışdı:

«Cənab Camo bəy! Yazırsan ki, qiraətxananın əşyasını, qapıları açıb çayçı dükanlarına daşıyıb aparırdılar. Yaxşı, nə oldu ki, bu əhvalatı sən bildin. Amma qiraətxana naziri Ağalarbəy bilmədi ki, ona bu şeylər tapşırılmışdı. Hərgah haman dükanın qapısını açıb şeyləri aparırdılar, bəs nə səbəbə sən və Məmmədəli Veysov Ağalarbəyi gecə-gündüz rahat qoymayıb, qiraətxananın açarını tələb edirdiniz? Yazırsan ki, stulları guya mən bir dostun toyuna vermişəm və sən gedib oradan yığıb gətirmisən. Əgər mən belə iş tutmuş olsaydım, «Nicat» şöbəsinin şurasında əlli nəfər adam içində səndən şeylər istəməzdim və qəzetlərdə yazmayıb, eybimə kor olub əyləşərdim.

Yazırsan ki, şeyləri münsiflər ilə aparmışam sonra «Nicat» şöbəsinə təhvil vermişəm. Keçən il «Nicat» şöbəsi idarəsinə bu şeylər gəlib. On və ya on iki stul ki, onların da bəzi parasının ayaqları yox; bir də böyük miz, mərhum Həsənbəyin əksi və onun təşyi-cənazəsinin əksi. Apardığın beş-altı yüz kitabdan, buyurduğunuz şkafdan 25 cild kitab tapılıb. Ancaq qalan kitablar bu saat da səndədir. O cümlədən qiraətxananın maliyyə «İnventar» kitabı da ki bu vaxtadək tapılmayır. Qiraətxananın qalan pulu barəsində mən də yazmışdım ki, Hüseyn

[239] Əliməmməd Mustafayev. Xatirələri. Hekayə və felyetonları. Bakı. 1985, səh. 69.

Musayevin adına xəzinədədir. Bu məqalə ilə bərabər haman cənabın kağızını da müdir cənablarına pişnəhəd edirəm.

...Ötürdüyün şeylər səndən geri alınasıdır. Çox yaxşı ki, özün yazdığın məqalədə götürdüyün şeyləri boynuna alırsan. Ancaq qiraətxanaya kitabları kim verib, stullar haradan gəlib, sənin borcun deyil. Sən qiraətxana şeylərinə vərəsə çıxa bilməzsən...»[240]

Bütün bu mübahisələr Şamaxıdakı ilk müsəlman kitabxana-qiraətxanasının sonrakı taleyində kimlərin necə rol oynaması haqqında təsəvvür almağa kömək edir. Onu da deyək ki, Əliməmməd Mustafayevin Bakıdan yay tətillərində Şamaxıya gələrək kitabxana-qiraətxananın davamı və genişlənməsi üçün xüsusi canfəşanlıq və vətənpərvərliklə çalışması haqda hələ 1910-cu ildə də mətbuatda razılıq dolu yazılar vardır. Məsələn, Hacı Səftər Məhərrəmovun məqaləsində bu barədə oxuyuruq: «Az zamandan bəri Şamaxıda qiraətxana açmağı otuz nəfər üzvlərin həmiyyətilə bizlərə məlum oldusa da, amma çox heyflər bəz əşxasə ki, bu cəmiyyətə ziyadə qəbahət ilə nəzarət edib üzvlər haqqında ləğv olan kəlamlar danışılır.

Həmin üzvlərdən neçə nəfəri Bakıda uçitel olduqları halda və alicənaba hümmət göstərir Əlan Şamaxıda mövcud olub hər işlərindən əvvəl qiraətxana işinə tərəqqi verməyə məşğuldurlar. Və bu az zaman içində teatr qayırıb məbləğ cəm edib kəsir olan işlərə sərf edəcəklər. Və bu ziyalı uçitellərdən bəziləri Bakıda müqim Şamaxı əhli-sərvətlərindən qiraətxana məzkura üzv yazdırmağa və ianə etməklə ziyalə ğeyrət edirlər.

Ziyalı uçitellərimiz əsbabi-tərəqqi əmələ gətirməkə hər zaman hazırdırlar. Şəhərin və övladi-vətənin qeydini çəkirlər.

Şamaxıya təşrif gətirəni neçə dəfələrlə məktəbə təşrif gətirdilər. Şad eylədilər.

Və bəzi dərslərdə kömək eyləməgi də müzayiqə eləmirlər».[241]

Bu sətirlərdən də aydın olur ki, Şamaxının Əliməmməd Mustafayev, Baba bəy Səfərəlibəyov kimi ziyalıları Bakıda və digər yerlərdə işləsələr də, öz ana yurdlarının inkişafı üçün əllərindən gələni edir, yerli həvəskarlar tərəfindən müsəlman qiraətxanasının mənfəətinə verilən tamaşanın[242] və kitabxana-qiraətxana təşkilində digər işlərdə çalışmaqla bərabər, oradakı yeni tipli məktəblərdəki dərslərdə iştirak edib müəllimlərə elmi-pedaqoji məsləhətlər verir, özləri də nümunə dərsi deyirdilər. Bu ziyalıların təşkil etdikləri cəmiyyətlərdən biri də Şamaxıda açılan ilk müsəlman kitabxana-qiraətxanasının fəaliyyətinin tənzimlənməsinə və digər mədəni-kütləvi tədbirlər keçirilməsinə xidmət edirdi. Həmin cəmiyyət, Ə. Mustafayevin göstərdiyinə görə, 1908-1909-cu illərdə yaradılmışdır. O vaxtkı mətbuatda bu barədə belə bir məlumata rast gəlirik:

---

[240] Ə. Mustafayev. Göstərilən əsəri. səh. 135, 136, 137.
[241] “Səda” qəzeti, 29 iyul 1910.
[242] Yenə orada, 13 iyul 1910.

«Şamaxıda qiraətxana üzvlərinə: Əfəndim, qərarınızı rəsmi kağız üzrə və bütün üzvlərin imzası ilə yazmalısınız».[243]

«Tərəqqi» qəzetinin «poçt qutusu»ndakı bu qeyddən belə görünür ki, haşım bəy Vəzirovun tənqidindən[244] sonra Şamaxı ilk müsəlman kitabxana-qiraətxanasının üzvləri onun fəaliyyətinn qaydaya salmaq üçün müəyyən tədbir görmək istəmiş, lakin hələlik bütün maneələri aradan qaldıra bilməmələrindənmi, yaxud qərarı tələb olunan qaydada və səviyyədə hazırlaya bilmədiklərindənmi, nədənsə bu iş müvəqqəti ləngimişdir. Əks halda qəbul olunan qərarın rəsmi kağızda yazılmadığını və orada bütün üzvlərin imzasının odmadığını redaksiya onlara irad tutmazdı. Bəs, bu qərar nə barədə idi ki, onun etibarlılığı üçün rəsmi-kağız və kitabxana-qiraətxananın bütün üzvlərinin imzası tələb olunurdu?

Bu suala yenə həmin qəzet, («Tərəqqi» qəzeti) qisməndə olsa, cavab verir. Şamaxılı Ə. İ. Səfərzadə «Şamaxı halı»[245] silsilə məqaləsinin bir yerində yazır! «..Ürəfalar xeyirli bir iş görmürlər. Cəmiyyət yanıb qiraətxana nöqsanı, yaxud teatr binası haqda danışmırlar. Danışanda da nəticəsi olmur.

Məsələn, yayda tətilə gələn müəllimlər teatr hazırladılar. Elan vurdular ki, iyulun 25-də tamaşadır. 25-i avqustun 1-nə qaldı, 1-i 6-sına, 6-sı isə 15-nə. Daha gözləyə bilməyib Bakıya gəldim. Bilmirəm, tamaşa oldu, ya yox».

Bu xəbərdəki «Cəmiyyət yapıb qiraətxanə nöqsanı yaxud teatr binası haqda danışmırlar. Danışanda da, nəticəsi olmur» cümləsindən və redaksiyanın qeydindən bu fikrə gəlmək olar ki, Şamaxıdakı ilk müsəlman kitabxana-qiraətxanası üzvlərinin yuxarıda xatırlanan qərarı məhz kitabxana-qiraətxananın idarə olunması üçün cəmiyyət yaratmaq haqda imiş. Təsadüfi deyil ki, Əliməmməd Mustafayevin kitabından yuxarıda gətirdiyimiz parçanın birində cəmiyyətin yaradılması haqda danışan müəllif bu qərar və nizamnamənin Bakı qubernatoru tərəfindən müxtəlif bəhanələrlə ləngidilməsi, ona heç bir dövlət vəsaiti buraxılmaması, nəticədə, Əliməmmədgilin teatr tamaşası göstərib pul toplamaq fikrinə gəlmələri göstərilir. Ə. İ. Səfərzadənin yazdığına görə tamaşanın göstərilməsi və cəmiyyət məsələsi hələ avqustun 15-nə kimi (1909) baş tutmayıbmış, Ə. Mustafayev isə həmin tədbirin 1908-1909-cu illərdə həyata keçirildiyini göstərir.

Bu faktlardan belə çıxır ki, Şamaxıda olan ilk müsəlman kitabxana-qiraətxanasının fəaliyyətini təmin etməyi, teatr tamaşaları verməyi və kasıb, yetim uşaqlara maddi yardım göstərməyi öhdəsinə götürən «Nicat» cəmiyyəti tipli cəmiyyət» 1909-cu ilin sonlarında, daha doğrusu avqustun sonu, sentyabrın əvvəllərində yaradılıb, 1910-cu ildə mətbuat səhifələrində artıq bu cəmiyyətin keçirdiyi mədəni-kütləvi tədbirlər haqda yazılar görünməyə başlayır.

Düzdür, 1909-cu ilin sonlarında, daha doğrusu, ikinci yarısında Şamaxı ilk müsəlman kitabxana-qiraətxanası ilə əlaqədar yaradılan cəmiyyət üzvlərinin

[243] "Tərəqqi" qəzeti, 15 iyul 1909.
[244] "İttifaq" qəzeti, 20 iyul 1909.
[245] "Tərəqqi" qəzeti, 21 avqust 1909.

siyahısı hələ əlimizdə yoxdur. Lakin mövcud materiallara əsasən bu adamların bəzilərinin adlarını müəyyənləşdirmək olur. Onlardan biri Hacı Səfdər Məhərrəmovdur ki, 1906-cı ildə bu kitabxana-qiraətxana onun evində yerləşirdi. Hacı Səfdər Məhərrəmov «Səda» qəzetində Səfdər imzası ilə dərc etdirdiyi məqaləsində[246] cəmiyyət üzvlərinin sayının otuz olduğunu qeyd edib, onların gördükləri mütərəqqi işlərdən söhbət açır.

İkincisi, Ağalarbəy Hüseynbəyovdur. O, cəmiyyətin yeni xəzinədarıdır.

Digər iki nəfər isə cəmiyyətin göstərdiyi tamaşa haqqında həmin günlərdə «Кафказскаjа копеjка» qəzeti «Вечер вь пользу читальни» başlığı ilə dərc etdiyi xəbərdə Şamaxı müsəlman ziyalılarının Bakı qubernatoruna müraciət edərək, Şamaxıda kitabxana-qiraətxananın xeyrinə bir «veçer» keçirmək üçün icazə istədiklərini bildirirdi.[247] «Səda» qəzetində belə bir məlumat dəre etdirmişlər: «Hələlik iyul ayının ikisində Şamaxı müsəlman həvəskarları tərəfindən müsəlman qiraətxanasının mənfəətinə verilən tamaşadan cəm oldu 226 manat 12 qəpik. Həmin puldan xərc oldu 61 manat 28 qəpik. Və qalan nəğd pul 156 manat 84 qəpik verildi qiraətxananın xəzinədarı Ağalarbəy Hüseynbəyov cənablarına. Bununla biz Şamaxı qiraətxanasının üzvləri öz təşəkkürümüzü Şamaxı müsəlman həvəskarlar cavanlarına izhar edib və bu barədə allahdan bizim cavanlara təvafiq istərik ki, ildə bir iki-üç dəfə tamaşa vermək ilə qiraətxanaya artıq dərəcədə köməklik edirlər. Əlavə öz təşəkkürümüzü cənab İsabəy Aşurbəyov bu dəfə bizə bir məzhəkə kitabçası göndərmək ilə bizi müşküldən xilas etməyə görə izhar edirik. Haman kitabdan böyük məəttəlçiliyimiz var idi.

Üzvlər: 1-ci Əliməmməd Mustafayev, Hüseyn Musayev».[248]

Bəzi üzvlərin adına isə Əliməmməd Mustafayevin kitabında rast gəlirik. Bunlar Bababəy Səfərəlibəyov, Əmin Əfənliyev, Hacı Murad Orucəliyev, Lətif Əfəndiyev, Qasım Hüseynov, Məhəmmədhəsən Atamalıbəyov, Ağaisa və başqalarından ibarətdir. Onu da deyək ki, cəmiyyətin hazırladığı teatr tamaşalarının göstərilməsi üçün Salamovlar öz mülklərini ziyalıların ixtiyarına vermişdilər. Bu haqda mətbuatdakı xəbərlərdə də danışılır. Ə. Mustafayev, Salamovların xeyirxahlıqları barədə yazır:

«Teatr göstərdiyimiz yer Şamaxıda məşhur bəzzazlar - Salamovların binasıdır. Bunlar binanı tamam-kamal bizim ixtiyarımıza veriblər. Bina sahibləri bizdən kirə tələb etmirlər və biz də kirədən azad gəzirik. Binanın böyük zalında səhnə yerləşir. Zalın yanında artistlərin bəzənmələri üçün bir əlavə otaq da vardır. Biz yayda burada iki, üç tamaşa göstəririk. Tamaşalar pulludur. Yığılan pulların bir hissəsinə qiraətxana üçün inventar alırıq. Bir hissəsini də şəhər məktəbində oxuyan yoxsul uşaqlara sərf edirik»[249].

---

[246] "Səda" qəzeti, 29 iyun 1910.
[247] Bax: "Кафказскаjа копеjка" qəzeti, 13 iyul 1910.
[248] "Səda" qəzeti, 13 iyul 1910.
[249] Ə.Mustafayev. Göstərilən əsəri, səh. 64.

Deməli, kitabxana-qiraətxana təşkil edən cavanlar eyni zamanda «gözəlcə teatr məclisi bərpa edib həm tamaşaçıları məmnun, həm də bir qədər pul cəm etmişdilər»[250]. Bundan başqa, yay olanda Bakıdan artistlər gələrək Şamaxıda tamaşalar göstərib şəhərin mədəni mühitinə əhəmiyyətli dərəcədə təsir göstərirdilər ki, buraya Sidqi Ruhullanı, Bağdadbəyov, İsmayıl Hidayətzadəni, Zülfüqar Hacıbəyov və onun artist dəstəsini və b. göstərə bilərik».[251]

Amma bu tədbirlər və üzə çıxan ədəbi-bədii nümunələr yalnız mədəni-kütləvi xarakter daşımaqla qalmayıb, siyasi və milli-mənəvi əhəmiyyətə də malik idi. Rusiya xalqların milli və siyasi azadlıq mübarizəsinin qarşısını almaq istəyən hakim qüvvələrin 1905-ci ildə ictimai-siyasi hadisələrin gedişindən istifadə edərək öz milli müstəqilliyinə çalışan xalqları, o cümlədən azərbaycanlılarla erməniləri bir-birləririn üstünə salıb onların arasında milli qırğın törətmələri məlumdur. Həmin siyasi fırıldağı başa düşən açıq gözlü ziyalılar milli qırğının qarşısını almaq üçün əllərindən gələni edirdilər. Həmin dövrdə ədəbiyyatımızda xalqlar dostluğu mövzusu böyük ictimai-siyasi əhəmiyyət daşımağa başlamışdı. Belə prosesdər Şamaxı ədəbi mühitində də getməkdə idi. Biz bu hadisələrə verilən fəal vətəndaş reaksiyanın bədii-publisist nümunələrini M. Ə. Sabirin yaradıcılığında qabarıqlığı ilə görürük.

Ümumiyyətlə, XX əsrin əvvəllərinə qədər Azərbaycan ədəbiyyatında xalqlar dostluğu mövzusu məişət və yadelli işğalçılara qarşı mübarizədə birliyə çağırış və bu birliyin tərənnümü çərçivəsi daxilində qələmə alınırdısa, əsrin əvvəllərində həmin mövzu ictimai-siyasi məzmun kəsb etməyə başladı. Çünki xalqların inqilabi və milli azadlıq mübarizəsini onların arasına salınan milli qırğınlarla kəsməyə çalışan istismarçı siniflərin bu cəhdlərinin qarşısını almaq vasitələrindən biri beynəlmiləlçilik ideyalarının təbliqi və tərənnümü idi. Əsrin əvvəllərində, xüsusilə 1905-ci ildə başqa xalqların ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında da bu mövzuya diqqət xeyli qüvvətləndi. Çünki çarizm erməni və müsəlmanların milli azadlıq hərəkatlarının qarşısını almaq üçün bu iki xalq arasında milli qırğın salmışdı. Belə bir şəraitdə qabaqcıl partiyalar və mütərəqqi görüşlü ziyalılarla birlikdə Sabir də öz səsini ucaldaraq Azərbaycan və erməni xalqlarını sülh və əmin-amanlıq şəraitində yaşamağa «səslədi:

İki yoldaş, iki qonşu bir vətəndə həmdiyar,
Əsrlərcə ömr edib, sülh içrə bulmuşkən qərar,
Fitneyi-iblisi-məlun oldu nagah aşikar...
Gör cəhalətdən nə şəklə düşdü vəzi ruzigar!
Tətlü-qarət bişümarü şəhrü-qəryə tarimar...
Ələman, bu fitneyə çarə qıl ey pərvərdigar!
Ey süxəndanan, bu günlər bir hidayət vəqtidir!

---

250 “İrşad” qəzeti, 16 mart 1906.
251 Ə.Mustafayev. Göstərilən əsəri, səh. 64-65 və s.

Ülfəti ünsiyyətə dair xitabət vəqtidir![252]

Sabir, bu qırğın zamanı şəhər və kəndlərin tarmar edilməsinə, yüzlərlə adamın qanına qəltan edilməsinə dözmür, millətin başbilənlərini xalqlar arasında sülh və birgəyaşayış ideyalarını inkişaf etdirməyə çağırırdı:

...Nabəca bu işlərin dəf'ində qeyrət etməli,
Xatiri-müğbərridən rəf'i-küdurət etməli,
Çarəsazi-sülh olub dəf'i-xüsumət etməli,
Sabira, beynəlmiləl tədbiri-ülfət etməli...[253]

Şerin ilk misrası - «əsrimiz xahiş edirkən ittifaqü ittihad», - sözləri də Sabirin dövrün, zamanın irəli sürdüyü tələbi obyektiv qiymətləndirdiyini sübut edir.

M. Ə. Sabir «...o zaman bütün ictimaiyyəti düşündürən 1905-ci il inqilabı və ziyalılar qarşısında duran vəzifələr haqqında, çarizmin milli qırğın siyasətini ifşa edən, xalq kütlələrini birliyə, qardaşlığa çağıran publisist əsərlər də yazıb çap etdirmişdir...

...Sabirin məqalələri həm dolğun məzmun, qabaqcıl, mütərəqqi ideya, həm də hadisələrə fəal münasibət, nöqteyi-nəzərindən diqqəti cəlb edir».[254]

1906-cı ildə «İrşad» qəzetində Sabirin dərs etdirdiyi «Vəfat xəbəri»[255] adlı məqaləsində Şamaxı üləmalarından Şeyxəli ağa Şirvaninin dəfn mərasiminin təsviri verilir. Zahirən burada qeyri-adi şey yoxdur. Lakin Sabir dəfnə gələnləri təqdim edərkən onların arasında başqa millətlərin nümayəndələri, o cümlədən ermənilərin də olduğunu qeyd edir.

Dəfn mərasimində Sabir diqqəti erməni keşişinin də nitq söyləyərək, hər iki xalqı azərbaycanlılarla erməniləri qardaşlığa çağırmasına da yönəldir.. Şübhəsiz, burada şairi cəlb edən müxtəlif xalqların sülh şəraitində yaşayışları, nitqlərdəki dostluğa çağırış motivləri olmuşdur. Şairə görə, heç bir maddi və milli əsası olmayan, iştirakçılarına ancaq fəlakət və ləkə gətirən milli qırğın hər iki tərəfin ziyanınadır. Şair islami humanizmin təntənəsini milli ədavətin aradan qaldırılmasına xidmət edən amillərdən biri hesab edir. Onun bu qənaətə gəlməsində camaat arasında bir həyəcan olan kimi Şamaxı üləmalarının onları müslimata, islam humanizminə dəvət edərək sakitləşmələrinə müvəffəq olmaları, beləliklə, Şamaxıdakı ermənilərlə müsəlmanlar arasına düşə biləcək hər hansı ixtilafın qarşısını qabaqcadan ala bilmələri də müəyyən rol oynamışdır. Odur ki,

---

[252] M.Ə.Sabir. Hophopnamə, üç cilddə, III cild. Bakı, 1995, səh. 19.
[253] M. Ə. Sabir. Hophopnamə. üç cilddə, III cild, səh. 29.
[254] Məmməd Məmmədov. Sabir və mətbuat. Bakı, Elm, 1974, s. 112-113.
[255] M. Ə. Sabir. Hophopnamə, üç cilddə, III c., Bakı 1965, s. 153-154.

Sabir həmin məsələyə həsr etdiyi məqaləsinə «İslamiyyətin insaniyyətpərvərliyi»[256] başlığı qoyaraq yazırdı:

...Məəttəəssüf, əziz vətənimizin sevgili övladları bir-birinə rəva gördükləri birəhmanə sui-qəsddən dolayı darülmüsəlimat olan Qafqazın hər guşəsinin bir meydani-müharibəyə dönməsindən dolayı qəlblərimiz yanıb, ürəklərimiz parçalandı isə də, həmd olsun, bu anə kimi Şamaxı şəhri və ətraf dəhatı böylə-böylə hadisələrin hüdusundan eymən qaldı.

Ancaq bu günə ittifaqların ədəmi-vüquunun səbəbi bizim üləmaların islamiyyət və insanpərvəranə məsaiyi-camilələri idi ki, əhlini bir həyəcanlı hadisə eşitməklə pərişanhal gördüklərində durbinlik və məaləndişlik edib, məhaizi-müslihanə və nəsayehimüşfiqanələri sayəsində hər iki tərəfi qədim mehribanlıq məqamında saxlamaqa müvəffəq oldular...»[257]

Göründüyü kni, Sabir bu qırğından Şamaxının «eymən», yəni qorxusuz, kənar qalmasını məhz islamda, islam dinində olan insanpərvərlik prinsipində görürdü. Odur ki, məqaləsinə, qeyd etdiyimiz kimi, «İslamiyyətin insaniyyətpərvərliyi» başlığını qoyur. Bununla belə həm bu, həm də digər məqaləsində Şamaxıda yaşayan ermənilərin əksəriyyətinin öz azərbaycanlı qonşuları ilə dinc yanaşı yaşamaq istək və əzmində olduqlarını da konkret faktlarla göstərir.

Qeyd edək ki, daşnaksion partiyası 1906-cı ildə milli ədavəti bu qədim mədəniyyət mərkəzində də qızışdırmaq üçün əlindən gələni edirdi. Lakin cəhdlər uğursuzluqla nəticələndi. Nəticədə, həmin şovinist partiya ilə o zaman Şamaxıda yaşayan ermənilər arasında müəyyən ixtilaf yarandı. Vəziyyəti «aydınlaşdırmaq» üçün Şamaxıya daşnaksionun səlahiyyətli nümayəndəsi göndərildisə də, onun burada aparacağı pozuculuq işləri baş tutmadı. Bu haqda «Həyat»da xan imzasız bir yazıda oxuyuruq:

«Ermənilər ilə daşnaksion nəfəratı arasında bir neçə səbəblərə görə hadis olan ixtilafı təftiş etməyə kamitetləri tərəfindən Şamaxıya gələn bir nə müfəttişi pristav Rüstəmbəy Cəbrayılbəyov tutub naçalnik həzrətlərinə aparmışdı. Mərqumun əslində başburtu olduğuna görə və kamitet tərəfindən gəlməsinə və müfəttiş olmasına bir sübut olmadığı üçün müfəttişliyi sabit olmayıb, ancaq Şamaxıda qalmamağına naçalnik tərəfindən hökm olunmuşdu».[258]

Daşnaksionun müfəttişinin öz səlahiyyətini təsdiq edən sənəd təqdim edə bilməməsindən onun Şamaxıya gizli və məkrli bir niyyətlə göndərildiyini təsdiq etməkdədir. Bunu hadisələrin sonrakı gedişi də təsdiq edir. Belə ki, naçalnik tərəfindən həmin daşnaksion agentini gözləyən yerli erməni millətçiləri onlar üçün gözlənilməz və arzuedilməz olan bu nəticənin baş verməsində naçalnik divanxanasında işləyən bir ermənidən şübhələnərək, onu özlərinə xas üsulla cəzalandırırdılar. Bu barədə həmin yazıda oxuyuruq: «Ermənilər bu xüsusda

[256]Bax: "Həyat" qəzeti, 18 iyul 1906.
[257] M. Ə. Sabir. Hophopnamə. Üç clddə III cild., Bakı 1965, 155.
[258] "Həyat" qəzeti, 3 avqust, 1906.

naçalnik divanxanası katiblərindən (piserlərdən) olan Arşak Ter-Sərkəsov adlı bir nəfərdən bədgüman olduqlarına görə gecələr evlərinə daş atırlarmış və iyulun iyirmi səkkizinci gecəsi kamitet xidmətkarlarından olan Artyom Melkum oğlu bir neçə nəfər ermənilər ilə müttəfiq, Arşakı bərk döyüb, bir qolunu da əzirlər. Buna görə polisə şikayət etdiyində ermənilər mərqumun əleyhinə şəhadət edib müqəssir və bədxasiyyət olduğunu sübuta yetirdiklərindən divanxanadan qovalanır».[259]

Bu kiçik yazıdan görünür ki, daşnaksion partiyasının rəhbərləri və millətçilik mikroblarına yoluxmuş ermənilər onların «üzünə ağ olan» və ya buna bənzər «ehtiyatsızlığa» yol verən öz həmmillətlərinə də, başqa ermənilərə dərs olsun deyə, rəhmsizcəsinə divan tutmuş və bu üsuldan fəaliyyətləri boyu həmişə, həm də get-gedə daha sərt şəkildə istifadə etməkdədirlər. Eyni zamanda, həmin hadisə Şamaxıda yaşayan ermənilərin də, heç də Sabirin təsəvvür və təsvir edib görmək istədiyi humanist və səmimi həmvətənlər olmayıb, müsəlmanlarla münasibət və davranışlarında onlara arxadan zərbə vurmağa hazır olduqlarını sübut edən faktdır.

Deməк, o zaman Şamaxının Qarabağ hadisələrinin «hüdusundan eymən qalmasında» islamiyyətin insanpərvərliyi və müsəlman üləmalarının müslimanə səylərinin üzərinə düşür. Həmin humanizmin, müslimanə cəhd və səylərin nəticəsi olaraq 1906-1907-ci illərdə, Şamaxıda erməni-müsəlman qırğını baş verməd iyindən əlavə, şəhərin müsəlman əhalisi Qarabağ zərərdidələrinə həm maddi, həm də siyasi və mənəvi dayaq olmaq üçün əllərindən gələni etdilər. Bu cəhətdən «Həyat» qəzetində dərc olunan materiallar diqqətəlayiqdir.

Materialların birindən məlum olur ki, 1906-cı il iyulun 27-də «cümə namazının xitabəsində» Şamaxı qazisi Hacı Əbdülməcid əfəndi camaata belə bir müraciət edib:

«Ey cəmaəti-müslimin, qəzetə və teleqramlarda oxunduğuna görə, necə ki, məlumdur, sizin din qardaşlarınız olan Qarabağ camaatının evləri yandırılıb və bəziləri öldürülüb və bir çoxu da məsruh və dərmansız qalıbdır. Binaənileyh böylə məzlum olan müsəlman qardaşlarımıza kömək etmək ayeyi-kərimə və əhadisi-şərifələr mövcibincə cümlə mömünə vacibdir. Pəs hər bir kəsin vacibeyi-zehisi olan bu əmrə mən dəxi iştirak edib bəqədri-qüvvə ianə edəcəyəm. Buna görə siz camaatın dəxi böylə əmri-xeyrə iqdam edib həmiyyət etmənizi təmənna ilə bərabər rica edirəm».[260]

İslam humanizminə dayanan bu müraciətlə əlaqədar həmin gün Şamaxının həm din xadimləri, həm də ziyalı və sərvətdarları Qafqaz canişini qraf Voronsov-Daşkovun adına iki teleqram vurdular. Qarabağda er-monilər tərəfipdəp törodilən qırğınlara etiraz olan həmin teleqramların həm Şamaxının o zamankı ictimai-siyasi və milli-mənəvi ab-havasını özündə əks etdirmək, həm də tarixi baxımdan əhəmiyyətini nəzərə alıb, onların qəzet mətnlərini burada eynilə verməyi lazım

[259] Yenə orada.
[260] “Həyat” qəzeti, 3 avqust 1906.

bilirik:

«Üləma tərəfindən teleqram.

Tiflis - İmperatori - əzəmin Qafqaz canişini qraf Voronsov - Daşkov həzrətlərinə - Şişədə vaqe olan xunrizlik (qantökənlik, zalımlıq - A. B.) səbəbinə bizlər burada pərişan olduğumuz üçün və qardaşlıq məhəbbətinin şərtlərin mənzurda tutduğumuz üçün siz cənabın insaf və mürüvvətinə ümidvar olub, təvəqqə edirik ki, insaniyyət adına xunrizliyin mövquf etmək barəsində lazım olan tədbirlər cari olunsun.

İmzalar: Hacı Əbdülməcid əfəndi, Ağa Mirmehdi ağa, Molla Abbasqulu ağa, Hacı Əbdülrəhim əfəndi».

«Camaat tərəfindən teleqram.

Tiflis - İmperatori-əzəmin Qafqaz canişini cənab qraf Voronsov - Daşkov hüzuri - şəriflərinə - Şişədə bizim həmməzhəb və həmdin qardaşlarımıza cəfa olmaq səbəbinə və Qoloşşapov insaniyyətdən və insafdan kənar nəzəri-qərəzkaranəsi ilə Şişə müsəlmanlarına baxmağa görə Şamaxı müsəlmanları iltimas edirlər ki, bundan sonrakı iğtişaşa pişbəndlik etmək üçün Qoloşşapovu kənar edib, onun hərəkətləri təftiş olunsun.

İmzalar: İbrahimbəyov, Abdullayev, İsgəndərov, Zeynalov, Məhərrəmov, Salamov, İsmayılov, Abdullayev, Yəhyayev, Əhmədbəyov, Qafurov, Ələkbərov, Həsənov, Süleymanov, Axundov, Musayev, Qurbanov, İsrafilbəyov, İsgəndərov, Mətləbov, Əfəndizadə, Əfəndiyev, Mətləbov, Əliyev, Hüseynov».[261]

İnsanpərvərliyə, millətlərin siyasi və hüquqi bərabərliyinə söykənən və Şamaxı ictimaiyyətinin vətəndaş fəallığından qidalanan bu sənədlər tezliklə öz müsbət təsirini göstərdi; hökumət dairələri günahkarların qanuna müvafiq cəzalandırılması tələbi ilə hesablaşaraq şamaxılılara dərhal sakitləşdirici cavab verdi. Bu haqda həmin teleqramların dərsindən cəmi üç gün sonra (avqustun 6-da) Sabirin «Həyat»da çap etdirdiyi xəbərdə oxuyuruq:

«Qarabağ davası qəti xüsusunda Şamaxı üləması və əhli tərəfindən sərdar Voronsov-Daşkov cənablarının hüzuri-şərəflərinə edilən teleqramlara cavab olaraq Badkubə qubernatoru tərəfindən gəlmiş teleqramı Cümə məscidində və Hacı Məhəmməd Rza məscidində cəm olmuş camaat arasında üləma hüzurunda naçalnik Fyodrov cənabları oxudular: Qarabağda dava qət və sülh icra olunubdur. Hər halda Şamaxı üləmalarının camaatı müslimata dəvət etmələrini təmənna edirəm».[262]

Qarabağ məsələsinin Şamaxıda doğurduqu əks-səda burada milli-siyasi şüurun oyanmasından xəbər verir. Bunun nəticəsidir ki, Şamaxı vətənpərvərləri Nəcəfbəy Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» əsərini tamaşadan yığılan pulu Qarabağ zərərdidələrinə göndərmək məqsədilə səhnəyə qoyurlar. Eyni zamanda imkanlı şəxslər zərərdidələr üçün ianə dəftəri açırlar. Sabir Şamaxı

---

[261]“Həyat” qəzeti, 3 avqust 1906.
[262] «Həyat» qəz. 6 avqust 1906: M. Ə. Sabir. Hophopnamə. Üç cilddə. III c., Bakı, 1965, səh. 160.

varlılarının açdıqları ianə dəftərinə hələlik beş yüz manat yığılmasından və «yenə həmin xüsusda» şəhərin «qeyrətli və rəhmdil cavanlarından N. Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» komediyasını hökumət izni ilə avqustun üçündə Salamovların evində oynayacaqlarını bildirdikdən sonra razılıq hissi ilə yazırdı:

«Bəli, Şamaxı əhli öz millətі-nəsibeyi-İslamiyyələrinə qarşı ürəklərində bəslədikləri məhəbbəti-qeyrətməndanələri təhəyyüsündən Qarabaq facieyi-müəssifəsindən xəsarətlərə düçar olan sevgili qardaşlarını düşmənlərin zalimanə və birəhmanə sui-qəsdlərindən müdaviəyə müqtədir olmadıqlarından yaralanmış ürəklərinə mərhəm olaraq bir yanda ianə dəftəri açmaqla və bir tərəfdə teatr məclisi bərğa etməklə bərgi-səbz mənzələsində olan hediyyeyi-mühəqqəranələr cəm etməkdə olmaqla təsəlliyab ola bilirlər isə də, amma qoloşşanovların məxsusən müsəlmanlara etdiyi yaddan-çıxmaz olan birəhmanə və xanimansuzanə hərəkətindən ancaq dərkahi-əhədiyyətə şaki olub, dövlətin ədalət qanununa ona cəza verilməsinə ümidvar olmaqla təsəlliyab ola bilərlər».[263]

Burada Sabir də artıq xalqları fəlakətə sürükləyənlərin qanuna müvafiq cəzalandırılması tələbi ilə çıxış edib, camaatın yalnız bundan sonra bir təsəlli tapıb sakitləşəcəyini bildirir.

Şamaxılıların və Azərbaycan ictimaiyyətinin tələbləri öz təsirini göstərərək, Qoloşşapovun vəzifəsindən geri çağrılması və Qarabağ qırğınının dayandırılmasına kömək etdi. Bu hadisələr milli-siyayi şüurun oyanmasına da müsbət təsir göstərdi. Sabir Qarabağ zərərdidələrinə şamaxılıların göndərdikləri ianələrdən danışmaqla bərabər, ziyalıların vətənpərvərlik təşəbbüslərinin əhəmiyyətini, mədəni-kütləvi tədbirlərin təsiri ilə xalqın gözünün açılacağına əmin olduğunuda qeyd edirdi: «Millət piş rəfti üçün çeşmdaştımız olan ziyalı cavanlarımızın əmsalı dəxi ziyadəsi ilə görməkdə gözlərimizin işıqlanmasın dərgahi-əhədiyyətdən ən samimül-qəlb rica və təmənna ediriz».[264]

Tamaşa üçün «Yağışdan çıxdıq, yağmura düşdük» təsadüfən seçilməmişdi. Bu əsərdə erməni və müsəlmanlar arasındakı tarixi qonşuluq və yaxınlıq əlaqələri Qıdı kirvə ilə Hacı Qəmbərin timsalında yadda qalan lövhələrlə təsvir olunmuşdur.

Sabir tamaşa haqqında yenə «Həyat» qəzetində dərc etdirdiyi məqaləsində isə tamaşanın təşkilatçıları rollarda çıxış edənlər və onların oyunlarının keyfiyyəti, eyni zamanda tamaşa salonunun ağzınadək dolu olması və s. təsvir edilir. Məqalə müəllifi camaatın çoxluğunu onların həm də Qarabağ zərərdidələrinə maddi yardım istəkləri ilə əlaqələndirməklə bərabər, tamaşanın da yüksək keyfiyyətdə hazırlanıb göstərildiyini nəzərə çatdırır.

Sabir hər bir rolun ifaçısını göstərərək, onların oyunlarının qısaca xarakterini verir. Məqalədən aydın olur ki, Cəmo Cəbrayılbəyov (Hacı Qəmbər),

---

[263] M.Ə.Sabir. Hophopnamə. Üç cilddə, III cild, Bakı. 1965, səh. 160-161.
[264] M.Ə.Sabir. Hophopnamə. Üç cilddə, III cild, Bakı. 1965, səh. 160.

Məhəmmədov (Aşıq Vəli), Ağalarbəy Hüseynbəyov (Əşrəf), Əliməmməd Mustafayev (Cəbi), Bababəy Səfərəliyev (Dilbər xanım), Kazım Abdullayev (Yetər), Ə. İsmayılov (Cəvahir xanım). Məşədi Nəcəf Sadıqov (Molla Səfi), Ş. Şirəlibəyov (Mahmud) və başqaları öz rolunun öhdəsindən layiqincə gəlmişlər. Tamaşadan hasil olan məbləğin zəruri məxaricdən sonra qalmış 319 manat 68 qəpiyini poçt vasitəsilə Şuşaya doktor Kərimbəy Mehmandarovun üstünə göndəriblər.[265]

Tamaşada iştirak edənlərin tərkibinə nəzər saldıqda burada Bakıda və digər mədəniyyət mərkəzlərində işləyib yayda dincəlmək üçün gələn şamaxılılarla (Ə. Orucəliyev, Ə. Mustafayev və b.) yanaşı Şamaxıda yaşayan ziyalı cavanlar və sərvətdarlar idilər. Tamaşadan sonra Əlicabbar Orucəliyev və Abdullabəy (Şirəlibəyov mətbuat vasitəsi ilə onun bütün iştirakçılarına, yəni tamaşanın hazırlanıb oynanılmasında bu və ya digər dərəcədə əməyi olan adamlara adbaad öz minnətdarlıqlarını bildirmişdilər.[266]

Hadisələrin yeni keyfiyyətdə inkişafı ilə əlaqədar Şamaxıda dövrlə ayaqlaşa bilən daha mütərəqqi və təkmil məktəblərin açılmasına da çalışırdılar. Bu təşəbbüslərlə əlaqədar yenə Sabir «Həyat» qəzetində bildirirdi ki, «həmd olsun, Şamaxıda bugünkü maarifdust babalar gələcəkdə vətənin və evladi-vətənin tərəqqi və təalisin ancaq oxumaqda müşahidə etdiklərindən Şamaxının 2-ci çastında vaqe Dərəməhəllə adı ilə məşhur olan bir qitə xaraba yeri öz xərcləri ilə rusi və müsəlmani mədrəsə binagüzarlığından ötrü qubernatordan ərizə vasitəsi ilə təvəqqe etmişdilər. Bu axır günlərdə izninə müvəffəq olduqları üçün haman yerin nəqşeyi-müsvəddəsin qubernator divanxanasına göndəriblər. Və bu xüsusda ianə dəftəri açılıb. Ə.Qanlıqda üç min (3000) manata qədər cəm olunan pul Ağa Nəcəf Yəhyayevin təhti-mühafizəsindədir. İnşallah, mədrəsənin təsdiq xəbəri yetişdikdə təmirinə şüuru olunmaqla bərabər kafi qədərincə nara ianəsi mətlubi-vəsh ilə qeyrət göstərilməsinə ümidvar oluruz».[267]

Mətbuatda xəbər verilirdi ki, «Şamaxıda təzə bir realni edadi məktəbi açılmaq icazəsi alındı. Tiflisdə nəşr olunan erməni «Araç» qəzetinin xəbərinə görə, «məxsus bu işdən ötrü Budaqyan qırx beş min manat ianə eləmişdir».[268]

Lakin Şamaxı realni məktəbinin açılmasına rəsmi icazə verilməsi xəbərini qubernator şamaxılılara 1906-cı il avqustun 27-də Şamaxıda olarkən şəxsən bildirmişdir. Bu haqda Sabir sentyabrın 3-də dərc etdirdiyi «27 avqust, Bakı...» sözləri ilə başlanan məqaləsində yazırdı ki, həmin gün Şamaxıya gələn «Qubernator camaata xitabən: - Şəhərinizdə realni uşqol təşkili izni uçün popepçitelo yazdığım təsəvvürü səvab dediyim cəhətinə sizləri təbrik eləyirəm.

Bu barədə hazırlaşırsınız təklifi eylədi.

---

265 Yenə orada, Bakı, 1965, səh. 163.
266 “İrşad” qəzeti, 16 avqust, 1906.
267 M.Ə.Sabir. Hophopnamə, Üç cilddə, III cild, Bakı, 1965, səh. 167.
268 “Həyat” qəzeti, 11 mart, 1906.

Bu mətləbə sabiq dövlət duması üzvü Mirzə Məhəmmədtəqi Əliyev böylə xətm verdi: - Bu xüsusda siz cənablara ziyadəsincə təşəkkuri-acizanə ediriz və bu müqəddəs vəzifənin icrasında dəxi gümansa hazır olmuşuq.

Edadi realni məktəbi məsələsini qurtardıqda, qubernator: seminariya barəsində dəxi ərizə veribsiniz, onun xərci çoxdur, öhdəsindən gələ bilərmisiniz? - deyib sordu.

Əliyev bu xüsusda: - Öz aramızda daha bir məsləhət edəcəyik, - deyib, xətmi-kəlam eylədi. Sonra qubernator xudafiz edib, darulziyafəyə daxil oldular».[269]

Göründüyü kimi, Şamaxıda realni məktəb açmaq üçün popeçitelin razılığını qubernator şamaxılılara 1906-cı il avqustun 27-də xəbər verir. Ancaq bu məktəbə razılıq verilməsi haqqında ilk mətbu xəbərin həmin ilin martında verildiyini yuxarıda gördük.. Bundan belə çıxır ki, martda verilən xəbər qubernatorun razılığı haqda imiş. Qubernatorun Şamaxıda realni məktəb açılması haqda rəsmi məktubuna isə 1906-cı ilin avqustunda cavab gəlib.

Şamaxıda qubernatoru qarşılayıb onunla şəhər ictimaiyyəti adından danışan Mirzə Məhəmmədtağı Əliyevə gəlincə, bu tərəqqipərvər ziyalının hələ tələbə ikən qabaqcıl ruhlu yazılarla «Əkinçi» qəzetində iştirakı məlumdur. O, Bakı quberniyasından II Dövlət dumasına deputat seçilərək iyunun 6-da Şamaxıdan təntənəli surətdə yola salınarkən təşkil olunan ziyafətdə üzünü camaata tutaraq demişdi ki, şəhərimizdə realnı məktəb açmaq üçün qubernatordan xahiş etmişəm, o da sözümü yerə salmayıb. Dumada da? bu məsələmi qaldıracağam. Ancaq «...məclisimizdə xeyli mədəni və qələm sahiblərinin olmasına ümidvaram ki, əyləşən mədəni və qələm sahibləri öz qələmləri ilə ona kömək edib bir çox məsələnin həlli üçün məsələ qaldıracaqlar».[270] Bu münasibətlə elə oradaca ianə dəftəri açılır. Məktəb açmaq üçün yığılan pullar Abbas bəy Minasazovun sərəncamına verilmişdi.[271]

Mirzə Məhəmmədtağı Hacı Əbdülsəməd oğlu Əliyev 1858-ci ildə Şamaxıda tacir ailəsində anadan olmuşdur. On beş-on altı yaşında Tiflisə gedərək Tiflis ruhani məktəbində oxumuşdur. Rusca təhsil alandan sonra Bakıya Həsənbəy Zərdabinin məsləhəti və Nəcəfbəy Vəzirovun köməyi ilə hazırlaşıb 1874-cü ildə Moskva kənd təsərrüfatı məktəbinin 4-cü sinfinə qəbul olmuşdur. 1876-cı ildə buranı bitirib Moskva Petrovski-Razumovski Torpaqşünaslıq və İqtisadiyyat Akademiyasına daxil olaraq 1878-ci ildə oranı müvəffəqiyyətlə qurtarmışdır. Bir müddət Almaniya və Fransada oxuyan M. Əliyev Almaniyanın sileziya əyalətinin mədəniyyət və iqtisadiyyatına aid, sonra isə Şərq ölkələrinin də iqtisadiyyat və mədəniyyətə aid əsər yazmışdır. Son illər Şamaxıda yaşayaraq torpaq məsələləri ilə məşğul olmuşdur...[272]

---

[269] M.Ə.Sabir. Hophopnamə, üç cilddə, III cild, Bakı, 1965, s. 169.

[270] "Həyat" qəzeti, 14 iyul, 1906.

[271] Orada, 11 iyun, 1906.

[272] З.Геюшев. "Имдадие» Новые архивные материалы о Гасанбеке Меликова и Наджафбеке

Məhəmmədtağı Əlizadə milli-mənəvi tərəqqi naminə qadınların savadlanması, azadlıq və onlara, xristian qadınları kimi, seçki hüququnun verilməsi uğrunda mübarizə aparmışdır. Onun fikrincə, II Dövlət Duması fəaliyyət göstərdiyi iki ay ərzində Rusiyada yaşayan xalqlara azadlıq və bərabərliyin şərbətini daddırdı və bu iki ay müddətində onlara qırx illik bir məsafə qət etdirdi ki, bu cür yoldan sonra «geriyə övdət yoxdur...».[273] Bununla yanaşı, «Əkinçi»nin əsil övladı» kimi, M. Əliyev xalqın və vətənin tərəqqisində maarifin inkişafına xüsusi diqqət yetirərək, bu yolda öhdəsində olan hər cür imkandan istifadə edirdi. Şamaxıda realnı məktəb açılması məsələsini, Dövlət Duması vəkili kimi, Bakı qubernatorundan xahiş edən Məhəmmədtağı Əliyev (Əlizadə) II Dövlət Duması qovulandan (3 iyul) sonra da bu məsələ ilə axıradək maraqlanmış, nəticədə məqsədinə çatmışdı.

Bu xəbəri sevinclə qarşılayan Şamaxı əhalisi, popeçitelin məktəbin oktyabrın əvvəlindən fəaliyyətə başlaması üçün tədbirlər görülməsi haqqındakı teleqramını alandan sonra, «bu xüsusda mahi-hazirin (sentyabrın - A. B.) 22-sində Şamaxı əyanları məclisi-intixabdə hazır olub, uşqoladan ötrü ev kirayə etməyə və mayəhtac hazırlamağa atiyaz-zikr neçə zəvati-girami intixab etmişlərdir.

Müntəxəblər: Abdullayev, Yəhyayev, Veyisov, Dolyov,, Ter-Avanesov cənablarıdır.

Ötəndən bəri arzusunda olduğumuz realni uşqolanın izninə və şuruinə müvəffəqiyyətimizdən maədə ənqərib zamanda rusi və müsəlman uşqola təşkilinə dəxi nailiyyətimizə mütməin olduğumuz üçün cəmaətiminin, əlxüsus məarifməndanlarımızın fövqəladə məsərvətlərindən naşi necə bir əhəmiyyətli əmrin icrasına himmət edilib qeyrət göstərilməkdədir».[274]

Yeni tipli məktəbin açılması, xüsusən maarifpərvər ziyalıları sevindirmişdi. Həmin günlərdə Sabir «Molla Nəsrəddin»[275] jurnalında çap etdirdiyi bir şerində üzünü uşaqlara tutaraq özünəməxsus bir üslubla onları oxumağa, elm və maarifin qədrini bilməyə çağırırdı. Şairin bu məzmunda, bu ruhda əsərləri bir silsilə təşkil edir. Məktəbə, maarifə çağırışla kifayətlənməyən Sabirin bu şerlərdə, eyni zamanda, ictimai-mədəni tərəqqi düşmənlərinə hər cür qaragüruhçuya satira atəşi açması, əlbəttə, onun tutduğu tənqidi realist sənətin ideya-bədii proqramış müvafiq idi.

Ey millətin ümmidi, dilü-canı, uşaqlar!
Validələrin sevgili cananı, uşaqlar!
...Vəqt oldu həvəs etməyəsiz məktəbə, dərsə,

---

Везирове. Газ. «Бак. ребочий 17 август 1965; Xeyrulla Məmmədov, "Əkinçi"nin övladı. (M.Əlizadə). "Ədəbiyyat və incəsənət" qəzeti, 25 aprel, 1970; "Həyat" qəzeti, 11 iyun. 1906.

[273] "Həyat" qəzeti, 19 iyul, 1906.

[274] M.Ə.Sabir. Hophopnamə, Üç cilddə, III cild. Bakı, 1965,s. 174.

[275] Orada, s. 66.

Təlim alasız hər nə ki, aləmdə betərsə,
Xeyri buraxıb, əxs edəsiz hər nə zərərsə,
Mail olasız hər işə kim, fitnəsə, şərsə,
Adət qılasız hərzəvü hədyanı, uşaqlar!
Siz neyləyəsiz məktəbi, mollanı, uşaqlar!

Bütün şüurlu ictimai-bədii fəaliyyətini xalqın tərəqqisinə həsr edəm Sabir realnı məktəbin fəaliyyətə başlaması gedişini, ona qəbul edilən şagirdlərin tərkibində müsəlmanların neçə faiz təşkil etməsini, vəziyyətin daha ürəkaçan olması üçün yerinə yetirilməli işləri və s. məsələləri ardıcıllığı və vətəndaşlıq ehtirası ilə işıqlandırmışdır. Məsələn, Sabirin «İrşad» qəzetində 1906-cı ilin oktyabrında (16-da) dərc olunan məqaləsindən məlum olur ki, Şamaxı realnı məktəbinə inspektor (müdir) təyin olunan Leontiyev oktyabrın 6-da şəhərə gəlmiş, ayın 8-də məktəbdə oxuyacaq şagirdlərin valideynlərini çağırıb, onlarla söhbət edərək məktəbə qəbul və təlim qaydası haqqında məlumat vermişdir. Oktyabrın 10-dan 15-dək qəbul imtahanları, ayın 15-də isə məktəbin rəsmi açılışı olmuşdur. İşin nəticəsi Sabirin şair-vətəndaş qəlbini ciddi narahat etmişdir. Aşağıdakı sətirlər onun narahatlığının səbəblərini əks etdirməkdədir: «...Şamaxıda sakin olan müsəlmanlar hər millətdən birə on, bəlkə də ziyadə olduqları halda uşqolaya ərizə verən müsəlman mütəallimlərinin ədədləri sairədən çox əskik oldu vəhalənki şəhərin borcudur ki, hər ildə dörd min manat realni uşqolaya pul versin. Həmin pul təqsim olunduqda üç min manatdan ziyadəsini müsəlmanlar verəsidirlər. Buna görə və həm müsəlman nüfuzunun ziyadətinə görə lazım idi ki, müsəlman mütəallimələri üç dəfə sairdən daha ziyadə olaydı. Amma, xeyr, ziyadə deyil, hətta müsavi də deyil, pək azdır.

Hər halda arzu ediriz ki, bugünkü babalar böylə qiymətli zamanları qafilanə fövt etməyib, övladi-vətənin təlim və tərbiyəsini mənzurda tutmaqla gələcəkdə bəxtiyaranə yaşamalarına indiki haldan səy və təlaşda olub, bəzli-himmət edəydilər».[276]

Həmin günlərdə Məhəmməd Hadinin yazdığı əsərlərin də əsas mövzusunu məktəb və ona çağırış, elmin, maarifin, tərəqqinin əhəmiyyəti və s. təşkil edir. Əziz Mirəhmədov M. Hadinin o dövr yaradıcılığından bəhs edərkən yazır: «1905-ci ilin axırlarından etibarən biz onu (Məhəmməd Hadini - A. B.) artıq həm şer, həm də publisistika sahəsində eyni həvəslə çalışan görürük. Şairin mətbuatda, «Həyat» qəzetində çap olunan ilk əsəri məktəbin, elmin əhəmiyyətini tərənnüm edən «Lövheyi-məkatib» şeri idi.

Məkatib cilvəgahi-tələti-fəyyazi-ibrətdir,
Məkatib pərtövi-ənvari-şəmsi-sübhi-vəhdətdir.

---

[276] M. Ə. Sabir. Hophopnamə, Üç cilddə, II c., 1965, s. 178 - 179.

İlk əsərlərindən Hadi özünü maarifpərvər, mütəfəkkir bir şair və jurnalist kimi tanıtmışdı».[277]

Məktəbi «darülədəb» adlandıran şair öz millətini bu «darülədəbin» qədrini bilməyə çağıraraq yazırdı:

Məktəb nə demək? Heyəti-milliyyəyə candır,
Məktəb nə demək? Ruhu dili-mürdədilandır.
Ariflərə həmvarə bu söz virdi-zəbandır:
Ədməktəbü, elməktəbü, ey millət, amandır!
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!.[278]

M. Hadi «Məktəb şərqisi», «İnsan nə ilə mükərrəm olur?», «Lövheyi-təsviri maarif», «Maarifə dair» və s. əsərlərində insan və onun ictimai aləmdəki mövqeyində, mərifət dünyasında tutduğu yerin bədii rəsmini çəkməyə çalışaraq belə bir qənaətə gəlirdi ki, insan

Olursa mərifətpərvər - məlaikdən mükərrəmdir,
Yaşarsa aləmi-vəhşətdə - heyvandan da kəmtərdir.[279]

O, «Maarifə dair» şerində bu fikrini davam etdirərək belə bir nəticəyə gəlirdi ki, səhalətin əsarət zəncirindən qurtarmaq üçün əsas çıxış yolu elmi biliklərə yiyələnməkdir. Nümunə üçün avropalıların elmi biliyə yiyələnməklə necə tərəqqi etdiklərini göstərən şair deyirdi:

Zənciri-əsarətdə yaşar əhli-cəhalət,
Məhkumların gün kimi bəsbəlli zəvali.
Elm ilə dərağuş olunur şahidi-nüsrət,
Elm ilə zəfərpərvər olub avropalı.
Biz də düzülək silsileyi-əhli-ülumə -
Öyrənmək ilə elm, hünər, fənn, məali.
Təşkil edəlim, «əncuməni-elmü maarif»,
Təsis qılaq «darülfünun», «məktəbi-ali»!
...Söylər sizə Hadi : oxuyun, milləti-islam!
Xaməm də bu yerdə ediyor xətm məqali.[280]

---

[277] Ə.Mirəhmədov. Məhəmməd Hadi. Bakı, Yazıçı. 1985, s. 21.
[278] Məhəmməd Hadi. Seçilmiş əsərləri, İki cilddə, I c. Bakı, 1978, səh. 8.
[279] Məhəmməd Hadi. Seçilmiş əsərləri, İki cilddə, I c. Bakı, 1978, səh. 8.
[280] Məhəmməd Hadi. Seçilmiş əsərləri, İki cilddə, I c. Bakı, 1978, səh. 12.

Hadi «Millәti-islamı» darülfünun, ali mәktәb çaraq oxuyub, elm öyrәnib avropalılar kimi zәfәrpәrvәr olmağa çağırarkәn Kürdәmirdә müәllim işlәyirdi. Lakin onun poeziya ilhamı vә tәrәqqipәrvәr ruhu ilk növbәdә Şamaxı ictimai-әdәbi mühitinin şәhdi şәkәrindәn qidalanmışdı. Eyni zamanda, Şamaxı әdәbi-ictimai fikri kimi, Hadi yaradıcılığı da ümummilli vә ümumbәşәri mahiyyәtindәn nainki xali deyildi, әksinә, bu keyfiyyәtlәr onun bәdii irsinin әsas mahiyyәtinin tәşkil edirdi.

Birinci rus inqilabı dövründә şamaxılıların doğma şәhәrlәrindә yaratmağa müvafiq olduqları maarif ocaqlarından biri dә 15 oktyabr 1906-cı ildә fәaliyyәtә başlayanı realnı mәktәb idi. Şәhәr mәktәbindә ana dili müәllimi işlәyәn Abbas Sәhhәt hәmin il oktyabrın 25-dә direktorun adına yazdığı әrizәsindә bu mәktәbdә işlәmәk istәdiyini bildirirdi. Onun әrizәsinin mәtnini eynilә öz monoqrafiyasında verәn Kamal Talıbzadә yazır: «Sәhhәt maarif, tәlim-tәrbiyә mәsәlәlәrinә, tәhsil vә tәdris işlәrinә böyük әhәmiyyәt verdiyi üçün ümumi fәaliyyәtindә bәdii yaradıcılığı qәdәr müәllimliyә dә çox geniş yer ayırırdı. O, dәrk edirdi ki, elmsiz, savadsız, müasir mәdәniyyәtdәn bixәbәr bir xalqı XX әsrin böyük siyasi, elmi tәlәblәri müqabilindә irәli aparmaq, onu әsl azadlıq yoluna çıxarmaq mümkün deyil. Maarif - yeni әsәrdә inqilabi mahiyyәt daşıyan bir problemdir, hәr nәyin bahasına olursa, ona nail olmaq, xalqı maariflәndirmәk lazımdır. Buna görә dә cavan vәtәnpәrvәr müәllim öz tәlim-tәrbiyә işlәrinә böyük mәna verir, bir an belә sevdiyi sahәdәn ayrılmırdı, özü dediyi kimi: «müәllimliklә xalqının әn ağır xәstәliyini - savadsızlığını müalicә etmәyә çalışırdı».[281]

Kamal Talıbzadәnin dә dediyi kimi, A. Sәhhәtin bәdii yaradıcılığı onun pedaqoji fәaliyyәti ilә vәhdәt tәşkil edirdi. Xalqda tәrәqqi vә inkişafa olan güclü meyl yarandığı o illәrdә dövrün әsas tәlәbi dünya ictimai-mәdәni inkişaf sәviyyәsindәn geri qalmamaq idi. Gәnc şair özünün «Dәvәt» şerindә mәhz bunları nәzәrdә tutaraq hәmvәtәnlәrini elmә, maarifә, tәrәqqiyә çağırırdı:

Arxadaşlar! Elm lazımdır ki, tapsın din hәyat.
Elm ilәn hasil olur izzәt, tapar millәt nicat.
Sәy edin ta bizlәrә әhsәnlәr etsin kainat,
Elmsiz ömr etmәdәn min dәfә әrcәhdir mәmat.
Keçdi dövri-zuri-bazu, elmu fәal әyyamıdır!
Arxadaşlar! Oxuyun: elm oxumaq hәngamıdır!

...Vaqif olmaqlıq gәrәkdir ehtiyaci-millәtә,
Ariz olmuş dürlü afәtlәr micazi-millәtә,
Sәhhәt istәrsәn açar, sәy et әlaci-millәtә,
Keçdi dövri-zuri-bazu, elmü fәal әyyamıdır!
Arxadaşlar! Oxuyun, elm oxumaq hәngamıdır![282]

---

[281] Kamal Talıbzadә. Abbas Sәhhәt. Bakı, Gәnclik, 1986, s. 26.
[282] Abbas Sәhhәt. Әsәrlәri, İki cilddә, I c., Bakı, Azәrbaycan Dövlәt Nәşriyyatı, 1975, sәh. 15-16.

«Nidayi-millət, yaxud «amili-vətənpərvəranə», «Fəryadi-intibah, yaxud amali-vətənpərvəranə», «Ey vətən,..», «Naleyi-təhəyyür, yaxud millətə xitab» və s. şerlərində də millətin acınacaqlı vəziyyətinə qəlbən yanan vətəndaş şair bu vəziyyətdən çıxış yolu axtarırdı. O, bu yolu maarif və elmə yiyələnməkdə gördüyü üçün özünü xalqın tərəqqisinə həsr edərək bədii və ictimai-pedaqoji fəaliyyəti ilə xalqının və vətəninin tərəqqisi yolunda əlindən gələni əsirgəmirdi.

«Şirvanın növcavan şairləri»nin elm və maarifə bu cür həris yanğısından narazı qalan bəzi yaşlı həmkarları onların bədii sənəti ictimai amala xidmətə yönəltmələrinə kəskin etiraz edib cavan həmkarlarını sənətin əsas vəzifəsini - insanın ruhuna qida vermək məziyyətini öldürməkdə ittiham edirdi. A. Səhhət öz yaşlı həmkarları Nasehə yazdığı mənzum məktubunda onun iradlarını belə təsvir edirdi:

...Oxuduq cümlə nəsihətlərizi,
O gözəl, dadlı məzəmmətlərizi.
Buyurursuz ki, uyub dünyayə,
Şeri əldə elədiz sərmayə.
Şair olmaqda ikən sizlərə nam,
Kəsb üçün məktəbə etdiz itdam.
Şair azadə gərək, azadə,
Laübali dolana dünyadə.[283]

Nasehin bu mövqeyi, onun aqil və istedadlı şair olmasına baxmayaraq, «Əkinçi»nin səhifələrində hələ də o zaman «Şüərayi-ərbəeyi-Şirvan» imzası ilə, Əhsənül-Qəvaidə etiraz edənlərin səviyyəsində durduğunu göstərir. O, dövrün tələblərinə cavab verməyə çalışaraq doğru yol tutan qələm dostlarına ciddi müqavimət göstərirdi. «Bu, eyni zamanda, Şamaxı ədəbi məclisində epiqonçuluqla «yeni səpgidə» yazanlar arasındakı ixtilafın məzmununu göstərməkdə idi».[284] Lakin A. Səhhət öz ustadi-kamilinə nəzakətlə cavab verib özünün və digər yoldaşının bu hərəkətlərinin ictimai məqsədini belə izah edirdi:

İltifat etsəniz, ey alicənab,
Verərəm mən də cəsarətlə cavab:
Bu zaman siz buyuran köhnə üsul –
Eybdir, eyb; deyildir məqbul.
Çünki indi dəyişib nəz'i-cahan,
Başqadır başqa təqazayi-zaman.
Varsa təlimə bizim rəğbətimiz,

---

283 Abbas Səhhət. Əsərləri, İki cilddə, I c., Bakı, 1975, səh. 164.
284 Kamal Talıbzadə. Azərbaycan ədəbi tənqidinin tarixi (1820 – 1920-ci illər) Bakı, Maarif, 1984, səh. 138.

Biləsiz, kəsb deyil niyyətimiz.
Biz pula, dövlətə mail deyiliz,
Rəsmi-dirinə də qail deyiliz.
Fikrimiz tərbiyeyi-millətdir,
Qəsdimiz millətə bir xidmətdir.[285]

Bütün bu mülahizələr öz sərrastlığı, ictimai-siyasi və milli-mənəvi ayıqlığı ilə A. Səhhətin əqli və ideya-ictimai inkişafından xəbər verir.

A. Səhhətin bu fikirlərini onun digər gənc həmkarı - Məhəmməd Hadi hələ 1906-cı ilin sonlarında özünəməxsus şəkildə belə ifadə etmişdi:

Həqiqi arizumuz intizami-hali-millətdir,
Məsaimiz bütün məsrufi-istikmali-millətdir,
Əsasi-fikrimiz təmini-istiqbali-millətdir,
Yeganə nöqteyi-mətlub istiqlali-millətdir.[286]

Göründüyü kimi, iki gənc həmkar, şair, müəllim və ictimai xadimin eyni ictimai-milli-mənəvi ideal haqqında poetik mühakimələri bir-birini tamamlayır. Bu, «Şirvanın növcavan şairləri»nin eyni cəbhədə birləşərək sənətin mənasını ancaq ruha mənəvi qida verməkdə görən arxaik təsəvvürləri qətiyyətlə qırıb həyatın, yeni ictimai inkişafın tələbləri ilə uğurla ayaqlaşmalarını əyani sübut etməkdədir.

Tərəqqipərvər xadimlərin təşəbbüsü ilə digər mədəni tədbirlərlə yanaşı yeni tipli məktəblərin sayı artır, bununla əlaqədar məktəb proqramları və dərslik tərtibi kimi vacib məsələlər qarşıya çıxırdı. S. M. Qənizadə Tiflisdən göndərdiyi «Tiflis, 24 iyul»[287] başlıqlı xəbərdə yeni məktəblər üçün ana dili proqramının təsisi və hazırlanmasından bəhs edirdi. Bu sahədə görülən işlər barədə digər mətbuat orqanlarında da məlumatlar dərc olunmuşdur. Bunlar Azərbaycan müəllimlərinin qurultayının çağırılmasını zəruri etdi. Odur ki, Bakıda qurultaya hazırlıq komissiyası yaradılmaqla, yerlərdə də onun şöbələrinin fəaliyyəti təmin olundu. Azərbaycan müəllimlərinin I qurultayına hazırlıq görən belə şöbələrdən biri də Şamaxıda S. M. Qənizadənin rəhbərliyi ilə fəaliyyət göstərib xeyli iş gördü. Həmin günlərdə yay tətili ilə əlaqədar Şamaxıya gələn S. M. Qənizadə şəhərdə olan digər müəllimləri də bir neçə dəfə öz evinə dəvət edərək yeni məktəb proqramına aid hazırladıqları məramnaməni Bakı məktəbləri komissiyasına göndərdilər. Həmin işlərin şahidi olan Sabir məqalələrinin birində yazırdı:

«Bu vəqtə kimi Qafqaz məktəblərində müntəzəm bir proqram olmadığından şagirdanə təlim edilən elmi-hal və elmi-tarixdən bir fayda hasil olmadığı üçün

---
[285] Abbas Səhhət. Əsərləri, İki cilddə, I c., Bakı, 1975, səh. 164-165.
[286] Məhəmməd Hadi. Seçilmiş əsərləri, İki cilddə, I c. Bakı. 1978, s. 15.
[287] Bax: "Həyat" qəzeti, 29 iyul, 1905.

həmin əmrü-mühümü nizam və intizam dairəsinə salmaq münasibətilə Bakı məktəbinin komissiyası tərəfindən işbu avqust ayının (1906-cı il) on beşindən axırına qədər ümumi bir məclisi-məşvərət qərar olunduğu kimi (inqilabdan əvvəlki I müəllimlər qurultayı nəzərdə tutulur - A. Ə.), bu barədə hər bir şəhərə xüsusi bir məclisdən ötrü dəxi müraciət olunubmuş. Həmin işlə əlaqədar öz vətəni Şamaxıda sakin olan, Qori seminariyası Müsəlman şöbəsinin inspektoru Sultan Məcid Qənizadə cənablarına da rücu olunub, bu barədə bir məramnamə tərtibi xahiş etmişdilər. Buna görə müşarileyh dəxi Şamaxıda olan müəllimləri bir neçə gün mütəaqibən öz mənzilinə dəvət edib, tərtib etdikləri məramnaməni və ifadeyi-məramnaməni Bakı məkatib komissiyasına göndərdilər».[288]

1906-cı ildə olan müəllimlər qurultayının qəbul etdiyi qərarlara uyğun olaraq yeni tipli dərsliklərin tərtibi və nəşri məsələsi də xeyli canlandı. Bu işdə yaxından iştirak edən Sabir həmin dərsliklərdə çap olunmaq üçün «Uşaq və buz», «Cütçü», «Qarğa və tülkü» və s. kimi klassik uşaq əsərlərini qələmə aldı. O, «Dəbistan» və «Rəhbər» jurnallarının fəal müəllifi kimi də qızğın fəaliyyət göstərirdi.

Bu müəllimlər qurultayının qarşıya qoyduğu vəzifələrdən biri də gələn il, yəni 1907-ci ildə keçirilməsi nəzərdə tutulan müəllimlər qurultayına hazırlığın təşkili məsələsi idi. Bunun üçün H. Zərdabi (sədr), F. Ağazadə, M. Mahmudbəyov, S. Axundov, M. Əfəndiyev, A. Vəlibəyov və başqalarından ibarət 16 nəfərlik komissiya yaradılmışdı. Qurultayın əhatə dairəsinin genişliyini təmin etmək üçün onun Yelizavetpol quberniyasının mərkəzində - Gəncədə keçirilməsi nəzərdə tutulmuş, təşkilati məsələlər həll edilmiş, proqram və gündəlik düzəldilmişdi. Qurultaya icazə almaq məqsədilə 1907-ci il martın 24-də Yelizavetpol quberniyasının qubernatoruna ərizə ilə müraciət olunmuşdu. Aprelin 11-də mətbuat sevinclə bildirdi ki, Gəncədə 1907-ci ildə keçirilməsi nəzərdə tutulan Azərbaycan müəllimlərinin II qurultayının iyunun 1-dən 15-dək davam etməsinə Qafqaz canişini icazə vermişdir.[289] Bu xəbərdən sonra mətbuatda qurultayla əlaqədar diskussiya açılmışdır. Lakin may ayında məlum olmuşdur ki, canişinlik müəllimlər qurultayının keçirilməsinə icazə verməklə bərabər onun qarşısına bir neçə tələb də qoyub. Həmin tələblər aşağıdakılardır:

1. İctima'ə gərək camaat məktəblərinin müdirinin (народны инспектор) cavabdəhəndəligi ilə onun təhti-sədarətində olsun.

2. Sədr nə vaxt istəsə məclisi bağlaya bilər və habelə üzvlərdən hansını istəsə məclisdən kənar edə bilər.

3. İctima'ə yeddi gündən artıq ola bilməz.

4. İctima'ə ancaq bircə inspektor tabe olan «rayon» müəllimləri cəm ola bilər.

---

[288] "Həyat" qəzeti, 10 avqust 1906.
[289] «Tazə həyat» qəz., 11 aprel 1907.

5. Bunlardan başqa heç bir kəs məclisə buraxılmaz.
6. Məclisdə təlimdən başqa heç bir şeydən bəhs oluna bilməz.
7. İctima'ə edənlərin nə səsi ola bilər və nə qərarnamələri».

Bu cür təhqiramız «icazə»yə görə Gəncə müəllimlər heyəti kamali-yə's və təəssüflə cümlə Qafqaz müsəlman müəllim qardaşlarına xəbər verirlər ki, onlar bu günə ictima'dan (qurultaydan) dəstbərdar olurlar.[290] Sabirin «Uçitellər» satirasında deyildiyi kimi, rədd cavabı alandan sonra «faraqat oturmayan» müəllimlər «Nicat» mədəni-maarif cəmiyyətinin vasitəsilə-..»[291] öz məqsədlərinə nail oldular. Cəmiyyətin sədri Həsən bəy Ağayevin Bakı şəhər bələdiyyə rəisinə yazdığı 26 may 1907-ci il tarixli ərizəsinə müsbət cavab verildi. Bu xəbəri, başqa tərəqqipərvər ziyalılar kimi, Sabir də sevinclə qarşıladı. Onun «Molla Nəsrəddin»də çap etdirdiyi «Uçitellər»[292] satirasında deyilirdi:

Tövqif edilmişdi mağıl Gəncə siyezdi,
Olmuşduq əcəb biz dəxi rahət, uçitellər!

Düşdü tavuğu dövriyə bədbəxt «Nicat»ın,
Əyləşmədi bir ləhzə fərağət uçitellər!

Divan-dərəni bəndə çəkib aldı dübarə,
Bu bidət olan əmrə icazət, uçitellər!

İndi Bakıda başlanacaq oldu bu iclas,
Olduq yenə ol məclisə dəvət, uçitellər!

Bununla bərabər, Sabir diqqəti 1906-cı ildə keçirilmiş müəllimlər qurultayının qərarlarının, deməк odar ki, hamısının, o cümlədən, qız məktəbi, sənət məktəbi və s. açmaq barədə olan qərarlarının kağız üzərində qaldığına diqqəti cəlb edərək, tərəqqi düşmənlərinin yenə hər vasitə ilə müəllimlərin bütün təşəbbüslərinə mane olmağa çalışacaqlarını nəzərə çatdırırdı. Ona görə müəllimləri keçən ilki acı təcrübədən ibrət götürüb daha ayıq olmağa çağıraraq yazırdı:

Bildir də nə zəhmətlə bu iclasa yığışdıq,
Etdik nə qədər boş yenə söhbət, uçitellər!

Lağ-lağ danışıldı ki, nədir şiə və sünni.
Lazım ki, bir olsun bu şəriət, uçitellər!

---

[290] «Tazə həyat» qəz., 18 may 1907. Qurultaylar haqqındakılar.
[291] Mirabbas Aslanov. Bir daha müəllimlərimizin ilk qurultayları haqqında. "Azərbaycan məktəbi" jurnalı, 1972, № 2, səh. 70.
[292] "Molla Nəsirəddin" jurnalı, 12 avqust, 1907.

Derdiz ki, Gərəkdir açıla məktəbi-nisvan,
Bir yanda dəxi məktəbi-sənan, uçitellər!

Bu hərzəvü hədyanlara kimlər qulaq asdı.
Kim verdi bu axmaq sözə qiymət, uçitellər!

Baş tutdumu beytudmalınız, söylə, sən allah?
Çəkdiz, mən ölüm, hiç xəcalət, uçitellər?!

İslamın ölüb yoxsa sanırdız vükəlası?!
Xüdsər eləyirdiz də vəkalət, uçitellər?!

Göründüyü kimi, Sabir hadisələrə daha ayıq nəzərlə baxır, qaragüruhun fitnə-fəsadlarını nəzərə alıb tədbirli olmağı məsləhət bilir.

II Müəllimlər qurultayının 1907-ci il avqustun 25-dən sentyabrın 5-dək keçirilməsi qərara alınmışdı. Qeyd etdiyimiz kimi, qurultayın proqram və gündəliyi əvvəlcədən diqqətlə hazırlanmışdı. Buraya Bakıdakı müvəqqəti komissiyanın I qurultayın gördüyü işlərə baxmaq, azərbaycanlılar arasında təhsilin yayılması tədbirləri, yeni tipli məktəblər üçün proqramlar tərtibi, müsəlman müəllimlərinin sayının çoxaldılması tədbirləri haqqında, əlifbamızın nöqsanlarını aradan qaldırmaq haqqında, Azərbaycan dilinin varvarizmdən azad edilməsi və milliləşdirilməsi, ümumiyyətlə, dərsliklər haqqında və sairədən ibarət on iki maddəlik məsələ daxil idi.

Qurultayın davam etdiyi günlərdə Sabir qələmə aldığı “Müəllimlər syezdi”* adlı satirasını “Molla Nəsrəddin”ə göndərdi.

Burada qurultayın fəaliyyətə başlaması ilə əlaqədar şairin sevinc hissi özünü göstərir. O, qurultayın hansı məsələləri diqqət mərkəzində saxlamalı olduğu haqda belə tövsiyyə edirdi:

Zənnimcə mənim, iş bu yığıncaqda həmana
Bildirdi məsail yenə təkrar olacaqdır.

Təşkil edəcəklər kişilər məktəbi-nisvan,
Qızlar oxuyub cümlə şərəfdar olacaqdır.

Hər şəhrə bir məktəbi-sənət açacaqdır,

* Qeyd: bu satira “Molla Nəsrəddin” jurnalının 17 sentyabr 1907-ci il tarixli 35-ci nömrəsində belə bir qeydlə çap olunmuşdur: “Bu şerlər 33-cü nömrədə çap olunacaqdır. Bəzi səbəblərə görə bu nömrədə qaldı”. Jurnalın 33-cü nömrəsi sentyabrın (1907) 2-də çıxıb. II müəllimlər qurultayı isə 1907-ci il avqustun 25-dən sentyabrın 5-dək etmişdir.

Oğlanlar alıb həndəsə, memar olacaqdır.

Tətbiq edəcəklər yazını şiveyi-türkə,
Sibyan da sühulətdə xəbərdar olacaqdır.

Təsnif olunub tazə kütub türk dilində,
Hər kəs oxuyub elmlə bidar olacaqdır.

Sabirin 1907-ci il müəllimlər qurultayına, orada qoyulan problemlərə vətəndaş münasibəti onun qurultayın irəli sürdüyü məsələlər və qarşıda duran vəzifələrlə əlaqədar yazıb dərc etdirdiyi "Zaman nə istəyir? Amma biz..."[293] məqaləsində daha aydın görmək olur. Məqalə Sabirin ictimai-siyasi və mədəni-maarif məsələlərinə, bu sahədə baş verən hadisələrə, görülən işlərə fəal müdaxiləsini əks etdirmək cəhətdən də maraqlıdır. Sabirşünaslıqda bu məqalə tədqiqata cəlb edilsə də,[294] onun 1907-ci il müəllimlər qurultayı ilə əlaqədar yazıldığı nəzərdən qaçırılmışdır.

Bu ali və gözəl vəzifənin həyata keçirilməsi üçün Sabir ziyalı cavanları hərəkətə, fəaliyyətə çağırır: «hərgah siz bu şanlı vəzifənizi layiqincə yerinə yetirsəniz, yəqin ki, yəqin ediniz ki, zənciri-əsarətdə, qeydi-cəhalətdə boğulub qalmış millətdaşlarımızı qərq olduqları vərteyi-həlakətdən cahili-nicata çıxarda bilərsiniz. Məktəb açdırın, məktəblər açdırın, ta ki, nəticəsində o biz deyən oxumuş, böyük oxumuş, ana dilində əqaidi-diniyyəsindən xəbərdar olan cavanlar sahərayi-meydani-tərəqqi olsunlar.

Bir də təqazayi-zəmani mülahizə edibdə iş görməli! Bilirsiniz zaman nə istəyir? Amma biz...»

Beləliklə, Azərbaycan müəllimlərinin ilk iki qurultayı ilə əlaqədar çıxışları bir daha göstərir ki, 1906-1907-ci illərdə Sabir artıq dövrün, zamanın irəli sürdüyü, mühüm və həlli vacib olan məsələlərlə nəfəs alır, cəmiyyət hadisələrinə onun müdaxiləsi güclənib.

Maraqlıdır ki, Azərbaycan müəllimlərinin bu qurultaylarına, digər həmkarları kimi, Sabir də təkcə bədii fəaliyyəti ilə deyil, əməli işlə konkret cavab vermək üçün əlindən gələni edirdi. Bu, yalnız qurultayın tələblərini həyata keçirmək cəhdi olmayıb, eyni zamanda xalqın və vətənin işıqlı gələcəyinin təmin olunmasında maarifin, xalqın savadlanmasının, bir sözlə, yeni tipli məktəblərin oynadığı rolu dərk edib, bir vətəndaş kimi əməli iş görmək yanğısından irəli gəlirdi. Onun 1907-ci ildən başlayaraq müəllimlik hüququ almaq üçün çalışmasında da bu yanğının rolu böyük olmuşdur.

S. M. Qənizadəyəyazdığı 17 yanvar 1908-ci il tarixli məktubundan aydın

---

[293] "Tazə həyat" qəzeti, 19 oktyabr 1907; M.Ə.Sabir. Hophopnamə, III cild. Bakı, 1965, səh. 194-196.

[294] H. Səmədzadə. Sabirin bir publistik əsəri haqqında "Ədəbiyyat və incəsənət" qəzeti, 22 iyul 1946; M. Məmmədov. Sabir və məktəb. Bakı. Maarif, 1968, səh. 50-58.

olur ki, xalq şairi müəllimlik atestatı almaq üçün sənədlərini hazırlamaqla məşğuldur.[295] On gün sonra Sabir lazım olan sənədləri hazırladığını və bir neçə gündən sonra onları müvafiq idarəyə vermək üçün Bakıya getmək istədiyini xəbər verir: «...Lazım olan şəhadətnamələri hazırlamışam. Bir neçə gündən sonra Bakıya getmək xəyalında varam...»[296]

Bütün hazırlıq işlərini qurtaran və dükanını satan şair aprelin 11-də Bakıda imtahan verib müəllimlik hüququ alır.[297] Lakin onun Qori Müəllimlər seminariyasına müəllim düzəlməsi üçün yaranan imkan baş tutmur. Sabir yeni tipli bir məktəb açmaq qərarına gəlir. Bunun üçün yaxın dostlarının o cümlədən A. Səhhət, M. Hadi və başqalarının köməyindən də bir şey çıxmır. Belə olduqda Sabir yuxarı dairələrdə sözü keçən adamlardan olan Şamaxıdakı «üsuli-cədid» məktəblərinin birinin müdiri Əbdülxalıq əfəndi İbrahimxəlil əfəndi oğluna müraciət etməli olur. O, hələlik Sabiri öz məktəbinə müəllimliyə götürür. Bu işdə 1907-ci ildə Əbdülxalıq əfəndiyə və onun məktəbinə olan hücumlar zamanı Sabirin Əbdülxalıq əfəndini müdafiə etməsinin də müsbət təsiri şəksizdir.[298] 1908-ci ilin iyunundan Sabir, Əbdülxalıq əfəndinin məktəbində çalışır. Elə ilk gündən xalq şairinin pedaqoqluğu, uşaq psixologiyasına dərindən bələdliyi öz səmərəsini verir. Onun əməyi təqdir olunur. Bu haqda S. M. Qənizadəyə göndərdiyi 17 avqust tarixli məktubunda Sabir yazırdı: «...hala iki aydan ziyadədir ki, məktəbdə (Əbdülxalıq əfəndinin məktəbində - A. B.) uşaqlara təlim edirəm. Həm də təlimimi təqdir edirlər»[299]. Əbdülxalıq əfəndinin məktəbi o dövrdə Şamaxıda olan şəxsi məktəblər arasında nisbətən qabaqcıl olsa da, dövrün tələblərinə tam cavab vermirdi. Sabir də bu məktəbdə tam əl-qol aça bilməyib məktəbin imkanları ilə hesablaşmalı olurdu. Odur ki, müstəqil fəaliyyət üçün ayrıca məktəb açmaqdan ötrü yollar axtarırdı. O, bu işdə ölkənin müxtəlif şəhərlərində işləsələr də, yayda Şamaxıya dincəlməyə gələn ziyalıların köməyinə də ümid bəsləyirdi. Nəhayət, böyük əziyyətdən sonra 1908-ci il avqustun sonlarında Sabirin M. Hadi, A. Səhhət, Ə. T. Əfəndizadə və b. ziyalı dostlarının və Əbdülxalıq əfəndi kimi digər nüfuz sahiblərinin köməyi ilə yeni tipli bir məktəb açıldı. Onun adı «Ümid» qoyuldu. Bu al altında Sabirin bir çox gələcək arzusu öz ifadəsini rəmzi şəkildə tapmışdır. Xalq şairi bu məktəbi Hacıbala Zamanov adlı bir nəfər müəllimlə şərikli açsa da, əsas rəhbərlik Sabirin öhdəsinə düşürdü.

Sabir digər mütərəqqi ziyalılar kimi, öz müəllimlik işini Azərbaycan müəllimlərinin ilk iki qurultayının ruhuna uyğun quraraq rəhbərlik etdiyi məktəbdə şəriətlə bərabər hesab, tarix, coğrafiya, təbiətşünaslıq, astronomiya, zoologiya, nəğmə, hüsnxət və başqa dərslərə üstünlük verirdi. Burada dərslər növbəti və yeni

---

[295] M.Ə.Sabir. Hophopnamə. III cild. Bakı. 1965, səh. 218.
[296] Orada, səh. 219-220.
[297] Yenə orada, səh. 221.
[298] Bax: "İrşad" qəzeti, 5 fevral 1907.
[299] M.Ə.Sabir. Hophopnamə. III cild. Bakı, 1965, səh. 283.

tipli proqrama uyğun olaraq sadədən mürəkkəbə doğru aparılırdı. Şagirdlərin mənimsəmə və zehni inkişaf səviyyəsi yüksək idi. O vaxt Şamaxıda olan Haşımbəy Vəzirovun «İttifaq» qəzetində çıxmış bir yazısında Sabirin məktəbinin yüksək təlim səviyyəsindən xüsusi bəhs olunmuşdur: «...Sabir əfəndinin məktəbində [...] uşaqlar gözəl bir tərzdə təlim tapırlar... Sabir əfəndinin məktəbində mübtədi elmlər keçilir, lakin əsaslı və davamlı keçilir».[300]

Mütərəqqi tipli məktəbin təşkilinə və orada dünyəvi elmlərin yüksək səviyyədə keçirilməsinə nail olmaq, əlbəttə, böyük qəhrəmanlıq və ziyalı fədakarlığı sayılmalıdır.

Sabir və onun həmkarı Hacıbala Zamanovun «Ümid» məktəbindəki fəaliyyətlərinin diqqətəlayiq cəhətləri o dövrdə nəşr olunan «Tərəqqi» qəzetində də təqdir olunmuşdur. Həmin faktları ilk dəfə tədqiqata cəlb edən professor Məmməd Məmmədov, qarşısına qoyduğu məqsədə uyğun olaraq, onları Sabirin pedaqoji ustalığının səmərəsi və ona verilən yüksək qiymət baxımından təhlil etmişdir.[301] Lakin «Tərəqqi»dəki materiallardan o da aydın olur ki, xalq şairi özünün ictimai-pedaqoji fəaliyyətini yalnız «Ümid» məktəbində dərs deməklə məhdudlaşdırmamışdır. O, Şamaxıda «Məktəbi-milli» açılması ideyasının ilk tərəfdarlarından olmaqla, həmin işin həyata keçirilməsi üçün əzmlə çalışmış, camaat arasında müxtəlif vasitələrlə geniş təbliğat işi aparmış, bu xeyirli işə qərar verilməsi üçün təsirli tədbirlərə əl atmışdır. «Tərəqqi» qəzetindəki bir müxbir məktubunda dini bayram olan Xümqədir bayramı münasibətilə 1908-ci il dekabrın 29-da şəhərdə keçirilən tədbirlərdən danışılarkən deyilir:

«Bu halda şəhərimizdə olan xüsusi məktəb müəllimlərindən bir neçə növbə ilə hər biri öz şagirdini məclisə daxil edib sürudi-eydiyyə oxumaqla hazirunu məhzuz edirlər idi.

Lakin şayani-təqdir olan məhzuziyyət-tame isə ancaq Sabir əfəndi şagirdanının, gərək təlavət etdikləri Qur'ani-şərifdə, gərək oxuduqları sürud-eydiyyələrinə məxsus idi.

Xassə əfəndi müşarileyhin (Sabir - A. B.) təqribən altı yaşında Məhəmməd Əlizadə və on yaşında Hacıbaba Nəzərzadə namlarında olan iki nəfər mütəallimlərinin minbərdə cəmaətə qarşı oxuduqları müəssir xitabələri idi.

Əlizadə təqazayi-sinni məzmunca münasib olan xitabəsin çox fəsih, rəvan və mərbut bir surətdə əda edirdi.

Nəzərzadə isə daha ziyadə fəsih oxuduğundan maəda, «Babalar! Bu gün bayram günüdür. Ona görə də biz övladınız sizdən bayramlıq istəyirik. Amma öylə bayramlıq ki, bizim hamımıza münasib olsun. O da bir məktəbi-millidən ibarətdir ki, orada tərəqqi edək, - deyə söylədiyi cümlələr nə qədər müəssir idi».[302]

Bu müraciətdə söylənən fikir və arzu Sabirin idi. O, camaata daha dərindən

---

[300] "İttifaq" qəzeti, 20 iyul 1909.
[301] M.Məmmədov. Sabir və mətbuat. Bakı. 1974, səh. 142-144.
[302] "Tərəqqi" qəzeti, 8 yanvar 1909.

təsir etmək üçün həmin fikri azyaşlı uşaqların dili ilə söyləməyi lazım bilmişdir. Bu tədbirin təsiri ilə əlaqədar həmin məktubda deyilir: «...Böylə ufaq balaların bu gibi mətanət ilə oxumaları müəllimlərinin şagirdana etdikləri xidmətlərin ciddi surətdə olduğun isbat edir idi. Aniyçun da cənablara qarşı izhari-təşəkkür ediriz».

Sabir «məktəbi-milli» uğrunda mübarizə aparırkən yalnız şagirdləri çıxış etdirməklə kifayətlənmir. Bu işə həmkarlarını və başqa tərəqqipərvər ziyalıları da cəlb edir. Onun «məktəbi-milli» və başqa tərəqqi əlamətləri ilə əlaqədar təşkil etdiyi çıxışlar və özünün nitqləri camaat arasında geniş əks-səda doğurur. Bu əks-sədanın sorağı hər iki məktubdan gəlir. Məsələn, Eydi-mövlud bayramı münasibətilə 1909-cu il martın 21-də şəhərdə keçirilən tədbirlərlə əlaqədar Şamaxıdan göndərilən müxbir məktubundakı bu sözlər deyilənləri təsdiq etməkdədir: «...Sonra Ümmid məktəbinin şagirdləri müəllimləri Sabir əfəndi və Hacıbala Zamanov cənabları ilə varid olub onlar da bir nəğmə, bir nitq oxudular...

Peydərpey oxunan nitqlər cəmaətdə bir hüsni-milliyyət və meyli-tərəqqi olub pişəzvəqt təsis etmək niyyətində olduqları məktəbi-millinin bilittifaq vücudə gəlməsin arzu etdilər. Bu arada xeyli danışıq oldu və böylə qərar qoydular ki, sabah Hacı Məhəmmədrza məscidinə yığılıb danışsınlar.

Ayın 13-cü günü (Rəbiəl-əvvəl ayının hicri tarixilə. Miladi ilə martın 22-ci - A. B.) məscidimiz bura cəm olub bir komissiya seçdilər ki, məktəbin işlərinə mübaşirət etsinlər...»[303]

Bu tədbirlərə qarşı çıxıb ona mane olmağa çalışanlar var idi ki, onların gücü, imkanları da az deyildi. Əlbəttə, bu, vəziyyəti xeyli mürəkkəbləşdirirdi. Sabir həmin günlərdə qələmə aldığı satiralarında belələrini öz dilləri ilə ifşa edirdi:

Neyləyim, ey vay, bu urus bişdılar,
Bilməyirəm hardan aşıb daşdılar?!
Ölkədə gündən-günə çoxlaşdılar,
Hər əmələ, hər işə çulqaşdılar,

Qoymayın, ay köhnələr, ay yaşdılar!
Heyvərələr hər yerə dırmaşdılar!
...Hər biri min günə iş icad edir,
Məclis açıb nitqlər irad edir,
Şiə ikən sünniləri şad edir,
Sünni ikən şiəyə imdad edir,

Sanki bular bir-birə qardaşdılar,
Yoxdu təəssübləri, çaşbaşdılar!...[304]

---

[303] "Tərəqqi" qəzeti, 5 aprel 1909.
[304] M.Ə.Sabir. Hophopnamə. I cild. Bakı, 1962, səh. 204.

Şairin «Arzu», «Vah! bu imiş...», «Yaşamaq istər isək sırf avam olmalıyız!» və s. Satiraları da həmin məqsəd, mübarizə və hadisələrlə səsləşməkdədir.

«Məktəbi-milli» ilə əlaqədar olaraq görülən tədbirlərdən, edilən müzakirələrdən mətbuatda xeyli yazıldı. Nəhayət, «Şamaxıda intibah»[305] adlı yazıda təhərdə məktəbi-millinin təşkilindən və məktəbin müdirliyinə «...14 il bundan əvvəl Şamaxı üsuli-cədid məktəbinin müdiri olan Hafiz Məhəmməd əfəndi Şeyxzadənin dəvət olunması»ndan və onun da bu dəvəti qəbul etməsindən danışılır. Beləliklə, Sabirin və başqa tərəqqipərvərlərin apardıqları gərgin mübarizə müsbət nəticə verir.

Şamaxı ziyalılarının fəaliyyəti təkcə yerli çərçivədə qalmayıb, ümummilli mahiyyət daşıyırdı. Bu, dövrün, millətin ümumi mənəvi psixologiyasından, Şamaxı ziyalıları üçün səciyyəvi olan sosial meyllərdən irəli gəlirdi. Bu ziyalılardan biri - Abbas Səhhət haqqında K. Talıbzadə yazır: «Bir maarifpərvər kimi Səhhətin Şamaxı məktəbliləri və gənclərinin təlim-tərbiyəsi ilə məşğul olması təkcə müəllimliklə məhdudlaşmırdı. O, eyni zamanda Şamaxıda yeni maarif ocaqlarının yaradılması yolunda çalışır, təlim-tərbiyə və tədris işlərindəki nöqsanları təcrübəli müəllimlərlə birlikdə aradan qaldırmaq işində heç bir fədakarlıqdan çəkinmirdi. O, hər il realniyə şagirdlər toplamaq üçün kəndlərə gedir, təhsil xərci verməyə imkanı olmayan kasıb uşaqlarını məktəbə düzəldir, bəzən onların kitab və dəftərlərini də özü alırdı». Sonra alim yazır ki, Səhhət Bakı və Tiflis ədəbi mühitilə sıx əlaqə saxlayır, tez-tez hər iki şəhərə gedib müasirlərilə, qələm dostları ilə görüşür, nəşriyyat və mətbuat orqanlarının sifarişlərini yerinə yetirir, yeni yazdıqları əsərlərin nəşri ilə məşğul olurdu. Onun «əsərləri dəfələrlə dərsliklərdə nəşr olunur («Türk əlifbası», «Uşaq gözlüyü», «Yeni məktəb», «Gülzar», «İkinci il», «Ədəbiyyat məcmuəsi» və s). Az zaman içərisində Səhhət elə məşhurlaşır ki, şerlərinə nəzirələr belə yazılır».[306]

Tərcümə və təbdillə yanaşı, A. Səhhət dövrün tələbinə və yeni tipli məktəb proqramlarına cavab verən dərsliklərin yaradılması zərurətini müəllim, ədib və vətəndaş ziyalı kimi dərk edib bu problemin həlli üçün də əlindən gələni edirdi.

1905-ci il inqilabından sonra yeni məktəblərin açılması və dərs proqramlarının dəyişdirilməsi ilə əlaqədar olaraq, dərsliklərə ehtiyac artdığı üçün 1906-cı ildə Bakıdakı müəllimlər qurultayında qoyulan məsələlərdən biri də yeni daha dolğun dərsliklərin yaradılması idi. Bu zamandan başlayaraq, təcrübəli Azərbaycan müəllimləri «Türk əlifbası» (M. Mahmudbəyov), «İkinci il» (A. Axundzadə, A. Şaiq, S. S. Axundov, M. Mahmudbəyov və b.) «Uşaq gözlüyu», «Gülzar» (A. Şaiq) kimi yeni dərsliklər yazmışdılar. Səhhət də 1909-cu ildə M. Mahmudbəyovla birlikdə «Yeni məktəb» («Üçüncü il») adlı bir dərslik çap etdirir. Bu kitabın əhəmiyyətli cəhətlərindən biri bu idi ki, burada coğrafiya, təbiyyət, anatomiya elmləri haqqında, məktəbə, ailəyə, elmə və sair əxlaqi-tərbiyəvi

---

[305] "Həqiqət" qəzeti, 18 aprel 1910.
[306] Kamal Talıbzadə. Abbas Səhhət. Bakı, 1986, səh. 29.

məsələrə dair ayrı-ayrı maraqlı fəsillərlə bərabər, Azərbaycan (Sabir, Zərdabi, Səhhət) və rus klassiklərinin (Krılov, Puşkin, Lermontov, Turkenev, Tolstoy) əsərlərindən nümunələr də verilmişdir. Dərsliyə məzmun, dil cəhətindən uşaqların zövqünə, səviyyəsinə uyğun parçalar, gözəl tərcümələr daxil edilmişdi. Şerləri A. Səhhət, mənsur parçaları M. Mahmudbəyov yazmış və tərcümə etmişdi».[307]

Əlbəttə, bütün bunlar şair A. Səhhətin yaradıcılığında pedaqoji xətti qüvvətləndirmişdi. Şairin əsərlərində təlim-tərbiyə məsələləri, uşaqlardan gələcəkdə layiqli vətəndaş yetişdirməyin yolları və prinsipləri geniş və hərtərəfli əks olunurdu. Bu, bir tərəfdən yaradıcılıq qanunlarından, yəni A. Səhhətin görüb, duyub mənən yaşaya bildiklərini yazmaq tələbindən irəli gəlirdisə, digər tərəfdən də şair-pedaqoqun öz maarifçi baxışlarını ifadə etmək ehtiyacından doğurdu.

Maarif və mədəniyyət yolunda çalışmaqla yanaşı, pedaqoji baxışlarını bədii və publisist yaradıcılığında təkcə A. Səhhət deyil. S. M. Qənizadə. M. Ə. Sabir, M. Hadi, M.Mahmudbəyov və başqaları da əks etdirir, bu yolla da xalqın tərəqqisini, elm və maarifə marağını sürətləndirməyə, inkişaf etdirməyə çalışırdılar.[308] Bu şəxsiyyətlərin pedaqoji fəaliyyətləri, irsi və görüşləri professor Əhməd Seyidovun, habelə Əmir Tağıyevin, İramin İsayev, Bəhruz Nəsirov və başqalarının əsərlərində ətraflı işıqlandırılıb.[309]

Tədqiqatçıların göstərdikləri kimi, XX əsrin əvvəllərində Şamaxıda məktəb, maarif və mədəniyyətin inkişafına diqqət xeyli artmağa başlayır. Həsənbəy Zərdabi, S. Ə. Şirvani və b. mütəfəkkirlərin müasiri və «Əkinçi»nin övladı» (Xeyrulla Məmmədov) Məhəmmədtağı Əlizadə Şirvaninin 1906-cı ildə II Dövlət dumasına deputat seçildikdən sonra Şamaxıdan onun dumaya yola salınması mərasimi keçirilir. M. Əlizadə Şirvaninin mərasimdə söylədiyi nitq, burada irəli sürdüyü fikirlər və yeni tipli məktəblərin təşkili üçün görülən ilkin və sonrakı tədbirlər buna misal ola bilər.[310] Lakin qaragüruh da fəaliyyətdə idi. Onlar mütərəqqi tədbirlərə əllərində olan bütün vasitələrlə mane olmağa çalışır, tərəqqipərvər fikirli ziyalıları və onların gördükləri mədəni-kütləvi işləri sıxışdırırdılar. Misal üçün «Ümmid» məktəbinin fəaliyyətindən xoşlanmayan qaragüruhçular baykot tədbirlərinə əl ataraq onun bağlanmasına nail oldular. Bu haqda M. Ə. Sabir 1909-cu ilin sonlarında S. M. Qənizadəyə göndərdiyi məktubunda yazırdı: «...Keçən sənə öz həmvətənlərimə xidmət etməklə himmət

---

[307] Kamal Talıbzadə. Abbas Səhhət. Bakı, 1986, səh. 40-41.

[308] Ətraflı bax: Əflatun Məmmədov. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, Elm, 1977, səh. 61-70, 72.

[309] Bax: Əmir Tağıyev. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən (XIX əsrin axırları, XX əsrin əvvəlləri). Bakı, Azərnəşr, 1961, səh. 77; İramin İsayev. Abbas Səhhətin təlim və tərbiyə haqqında fikirləri. Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı, 1974, N. Tusi adına APU kitabxanası; Əhməd Seyidov. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən. Baxı, Maarif, 1987, səh. 181-250; Bəhruz Nəsirov. Mahmudbəy Mahmudbəyovun pedaqoji görüşləri. Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı, 1988, N. Tusi adına APU kitabxanası.

[310] Bax: «Həyat» qəz., 11 iyun, 3 sentyabr 1906; M. Ə. Sabir, hophopnamə, III ç., Bakı, 1965, səh. 169.

bağladım. Lakin bu xidmətlərə qarşı onlardan mükafat əvəzinə aldığım mücazatlara da tək ağladım. (...) Daha tağətim, taq və səbrim başa gəlibdir. Yusif kimi ixvan əlində əsir qalmışam. Birisi sillə ilə üzümə urur; ağuşi-məhəbbət açıb o birisi tərəfə yönəldikdə yumruğun başıma zolluyur; ondan rugərdan olub başqasına mütəcəvveh olduqda döşümdən itələyir, ağzıma urur; ona dal çevirəndə digəri dalımdan urur, ağzı üstə yıxılıram...

Halım fəna, güzəranım bir qəmli faciə mənziləsindədir.[311]

Digər yaradıcı ziyalılar kimi, Şamaxı ziyalıları - M. Ə. Sabir, S. M. Qənizadə, M. Hadi, A. Səhhət və başqaları da millətin mədəni tərəqqisi yolunda dövri mətbuatın rolunu dərk edir və buna yüksək qiymət verirdilər. XIX əsrdə S. Ə. Şirvani qəzetin, dövri mətbuatın əhəmiyyətini dərk edib onun davamlı olması yolunda necə narahatlıq hissi keçirirdisə, XX əsrdə A. Səhhət, M. Hadi, M. Ə. Sabir və başqaları eyni qızğınlıq və vətəndaş yanğısı ilə mətbuatı, onları çıxardan ziyalıları təqdir etməklə, qəzet və jurnalların davamlı olması üçün əllərindən gələni edirdilər. Təsadüfi deyil ki, XIX əsrin sonlarında S. Ə. Şirvani, XX əsrin əvvəllərində isə A. Səhhət «Qəzet nədir?» sualına cavab axtarmağa çalışırdılar... Bu haqda filologiya elmləri doktoru Əflatun Məmmədov yazır: «Qəzet nədir?» şerində ...A. Səhhət «Molla Nəsrəddin», «Dəbistan», «Rəhbər», «İrşad» kimi mətbuat orqanlarına rəğbət oyadır, onların əhəmiyyətini başa salırdı.

Keçən əsrin sonlarında həmin adda və mövzuda S. Əzim də bir şer yazmışdır. S. Əzim «Qəzet nədir?» şerini «Əkinçi»yə ithaf etmiş, onun demokratik rühunu, məramnaməsini nəzmə çəkmiş, dindarları gülüş hədəfinə çevirmişdir. A. Səhhət də XX əsrin əvvəllərində irəliləyişə, xüsusilə mətbuatın inkişafına qarşı olan hücumlara öz mənfi münasibətini bildirirdi. Şer ümumiyyətlə gənclərdə mətbuata həvəs oyatmaqla bərabər, həmin vaxtda çətinliklərlə üzləşən qəzet və jurnallara kömək etməyə də çağırış kimi səslənir».[312]

A. Səhhət inkişaf etmiş ölkələri, misal üçün Fransanı nümunə göstərərək hətta onun bu mərtəbəyə qəzet vasitəsilə çatdığını göstərir. Burada bir qədər mübaliğə olsa da, qəzeti millətin görən gözü, eşidən qulağı, yol göstərəni və s. adlandırmasında A. Səhhətin sosial-mədəni tərəqqidə onun rolunu dərindən dərk etdiyini görürük: Şairə görə, qəzet insanların həmdəmi, həmdərdi, dərdlərinin tərcümanı olmaqla bərabər, onların zövqlərini oxşamaq üçün gah şer, gah hekayə, nağıl və s. söyləyir:

Şükr kim, bizlərə də lütfi-xuda
Eyləyibdir belə bir nemət əta.
Bizdə bu cüzi olan həyəcanə,
Qəzet olubmu səbəb, aya nə?
Bəs gərək səy eləyək izzət ilən,

[311] M. Ə. Sabir. Hophopnamə, III cild, 1965, səh. 224.
[312] Əflatun Məmmədov. Azərbaycan uşaq ədəbiyyatı, Bakı, Elm. 1977, səh, 66-67.

İştirakında onun hümmət ilən.
Olmayaq razı əsə sərsəri-cəhl,
Olmayaq məhv bizi ləşkəri-cəhl.[313]

Mətbuatın, o cümlədən «Molla Nəsrəddin». «Dəvistan», «Rəhbər», «İrşad» və s. davamı üçün çalışmağın zəruriliyini dərk edən şair xalqı səfərbərliyə çağırıb obrazlı şəkildə deyir ki, «Molla Nəsrəddin» ictimai eyiblərimizə gülüb bizi ayıltmasa, «İrşad»ımız - yol göstərənimiz olmasa, «Dəbistan»ımıza bir «Rəhbər» tapılmaz və millət cəhalət pəncəsində məhv olar.

M. Hadi, M. Ə. Sabir, S. M. Qənizadə və başqaları qəzet açmaq, yaxud mövcud qəzet və jurnalların uzunömürlülüyünü təmin etmək üçün əllərindən gələn maddi, mənəvi və əməli yardımı etməkdən mənəvi zövq almışlar. Məsələn, M. Hadinin müxtəlif mətbuat orqanlarında çalışdığı,[314] S. M. Qənizadənin N. Nərimanovla birgə qəzet və jurnal nəşrinə bir neçə cəhd etdiyi[315] məlum olduğu kimi, elmi ədəbiyyatda M. Ə. Sabirin mətbuata bəslədiyi münasibətin xarakteri haqda yeri gəldikcə ətraflı söhbət getmişdir.[316] Bununla belə, Şamaxı ədəbi mühitində dövri mətbuata ziyalıların necə yanaşdıqlarını əyani görmək üçün onlardan misal üçün M. Ə. Sabirin öz dövründə çıxan qəzet və jurnallardan birinə - «İrşad»a necə münasibət bəsləməsi üzərində bir qədər ətraflı dayanmağı lazım bilirik.

M. Ə. Sabir «Molla Nəsrəddin», «Bəhlul», «Zənbur», «Dəbistan», «Rəhbər», «Həyat» «Təzə həyat», «Səda», «Günəş», «Həqiqət», «Yeni həyat» və s. mətbuat orqanlarında yaxından iştirak edərək bir çoxunun ideya cəbhəsinin rəhbərlərindən biri, bəzilərinin redaksiya əməkdaşı və ya xüsusi müxbiri olmuşdur.

Sabirin «İrşad»a münasibəti haqda elmi ədəbiyyatda yeri gəldikcə bəhs edilmişdir. (C. Xəndan, Ə. Mirəhmədov və b.). Professor Məmməd Məmmədov «M. Ə. Sabir və Azərbaycan demokratik mətbuatı 1903-1911-ci illər»[317] adlı məqaləsində və «Sabir və mətbuat» monoqrafiyasının xüsusi fəslində bu mövzuya ayrıca bölmə həsr etmiş,[318] Abbas Qaçayev «Mirzə Ələkbər Sabir və «İrşad» qəzeti,[319] adlı məqalə yazmış, bu sətirlərin müəllifi isə namizədlik dissertasiyasında və bir neçə məqaləsində bu haqda bəhs etmişdir.[320] Lakin bu mənbələrin hamısında

---

313 Abbas Səhhət. Əsərləri, İki cilddə. I c., Bakı. 1975, səh. 21-22.
314 Bax: Əziz Mirəhmədov. Məhəmməd Hadi, Bakı, Yazıçı, 1983.
315 Bax: Xeyrulla Məmmədov. Sultan Məcid Qənizadə. Bakı. Yazıçı, 1983, səh.
316 Bax: İslam Ağayev. Satirik «Zənbur» jurnalı. Bakı, Elm, 1969; M. Məmmədov. Sabir və mətbuat, Bakı, Elm, 1974.
317 Azərbaycan SSR Elmlər Akademiyası əlaqələndirmə Şurasının beşinci elmi sessiyasının materialları. Birinci kitab-ictimai elmlər (Bakı – 1968) I kitab. Bakı, "Elm". 1972, səh. 64-78.
318 M. Məmmədov. Sabir və mətbuat. Bakı, "Elm", 1974, səh. 115, 117-120.
319 Kirov adına ADU-nun elmi əsərlərin (jurnalistika seriyası), 1979, № 2, səh. 45-48.
320 A. B. Məmmədov. M.Ə.Sabirvə ictimai-ədəbi mühit (elmi tərcümeyi-hal məsələləri), Bakı, 1986, s. 61-62. Azərbaycan EA-nın əsaslı kitabxanası; "Ulduz" jurnalı, 1987, № 7, s. 26-29; "Müxbir" jurnalı, 1988, № 1. s. 25-27.

Sabir və «İrşad» mövzusu bir qayda olaraq, xalq şairinin qəzetdə iştirakı, dərc etdirdiyi əsərlər və həmin mətbuat orqanının davamı üçün gördüyü işlər, apardığı təbliğat işi işıqlandırılmışdır.

Elmi ədəbiyyatda belə bir yekdil fikir mövcuddur ki, dövrün mətbuat orqanının ideya cəbhəsinin demokratik. istiqamətdə inkişaf etməsində orada iştirak edən ziyalıların rolu böyükdür. Lakin bu fikir konkret faktlarla əsaslandırılmamış, yalnız nəzəri mülahizə kimi söylənib, hamı tərəfindən də qəbul olunmuşdur. «İrşad» qəzetində əməkdaşlığı ilə Sabirin konkret olaraq hansı əsərə və necə təsir göstərməsinin kiçicik bir nümunəsinin belə, üzə çıxarılması maraqlı olardı. Bundan başqa, «İrşad»ın öz əməkdaşına - Sabirə münasibəti konkret detallarla əsaslandırılmalı və qəzetin səhifələrində xalq şairinin həyat və fəaliyyətinin hansı nöqtələrinin öz əksini nə şəkildə tapmasının işıqlandırılması da faydalıdır.

Sabirin ilk məlum publisist əsəri 1906-cı il fevralın 19-da «İrşad»da çıxmışdır. Bundan sonra onun məqalələri «Həyat» qəzetində çap olunmağa başlamışdır. «Həyat» qapanandan sonra şairin publisistik fəaliyyəti «İrşad»la bağlanmışdır. Burada «Mətbuat»[321] məqaləsi ilə çıxış edən Sabir sentyabrın 3-də (1906) «Həyat» qəzetinin bağlanması ilə əlaqədar öz vətəndaş narahatlığını ifadə etmişdi. Bundan başqa, şair həmin qəzetin bağlanması ilə əlaqədar «Molla Nəsrəddin» jurnalında «Cavablar cavabı» (6 sentyabr 1906) satirası ilə çıxış etmişdir. İnqilabçı-demokrat şairin «Həyat»la əlaqədar keçirdiyi bu narahatlığın səbəbini biz onun «Mətbuat» məqaləsində bütün aydınlığı ilə görə bilirik. O, məqaləsinə bu sözlərlə başlayır: «Əqvami-müxtəlifənin tərəqqi və tədənnicinin mətbuatlən nisbəti-müstəqimi vardır. Böylə ki, bu gün əqsayi-aləmdə olan miləli-müxtəlifənin əhvalı tədqiq olunduqda mətbuatda tərəqqisi çox olan bir millətin mədəniyyətdə dəxi tərəqqisi o nisbətləndir və bil'əkc mətbuatda tərəqqisi olmayan millətin təməddün aləmindən geri qalması naqabili-inkar bir həqiqətdir».

Deməli, Sabir mətbuatı xalqın tərəqqisini göstərən meyar hesab edirdi. Elə 1903-cü ildə «Şərqi-Rus»un nəşrini də bu fikir və ümidlə alqışlamışdı.[322] O, həmin şerdə də həmvətənlərini «Şərqi-Rus»un davamı üçün səfərbər olmağa çağırırdı. Çünki istiqamətindən asılı olmayaraq, hər hansı mətbuat orqanının mədəni inkişafa bu və ya başqa dərəcədə səbəb olub kömək edəcəyinə əmin idi. Təsadüfi deyil ki, şairin «Müsəlman və erməni vətəndaşlarımıza» şeri, «Bir məclisdə on iki kişinin söhbəti» adlı proqram xarakterli satirası «Həyat» vasitəsilə işıq üzü görmüşdü. Odur ki, belə bir leqal tribunanın əldən çıxmasına dərindən təəssüflənən Sabir üzünü ruhani, ürəfa və sərmayədaranlara tutaraq onları səfərbərliyə, heç olmasa «İrşad» qəzetini əldən verməməyə çağırırdı. O, dərin vətəndaşlıq narahatlığı ilə bildirirdi ki, «Qafqazlı müsəlmanlarının iki görən gözünün biri qapandı, iki eşidən qulaqlarının biri tutuldu». Heç olmasa, o birinin ömrünün uzun olmasına çalışaq.

---

[321] "Həyat" qəzeti, 26 sentyabr 196; M.Ə.Sabir. Hophopnamə. Üç cilddə, III cild. Bakı, 1965, səh. 171-173.

[322] «Şərqi-Rus» qəz., 8 oktyabr 1903.

Sabir öz vətəndaşlıq borcunu - əlindən gələn təbliğatçılıq işini yerinə yetirərək, üzünü həmvətənlərinə tutub həyəcanla, narahatlıqla xəbərdarlıq edirdi ki, «...bu gün aləmi-islamiyyətdə meydani-rəqabətdə və yalqız qalıb sinəsipər olan «İrşad»a qədrşünas olub, hər bir nəfərinə bəqədrülvüs» köməklik etməliyik ki, xudanəkərdə, hərgah «İrşad»a bir sədəmə toxunur isə biz Qafqaz müsəlmanları bir bəylə müvəffəqiyyətə əbəda bir daha nail ola bilməyəcəyimiz bədahidir».[323]

Sabirin bu narahatlıq və xəbərdarlığı da səbəbsiz deyildi. O, çarizmin başqa xalqların, o cümlədən Qafqaz müsəlmanlarının milli tərəqqisinə hər cür vasitə ilə mane olmağa çalışdığını görür, mətbuat orqanlarının nə cür çətinliklərlə meydana çıxdığını, onların nəşri müddətində də necə maneələrlə rastlaşdıqlarını bilirdi. «Əkinçi», «Ziyayi-Qafqasiyyə», «Şərqi-rus» və sairənin taleyi də vətəndaş şairi az düşündürməmişdi.

O da maraqlıdır ki, məqalələrinin əksəriyyətini sərlövhəsiz çap etdirdiyi halda, Sabir bu fikirlərini «Qeyrət»[324] başlığı altında buraxdırmışdı. Bu zaman Sabir artıq «İrşad»ın xüsusi müxbiri idi.

Xalq şairinin «İrşad» qəzetində xüsusi müxbir kimi çıxışetmə tarixini A. Qaçayev 1906-cı ilin sentyabr ayından hesab edir,[325] M. Məmmədov isə tədqiqat istiqamətinə daxil olmadığı üçün bu barədə bir söz demir. O, şairin məqalələrinin əksəriyyətinin «Şamaxıdan», «Şamaxı müxbirimizdən», «Şamaxı xəbərləri» və s. bu kimi ümumi başlıqlarla çap olunduğunu qeyd etsə də,[326] Sabirin «İrşad» qəzetində xüsusi müxbir kimi fəaliyyət göstərməsi barədə yalnız fakt gətirir.[327] Həmin fakt da 1907-ci ilə aiddir. Halbuki, bu tarixin də imkan daxilində dəqiqləşdirilməsi əhəmiyyətli olardı.

Yuxarıda demişdik ki, Sabirin «İrşad»da ilk məlum məqaləsi 1906-cı il fevralın 18-də çıxmış və bundan sonra onun publisist fəaliyyəti «Həyat» bağlananadək bu qəzetin, yəni «Həyat»ın səhifələrində davam etmişdir. Sentyabrın 3-də (1906) «Həyat» qapanandan sonra, sentyabrın 26-da şairin «İrşad»da «Mətbuat» məqaləsi çıxır. Görünür, A. Qaçayev «Faktlar aydın şəkildə göstərir ki, M. Ə. Sabir 1906-cı ilin sentyabrından etibarən Şamaxıda «İrşad»ın xüsusi müxbiri kimi geniş fəaliyyətə başlamışdır» - deyəndə həmin məqalənin «İrşad» qəzetində çap olunduğu tarixi əsas almışdır. Əlbəttə, Sabirin «İrşad»ın Şamaxı üzrə xüsusi müxbiri olmasında «Mətbuat» məqaləsinin müəyyən rolu olmamış deyildi. Bununla belə, xalq şairinin məqalələrini «İrşad» qəzetində 1906-cı il oktyabrın 9-dan etibarən «Xüsusi müxbirlərimizdən» rubrikası və əsasən, «Şamaxıdan» ümumi başlığı ilə çap olunmasını nəzərdən qaçırmaq olmaz. Bu fakta əsasən qəti demək

---

[323] M. Ə. Sabir. Hophopnamə. Üç cilddə. III c, Bakı, 1965, s. 173.
[324] "İrşad" qəzeti, 13 oktyabr, 1906, № 241.
[325] A. Qaçayev. Göstərilən əsəri, səh. 46.
[326] M. Ə. Sabir. Hophopnamə. Üç cilddə, III c., Azərb. SSR EA Nəşriyyatı, Bakı, 1965, «İzah və şərhlər», səh. 266.
[327] M. Məmmədov. Sabir və mətbuat, Bakı, Elm, 1971. səh. 112

olar ki, Sabir «İrşad» qəzetində xüsusi müxbir kimi 1906-cı ilin sentyabrından yox, oktyabrından fəaliyyətə başlamışdır.

«Həyat» qəzetində olduğu kimi, «İrşad»dakı məqaləsində də Sabir xırda məişət hadisələrindən tutmuş ictimai hadisələrə qədər dövrün bir sıra aktual məsələlərinə öz münasibətini bildirmişdi.[328] «İrşad» qəzetində Sabirin çap etdirdiyi bütün məqalələrin mövzusu və ideyası üzərində ətraflı dayanmadan, qısaca onu deməyi lazım bilirik ki, burada o dövr Şamaxı həyatının və mühitinin bir çox səhifələri əks olunmaqla bərabər, ilk baxışda xırda məişət hadisələrindən bəhs edən məqalələrdə belə nəinki təkcə şamaxılıların, ümumən zəhmətkeşlərin ağır güzəranlarının ictimai mövqedən təsvir və təhlilini görürük. Sabir həm bir vətəndaş, həm də xüsusi müxbir kimi, «İrşad»ın qarşılaşdığı çətinlikləri aradan qaldırmaq üçün əlindən gələni edirdi. 1906-cı ilin axırlarında «İrşad» abunəçi azlığı üzündən bağlanmaq təhlükəsi qarşısında qalanda noyabrın 26-da «Ümummüsəlmanlara!» (№-272) adı ilə müraciətnamə çap edərək, millətdən kömək diləyərkən Sabir dərhal əməli fəaliyyətə başlayıb qəzet üçün yeni, 1907-ci il iki yüzə yaxın adamı abunəçi olmağa razı salmışdı. «Ləbbeyk icabət» adlı məqaləsində bu haqda məlumat verən Sabir ümidvar olduğunu bildirirdi ki, «...tamam Qafqaz müsəlmanları və sairin himmət edib, əl-ələ verib «İrşad»ın davam və bəqasına ifayi-himmət edəcəklər və bu mənbəi-feyzin qapanmasına millət naminə razı olmayacaqlar».[329]

Şair, Şamaxıda camaatın Qafqaz şəhərlərinin çoxundakı əhalidən «fəqir və kəmtavana» olduğu halda «İrşad»ın davamına əllərindən gələn köməyi etməyə hazır olduğunu nümunə göstərərək yazırdı: «Bizə nisbətən hər vilayət kömək edər isə «İrşad» qapanmaz güman edirəm.

Milliyyəti yad eləyin, ey ümməti-naci!
Pək təhlükəli xəstədir islam məcazi!»

«İrşad» qəzeti bağlanmaq təhlükəsi qarşısında qalanda Əhməd bəy Ağayev Quba, Dərbənd, Gəncə, Qarabağ, Şəki, Şamaxı və s. yerləri gəzərək qəzetə abunəçi toplamaqla yanaşı, yerlərdə məktəb, maarif məsələləri ilə əlaqədar müəyyən işlər də görmüşdür.

1906-cı il dekabrın sonlarında o, Şamaxıda olmuşdu. Bu zaman Şamaxıdan iki yüzə yaxın adam «İrşad»a abunəçi olmağa hazır idi.

Şübhəsiz, Ə. Ağayev burada «İrşad»ın xüsusi müxbiri Sabirin də qonağı olmuşdur. Sabir və onun digər tərəqqipərvər ziyalı dostları çoxdan arzusunda olduqları və uğrunda mübarizə apardıqları məktəbin açılmasına camaatı razı salmaq üçün Əhməd bəyin vasitəçiliyindən istifadə etməyi qərara aldılar. Əhməd bəy onların təşəbbüslərini bəyənərək, camaatla görüşəndə şəhərdə yeni tipli məktəb

---

[328] M.Cəfər. Vətənpərvər şair. “Kommunist” qəzeti, 25 iyul, 1956.
[329] “İrşad” qəzeti, 5 dekabr 1906; M.Ə.Sabir. Hophopnamə, Üç clddə, III cild. Bakı, 1965, s. 186-187.

açılmasını təklif etdi. Ə. Ağayevin nüfuzu öz işini gördü; Məktəb açmağa razılıq verən camaat elə oradaca bunun üçün pul yığdılar. «İrşad»dakı M. Ş. A. imzalı bir məktubda deyilir: «Keçən sənə «İrşad» müdiri Əhməd bəy cənabları səyahəti-aliyyəsində buraya gəldikdə fürsəti qəniməti-ittixaz edərək bir para ərbabi-qeyrətin təşviqi və Əhməd bəy cənablarının vəsatəti ilə bir məktəb binasına mübaşirət və məktəb namına olaraq min manat pul fövri-məclisdə cəm edildi...»[330]

Lakin çox keçmədən şamaxılıların bu təşəbbüsləri də «bir qərəzə» qurban oldu. Bununla əlaqədar yenə «İrşad»da çap olunan başqa bir xəbərdə deyilir: «Cənab Əhməd bəy Ağayev həzrətləri Şamaxıya təşrif gətirib Şamaxı camaətini ittifaqa və məktəblər güşad etməyə dəvət edib təşrif aparandan sonra haman Hacı Molla İslam nam Lənkərani rövzəxanlıqdan ötrü Şamaxıya varid olur. Məktəb güşad etməyə intixab olunan əşxas cəmaətdən məktəb təsisini və idarə etmək üçün pul xahiş edərkən həmin üləma-fəhami həzrətləri cəmaətə bu növ nitq söyləyib və Əhməd bəyə bir parə qəbih sifətlər ilə ki, kəndisinə şayəstədir».[331]

Hacı Milla İslamın məktəblər, xüsusilə qız məktəbləri əleyhinə kəskin çıxışı şamaxılıların məktəb açmaq təşəbbüsünü pozdu. Sabir bu cür mürtəce «başbilənləri» həmin günlərdə qələmə aldığı «Ey fələk, zülmün əyandır...»[332] sözləri ilə başlanan bəhri-təvilində ifşa etmişdir. Bundan başqa, Sabir din adından, Qurana istinadən çıxış edərək xalqı ətalətdə saxlamağa çalışanlara elə onların əsaslandıqları Quran və şəriətdən gətirdiyi tutarlı dəlillərlə poetik şəkildə cavab verməyi də lazım bilmiş və bu münasibətlə «Növheyi-milli»[333], «Təhəssür»[334] şerlərini qələmə almışdır. O, bu vasitə ilə dindar camaata daha çox təsir edəcəyinə əmin idi. Həmin üsuldan tək Sabir yox, o dövrdə real şəraiti nəzərə alan inqilabçı-demokratların bir çoxu istifadə etmişdir. «Növheyi-milli» şeri ilə əlaqədar A. Qaçayev yazır: «Bu əsər həqiqi mənada nohə olmayıb, əksinə, milləti birliyə, ictimai-siyasi hazırlığa çağıran inqilabi ruha malikdir».[335] Bu sözlərdə bir az mübaliğə olsa da, həqiqət də vardır. Belə ki, şerdə ictimai-siyasi hazırlığa çağırışdan söhbət getmir. Şair bir az yuxarıda haqqında danışdığımız «Qeyrət» məqaləsindəki ideyanı həm «Növheyi-milli», həm də «Təhəssür» şerindəki poetik şəkildə söyləməklə bərabər xeyli inkişaf etdirmişdir. Məqalədə deyilir: «Bu gün aləmi-mətbuati-islamidə nəşr olunan qəzetlərin hansı bir nömrəsidir ki, onda islamiyyətin tədənnisindən bəhs edilib tərəqqi və təalisinə milləti-islam tərğib və təhris olunmasın?

...Hər halda adını tərəqqiyi-islam qoyduğumuz şey vəzifeyi-müqəddəsəni mətlub bir surətdə əncamə irişdirməkdən ötrü şüəri-islamiyyəmizin intişarına

---

330 «İrşad» qəzeti, 22 may 1908.
331 Orada, 26 aprel 1907.
332 «Molla Nəsrəddin» jurnalı, 19 yanvar 1907.
333 «İrşad» qəzeti, 15 fevral 1907.
334 Yenə orada, 22 fevral 1907.
335 A.Qaçayev. Göstərilən əsəri, səh. 48.

qeyrət və qeyrəti-milliyəmizin izdiyadına himmət etməliyiz, tainki ismi ilə müsəmması düz olub həqiqətdə tərəqqiyi-islam olmuş olsun və illa əks surətdə edilən tərəqqiyə islam tərəqqisi denilməkdən maəda, tədənni də deyil, hətta islamiyyətin və qeyrəti-islamiyyətin nistü nabud olmağına aşkar bir səbəb olduğu həqiqətdən kənar deyil, zənn edirəm».[336]

Burada «islamiyyət», «islam tərəqqisi», «qeyrəti-islam» ifadələri altında Sabir müsəlman xalqları, onların tərəqqisi və milli mənlik şüurunu başa düşür, onları elə bu mənada da işlədir. O, üzdəniraq millət vəkillərinin müsəlmanların tərəqqisinə səbəb olacaq müqəddəs bir işə əncam çəkmək əvəzinə gördükləri işlərin müsəlman xalqlarının tənəzzülünə və məhvinə səbəb olacağını dərk edib təşvişlə yazırdı:

Va həsrəta! Ki, bərhəm oldu tifaqi-millət!
Milliyyət ictimaın pozdu nifaqi-millət!

Əmnü fərahü röf'ət təbdil olub fəsadə,
Mehri-vəfavü ülfət təqyir olub inadə,
Quranımız olurkən da'i bir ittihadə
Şər'i-şərifə saldı min infiraq millət.

...Əshabi-pakı oldu xidmət güzari-islam,
Tutdu cəhanı cəyzi zül iqtidarı islam.
Çünki təmaddün idi ümdə şüari-islam
Qovzandı övci-ərşə taci-rəvaci-millət.

Nəşr etdilər şüari-islami hər diyarə,
Bil'ittifaq olundu xidmət bu intişarə,
Bilməm kim etdi axir islamı parə-parə,
Xəlq oldu firqə-firqə, döndü məzaqi-millət![337]

Deməк, Sabir Qur'an və şəriətdə də millətin birliyə və tərəqqiyə çağırıldığını göstərməklə bərabər, həmin qaydalara millətin tərəqqisi, onun milli ruhunun qorunub saxlanması naminə əməl edilməkdənsə, millətin, xalqın firqələrə, təriqətlərə parçalanmasına, «islamın parə-parə» olunmasına, mədəni inkişaf sarıdan geridə qalmasına sanki yas tutub növhə oxuyur. Lakin bədbinlik əhvalının Sabir ruhuna yad olub onun yaradıcılığında çox ötəri, işartıya bənzər bir hal olduğunu bu şerdən cəmi bir həftə sonra dərc olunan «Təhəssür» əsərində də görürük. Bu şerdən cəmi bir həftə sonra dərc olunan «Təhəssür»[338] əsərində də görürük.

---

[336] "İrşad" qəzeti, 13 oktyabr 1906; M.Ə.Sabir. Hophopnamə, III cild, Bakı. 1965, səh. 176.
[337] "İrşad" qəzeti, 15 fevral 1907.
[338] «Növheyi-milli» şeri. «İrşad»ın 15, «Təhəssür» isə 22 fevral 1907-ci il tarixli nömrələrində çap

Şərq xalqlarını birliyə və tərəqqiyə səsləyən həmin şerdə çağırış ruhu ilə bərabər, Sabirə məxsus tənqid və təhdid, ittiham notları hakimdir. Əvvəlki şerdə «bilməm kim etdi axir islamı parə-parə», - deyən şair «Təhəssür» şerinə belə bir epiqraf vermişdir:

İstənilir ittifaq,
Göstərilir infiraq.

Bu epiqrafdan sonra Sabir ittifaq tələb olunan yerdə infiraq, yəni nifaq, təfriqə göstərənlərə, bu infiraqı doğuran səbəblərə qarşı hücuma keçərək yazır:

Olsaydı səfa zümreyi-irfan arasında,
Qalsaydı vəfadan əsər əyan arasında,
Dursaydı sədaqət bəy ilə xan arasında,
Qalmazdı kədər zərrəcə insan arasında!

Da'i bə üxüvvət olur ikən bizə Qur'an,
Əmr eylər ikən birliyə peyğəmbəri-zişan,
Tapmazsan iki müttəfiqürrə'y müsəlman
Qafqazda olan bir neçə milyon arasında!

Bu şerdə Sabir Qur'ana və şəriət qanunlarına söykənərək tərəqqiyə mane olmağa çalışan bədxahların Qur'an və şəriət adından çıxış edib onu istədikləri kimi şərh etməklə xalqı aldatmalarını göstərmişdir. Bütün bu işlər bir ali məqsədə xidmət edirdi; o da Şərq xalqlarının, o cümlədən Qafqaz müsəlmanlarının - azərbaycanlıların milli özünəməxsusluğu, milli qeyrət hissini itirməmək şərti ilə tərəqqi və mədəni inkişafın ən yüksək pilləsində bərqərar olması idi. Öz millətini, öz ümmətini, ümumən Şərq xalqlarını birliyə, tərəqqiyə, eyni zamanda milli qeyrət hissinin qorunub saxlanmasına çağıran Sabir şerin son bəndlərində şair -vətəndaş səsini daha da ucaldır:

İslamımızı etməliyiz böyləmi ehya?!
İmanımızı qılmalıyız böyləmi ifa?!
İslam o deyilmi ki, ciyərguşeyi-Zəhra
Baş verdi yolunda susuz, al qan arasında!

Biz millətə lazımmı deyil bu təbəiyyət?
Biz ümmətə vacibmi deyil qeyrəti-millət?
Ey vay ki, qeyrət oxuyur bizlərə lənət,

---

olunmuşdur.

Milliyyətə xidmət edən insan arasında!

Sabir xalq mənafeyini öz izzət nəfslərinə qurban verən ziyalı cavanlara hər vasitə ilə mane olan, hamını özlərinə tabe və özlərindən asılı vəziyyətdə saxlamağa çalışan rəislərinin kütbeyinliklərini, özündən razılıqlarını «Nəfsin qərəzi, əqlin mərəzi»[339] adlı satirasında ifşa edərək yazırdı:

...Gər olmasam bir işdə rəis, - eylərəm fəsad,
Mehrü vəfanı tərk edərəm başlaram inad,
Səyimlə əlfirarə dönər vəz'i-ittihad,
Bir parə şəxslər mənə etməzsə inqiyad,

Mən özbəyəm, itaəti-fərmanın eylərəm,
Məndən əmin ol, aləmi qurbanın eylərəm!

Bir şəxsin olsa əqli min mənim qədər –
Heç olmaram razı ola təhsin mənim qədər!
Görsəm ki, xəlq edir onu təyin mənim qədər;
Bir hiylə eylərəm, edəməz cin mənim qədər...

Sanma ki, məkrü hiylədə nöqsanın eylərəm,
Məndən əmin ol, aləmi (qurbanın eylərəm!

Sabirö xalqının işıqlı gələcəyinə inam hissi ilə bildirirdi ki, gec-tez tərəqqi işləri qalib gələcək, xalq dostu ilə düşmənini tanıyacaqdır. Onda həmin bu fitnəkar rəislərin taleyi daha acınacaqlı olacaqdır. Bu həqiqəti şairin ifşa hədəfi olan tip də bildiyi üçün deyirdi:

Bir gün gələr, olar da bilərlər xəyanətim,
Məndən tənəffür ilə qaçar cəmaətim,
Onda yəqin qopar başıma öz qiyamətim,
Artar qəmim, gedər fərəhim, izzu şövkətim,
Əhdi pozub əgərçi mən üsyanın eylərəm,
Ey dad, haray! Nə növ ilə samanın eylərəm?!

Əhmədbəy Ağayev səyahəti zamanı aldığı təəssüratı «Bizim əzmi-halımız»[340] adlı məqaləsində ümumiləşdirərək, ictimai-milli naqislikləri tənqid etmişdi. Diqqətli müşahidə və müqayisədən aydın olur ki, Ə. Ağayevin həmin məqaləsində Sabirin «Nəfsin qərəzi, əqlin mərəzi» satirasının mövzu və ideyaca

---

339 «İrşad» qəz.., 24 yanvar 1907.
340 Yenə orada, 5 fevral 1907.

təsiri vardır. Hər iki əsərin təxminən eyni ictimai-milli bəlaya həsr olunduğu və Sabir satirasının Ə. Ağayevin məqaləsindən xeyli əvvəl çap olunduğunu nəzərə alsaq,* fikrimizə şübhə yeri qalmaz. Çünki, redaksiyaya gələn yazılardan redaktor bu və ya başqa dərəcədə faydalanmamış deyildi.

Bundan başqa Sabirin «Xəsisin heyfi, varisin keyfi»[341] satirasında da həmin hadisələrlə bu və ya başqa dərəcədə səsləşməkdədir. Həm «Nəfsin qərəzi, əqlin mərəzi» həm də «Xəsisin heyfi, varisin keyfi» satirası «İrşad»da «Mirat» (Güzgü) imzası ilə vaqe olunmuşdur. Bu satiralarda Sabir kütbeyin, bədxah,. Mürtəce görüşlü rəislərin əməllərini, onların xalqa vurduqları zərərin müqabilində düşdükləri acınacaqlı aqibəti güzcü kimi əks etdirərək ictimaiyyətə və özlərinə göstərmişdir.

Elə bu cür vətənpərvəranə fəaliyyətinin, inqilabi ruhlu satiralarının nəticəsidir ki, «millət rəisləri» avam camaatı Sabirə və Sabirlərə qarşı qaldıraraq, onları susdurmağa çalışırdılar. Sabirə olan hücumlar haqqında onunla bağlı xatirələrdə və sənədlərdə, o cümlədən şairin «Bəhlul» jurnalına yazdığı məlum məktubunda məlumat vardır.

Mənbələrdən məlum olur ki, xalq şairinə qarşı mürtəce dairələrin hücumları 1907-ci ildən başlayaraq daha şiddətli olmuşdur. Sabir haqqında mürtəcelərin yaratmaq istədikləri rəyin daha bir izi şairin həmyerlisi və dostu, dövrünün tanınmış maarif və mədəniyyət xadimi Əbdürrəhim Tofiq Əfəndizadənin «İrşad»da dərc etdirdiyi və yuxarıda haqqında danışdığımız «Məktub»[342] başlıqlı məqaləsində rastlaşırıq.

Məqalədən də göründüyü kimi, üzdə özünü mədəniyyət tərəfdarı kimi göstərib, «tərəqqi xüsusunda» söhbət edən bu «iki zat» məsələsinin qəlizliyini görəndə, daha doğrusu, Sabirin şəhərin «hankı eybini göstərdiyinə» qulaq asmalı olanda əsil simalarını faş edirlər. Çünki onlar Sabir satiralarının və publisistikasının ruhuna, Sabir qələminin ifşaedici gücünə [çox gözəl bələd idilər. Sabirin satira oxları bu cür tiplərə az sancılmamışdı. Odur ki, onlar şairin satiralarını dərhal tanıyır və ondan oddan qorxan kimi qorxurdular. Əllərindən gələn yalnız o idi ki, hər yerdə yeri düşdü düşmədi, şairi təkfir edərək gözdən salsınlar.

Belə vaxtlarda öz şerlərini daha çox imzasız çap etdirməyə məcbur olan Sabir[343] tərəqqi düşmənlərini, onların hər cür mədəniyyət nişanələrinə, mətbuata düşmən münasibətlərini ifşa edərək «Məsləhət» satirasında yazırdı:

Sən nə qəzet qan və nə də «İrşad» al!

---

* «İrşad» qəz., 21 fevral 1907.

[341] Qeyd. «Nəfsin qərəzi, əqlin mərəzi» satirası «İrşad»ın 24 yanvar. «Bizim əzmi halımız» məqaləsi isə 5 fevral 1907-ci tarixli nömrəsində çıxıb.

[342] Yenə orada, 24 yanvar 1908.

[343] Bax: M Məmmədov. Sabir və mətbuat. Bakı. Elm, 1974, 64-65.

Qoy babalın boynuma, get, arvad al![344]

Şerdə «İrşad» qəzətinin adının çəkilməsi təsadüfi deyil. Çünki həmin günlərdə «İrşad» abunəçi sarıdan böhran keçirirdi. Vəziyyətdən çıxmaq üçün yaradılan «İrşad-Proqres» şirkəti də istənilən nəticəni verə bilmirdi. Sabir həmin ifadə ilə millət nümayəndələrinin sevgili «İrşad»ı əldə saxlamaq üçün bir qara qəpiyə belə qıymayıb öz pul kisələrini qucaqlamalarını bir daha ifşa edirdi. Bundan başqa, Sabir «Əlminnətü-lillah ki «Dəbistan» da qapandı»[345] satirasında da «İrşad» qəzetinin 1907-ci il iyunun 20 də noyabrın 17-dək öz nəşrini dayandırmasına təəssüflə işarə edərək yazırdı:

Rəhbər yorulub, yuxladı «İrşad»ü «Təkamül».

Bütün bunlar göstərir ki, Sabirin «İrşad»a münasibəti keçici olmamış, qəzetin nəşri müddətində onun hər addımı - uğurları, qarşılaşdığı çətinliklər və maneələr xalq şairinin diqqət mərkəzində olmuşdur.

«Bu, təkcə Sabirə məxsus cəhət deyildi. XX əsrin, demək olar bütün görkəmli Azərbaycan publisistləri (N. Nərimanov, Ü. Hacıbəyov, F. Köçərli, N. Vəzirov və başqaları) eyni yolla gedir, «Həyat», «İrşad», «Tazə həyat», «Tərəqqi» kimi müxtəlif istiqamətli qəzetlərdə fəal iştirak edirdilər».[346]

«İrşad»a C. Məmmədquluzadə ilə Ö. F. Nemanzadənin münasibəti də müsbət idi. Onlar da yeri gəldikcə bu qəzetdə iştirak edirdilər. Qəzet 1908-ci ildə bağlanmaq təhlükəsi qarşısında qalanda C. Məmmədquluzadə «İrşad»[347] felyetonu ilə çıxış edib Əhməd bəy Ağayevə müraciətlə zahirən onu «günahlandıraraq» Avropa xalqlarının müqabilində müsəlmanların mətbuata mənfi, laqeyd münasibətlərini tənqid etmişdi. 1907-ci ildə qəzet münəqqəti olaraq bağlananda isə jurnal «Müsəlman ürəfa və danişməndanlarına xitabnamə»[348] çap etmişdi. Redaksiya həmin «Xitabnamə»nin jurnalın böyük bir hissəsini tutmasına işarə ilə «İdarədən» qeydində yazırdı: «Əgər bu barədə təəccüb edənlər tapılsa, biz onları deyə bilərik ki: «İrşad»ın dirilməyinin əhəmiyyəti o dərəcədədir ki, bu yolda həqir məcmuəmizin nəinki bir nömrəsini, bəlkə çox nömrəsini fəda etməyi rəva görərik».

Bu sətirlər mollanəsrəddinçilərin «İrşad»a münasibətinin xarakterini aydın təsəvvür etməyə imkan verir. Münasibətin qarşılıqlı olması bir də ondan aydın olur ki, öz səhifələrində «Molla Nəsrəddin» jurnalı «İrşad» qəzetinin taleyi ilə əlaqədar müxtəlif xəbərlər dərs etdiyi kimi, «İrşad» da «Molla Nəsrəddin haqqında müsbət xarakterli yazılar və xəbərlər verirdi.

«İrşad»ın Sabirə münasibəti də müsbət idi. Bunun izləri qəzetdə gedən

---

[344] «Molla Nəsrəddin» jurn., 6 aprel 1908.

[345] Orada, 29 iyul 1907.

[346] M. Məmmədov. M. Ə. Sabir və Azərbaycan demokratik mətbuatı, (1908-1911-ci illər) «Azərbaycan SSR EA-nın Əlaqələndirmə Şurasının beşinçi elmi sessiyasının materialları. Birinci kitab -ictimai elmlər (Bakı-1968) 1-ci kitab, Bakı, Elm, 1972. s. 70-71.

[347] «Molla Nəsrəddin» jurn, 1 dekabr 1906.

[348] Orada, 26 avqust 1907.

müxtəlif xarakterli materiallarda öz əksini tapıb.[349]

Məsləkdaşları kimi, Sabirdə mətbuata münasibətinin xarakteri xalqın istiqbalı, işıqlı gələcəyi yolunda mübarizədə mətbuatın rolunun dərkindən irəli gəlirdi. Bütün bu mübarizələrdən məqsəd xalqın və vətənin xoş gələcəyinə xidmət edən arzu və ideallların həyata keçməsi idi.

İstiqbal haqqında təsəvvür, onun taleyi və həyata keçirilməsi yolları haqqında M. Ə. Sabirlə Ə. M. Hadinin mülahizələri üzərində bir qədər ətraflı dayanmağı lazım bilirik. Çünki hər iki şamaxılı şairin həmin məsələ ətrafındakı axtarışları ədəbi ictimaiyyətin bu problemə münasibətinin bir sıra mühüm cəhətlərini özündə əks etdirir.

Azərbaycan ədəbiyyatı tarixində yeni və parlaq bir səhifə açan mollanəsrəddinçilərin nüfuz dairəsi tezliklə ictimai həyatın bütün sahələrini əhatə etdi. Onlar demokratik ictimai qüvvələrin başında duraraq mühafizəkarlar və epiqonçularla kəskin ideya-bədii mübarizə aparmaqla yanaşı, bəzi hallarda romantiklərlə də müəyyən ictimai-ədəbi mübahisələrə girirdilər. Həmin mübahisələrin işığında realist inqilabçı-demokratlarla romantiklərin dövrün ictimai-ədəbi hadisələrinə münasibətlərini bir qədər aydın görmək olur.

Yuxarıda qeyd etdiyimiz kimi, mollanəsrəddinçilərlə M. Hadi, H. Cavid, A. Səhhət, A. Şaiq, A. Divanbəyoğlu, A. Sur kimi romantiklərin ictimai həyatın müxtəlif sahələrinə baxışlarında bir çox yaxınlıq və eyniliklər[350] olsa da, «...eyni həyat hadisələrinə münasibət nöqteyi-nəzərindən onlar fərqlənirdilər. Məsələn: İran və Türkiyə inqilabından Ə. Sabir də yazırdı, Hadi də, yoxsul kəndlilərin ağır məişətini Cəlil Məmmədquluzadə də təsvir edirdi, Səhhət də. İmperialist müharibəsi əleyhinə Qəmküsar da yazırdı, H. Cavid də. Burjua-müdkədar əxlaqını, mövhumatı, cəhaləti, dini təəssübkeşliyi, şovinizm və sairəni realistlər də pisləyirdi, mütərəqqi romantiklər də. Lakin bu cəmiyyət hadisələrinə münasibət və çıxarılan ümumi əxlaqi, siyasi, ictimai və fəlsəfi nəticələr başqa idi».[351] Bundan başqa, bu iki ədəbi cərəyan arasında təbin şəkildə mövcud olan bədii-üslubi fərqlər də ədəbiyyatşünaslığımızda, yeri gəldikcə göstərilmişdir.

Realist və inqilabçı-demokratlarla romantiklər» arasında olan ideya-estetik, ictimai-fəlsəfi və üslubi fərq və yaxınlıqdan elmi ədəbiyyatda yeri düşdükcə bəhs olunsa da, hələlik bu sahədə ötəri toxunulan və ya qarşıya qoyulan məqsədə müvafiq olmadığı üçün bəhs edilməyən bəzi mühüm nöqtələr vardır ki, biz burada Həmin nöqtələrin bir neçəsinə yeni materialların işığında aydınlıq gətirməyə çalışacağıq. Çünki realistlə romantiklər arasında olan çoxcəhətli fərq və uyğunluqlar çox geniş bir tədqiqat tələb edən, uzun və əlbir fəaliyyətlə həll oluna bilən problemdir. Odur ki, biz də XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında

[349]«İrşad» qəz., 16 avqust 1906, 5 fevral 1907, 21 yanvar. 1908 və s.

[350] Bax: M. Məmməd Səfər. Azərbaycan ədəbiyyatında romantizm. Seçilmiş əsərləri İki cilddə II c., Bakı, Azərnəşr, 1974, (s. 3-185), s. 28-30. 43, 58-60, 64 və s.

[351] Orada , səh. 64.

inqilabi-demokratik poeziyanın banisi və bayraqdarı Mirzə Ələkbər Sabirlə Azərbaycan romantizminin rəhbəri Əbdülsəlimzadə Məhəmməd Hadi arasında olan çoxtərəfli uyğunluqdan daha çox fərqlərdən bəhs etməyi qarşımıza məqsəd qoymuşuq. Çünki M. Ə. Sabirlə Ə. M. Hadidən danışmaq həm realizmlə romantizmdən, həm inqilabçı demokratlarla romantiklərin dünyagörüşü və həyata baxışlarından, həm də, ümumiyyətlə, iki müxtəlif dünyabaxışından danışmaq deməkdir.

Sabirlə Hadinin ideya-bədii və ictimai-fəlsəfi mübahisə və fikir mübadilələri barədə ədəbiyyatşünaslığımızda xeyli qiymətli fikir söylənmişdir. Əsasən, bu tədqiqatların hamısında M. Hadinin «Rəhgü zari mətbuatda bir şükufeyi-məarif», «İstiqbalımız-parlaqdır» şerləri ilə Ə. Sabirin «Dilbər», «Rəhgüzari-məxluqatda bir möhtaci-məsarif» və «İstiqbalımız lağlağıdır» satiralarından bəhs edilmiş, bu zaman Sabirin şerləri Hadinin əsərlərinə gah parodiya, gah nəzirə və cavab, gah da nəzirə və təhzil-cavab adlandırılmışdır.[352] Bundan başqa, Əziz Mirəhmədov Sabirin «Tömeyi-nahar» satirasının Hadinin «Lövheyi-bahar» şerinə parodiya olduğunu, M. Hadinin «Molla Nəsrəddin»ə şerinin bir hissəsinin Sabirin «Fəhlə, özünü sən də bir insanmı sanırsan?» satirasının təsiri altında yazıldığını da göstərmişdir. (M. Hadi. Seçilmiş əsərləri. İki cilddə. I c., s, V-VIII; 435-436). Rəfiq Zəka isə «Məhəmməd Hadi» (Bakı, 1979) kitabçasında Hadinin «Dünya saheyi- qəmdir» şerinin Sabirin «İstəsən könlüm kimi...» qəzəlini xatırlatdığını» (səh. 68) qeyd etmişdir.

Bu faktlardan bir daha aydın olur ki, Sabirlə Hadi yaradıcılıq etibarı ilə ayrı-ayrı cərəyanlara mənsub olsalar da, bir-birlərinə daim qayğı və diqqətlə yanaşmış, biri digərindən qarşılıqlı surətdə bəhrələnmişdir. Lakin qayğı, diqqət və ehtiram onların bir-birlərinin yaradıcılıqlarının ideya-estetik cəhətinə və ictimai-siyasi, tarixi-ədəbi-fəlsəfi mövqeyinə tələbkarlıqla yanaşmalarına, prinsipial məsələlərdə biri-birinə güzəştə getməməsinə mane olmamışdır. Sabirlə Hadinin yuxarıda adları çəkilən əsərlərindən başqa indiyədək məhz bu cəhətdən demək olar ki, tədqiqata cəlb edilməyən qələm məhsulları da vardır ki, biz onlardan da ətraflı bəhs edməyə çalışacağıq.

Məlumdur ki, XX əsrin əvvəllərində Azərbaycanın demokratik istiqamətli ədəbi cərəyanlarının hər ikisində - realistlərdə və romantiklərdə maarifçi baxışlar olmuşdur. Bu, bir tərəfdən həmin ədəbi cərəyanların maarifçiliyin məntiqi davamı kimi üzə çıxmasından irəli gəlirdisə, digər tərəfdən dövrün qarşıya qoyduğu tələbdən doğurdu. Belə ki, ölkədə maarif və mədəniyyətin səviyyəsi çox

---

[352] Bax: Məhəmməd Hadi. Seçilmiş əsərləri. İki cilddə, I c., Bakı, Elm, 1978, səh. XXII, 139, 441: M. Ə. Sabir. Hophopnamə, üç cilddə. 1962, səh. 276-279: III c. Bakı, 1965, səh. 244; Əkrəm Səfər. Sabirin yaradıcılığında təhzil, nəzirə və bənzətmələr. Azərbaycan SSR EA-nın Xəbərləri (ictimai elmlər seriyası, 1962, №5 (səh. 9-50) səh. 13, 18-20; Səfər Xəndan. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri, Bakı, Azərnəşr 1962, s. 325-326: İslam Ağayev. «M. Hadi və M. Ə. Sabir». Azərbaycan müəllimi» qəz., 5 dekabr 1979.

aşağı idi. Qarşıda duran mühüm vəzifə ictimai-mənəvi şüurun ictimai mənlik şüurunun oyanması üçün xalqın maarif ziyası ilə nurlanması məsələsi idi. Bu cəhətə daha çox üstünlük vermələrinin nəticəsi idi ki, hər iki cərəyanın nümayəndələri bəzi hallarda maarifi idealizə edir, yeganə nicat yolunu xalqın maariflənməsində görürdülər. Həmin nöqtədə romantiklər daha davamlı idilər. Məsələn; M. Hadi məktəbə gedən xristian uşaqlarını görəndə bu mənzərədən təsirlənərək qələmə aldığı «Rəhgüzari-mətbuatda bir şükufeyi-məarif»[353] şerində qeyri-müsəlman xalqlarının uşaqlarının layiqincə təlim-tərbiyə gördüklərini böyük bir qibtə hissi ilə təsvir edərək, bəşəriyyətin inkişafında elmin müstəsna rolu olduğumu göstərmişdir. O, kədərlə bildirirdi ki, müsəlman xanımlarının təhsil almalarına imkan verilmədiyi üçün onların övladları da avam və cahil olurlar. Deyilən sözlərə, aparılan təbliğatlara isə fikir verən yoxdur. Göstərilən saysız cəhdlərin uğursuzluqla nəticələnməsindən qəzəblənən şair yazırdı:

Nisvan sözü alındımı gilgi-kitabətə
Bir daşdı sanki bu düşüyor rəsi-millətə!
Olsun tfu, tfu bu cühulanə qeyrətə!
Layiqmidir, quzum, belə millət siyadətə?

Sən söylə, qorxma, sahibi-vicdan olan cocuq,
Ey cənnəti-səadətə rizvan olan cocuq!

Hadinin bu şeri «Tazə həyat» qəzetində (10, 11 fevral 1908) dərc olunandan bir ay sonra (9 mart 1908) «Molla Nəsrəddin» jurnalında Sabirin öz dostunun əsərinə yazdığı «Rəhgüzari - məxluqatda bir möhtaci-məsarif»[354] adlı bənzətməsi dərc olundu. Bu satira da məktəb və maarifin vəziyyətinə millətin, vətən övladlarının savadlanması məsələsinə həsr olunmuşdur. Lakin əgər Hadi başqa millətdə gördüyü inkişafı öz millətinə arzulayaraq bu yolda göstərdiyi cəhdlərin nəticəsiz qaldığının şahidi olub, bunun ictimai-sosial səbəblərini dərk edə bilmədiyi üçün «olsun tfu, tfu bu cühulanə qeyrətə! Layiqmidir, quzum, belə millət siyadətə?» - deyə millətindən sanki üz döndərirsə, Sabirin satirasında hadisələrə realist baxış özünü göstərir. Sabir öz millətində olan istedad və qabiliyyəti də, bu qiymətli gövhərin torpağa düşüb gizli qaldığını da görür. Şair göstərir ki, bu gövhərin qədrini bilib onu üzə çıxaran adam hələ çox azdır. Millət rəisləri rahatca yuxulayıblar. Odur ki, o, vətən övladına «qəbahətin var» deyərləri haqlı saymır, bu qəbahəti millətin özündə yox, onun halında görən Sabir yazırdı:

---

[353] M. Hadi. Seçilmiş əsərləri. İki cilddə. I c.. Bakı 1978. səh. 80-82. Bundan sonra həmin (kitabdan götürülən əsərlərin adı qarşısında mötərizədə yalnız səhifəsi göstəriləcəkdir.

[354] M. Ə. Sabir. Hophopnamə. Üç cilddə, III c., səh. 39-40. Sabirin əsərləri «Hophopnamə»nin üç cildliyindən göstərilir. Bundan sonra gətirilən əsərlərin adları qarşısında mötərizədə «Hophopnamə»nin cildi, ili və səhifəsi göstəriləcəkdir.

...Etsəydi tərbiyət cəmi əhli-vilayətin,
Sailliyə qalırmıdı hərgiz də rəqabətin?!
Başsız qalıb ayaqlara üftan olan cocuq!
Ey dərbədər gəzib ürəyi qan olan cocuq!

Satiranın sonuncu bəndində sanki üzünü tərəfi - müqabilinə tutan Sabir millətim «bixəyal» olmadığını, lakin dərin yuxuya getdiyini, onun ayılmasının «mahal» bir iş olduğunu göstərir:

Olsun əsər o millətə kim, bixəyaldır,
Yaxud xəyalı kəndinə təksiri - maldır;
Yavrum, quzum, yatanlar ayrılmaz, məhaldır,
Ancaq mənimki nalə, səninxi süaldır...

Burada Sabir sanki M. Hadiyə cavab verir. Ona görə onun satirası təkcə bənzətmə deyil, bəlkə bənzətmə - cavabdır. Sabirin 28 aprel 1908-ci ildə «Molla Nəsrəddin» jurnalında çap olunan «Dilbər» (I, 1962, səh. 159-160) satirası Hadinin «Rəhgüzari-mətbuatda bir küşufeyi-məarif» şerinə təhzildir. Çünki Hadinin əsərində cocuğa ülvi münasibət bəslənildiyi göstərildiyi halda (əlbəttə, başqa xalqlarda), Sabir satirasında bunun tamam əksini görürük. Professor Əkrəm Səfərin fikrinə, «M. Hadinin epitetlərlə o qədər yüksəltdiyi, xəyalən əziz, təmiz, əsil, nəcib gördüyü yeniyetmə Azərbaycan balalarını Sabir real ictimai mühitdə, islam aləminin rəzalətləri, səfalətləri mühitində Molla Həbiblərin, Hacı qurbanların əxlaqsız, murdar ehtiraslarının qurbanı kimi göstərir».[355] Alim burada bir məsələni diqqətdən qaçırır. Belə ki, Hadi həmin şerini Azərbaycan balalarına yox, məktəbə gedən xristian uşağına müraciətlə yazmışdır. Bu cəhətə C. Xəndan da fikir verməmiş[356] və nəticədə söylənən fikirlər qeyri-dəqiq olmuşdur. M. Hadi şerini xristian uşağına, onun ruh oxşayan vəziyyətindən ruhlanaraq qələmə almışdır. Şair vətən övladına bu cür qayğını öz millətində görmədiyi üçün hiddətlənir. Sabir isə millətdə istedad, qabiliyyət olduğunu təsdiqləməklə bərabər, həmin istedadın parlaması üçün ictimai-milli və mənəvi mühitin yoxluğundan şikayətlənir. Məhz bu qənaətin nəticəsidir ki, başqa bir satirasında şair milləti yox, dövranı taqsırlandıraraq yazırdı:

Tüf belə dövranə ki, bədtər olur
Seyri-fələk, dövri-zəman ilbəil (I, 1962, s. 63)

Deməl, Sabir ictimai-milli geriliyin səbəbini dövranda, ictimai-sosial

[355] Ə. Səfər. Göstərilən əsəri, səh. 325.
[356] Bax: C. Xəndan. Göstərilən əsəri, səh. 325.

şəraitdə, Hadi isə səhv olaraq millətin özündə gördüyü üçün yuxarıdakı sitatdakı «Azərbaycan balaları» ifadəsi Sabirə aiddir. Hər iki şairin mövqeyindəki əkslik də bu nöqtəyə münasibətin müxtəlifliyindən doğmuşdur. Hadinin mövqeyinin düz olmadığını, öz millətində olan istedad və qabiliyyətə qiymət verə bilmədiyini görən Sabir onun şerini təhzil, mövqeyini tənqid etmişdir. Burada mövzu və ideya eyni olsa da, ictimai-sosial hadisələrə münasibət, verilən qiymət dünyabaxışlar arasında fərqlər mövcuddur. Bundan başqa, M. Hadi birinci növbədə qızların, anaların təhsili məsələsini qaldırırsa, Sabir ümumiyyətlə vətən övladının tərəqqisi məsələsini irəli sürür. Daha doğrusu, ümummilli inkişaf olmadan qadınların oxuması məsələsinin baş tutması, əlbəttə, mümkün deyildi.

Bununla belə, qadın azadlığı məsələsində Hadinin mövqeyi mollanəssərdinçilərə daha çox yaxınlaşır, həmahəng səslənirdi. Şairin «İrşad» qəzetində (7 iyun 1907) çap etdirdiyi «Molla Nəsrəddin»ə (səh. 57-53) şerində qadın azadlığı məsələsindən bəhs olunan hissəsinin vəzn, quruluş və qafiyə sisteminə görə tamamilə Sabirin «Fəhlə, özünü sən də bir insanmı sanırsan?» satirasına bir növ «bənzətmə» olmasına təsadüf kimi baxılmamalıdır.

Baharın gəlişi günlərində Hadinin qələmə aldığı «Ləhzeyi-bahar»[357] (səh. 45-47) şerində baharın gözəllikləri - təbiətin gülməsi, Şərq Günəşinin səmada parlaması, səhər mehinin adamın üzünü oxşaması, çiçəklərin sanki adamın üzünə gülümsəməsi, ağacların bir nigar kimi öz bəzəklərinə bürünməsi və s. vəsf olunur. Şair kainatı cənnətə bənzəyən bir laləzar kimi təsvir edərək, bildirir ki, ağlı olan kəs bunun qədrini bilib zövq almağı bacarmalıdır. Lakin həmin günlərdə ölkədə irtica tüğyan edir, «qara buludlar oynaşırdı» (Ə. Sabir), inqilabın qorxusundan verdiyi «azadlıqları» çar indi geri almağa başlamışdı. Bu şəraitdə öz dostunu baharın seyrinə dalıb şirin xəyallara qərq olmuş vəziyyətdə görən Sabir «Tömeyi-nahar»[358] (I, 1962, səh. 63) satirasında Hadinin şerini təhzil edərək yazırdı:

Çığırma, yat, ay ac toyuq, yuxuda çoxca darı gör!
Sus, ay yazıq, fəzadəki üqabi-canşikarı gör!

Şair öz oxucusunu zahiri parlaqlığa uymamağa, ayıqlığa, hər hansı işin arxasınca gizlənən eybəcər, iyrənc niyyətdən baş çıxarmağa çağırırdı, Çünki ölkəni aclıq, səfalət, irtica bürüdüyü halda ruhanilər, varlılar bir yana, heç ziyalılar da xalqa bir gün ağlamırdılar.

Cəmiyyətdə gedən mürəkkəb sosial proseslərdən, sinfi mübarizədən realistlərlə romantiklərin necə nəticə çıxarıb, hadisələrə hansı mövqedən yanaşmalarını daha aydın görmək üçün Sabirlə Hadinin digər əsərləri arasında da paralellər aparmaq yerinə düşərdi. Həmin əsərlər beynəlxalq hadisələrə, ən çox

---

[357] «Füyuzat» jurn., 24 mart 1907.
[358] «Molla Nəsrəddin» jurn., 14 aprel 1907.

İran və Türkiyə inqilabi hadisələrinə həsr olunmuşdur. Belə ki, İranda azadlıq mübarizələrinin qan dənizində boğulduğu 23 iyul 1908-ci il hadisəsi günlərində Hadi «İstiqbalımız parlaqdır» (101 - 103) şerini dərc etdirdi.

Açar firdovsi hürriyyət. füyuzabad olar aləm,
Güdər sübhi-həqiqət, mədələtmö'tad olar aləm.

Şüaati-müsavat ilə səhni-dad olar aləm,
Kəməndi - eşqi - insiniyyətə müntad olar aləm,

Sürurabadi - hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm![359]

Hadiyə görə, bir gün gələcək ki, bəşəriyyət elm və təhsil ilə hüququnu anlayacaq, hamı şüurca elə bir səviyyəyə çatacaq ki, alom «istibdad əlindən qurtarıb» azad nəfəs alacaq, heç kəs heç kəsə boyun əyməyib, tam sərbəst yaşayacaq. Belə bir zamanın gələcəyinə daxilən inanan şair nəslimizin həmin övladlarını ruhən salamlayırdı.

Dostunun xülyapərəstliyi Sabiri narahat etdiyi üçün Hadinin əsərini «təhzil edərək»[360] «İstiqbalımız lağlağıdır»[361]. (I s., 1962, səh. 177) satirasını qələmə aldı. O yazırdı:

İnanmam, söyləmə artıq ki, feyzabad olur aləm,
Yağar imkani-rəhmət, baği-ədlu dad olur aləm,
Doğar xurşidi-hürriyyət, bütün azad olur aləm.
Xəyali-xamə düşmə, bilmə bir gün şad olur aləm!
Bu ikən vəzimiz, çox çəkmədən bərbad olur aləm!

Sabir M. Hadinin «oxur, təhsil ilə ehrazi-hürriyyət qılar insan...» fikrinə də etiraz edərək deyirdi ki, məktəblilərin olmadığı, köhnələrin bu işə hər vəchlə mane olmağa çalışdıqları bir zamanda hansı təhsil və azadlıqdan danışmaq olar? Şair fikrinə davam edərək, sübut üçün inqilabın məğlubiyyətini misal çəkirdi:

Təcəlla etdiyin gördük o məhbubi-dilaramın,
Fəqət al qanə qəltan olduğun da gördük islamın...

Bununla Sabir bədbinliyə qapılmırdı. O, fikri belə əsaslandırırdı: nə qədər ki, biz «köhnələrlə bir yerdə yaşayır, onların meydan sulamalarının qarşısını ala

359 «Tazə həyat» qəz., 4 avqust 1908.
360 Ə.Cəfər. Göstərilən əsəri. səh. 19.
361 «Molla Nəsrəddin" jurn., 25 avqust 1906.

bilmirik-istiqbal xam xəyal olaraq qalacaqdır. Azadlıq üçün cəmiyyətdə köklü dəyişikliklər etmək lazımdır.

Əlbəttə, bu, daha real, daha düzgün nəticə idi. Odur ki, o dövrün bir çox ziyalısı Sabirin mövqeyini müdafiə etmişdi: həm H. K. Ə. imzalı «İstiqbalımız parlaqdır, ya lağlağ?»[362] məqaləsində, həm də Hadiyə göndərilən A. H. imzalı mənzum məktubda xalq şairinə haqq qazandırılmışdı.

M. Hadi bu tənqidlərlə tamamilə razılaşma. Yaraq fikrini əsaslandırmaq üçün «Maziyi-müzlimə ircayi-nəzər, halımız münəvvər-istiqbalımız yenə parlaqdır»[363] adlı məqalə ilə çıxış etmişdir. Parlaq istiqbala, azad gələcəyə inam və ona çatmaq yollarının dərgi məsələsində Hadinin mövqeyini izah etmək üçün əlverişli açar rolunu oynayan bu məqalə indiyədək tədqiqatçıların diqqətindən yayınmışdır. Yalnız filologiya elmləri doktoru Kamran Əliyev M. Hadinin öz mövqeyindən geri çəkilmədiyini göstərmək üçün həmin məqalə ilə əlaqədar aşağıdakı fikri söyləməklə kifayətlənmişdir: «Romantik düşüncəli M. Hadi üçün bu (Sabirin satirası - A. B.) qənaətləndirici olmamış, mətbuatda «halımız münəvvər - istiqbalımız parlaqdır». (Maziyi-müzlimə ircayi-nəzər - halımız münəvvər, istiqbalımız yenə parlaqdır» olmalıdır - A. B.) məqaləsi ilə çıxış edərək bildirmişdi ki, «Biz heç vaxt «istiqbalımız lağlağdır» deməyəcəyik».[364]

Doğrudan da, Hadi öz mövqeyini müdafiə edərək yazmışdır: «Keçmişə nəzər-diqqət edəcək olursaq, o nur-nəzərin qayət qaranlıqlar içində dolaşdığını görə bilərik. Hal-hazırımız isə işıqlanmış, yaxud işıqlanmaq istedadını göstərməkdədir. İstiqbalımız, şübhəsiz ki, müşəşə və parlaqdır. Az olmuş. olsa da, bu üç zamandan (nəbatat, heyvanat və insaniyyət zamanı nəzərdə tutulur - A. B.) ayrı-ayrı bəhs etmək istər, sözlərimizi qənaətbəxş bir surətdə isbatə qələmi-acizanəmizi oynatmaq fikrindəyik».

Hadi qarşısına nəbatat və heyvanat aləminin yox, bəşər övladının təkamül və inkişaf yolunu işıqlandırmağı məqsəd qoyduğuna işarə ilə yazır: «Biz axırıncı övladın (insan övladının - A. B ) keçirmiş və keçirməkdə olmuş zamanlardan da bəhsə girişəcəyiz. O vaxt tərazuyi-əqli düz və doğru çəkənlər müvazinə etsinlər, gərək aya:

«İstiqbalımız parlaqdır - ya lağ-lağ?»

Sonra Hadi Ç. Darvinin təkamül təliminə, Qurana həkim Sənaiyə, Viktor Hüqo və b. istinad edərək bəşər övladının - insanın ilk yaranışından bəzi tarixən keçdiyi yolu təsvir edib belə qənaətə gəlir ki: «İnsan, təkamül yolunda olan üqbələri, dərə-təpələri, uçqunları aşa-aşa, yumalana-yumalana, bu hali-hüsnpəsən-

---

[362] "Tərəqqi" qəzeti, 17 sentyabr 1908.

[363] «Tazə həyat» qəz, 26, 29 sentyabr 1908: Bu qəzet bağlandığı üçün davamın «İttifaq» qəz.. 2, 4 dekabr 1908 (№2. 4). Məqalənin sonunda «mabədi var» yazılsa da, sonrakı nömrələrdə rast gəlmədik.

[364] Kamran Əliyev. XX əsr Azərbaycan romantiklərinin ədəbi nəzəri görüşləri, Bakı, Elm, 1985, səh. 50.

danəyə gəlmişdir. Bu nurani zamanı dərk edən saldide-tifl, yəni insan tərəqqi və təali yükrəgilə daha da irəliyə doğru yürüyür. Bu yürüdükcə parlaq bir istiqbal da gülə-gülə işıqlı xəndələrlə qəhqəhə ura-ura gəlir. Bu qoca tifli ağuşi-məhəbbətə çəkmək istəyir.

Bir gün gələcək də, biz yügürməkdən, çalışmaqdan usanmaq bilməyən tifli işıqlı qucağına alacaq».

Təbii təkamül qanunları ilə cəmiyyətin inkişaf» qanunlarını bir-birindən ayıra bilməyən Hadi öz sadəlövh mülahizələrinin belə yekunlaşdırır: «Gecə-gündüz dəhşətli təbiətlə müharibə edə-edə, fəth və zəfər qazanmış, axırda nüsrət sancağını şəhri-istiqbala dikmiş bu qəhrəman şayani-səadət degilmidir?»

Hadi bu yolda qarşıya çıxan hər hansı maneənin də məhz «cövhəri-zəkavət ilə», yəni ictimai-sinfi mübarizə ilə yox, ağıl və zəka gücü ilə aradan qaldırmağın mümkünlüyü haqda yazır:

«Şayəd istiqbal buna naz və istiqna göstərəcək: olursa, bu da cövhəri-zəkavət ilə, o yari-füsunkarı özünə məczub və məğlub edəcəkdir. Hümmət istiqbal-cuyanəsinə heç vəqt yəs və füturarəz olmayıb daima irəli gedəcəkdir.

Sən irəli getsən, irəli nə sənə gələr, deyilmi?»

Bütün bu qənaətlərə görə cəmiyyətin təkamül yolu ilə dəyişəcəyinə, zəkanın qüdrətinə inanan Hadi Qərbi Avropa maarifçilərinin zəka səltənətinin hökmranlığı ideyasına istinadən dərin inam və qətiyyətlə bildirirdi ki: «...Biz heç vəqt «istiqbalımız lağlağdır» deməyəcəyiz. Bunu deyənlər, olsun ki, lağlağiyata alışmışlar, qalibeyi-laqlağdan xoşlanırlar»!

Sitatdakı birinci cümlə Sabirə aid olsa da, ikinci cümlənin «Molla Nəsrəddin», Sabir satira üslubunu dərk etməyənlərə aid olduğunu Hadi özü qeyd edir. Çünki Sabirin «İstiqbalımız lağlağdır» şerindən sonra Hadinin dostlarından A. H. imzalı biri ona göndərdiyi məktubunda yazmışdı:

Ey şüəralar üzünü ağ edən,
Vəslətinə cümləyi müştaq edən,
Dilbəri-hürriyyət üçün nəfsini -
Aşiqi-sadiq döyə müsdaq edən,
Bariqeyi-natiqeyi-şer ilə -
Dilləri, vicdanları bərraq elən.
Millətinin ruzi-novayəndəsin -
Pərtövi-əfkar ilə parlaq edən.
Zənnimcə bircə Şamaxi olar -
Kəndinə müstəqbəli lağlağ edən.
Əfv elə təqsirim əgər var isə,

Ey məni öz vəslinə müştaq edən.[365]

Odur ki, Hadi bir növ üzünü həm də «İstiqbalımız lağlağdır» şerinin Sabir tərəfindən yazılmasını gümanla işarə edən dostundan daha çox H. G. Ə-yə tutaraq deyirdi: «Etirazımız möhtərəm, söygülü «Molla Nəsrəddin»ə deyil, onun rəmzlərini anlamaq istedadından məhrum olan kəsbinanədir.

Molla (oxu: Molla Nəsrəddin - A. B.) hər bir sözü əksinə təvil etməyə məcburdur. Səbəb? Parlaqlığı lağlağ surətdə göstərməsə, sizin kimi gəvəzələr ələ alıb da lağlağ olacaqdır. Zatən öylə də etməlidir. Molla cəmaətin nöqsanını göstərən bir ayineyi-ləkənümadır. Mollayı başa düşməkdən məhrum bulunanlara qarşı həzrət Kamalın (Namiq Kamalın - A. B) beytlərini oxuyub indilik xətmi-kəlam edirik:

Nə yarıcan imişsən, ah, ey ümidi-istiqbal -
Ki, sənsən aləmi dövr eyliyən bir yasü möhnətdən.
Sənindir dövr-dövlət, hökmünü dünyayə ənfaz et.
Xuda iqbadını hifz eyləsin hər dürlü afətdən».

Öz mövqeyindən geri çəkilməyən Hadi fikrini əsaslandırmaq üçün bəşər övladının mədəni uğurlarla bərabər maddi cəhətdən də xeyli nailiyyət əldə etməsini nəzərə almağı vacib bilir. O, fikrini belə əsaslandırır ki, əvvəllər kiçicik bir çayın üstünə balaca körpü salmaq çox müşkül olduğu halda, indi insanlar hətta kanallar çəkib dəryaları bir-birinə qovuşdururlar. Elm və texnikanın inkişafı nəticəsində insanlar dağı belə alt-üst edir, yeraltı mədənlərdə işləyirlər. Təyyarələr, qəzetlər və s. də tərəqqinin nəticəsi olmaqla, bəşəriyyətin xoşbəxt gələcəyinə xidmət edir. Hər bir insanın özündə olan fikir xəzinəsini başqasına çatdırmaq ehtiyacı və ehtirası nəticəsində qəzetlərdə, jurnallarda hər gün yazılan fikirlərin ərzi dolaşaraq ümumin qüvvəsini səfərbərliyə almaqda böyük rol oynadığını göstərdikdən sonra Hadi üzünü H. G. Ə-yə tutaraq deyir:

«Cahani-insaniyyət və islamiyyət istiqbal edən o müşəşə istiqbal eşqinə doğru söylə:

İstiqbalımız parlaqdır, ya lağlaqdır?».

Beləliklə, Hadi Sabirə hörmət və ehtiramla yanaşıb onun tənqidini qəbul etdiyi halda, «İstiqbalımız parlaqdır, ya lağlağ?» məqaləsinin müəllifi ilə qəxi mübahisəyə girərək, ona qarşı bir qədər sərt mövqe tutmuşdur. Hadi yuxarıda göstərdiyi «adicə fakt və həqiqətləri» məqalə müəllifinin «dərk edə bilmədiyindən» qəzəblənərək yazır: «...hal-hazırın təvai-mənəviyyəmizə ilqa etdiyi fikri-

[365] Bu fakt M.Hadinin "Seçilmiş əsərləri"nin (1978) "İzah və qeydləri"ndən (Bax: səh. 443) götürülmüşdür.

həqiqətcuyanə, hissiyati-hürriyyətpərvəranə, hərəkəti-istiqbalpəsəndanə maziyi ta binasından qoparmağa çalışan qüvvə istiqbala qarşı surəti-fövqəladə ilə gedən hali-münəvvər degilmidir? Bu parlaq həqiqəti inkara qalxışmaq üçün H. G. Ə. cənabları qədər bir darülfünuni-cəhalətdə ikmali-təhsil etmək iqtiza edər. Nə isə, qüdrətifatirə şəbparə tintanı nuri-səhərdən məhrum etmişlər. Yazıq!...»

Gətirdiyimiz parçadan da göründüyü kimi, Hadinin bu məqaləni yazmasına səbəb Sabirin «İstiqbalımız lağlağdır?» satirasından daha çox H. G. Ə-nin məqaləsi olsa da, həmin məqalə iki şair, iki mütəffəkkirin dünyagörüşlərinin fərqindən irəli gələn mübahisə və fikir münaqişəsinin məhsulu olub, onu daha yaxşı açmağa imkan verməklə də qiymətlidir. Sonrakı hadisələr də göstərir ki, Hadi tutduğu mövqedə axıradək, əsasən, sabitqədəm olmuşdur. Odur ki, birinci rus inqilabının təsiri ilə 1908-ci ildə Türkiyəni də inqilab alovları bürüyürək «Gənc türk hakimiyyəti ələ alanda Sabir «Osmanlılar, aldanmayın, allahı sevərsiz! İranlı kimi yatmayın, allahı sevərsiz!» - deyə Türkiyə zəhmətkeşlərini, inqilabçılarını ayıq olmağa səslədiyi zaman Hadi 1908-ci il dekabrın ikisində «İttifaq» qəzetində dərc etdirdiyi «Əksi-ənini-vətən» (s. 181 - 182) şerində həmin hadisələrin zahiri parlaqlığından ruhlanaraq öz vətəninin də tezliklə oyanmasını arzu edir, lakin hələ bir tərpəniş, oyanma görmədiyi üçün yazırdı:

...Vətən səfinəsini çalxalandırır əmvac,
Olubmu yoxsa xudasız bu naxudayi-vətən?
...Vətən çiçəklərini xəndədar qılmaq üçün -
Hənuz doğmadımı bizdə də fədayi-vətən?

Bu işdə əğniyalardan heç bir kömək görməyən şair-vətənin qərq olduğu zülmətdən məktəb və maarif nuru ilə azad olacağı fikrində israr etməklə bərabər, Sabirin «İstiqbalımız lağlağdır» satirasına işarə ilə yazırdı:

«Biri» demişdi ki: «Lağlağ ümidi-istiqbal».
Əməl deyilmi, quzum, qiymətü bəhayi-vətən?

Şairin bir az əvvəl qapıldığı ümidsizliyi 1908-ci ilin sonu, 1909-cu ilin əvvəllərində Səttarxanın başçılığı ilə əldə olunan qələbələr tamamilə əritdi. O, «Bariqeyi-zəfər parlayır, istiqbal bizimdir» (səh. 169-174) şeri ilə çıxış etdi. Əsər «İttifaq» qəzetinin 4, 6, 8, 13, 16 mart 1909-cu il tarixli nömrələrində (№ 51, 53, 54, 58, 59) hissə-hissə çap olundu. Hadi indi də Təbriz üsyanını alqışlayaraq azadlıq günəşinin doğmasına az qaldığını sevinclə bildirirdi:

...Girizandır vətəndən iştə leyla-leyli-istibdal,
Ədalət qəhqəhəəfşan, məsərrət ağlayır bidad.
Livaülhəmd nüsrətdir sizinçün rəhbəri-irşad,

Nümayan üfqi-istiqbaldan ümid, olun dilşad,
Dilim sövdayi-hürriyyətlə eylər nəğmələr irşad.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət!

Lakin Hadinin xoşbəxt xəyallara daldığı həmin günlərdə İran inqilabı üçün tor qurulurdu. İrtica və xarici imperialistlər Ənxümənin liberal deputatlarının səbatsızlıqlarından istifadə edərək, onları ələ alır, inqilabi qüvvələrin arasına təfriqə salmağa çalışırdı.[366] Digər tərəfdən də İran inqilabi qüvvələrinin tərkibi müxtəlif idi. Onların bir çoxu inqilaba varlanmaq vasitəsi kimi baxırdı. Ona görə də fədailər arasında tez-tez qatışıqlıq düşür, qüvvələr zəifləyirdi. Əldə edilən qələbələr tezliklə irticanın qurduğu fitnəkarlıq torunun girdabında öləsidi. Bütün bunları Sabir qabaqcadan duyur və başa düşürdü ki, azadlıq günəşinin parlaması üçün hələ çox iş görmək lazımdır. Odur ki, belə mürəkkəb və məsul tarixi şəraitdə Hadinin arxayınlıq mövqeyi Sabiri onun şerinin axırını gözləmədən «İstiqbal bizimdir» (I, 1962, s. 203) şerini qələmə almağa vadar etdi. Əsər «Molla Nəsrəddin» jurnalının 15 mart (1909) tarixli 11-ci nömrəsində çap olundu.

Qeyd edək ki, Hadinin «Bariqeyi-zəfər parlayır, istiqbal bizimdir» şeri ilə Sabirin «İstiqbal bizimdir» şerinin hər iki sənətkarın azadlıq idealına münasibətlə əlaqədar yaranan mövqe fərqlərinin nəticəsi kimi üzə çıxması tədqiqatçıların diqqətindən yayınmamışdır. «İstiqbal bizimdir» satirası» Sabirşünaslıqda şairin öz «ideya müarizlərinə» qarşı yazdığı əsər kimi təhlil edilib qiymətləndirilmişdir.[367] Düzdür, bu satiranın «başqa bir şairin (hansı şairin? Göstərilmir – A. B.) istiqbal haqqındakı xoş və arxayınçılıq əhvali-ruhiyyəsinə qarşı»[368] çevrildiyini söyləyənlər də olmuşdur. Lakin Əziz Mirəhmədovun dediyi kimi, Sabir «İstiqbal bizimdir» satirasını «çox hörmət bəslədiyi Hadiyə cavab olaraq»[369] yazmışdır. Özü də «İstiqbal bizimdir» əsəri «İstiqbalımız lağlağdır» satirasının məntiqi davamıdır. Ə. Mirəhmədov məhz bu cəhəti nəzərdə tutaraq yazır: «...Sabirin hər iki əsəri arasında möhkəm əlaqə var idi. O əlaqə də bundan ibarət idi ki, «İstiqbalımız lağlağdır» şerində olduğu kimi, yeni şerində də («İstiqbal bizimdir» əsərində - A. B.) Sabir ictimai hadisələrə qeyri-ciddi baxanlara, gördüyü hər şeydən nur deyib yapışanlara ibrət dərsi verirdi».[370]

Akademik Məmməd Arif Dadaşzadə isə konkret olaraq göstərir ki: «...Sabir Hadinin «İstiqbalımız parlaqdır» şerinə «İstiqbalımız lağlağdır» satirasını, «Bariqeyi-zəfər parlayır istiqbal bizimdir» şerinə kinayə ilə «İstiqbal bizimdir»

---

[366] Bax: İran: История и современность. Сборник статей. Москва, Изд-во Наука, 1983, стр. 34-35.
[367] Ə. Mirəhmədov. Sabir. Bakı, 1958, səh. 343.
[368] Səfər Xəndan. Göstərilən əsəri, səh. 356.
[369] Ə. Mirəhmədov. Sabir. Bakı, 1953, səh. 303.
[370] Yenə orada, səh. 344.

şerini yazmışdır».[371] Bununla belə «Hophopnamə»nin və Hadinin «seçilmiş əsərləri»nin «izah və şərhlər»ində bu əsərlərin bir-biri ilə əlaqəsi haqda heç bir qeyd verilməmişdir. Halbuki, «İstiqbal bizimdir» şerindədə Sabir əvvəlki satiralardakı ümumi tənqiddən fərqli olaraq, sanki Hadinin özü ilə üzbəüz əyləşdirərək konkret izahata keçir. Sabir Hadinin azad gələcək haqda fikirlərini maddə-maddə, şerini misra-misra götürərək onları faktik dəlillərlə təkzib edir: .

...Hanı, dersən: «Girizandır vətəndən leyli-istibdad»?
Məgər görməzmisən ətrafı tutmuş xeyli istibdad?!
Bu gün İranı yeksər taplamışdır seyli-istibdad.
Yazıq ölçməkdədir xüni-cahani geyli-istibdad.
Hələ Təbrizə də var iştəhayi-meyli-istibdad!

Yetər, canım, çəkil «et, etmə təbəsiri-hürriyyət!
Bizim qazpanda hərgiz oynamaz kəfkir-i-hürriyyət!

Sabir burada mövcud quruluşun öz yerini inqilabçılara xoşluqla verməsindən əlavə bu quruluşda marağı olan qüvvələrin əlbir mürtəce fəaliyyətlərini də nəzərə çatdırır. Eyni zamanda, əyanların xalq mənafeyi üçün yox, öz cibləri naminə hər hansı əmələ hazır olduqlarını nəzərdə tutmağı lazım bilərək yazırdı:

Mücahid qalxızıb dersən şükuhin mülki-İranın, -
Buna təkmin edərmi çakəranı şahi-zişanın?
Buna razı olarmı qeyrəti, namusu əyanın,
Bu yol bir şanlı qurbangahıdır insafın, imanın!
Nə iman vəqtidir?! Ancaq gözət xeyrin çibişdanın!...

İran zəhmətkeşlərinin böyük hissəsinin ideya-siyasi şüurca geri qaldığını, inqilabın, azadlığın mahiyyətini hələ tam anlaya bilmədiyini C. Məmmədquluzadə («İranda hürriyyət») və Sabir («Nolur, şirin məzaq etsə...») əvvəllər də tənqid etmişdi. İnqilabın müqəddəratı üçün acınacaqlı və bu təhlükəli vəziyyətin hələ dəyişmədiyini nəzərə çatdıran Sabir şerini belə yekunlaşdırırdı:

Əvət, «səhrayi-İran doğrudan bir odlu meydandır»,
Fəqət ol odlu meydanda duran bir şiri-ğurrandır,
Bəli, min hiyləgər, tulkisifət hər yan nümayandır,
Yatıb iranlılar, nagah görərlər ölkə virandır,
Hələ qoy söyləsinlər də mücahid namüsəlmandır.

---

[371] Məmməd Arif. Seçilmiş əsərləri. Üç cilddə. Çapa hazırlayanı Məryəm Axundova. III cild. Bakı, Elm, 1970, səh. 106-107.

Hələ qoy eyləsinlər büsbütün təkfiri-hürriyyət!
Desinlər də: bizə  lazım deyil təmiri-hürriyyət!

Bu sətirlərdən də göründüyü kimi, inqilabçıların başında Səttərxan kimi «bir şiri-ğurran» dursa da, inqilabın ətrafını alan minlərlə hiyləgər, tülkü-sifət siyasətbazlar inqilab və inqilabçıları xalqın gözündən salmağa çalışır və məqsədlərinə nail olurdular. Çünki, İran zəhmətkeşləri inqilaba siyasi cəhətdən hazır deyildilər. Demək, Sabir bədbinlik yox, kütlələrin inqilabi şüurca hazırlanmasının vacibliyinə çağırış mövqeyindən çıxış edirdi. İnqilab və azadlıq ideyalarına həsr etdiyi digər satiralarında da, Sabir konstitusiyalı xalq hakimiyyəti ideyasını irəli sürur və bu məqsədə çatmağın real yollarını göstərirdi.

İslam Ağayevin yazdığı kimi, «Böyük satirik şair M. Ə. Sabirin amansız istehzaları arxasında duran məqsədlər ilə romantik şair M. Hadinin ümid və arzuları arasında sıx bir yaxınlıq var idi. Bu iki şairin yaradıcılığı azadlıq arzuları ilə çarpışan qartal timsallı poeziyamızın qüdrətli qanadlarına bənzəyirdi. Bu qanadlar eyni bir qəlbin döyüntülərindən güc alır, hər ikisi xalqın xoşbəxtliyi və səadəti uğrunda eyni həvəs və ehtiramla çırpınırdı».[372]

Onu da qeyd etmək lazımdır ki, Sabirin və digər dostlarının tənqidlərinin təsiri ilə Hadi yaradıcılığında, ötəri də olsa, realizmə meyl olduğu kimi,[373] Sabirin Hadi ilə mübahisəsindən doğan əsərlərində tədqiqatçılar haqlı olaraq «Sabir romantizminin həyatla bağlılığından doğan bəzi romantik cizgilər»[374] müşahidə etmişlər. Deməli, bu iki şair və onların təmsil etdikləri ədəbi cərəyanlar qarşılıqlı təsir və bəhrələnmə şəraitində fəaliyyət göstərmişlər. Bu halı Sabirlə Hadinin digər əsərlərində də görürük. Belə ki, Hadi 1909-cu il sentyabrın 26-da «Əhrari-İranə. Yaşamaq istər isək!...»[375] adlı bir şer yazmışdır. Həmin şer Hadinin «seçilmiş əsərləri»nə düşməyib. O, burada üzünü İran əhlinə tutaraq, onları əsrin inkişafı ilə ayaqlanmağa çağırır. Şairin fikrincə, İran əhlinin buna haqları həm də ona görə var ki, onların nəsilləri, şan və şərəfləri yüksək, tarixləri uludur. Odur ki, indiki nəsil həmin şöhrəti qoruyub gələcəyə daha yüksək səviyyədə çatdırmağa borcludur:

Yaşamaq istər isək, haizi-şan olmalıyız,
Şiri-darat ilə xurşidnişan olmalıyız.

Biz də varlığımızı aydınladalım himmət ilə,
Duralım səhni-rəqabətdə böyük qeyrət ilə,
İstifadə edəlim əldəki hürriyyət ilə,

---

[372] İslam Ağayev. Göstərilən məqalə.
[373] Bax: Ə. Mirəhmədov. Məhəmməd Hadi. Bakı, Yazıçı, 1985. s. 82.
[374] C.Xəndan. Göstərilən əsəri, səh. 328.
[375] «Tərəqqi» qəz., 29 sentyabr 1909.

Arkadaşlar, irəli getməliyiz sürət ilə.

Yaşamaq istər isək, haizi-şan olmalıyız,
Şiri-darat ilə xurşidnişan olmalıyız.

Uç, dolan, seyr elə, gör sineyi-xilqətdə nə var!
Nə qədər hər şey hələ gəncineyi fitrətdə durar,
Bulduğun qətrə deyil, bulmadığın min əbhar
Axtar, ey nuri-əməl, axtaran axırda tapar!

Yaşamaq istər isək, haizi-şan olmalıyız!
Şiri-darat ilə xurşidnişan olmalıyız!

Hadinin bu şeri «Tərəqqi» qəzetinin 29 sentyabr 1909-cu il tarixli nömrəsində çap olunan kimi Sabir ona cavab satirası yazdı. «Yaşamaq istər isək sırf avam olmalıyız» (I c., 1962, s. 227-228) misrası ilə başlanan bu satira «Molla Nəsrəddin» jurnalının 11 oktyabr 1909-cu il tarixli nömrəsində çap olundu. Bu satiranın M. Hadinin yuxarıdakı şerinə cavab olması haqda «Hophopnamə»nin «İzah və şərhlər»ində heç bir qeyd yoxdur. Yalnız Səfər Xəndan həmin şerlərlə əlaqədar yazmışdır: «M. Hadi şerlərinin birində belə bir fikir irəli sürmüşdür ki, «Yaşamaq istər isək haizi şan olmalıyıq». Bundan istifadə edən xalq şairi «Yaşamaq istər isək sırf avam olmalıyıq» misrası ilə başlanan məşhur satiranı yazmışdır. Hadidəki dil qəlizliyi və mücərrəd romantik arzular əvəzinə Sabirdə konkretlik, dil sadəliyi və real-həyati arzular oxucuya daha tez çatır, o öz eyiblərini bir daha görməklə şairin tərs mənada dediyi kinayəli sözlər ətrafında düşünməli olur»[376].

Şerdən göründüyü kimi, Hadi «Əhrari-İranə» müraciətlə necə yaşamaq haqda öz düşüncələrini ifadə etmişdir. Onun bu romantik düşüncələri düz bir il əvvəl hissə-hissə dərc etdirdiyi yuxarıdakı «Maziyyi-müzlümə ircayi-nəzər. halımız münəvvər - istiqbalımız yenə parlaqdır» məqaləsində irəli sürdüyü fikirlərin bir növ poetik ifadəsidir. Fərq burasındadır ki, Hadi məqaləsində ümumən bəşər övladının təkamül nəticəsində əldə edəcəyi uğurları göstərdiyi halda, şerdə konkret olaraq «Əhrari-İranə» müraciətlə başqa xalqlardan onların geri qalma səbəblərini sanki izah etməklə, onlara vəziyyətdən çıxış yolu göstərir. Şairin fikrincə, iranlılar onun dediklərinə əməl etsələr, inqilabi mübarizə ilə əldə edə bilmədikləri səadətə çatarlar.

İran inqilabının ağır bir dövründə «Əhrari-İranə» yaşamağın qaydası haqda, vətənpərvəranə olsa da, sadəlövhcəsinə çağırış Sabirə gülməli gəlmiş və o, dostunun şerini təhzil etdiyi satirasını «Güləyən imzası ilə imzalamışdır.

[376] C. Xəndan. Göstərilən əsəri, səh. 330.

Maraqlıdır ki, Sabir bu imzanı ilk dəfə məhz «Yaşamaq istər isək sırf avam olmalıyız» satirasında işlətmişdir.

Hadinin şerində bir şey də diqqəti cəlb edir ki, hər bənddən sonra təkrar olunan nəqəratın sonunda sonrakı bəndlərdə nida işarəsi qoyulur. Deməк, şair təlqin etdiyi fikri bənddən-bəndə keçdikcə daha ehtirasla söyləyir.

Sabir dostunun bu coşqunluğunun əksinə olaraq xalqın psixologiyasında dərin kök salan mənəvi eybəcərlikləri soyuqqanlılıqla nəzərə çatdırıb, nəticə etibarilə kədərlə bildirir ki, bu fikir və əqidə ilə «Haizi-şan» olmaq mümkün deyil. İslam Şərqinin, o, cümlədən iranlıların bu cür avam olduğu bir şəraitdə hansı sürət, inkişaf və rəqabətdən danışmaq olar? Xalq şairi fikrini belə yekunlaşdırır:

Qoy olar kəşfi-bədaye eləsin sənət ilə,
Paraxod, ya vaqon icad eləsin zəhmət ilə,
Biz verib pul minərik, yol gedərik rahət ilə,
Nə münasib ki, rəqabət edək hər millət ilə?!

Bizə ağalıq edən əhlə qulam olmalıyız!
Yaşamaq istər isək sırf əvam olmalıyız!

Göründüyü kimi, nəticə etibarı ilə Sabirlə Hadinin azadlıq və tərəqqi haqda ümid və arzuları eyni nöqtədə birləşir. Lakin məqsədə aparan yollar, metod fərqlənir.

Bu iki mütəfəkkirin şəxsi dostluq və yaradıcılıq əlaqələri sonralar da davam etdi. Sabir 1910-cu ildə Bakıya işləməyə gələndə «Səda» idarəsində M. Hadi və Ə. Tofiq Əfəndizadə ilə birgə çalışdı. Az sonra Hadini İstanbula yola salmazdan əvvəl hər üçü xatirə şəkli çəkdirdi. Dostunun vəfat xəbərini eşidən Hadi bu xəbərdən təsirlənərək kədərlə «Sabirin yadigarına ithaf» şerini qələmə aldı...

Azərbaycan realist və inqilabi-demokratik ədəbiyyatı ilə romantizmin qarşılıqlı ideya-estetik və ədəbi-bədii təsir və bəhrələnmə şəraitində formalaşıb kamala çatdığını qeyd etmişdik. Həm realist, həm də romantik cərəyana mənsub olan ədib və şairlərin, ümumən ədəbi-ictimai fikrimizin qarşısında duran başlıca məqsəd isə xalqın tərəqqisi, istiqlalı və xoşbəxt istiqbalı olmuşdur ki, bu cəhətlər Şamaxı şair və yazıçılarının, ədəbi-ictimai fikrinin də əsas amalıdır. Odur ki, əsrin əvvəllərində yeni meyllərlə köhnə, vaxtı keçmiş düşüncə tərzi arasında həyatın müxtəlif sahəsində gedən mübarizənin xarakterik xüsusiyyətləri Şamaxıda baş verən hadisələrdə özünü qabarıq göstərirdi. İctimai fikirdə yaranan yenilik meyli, tədbirlərdə şəhərin ziyalı cavanlarının iştirakı görülən işlərin oyatdığı təsir və s. yanaşı, teatr tamaşaları, məktəb, kitabxana-qiraətxanaların təşkili, mətbuatın kütlə arasında yayılmasından irəli gələn təşviş və narahatlıqlarda ölməkdə olan «dünya»nın çırpıntıları, müqavimət, qəzəb və nifrətini göstərən hadisə və proseslər fikrimizə dayaqdır. Şamaxının Bakı ilə coğrafi, inzibati və mənəvi yaxınlığı bu

mühitin tarixi ədəbi ənənələrinin zamanın ruhuna uyğun notlar üzərində köklənməsinə təsir göstərməyə bilmirdi. Nəticədə Şamaxı ədəbi-ictimai mühitində üzə çıxan mədəni tədbirlərlə yanaşı, bədii materiallar özünün qabaqcıl ruhu ilə seçilir və xalqı tarixi taleyini öz əlinə almağa səfərbər edirdi.

Araşdırmalardan məlum olur ki, əsrin əvvəllərində ölkədə baş verən siyasi inqilab və iqtisadi sıçrayışlar milli ictimai şüurun formalaşmasını sürətləndirdi. Bu işdə «İki inqilab arasında»[377] Azərbaycanda çiçəklənən mətbuat və digər mədəni-kütləvi obyektlərlə yanaşı, Şamaxı ədəbi mühiti də fəal iştirak etdi. Milli şüurun inqilabi satirik ifadəsi, romantik vüsəti və parlaq istiqbal axtarışları da Azərbaycan ictimai fikrinə daha çox Şamaxı ədəbi mühitindən «cızmağa» başlayırdı.

---

[377] Bax: M. B. Məhəmmədzadə. İki inqilab arasında, Tiflis, 1917.

## III FƏSİL

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞAMAXI ƏDƏBİ MÜHİTİNİN SON MƏRHƏLƏSİ

İctimai-milli mənəvi aləmdə əmələ gələn tərəqqi yeni keyfiyyətlər qazandıqca xalqın istiqlal arzuları daha inamlı və davamlı olmağa başlayırdı. Bu, öz əksini ədəbi-bədii nümunələrdə olduğu kimi, həyati tədbirlərdə də tapırdı. Belə ki, qadın azadlığı və qadınların savadlanması uğrunda maarifçilərin uzun illər mübarizə aparması məlumdur. Əslində həmin problem maarifçilərin bir nömrəli həyati ideallarından idi. Çünki onlar qadın-ananın savadlı, elmli və ağıllı olmasını milli fərdlərin, millət balalarının layiqli vətəndaş kimi yetişməsi üçün əsas şərtlərdən sayırdılar. Odur ki, milli məktəblərlə bərabər qız məktəblərinin təşkilinə, bununla da qızların və qadınların savadlanıb və ya sənət öyrənib iqtisadi müstəqillik qazanmalarına, eyni zamanda onların siyasi və hüquqi azadlıqlarının təmin edilməsinə də xüsusi diqqət yetirirdilər. Bu cür cəhdlər hələ XIX əsrin sonlarında Şamaxıda, bir qədər başqa niyyətlə də olsa, edilmişdi.

Şamaxıda sənayeni inkişaf etdirmək istəyən sərvətdarlar toxuculuq və sənət məktəbi açaraq qadınların burada peşə, sənət öyrənməklə yüksək ixtisas qazanmalarına, bununla da, fəsildə danışdığımız kimi xeyli artıq qazanc götürməyə çalışmışdılar. Bu, özlüyündə istehsal münasibətlərinin cücərtiləri olsa da, qadınları hər halda mənəvi və hüquqi əsarətdən az da olsa, xilas edirdi.

Eyni zamanda həmin hərəkat dövrün tələbindən doğmaqla, cəmiyyət həyatının daha mütərəqqi bir mərhələyə çatmasına zəmin hazırlayır, kömək edirdi ki, maarifçiliyin ictimai-sosial əhəmiyyəti də onun məhz həmin xarakterində idi.

XX əsrin əvvəllərində qadınların savadlanması; məsələsi daha kəskin şəkildə qoyulmağa başlamış, bu sahədə az və bir qədər məhdud da olsa, əməli addımlar atılmış, Bakıda qız məktəbi təşkil olunmuşdu.

Qız məktəbi məsələsi bu dövrdə Şamaxıda ardıcıl şəkildə qoyulurdu. Nəhayət, həmin məktəbin yaradılması üçün şərait yarandısa da, ilk cəhd uğursuzluğa uğradı. Belə ki, Şamaxıda uzun müddət müəllim işləyən, böyük hörmət və nüfuza malik olan Şeyxzadə öz müəllimə qızının işlə təmin olunub dərs deməsi üçün burada (Şamaxıda) qız məktəbi açmağa hazırlaşmışdı. İş reallaşırdı ki, Şeyxzadə qızına Bakı məktəblərinin birində iş tapdığı üçün həmin tədbirin həyata keçirilməsinə heç bir kömək etmədi. Lakin, xoşbəxtlikdən Gövhər xanım Şamaxıda qız məktəbi açılmasına nail oldu. Həmin günlərdə Şamaxıda olan «xəstə şairimiz» - Sabir bu hadisəni sevinclə qarşılayaraq yazırdı:

Əsri-bistümdür, səhab altında qalmaz şəmsi elm
Bir zaman tələt açar, portöv saçar, zülmət qaçar:
Məktəbi-nisvan lüzumu hər kəsə məfhum olar,

Şeyxzadəm açmaz isə, xahərim Gövhər açar.[378]

Bu qitədə şairin illərdən bəri uğrunda mübarizə» apardığı arzulardan birinin həyata keçməyə başlamasından doğan sevinclə bərabər, belə bir inam da özünü göstərir ki, elm cövhərini həmişəlik örtükdə saxlamaq mümkün deyil, o nə vaxtsa öz nuru ilə parlayıb xalqın sabahını işıqlandıracaq. Şair həmin işə Şeyxzadələr qol qoymasalar da, Gövhərlərin qol-qanad verməsinə sevinir və buna həyati qapunauyğunlu kimi baxırdı.

Şamaxıda «Üxüvvət» məktəbi də açılmışdı.[379] Bu məktəbdə dünyəvi elmlərə xeyli yer verilirdi. Məktəbdə görülən işlər ictimaiyyətin diqqət mərkəzində idi. Onun ilk buraxılış imtahanları məktəbin simasını uğur və qüsurlarını özündə əks etdirirdi.[380] Burada Azərbaycan, fars, rus dilləri də tədris olunurdu.

Çox çəkmədən «Üxüvvət» məktəbi maddi və mənəvi böhran qarşısında qaldı. O, dindarların himayəsində idi[381] və burada ruhani kadrlara, köhnə fikirli və yeni tədris üsulları ilə ayaqlaşa bilməyən mollalara üstünlük verilmişdi. Bu da şagirdləri və onların valideynlərini qane etmədiyi üçün uşaqlar oradan uzaqlaşırdılar. Məktəbin düşdüyü maddi və mənəvi böhranı «Cəhalət, yaxud halımıza bir nəzər» adlı yazısında tənqid edən Səyyar Şirvani imzalı bir müəllif göstərirdi ki, bu halın səbəbi məktəbdə köhnə üsulla dərs keçilməsidir».[382] Onun yazdığına görə, hazırda «Üxüvvət» məktəbində «... üsuli-vaqif, cüzi də olsa, ancaq gənc bir müəllimdir. Bununla da iktifa etməz». Ona görə də məktəbdə olan yüzə yaxın uşağın uğurlu təlim-tərbiyə tapması bu şəraitdə mümkün deyildi. Təsadüfi deyil ki, az sonra «Üxüvvət» məktəbi qapandı.[383] A. Səhhət bu uğursuzluq barədə böyük təəssüflə danışıb qeyd edirdi ki, başbilənlərimiz «Üxüvvət»in qüsurlarını islah etməkdənsə, qapanmasına bais oldular.[384] Şair bu cür itkilərin gələcək acınacaqlı nəticəsindən narahat olur, dərin vətəndaşlıq yanğısı ilə onların qarşısının alınması üçün xalqı səfərbərliyə çağırırdı. Onun 1912-ci il yanvarın 16-da Bakıda namaz qılarkən qətlə yetirilən Hacı Molla Ruhulla Məhəmmədzadənin ölümünə bəslədiyn ağrılı münasibət də məhz bu cür düşüncələrin nəticəsi idi. Hacı Molla Ruhulla qabaqcıl ruhlu çıxışları və tədbirləri ilə məşhur idi. Onun xalqın maariflənməsi yolunda gördüyü işlər qabaqcıl ictimaiyyətin rəğbətini qazanmaqla bərabər qaragüruhçuların xoşuna gəlmirdi. Nəhayət, onlar bu işıqlı şəxsiyyətin aradan götürülməsinə nail oldular.

Hacı Molla Ruhullanın faciəli ölümü ilə əlaqədar Hacı İbrahim Qasımov, Əbdürrəhim bəy Haqverdiyev, Əli Razi Şamçızadə və b. mərhumun xalq

---

378 «Günəş» qəz.. 8 dekabr 1910.
379 Bax: «Səda» qəz., 15 oktyabr 1910.
380 Bax: Yenə orada, 5 iyul 1911.
381 Bax: Yenə orada, 15 oktyabr 1910.
382 Bax: "Yeni İrşad" qəzeti, 12 yanvar 1912; habelə bax: yenə orada, 7 fevral 1912.
383 "İqbal" qəz., 5 noyabr 1912.
384 Yenə orada, 16 noyabr 1912.

maarifinin və mədəniyyətinin inkişafı naminə gördüyü işlərə böyük qiymət verir, onun xatirəsinin əziz tutulmağa layiq olduğunu bildirir bu cür simaların həyatdan getməsini xalq üçün böyük itki hesab edirdilər.[385]

Hacı Molla Ruhullanın xidmətləri Abbas Səhhətə də məlum idi. Odur ki, onun cəhalət qurbanı olması şair tərəfindən dərin təəssüf və qəzəblə qarşılandı. O, öz hisslərini, bu hadisəyə münasibətin «Ehyayi-layəmut»[386] adlı yazısında belə ifadə etmiş di: «Axır qəzetlər həqiqi ruhani atamız mərhum sən nətməkan Hacı Molla Ruhulla axundun məzlumanə bi surət ilə şəhadət xəbərini aləmə bildirdi. İslam məmləkətlərinin mədəniyyət aləminin hər tərəfində üzərinə ovuc-ovuc, dəstə-dəstə güllər, çiçəklər yağdırıldı. O qiymətli, böyük alim öz vəzifeyi-müqəddəsəs yolunda çalışıb hal-həyatü məmatlarında (mizadül üləma əfzəlün mindemacael şühəda, tərcüməsi: ali qələminin mürəkkəbi şahid qanından qiymətlidir. A. B.) hədiyyəte şərifinin məcmue-fyuzatı və heykəl mərkuzi oldu. O vücudi-büzürküvar hali-həyatda bütün mövcudiyyətilə islamiyyət və insaniyyətin əmr oldu həqiqi cühəlayi-qövmə anlatmaqda sair ruhanilərimiz sərməşq verdiyi kibi hali-məmatda da şəhadətdə şanlı ölmək dərsi verdi».

Deməк, digər ruhanilərdən fərqli olaraq, Hacı Molla Ruhulla islam aləminin mədəniləşməsi və tərəqqisi yolunda çalışıb xalqı bu yola təşviq etdiyinə görə də cəhalətpərəst ruhanilər öz rəqiblərini aradan götürdərək rahatlıq tapmaq istəmişlər. Mərhumun xidmətləri barədə A. Səhhət fikrini belə davam etdirir: «Heç ola bilərmi ki, böylə bir müsibət nameyi-ziyayi-əbədinin müqabilində mənim kimi bir şairi-acizin həyəcanlı qəlbindən həsrət ahı ucalıb göz yaşları şəklində kipriklərindən və şeri-rəvan surətində qələmindən cərəyan etməsin?! Odur ki, mən də o ruhi-büləndü münəvvərin hüzuri-müqəddəsində məbədə əl bağlayaraq ərzi-təzim və fatiheyi-şərifi-tilavat edib fərzəndi rəşidi - Məhəmmədsadiq Axundov cənablarına və aileyi-möhtərəmlərinə atidəki şerlər ilə izhari-təziyyət edirəm:

...Nicatin millət üçün sən məsihi-sani idin,
Əsas - münrədəmbeyt həqqə bani idin.
Bühud-qövmün əlində bu gün şəhid oldun,
Səbat elib də vəzifəndə sən fərid oldun.
Sən anladın bu yazıq millətin məsaibini,
Tapıb əlacını zikr eylədin məayibini,
Təriqi-həqqi bizə göstərib dəlil oldun,
Tfu cəhalətə kim, qəddar ilə tətil oldun».

Göründüyü kimi, mərhumun ümumən tərəqqi və inkişaf yolunda xidmətlərini yüksək qiymətləndirən şair onun cəhalət qurbanı olmasını qəzəb və hiddətlə qarşılayır. O, haqqın gec-tez qələbə çalacağına və Molla Ruhulla kimi

385 "Yeni İrşad" qəz., 18, 20 yanvar 1912.
386 Orada, 7 fevral 1912.

şəhidlərin ruhlarının şad olacağına dərin inam ifadə edirdi.

* * *

Ölkənin hər yerində olduğu kimi, açıq fikirli adamlar Şamaxıda da təqib olunurdular. Məsələn, 1912-ci il oktyabrın 29-da gecə saat 10 radələrində Abbas Səhhətin evi axtarılaraq azəri türkcəsində bəzi kitablar müsadirə edilmiş,[387] 1913-cü ildə isə Gövhər xanımın açdığı qız məktəbi polis tərəfindən, qapanaraq 70-ə yaxın şagirdi bayırda qalmışdı.[388] Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar edilən xahiş müqabilində «Üxüvvət» məktəbinin açılmasına icazə verilsə də, H. Şirvani imzalı müəllifin yazdığı kimi, həmin dövrdə Şamaxıda milli təlim-tərbiyə işləri müşkül şəkil almışdı.[389]

Bütün bunlara baxmayaraq, Şamaxının vətənpərvər ziyalıları şəhərdə müxtəlif xarakterli mədəni kütləvi tədbirlər - teatr tamaşaları, müsamirələr və s. keçirməklə xalqın ictimai-siyasi şüurunun daha da inkişaf etməsinə, onların milli mənlik uğrunda mübarizəyə qalxmalarına təkan verməyə çalışırdılar. Bu işdə Bakıda fəaliyyət göstərən Ə. Mustafayev və b. ilə yanaşı Sidqi Ruhulla Zülfüqar Hacıbəyov və digər xadimlərin tez-tez Şamaxıda müxtəlif xarakterli mədəni-kütləvi tədbirlər keçirməyə kəlmələri lə öz uğurlu təsirini göstərirdi.

Əlbəttə, bu tərəqqi və intibah əlamətləri polisin təqib və həbsləri, qaragüruhun kəskin müqavimətləri ilə qarşılanır, lakin vətənpərvər ziyalılar tutduqları yoldan çəkinməyərək məqsədlərinə çatmaq üçün əllərinə düşən hər hansı fürsətdən səmərəli istifadə etməyə çalışırdılar.[390] Onlar eyni mülahizə ilə M. Ə. Sabirin əsərlərinin çapı və xatirəsinin əbədiləşdirilməsini də vacib bilmişdilər. Bu iş daha çox keçirilən mədəni-kütləvi tədbirlər zamanı əldə olunan vəsait hesabına görülürdü. Şairin qəbrinin üstünün götürülməsi,[391] ailəsinin qayğı ilə əhatə olunması[392] və s. tədbirlər mətbuatda işıqlandırılırdı. A. Səhhət həmin tədbirlərdə fəal iştirak etməklə, həm də sələflərinin bu yoldakı ənənələrini davam etdirirdi. Belə ki, hələ XIX əsrdə Seyid Əzim irsinə Şamaxı ədəbi mühitində necə qayğı bəsləndiyini «Kəşkül» səhifələrindən görmüşük. Bu qədirşünaslıq XX əsrdə Seyid Əzim irsi ilə bərabər, Sabir və başqa mütəfəkkirlərin əsərlərinin taleyinə münasibətdə də qabarıqlığı ilə görünməkdədir. Fikrimizcə Zülalinin bir beyti ətrafında S. M. Qənizadənin M. Hadi ilə açdığı ədəbi mübahisə də parlaq misal ola bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, Şamaxının tərəqqi-pərvər ziyalılarının 1906-cı ildə şəhərdə ilk müsəlman kitabxana-qiraətxanasının fəaliyyəti, qaragüruhun təzyiqi və tədbirlərinin nəticəsi olaraq, dayanmışdı. Uzun mübarizədən sonra

[387] "İqbal" qəzet, 5 noyabr 1912.
[388] Orada, 5 mart 1913.
[389] Yenə orada.
[390] Ətraflı bax: Əlməmməd Mustafayev. Xatirələri, hekayə və felyetonları, Bakı, 1985, səh. 63-68.
[391] "İqbal" qəz., 16 sentyabr 1912.
[392] Orada, 2 aprel 1913.

şəhərin ziyalı cavanları kitabxana-qiraətxananın fəaliyyətini canlandırmaq üçün Şamaxıda «Nicat» cəmiyyəti yaratdılar. Cəmiyyət, qarşısına qoyduğu bu başlıca məqsədlə yanaşı, teatr tamaşaları və digər mədəni-kütləvi tədbirlər də keçirirdi.

Əliməmməd Mustafayevin təşkilatçılığı ilə yaranan Şamaxı «Nicat» cəmiyyəti tərəqqiqqərvər ziyalılarımız, o cümlədən şamaxılı vətənpərvərlər tərəfindən böyük sevinclə qarşılandı. Məhəmməd Hadi bu münasibətlə yazdığı «Yadi-vətən. Şirvanda Nicat»[393] şerində keçmişdə mədəniyyət ocağı, şairlər yurdu kimi ad çıxarıb, son vaxtlar tənəzzül edən ana yurdun bu cür tədbirlər nəticəsində tezliklə yenidən parlayacağına ümid bəslədiyini bildirərək həmin tədbiri belə alqışlayırdı:

...Derlər açılır babi-füyuzatü nicatın,
Rövnəqlənəcəkmiş gibi cənnəti-həyatın!
Küskün vətənim, gözlərin aydınlanacaqdır,
Aydınlanacaq, parlayacaq, canlanacaqdır.

Şerdə Şamaxı şairlərindən Xaqani, Fələki, Bahar, Seyyid, Bixud və Sabirlə bərabər Zülalinin də adı çəkilir. Axırda M. Hadi «Şirvan şairlərindən Zülalinin bir şükufeyi-xəyalını qareə və qarelərin pişgahi-nigahına səriyorəm:» - qeydi ilə şairin aşağıdakı məşhur beytini vermişdi:

«Qürbətdə deyirdin ki, Zülali, vətənim var,
Qara sular yensin gözünə, bu vətən oldu?»

Şamaxıdakı mədəni yenilik, Hadinin şeri və onun sonunda Zülalidən verilən beyt Sultan Məcid Qənizadənin də diqqətindən yayınmamış və o, «Bəsirət» qəzetinə «İdarəyə məktub»[394] adlı bir yazı göndərmişdi,

Məktubda oxuyuruq,

«Mühərrir əfəndim!

«Bəsirət»in 11-ci nömrəsində möhtərəm Məhəmməd Hadi tərəfindən «Yadi-vətən» ünvanilə yazılmış parlaq əşarı oxudum. Köhnə Şirvanın keçmiş əzəmətin və həman əzəmət içrə şüəra və ədiblərin övhamda nəzərdən keçirdiyimdə keçmişdən fərəhlənib indiki halımızdan qəmləndim. Biz şirvanlılar üçün indiki ifadə qəramətində xah maddi və xah ərğ cəhətlərincə daha özgə bir sərvət qalmadığından ancaq ədiblərimizlə fəxr edə bilərik və bu xüsusda iftixara haqqımız vardır».

S. M. Qənizadə doğma yurdunun tarixən zəngin olan maddi və mənəvi sərvətinin hazırda, demək olar ki, məhv olmasından dərin təəssüf hissi keçirsə də, yenə bir şeylə - o sərvətdən Şirvan, daha dəqiq desək, Şamaxı şairlərinin bədii irsi

[393] "Bəsirət" qəz., 5 iyul 1914.
[394] "Bəsirət" qəz., 12 iyul 1914.

ilə fəxr edib təsəlli tapır. Ədib, şairlərimizin qiymətli əsərlərinin qədrini bilib onların qayğısına qalmasının bugünkü nəsil üçün mənəvi borc olduğunu da nəzərə çatdırır:

«...Mayeyi-fəxrimiz olan şüəramızın əsərin hifz etmək təklifi bizlərə borc olduğu təbiidir..» Ona görə də ədib «Yadi-vətən» əşarının intəhasında yazılmış Zülalinin kəlamı xüsusilə, (bir fərd olsa da) bəhs etmək istəyir ki, «ta qarelərimiz kəlamın mühəssənatı nədə olduğundan agah olsunlar».

Müəllif, Zülalinin beytinin təhrif olunması ilə həm onun bədii dəyərinin, həm də ifadə etdiyi tarixi hadisənin bugünkü nəslin təsəvvüründə və milli-tarixi yaddaşında itirilməsinin qarşısını almaq məqsədi ilə haqqında söhbət gedən beytin yaranma tarixini və ifadə etdiyi ideyanı açmağı lazım bilərək yazır: «Əvvəlcə ərz edirəm ki, Zülalinin fərdi «Bəsirət» sütununda yazıldığı surətdə şeriyyə məhəssənatından aridir və bəlkə şerin mənzərəsində şayani-diqqət bir şey deyil:

«Qürbətdə deyirdin ki, Zülali, vətənim var,
Qara sular yensin gözünə, bu, vətən oldu!...»

Bu fərddə əsla bir şeriyyət görünmədikdə Zülalinin şairlik qüvvəsinə nümunə ola bilməz. Halənki bu fərd əslində bir dürri-yetimdir ki, mühəssənət cəhətincə ağızlarda söyləndikdə xatirələrə səfa və ruhlara zinət verir.

«Qürbətdə deyirdin ki, Zülali, vətənim var,
Yensin gözünə qara su... Ağsu vətən oldu?!»

Beytin bu variantları arasındakı fərqlər onların fikir tutumu və ideya istiqamətinə təsir göstərir. Qənizadə də diqqəti həmin fərqlərə yönəldib fikrinə belə davam edir: «Bunda aşkardır ki, kəlamın hər bir məzağı ikinci misrasındadır. Yəni «qara su, Ağsu» sözlərindəndir ki, şairin qüvveyi-şeriyyəsi kiçikcə bir nəməkdan zərfində böyüdükcə bir hadisə üstündə deyildikdə Şirvanın nəinki həcvi, bəlkə mədhin isbat etmiş».

S. M. Qənizadə mülahizələrini daha da dərinləşdirib fikrini oxucuya bütün aydınlığı ilə çatdırmaq üçün həmin beytin yaranmasına səbəb olan tarixi hadisə haqda da məlumat verməyi lazım bilir. O həm Zülalinin beytinin meydana çıxması, həm də xalqımızın keşməkeşli tarixinin bir səhifəsi olan ibrətamiz hadisə haqda məlumat verir:

«Zülali səfərdə imiş. Haman əyyamda Nadir şah Şirvan mülkün təsərrüf edibən paytaxt hesab olunan Şamaxı şəhərini xaraba qoymaq qəsdilə əhalisin sürgün edərək iyirmi ağaclıqda vaqe olan Ağsu qəryəsi civarında tazə şəhər binasına məcbur edir. Ağsu mahalı filvaqe ab-hava cəhətincə Şamaxıya bərəks nəhayətcə nakүvar müvazedir. Zülalinin səfərdən qayıtması haman əyyama, yəni Şamaxı əhli Ağsu torpağında müvəqqəti vətən tutduğu günlərə təsadüf etdikdə,

fələkzadə şair sevdiyi köhnə vətən əldən gedib, tazə vətən Ağsuda vaqe olmasın müşahidə edir. (...) Qürbətdə çəkdiyi vətən həsrətilə imdiki məyuslut bir-birinə müqabil qoyduqda şükr əvəzinə zəhər içdiyindən zinhara gəlib ah-vay ilə nifrin edib deyir:

Yensin gözünə qara su... Ağsu vətən oldu?!»

Bu hadisədəki vətən sevgisindən doğan həsrətlə bərabər, onun milli-tarixi yaddaşımız üçün də əhəmiyyətini xüsusi qeyd edən ədib yazır: «Şair həmin fərd qüvvəsilə Nadirin bidadlığı qəramətində məzaq möcüzü göstəribdir. Fərdin zahiri şer mühəssənatından müvafiq batini ruh və xas qüvvəsi o qədər zorludur ki, bizləri indicə keçmişdəki bidadlıq zəhərilə kərrat cigərsuz edərsə də, məzaq şərbətilə sərxoş da edir. (...) Bu səbəbdəndir ki, yetim düşmüş bu fərdin bəhası əşar bazarında çox pürəyyar hesab olunur».

Deməк, Zülalinin bu beytinə Qənizadənin diqqətinin bir səbəbi onun klassik irsə, vətənin mənəvi sərvətinə qayğı və tədirşünaslığı ilə bağlıdırsa, digər səbəbi həmin beytin həm bədii gözəlliyi, həm də tarixi hadisəni özündə əks etdirməsi ilə əlaqədardır.

Xalqımızın keşməkeşli tarixinin müəyyən bir səhifəsinə işıq saçması ilə qiymətli olan bu məktub, qeyd etdiyimiz kimi, «söz mülkü» Şirvanda şerə, sənətə daima xüsusi diqqət və qayğı bəslədiyinə sübutdur. S. M. Qənizadənin beytə verdiyi izah öz elmi-bədii səviyyəsi ilə də seçilməklə, inandırıcıdır. «Ədəbiyyat və incəsənət» qəzetindəki «Müdrik insan, böyük yazıçı»[395] başlığı ilə dərc olunan məqalədə Zülali və haqqında bəhs olunan beytlə əlaqədar mülahizəyə bu cəhətdən yanaşdıqda onun həqiqətdən uzaq olduğu, beytin yaranma tarixini təhrif etdiyi meydana çıxır.

S. M Qənizadənin diqqətini Hadinin şeri və Zülalinin beyti ilə əlaqədar cəlb edən cəhətlərdən biri də Şamaxıda «Nicat» cəmiyyətinin yaradılması barədə verdiyi məlumatdır. Ədib məqaləsinin sonunda sevinclə yazırdı: «...Fövqdəki acizanə məktuba məcbur olduğumda fürsəta təşəkkür edib Şamaxıda «Nicat» şöbəsi açmağı təbrik edirəm. Qoca Şamaxının damarına tazə maarif qanı buraxılmaq zatən nicat nöyütüdür.

El ağzı ilə söylənən məsəldir: «Bu arxa su gəlib, ümid var, bir də gələ...» Əlli il tənəzzüldən sonra Şirvanın tərəqqisinə ümid çoxdur. Nicat yolunda guşiş edən cavanmərdlərə və sahibi-himmət ağalara səmimi qəlb ilə öz ixlasımı təqdim edirəm.

«Nicat» cəmiyyəti getdikcə öz fəaliyyətini genişləndirməyə başladı. Onun üzvlərinin sayı az vaxt içərisində 43-dən 130-a çatmış və ona şəhərin münasib yerində dörd otaqlı bir ev kirayələnmişdi.[396] Yuxarıda qeyd etmişdik ki, Şamaxıda qiraətxana qapanaraq əşyaları evlərə daşınmışdı. «Nicat» cəmiyyəti qiraətxananı yenidən canlandırmaq üçün onun əşyalarını evlərdən yığdı.[397]

---

[395] “Ədəbiyyat və incəsənət” qəz., 31 avqust 1990.
[396] “İqbal” qəz., 19 iyul 1914.
[397] Orada, 11 sentyabr 1914.

1914-cü il aprelin 26-da Şamaxının rus-müsəlman məktəbində təşkil olunmuş müsamirə[398] də şəhərin ictimai-mənəvi həyatında geniş əks-səda doğurmuş, camaatda milli duyğuların oyanmasına hiss olunacaq dərəcədə təsir göstərmişdi. Həmin münasibətlə A. Səhhət qələmə aldığı «Milli ideallar»[399] adlı məqaləsində yazırdı: «Dünya tarixinin səhifələrini araşdırsaq, biz türklər gibi mühitin təsiratına tabe bir qövm azdır, bəlkə yoxdur desəm, xəta etməmiş olaram zənnindəyəm. Daima şərəfi-millimizi, ədəbiyyatımızı, lisanımızı adəti-qövmiyyələrimizi unutmağa hazırıq. Ədiblərimiz, şairlərimiz ərəbi və farsi yazmağı özlərinə bir fəxr, bir şərəf sanmışlar. Hər tayfanı həmişə özlərinə tapıtdıran ədibləri, şairləri olduğu halda bizimkilər qeyrilərə uymağa» qeyriləri tərif və tövsif etməkə həvəsli olmuşlar. Üdəba və şüəramız türklüyə həmişə istəhqar ilə baxmışlar. Odur ki, milli rüsum və adətimiz unudulmuş və ortadan qaldırılmışdır. O cümlədən Novruz bayramı və onun əvvəl günlərində uşaqlar üçün bəzədilən xonça kifayətdir.

Hərçənd Novruz bayramı qədim iranlıların milli bayramlarıdırsa, lakin milli bir rəng aldığından yolka bəzəməkdənsə, xonça bəzəmək aladır».

Deməli, A. Səhhət millətin milli yaddaşının daim oyaq qalması və onun milli simasının müəyyənləşərək milli sabitliyə tapınması yolunda şair və ədiblərin boynuna böyük iş düşdüyünü dərk edir.

O, xalqı özünə tanıtdırmağa çalışan şəxsiyyətlərin işlərini bu cür şair və ədiblərə nümunə göstərərək yazır: «Şükr olsun ki, neçə əsrlərdən sonra bir daha azim Əlibəy Hüseynzadə cənabları çıxıb bu qəflətimizdən bizi agah etdi.

Bu qəbil bilmədigimiz şeyləri və millətimizin içində bu növ mübhəm və dağınıq adətləri xalqa tanıtdırıb müəyyən bir şəklə qoymaq böyük insanların işidir ki, böylə təşəbbüslərə ilham xudanı dinləsə gərəkdir».

A. Səhhət öz övladlarını milli ruhda tərbiyələndirmək üçün xristianların gördüyü işləri təqdir edib həmvətənlərinə onlardan nümunə götürməyi tövsiyə edirdi. O, Şamaxıda keçirilən bu tədbirin buraxdığı təsiri haqda deyirdi: «Xristianların tazə ili başlananda uşaqları üçün yolka bəzəməki kimi bizdə də xonça bəzəməki vardır. Lakin onu bu halacan təntənəli və dəbdəbəli bir surətə vəz» edib xalqa göstərməgə heç kəs mültəfit degildir. İştə cavan şairlərimizdən və qabil müəllimlərimizdən (...) Camobəy Cəbrayılbəyov cənabları axırıncı çərşənbə axşamı öz məktəbində birinci dəfə olaraq uşaqlar üçün böylə bir müsamirə düzəldib xonça bəzədi. Xristianlar yolka bəzədigi gibi Camo bəy cənabları da dürlü uşaq oyuncaqlarilə, rəngbərəng bayraqlar ilə, əlvan çiçəklər və şamlar ilə üç mərtəbə qayət zəngin, gözəl bir xonça bəzəmişdi. Məktəbin zalında rəngbərəng fanuslar ilə çırağban yapıb xonçaya dair şərqilər, Novruz bayramına münasib şirin nəğmələr və uşaqların dərs kitablarında oxuduqları türkcə, rusca əzbər hekayələr, şerlər oxutduqdan sonra milli musiqi nəğmələrimiz ilə hər kəsin qəlbində bir millət duyğusu oyandırdı. O cənabın bu təşəbbüsi-millətpərəstianəsinə dair ərzi-təşəkkürat edib sair ürəfamızdan da milli adətlərimizi həmişə nəzərdə tutmaqların təmənna edirəm. Zira ki, bunlarsız millət yaşamaz. Bunlar bizim ideallarımızdır».

Həmin tədbirdən A. Səhhətin bu qədər vəcdə kəlməsinin səbəbini daha dərindən duymaq üçün onun həmin günlərdə yazdığı «Bəradərim Firudinbəy

---

[398] "İqbal" qəz., 3 mart 1914.
[399] Orada, 4 mart 1914.

Köçərli cənablarına»[400] adlı mənzum məktubuna nəzər salmaq kifayətdir.

Mənzum məktubun əvvəlində nurdan əsər olmayan bu qəmli zülmətdə yazmaq üçün ürəkaçan bir şey tapmadığını qeyd edən şair öz vətənində qərib olduğunu söyləyir. Çünki dostları dünyanı tərk etmişdir, dərdini duyan bir adam tapılmır. Şairin «dövrəsini münaqiflər çulğalamışdır». Bu qaranlıq mühitdə qulağı həbs, gözləri dustaq, ağzı yumruqla möhürlənmiş vəziyyətdə susmağa məcbur olan Səhhət xalqının bu günü və istiqbalı barədə keçirdiyi həyəcanlı, dərdli günləri bu cür təsvir edir:

Yoxluq uçrumna el yüyurdükcə,
Çox bağırdım, axırda batdı səsim.
Bu müsibətli halı gördükcə,
Ağlamaqdan kəsildi lap nəfəsim.
Keçdi mazi, bitir əzab ilə hal.
Üzümə gülməyir həm istiqbal.

Demək, A. Səhhəti narahat edib onun vətəndaş qəlbini ağrıdan on böyük dərd millətin «yoxluq uçurumuna yuvarlanması» yəni öz simasını itirməyə başlaması və bu fəlakətin qarşısını almaqda özünün gücсüzlüyünü görməsidir. O, nə qədər haray çəkib ağlayaraq xalqı bu uçurumlu yoldan xilas etməyə çalışsa da, şairə etina etməkdənsə, həmvətənlərinin onu sıxışdırmalarından sarsılaraq işıqlı gələcəyə ümidini itirir. Bəs, bu uçurumlu yol nədən ibarətdir Şerin sonrakı bəndləri həmin suala cavab verir; şair məktəbdə işləyir, «beş-on dəcəl, gur (nadinc, tərs - A. B.) uşağın zahirən müəllimidir». Ona görə zahirən ki, onlar milli təəccüb hissindən və dərs oxumaq meylindən uzaqdırlar. Ən dəhşətlisi isə budur ki:

Türklük, islamlıq iddiası ilə
Öz dilin bilmək istəyən yoxdur.
Əcnəbi ruhunun havası ilə,
Vətənin, millətin sevən yoxdur.
Atalar verməyir heç əhəmiyyət,
Sönmüş onlarda hissi-milliyyət.

Şairin ən çox incidib qəlbini ağrıdan millətin get-gedə özünə yadlaşması, gənclərin yad təsir altına düşüb milli simasızlaşma, milli dil və ruhunu, xarakterini unutmaq prosesində olmasıdır. Buna valideynlər, atalar da əhəmiyyət vermirlər. Çünki, onların da çoxunda milli hiss sönmüşdür. Ona görə də şairin vətəndaş harayı onlara çatmır:

---

[400] «İqbal» qəz., 3 mart 1914; Abbas Səhhət. Əsərləri, iki clddə, II c., Bakı, 1975, səh. 168-169.

Burda dərs verdiyim beş-on ildir,
Deyirəm hər zaman ki: «Qeyrət edin,
Türk dili bir gözəl, şirin dildir,
Onu öyrənməyə həmiyyət edin».
Etməyir kimsəyə sözüm təsir,
Oluram gündə bir sayaq dilgir.

Bütün bu fəryad və şikayətlərin arxasında A. Səhhətin şair-vətəndaş narahatlığı, təəssübkeşliyi durur. Lakin onun təəssüf və ümidsizliyi mövcud təhlükənin aradan qaldırılması uğrunda ardıcıl və məqsədyönlü mübarizə ilə əvəz olunur. Belə ki, o, milli mənlik duyğusunun ölməyə doğru getməsini və bunun qarşısının alınması yollarını araşdıraraq onun aradan qaldırılması üçün konkret təkliflər verməklə kifayətlənməyib bu bəlaları törədən ictimai milli və mənəvi qüsurları da tənqid edir.

Onu da qeyd edək ki, hələ 1906-cı ildə həmin təhlükəni - milli varlığa etinasızlıq və xaricə aludəliklə milli simasızlaşmaya doğru təhlükəli meyli M. Ə. Sabir də müşahidə edib öz şair vətəndaş narahatlığını bildirərək, yuxarıda bəhs etdiyimiz kimi, öz əsərlərində xalqın tərəqqisi üçün onun milli zəmininin möhkəmliyinin təmininə və qorunub saxlanmasına xüsusi fikir verilməsini tələb edirdi. Onun fikrincə, tərəqqi yolunda milli özünəməxsusluq unudularaq, xaricə aludəçiliklə əldə olunan mədəniyyətlə millətin qeyrəti, irzü namusu mühafizə olmaq əvəzinə daha da itib batar. Alovlu şair və publisist belə bir fikri əsaslandırırdı ki, biz milli özünəməxsusluq «zəminində dəxi ulumi-dünyəviyyə və əlsinəyi-əcnəbiyyəni əxz etməliyiz ki, həm dünyəvi cəhətincə və həm dünyəvi cəhətincə və həm axirət cəhətincə tərəqqi edib, məsud və bəxtiyar olaq». Xarici millətlərdən o keyfiyyətlər əxz edilməlidir ki, onlar bizim milli müəyyənliyimizə rövnəq versin. Əxz olunan sifətlər özümüzün milli keyfiyyətlərimizə yaxın və uyğun olmalıdır. Milli müəyyənliyimizə yad cizgilər qətiyyətlə rədd edilməlidir. Bu cür inkişaf edən, möhkəm və sağlam özüllər üzərində dayanan mədəniyyət əbədi və orijinaldır. Milli-mənəvi keyfiyyətləri möhkəm özüllər üzərində dayanıb, təsir altına düşməyərək daim təkmilləşən xalq ölməzdir.

Bəzi üzdəniraq ziyalılarımız isə geniş kütləni başa salmaqdansa, xarici millətlərin adət-ənənələrinə kor-koranə təqlidi, yeri düşdü-düşmədi başqa dildə danışmağı, milli dil və ədəbiyyatımızın inkişaf və təbliği qayğısına qalmayıb, xarici dil və ədəbiyyatın təbliği və övladlarını mənsub olduğu xalqa yad ruhda tərbiyə etdirmələri ilə millətin milli mənlik ruhuna ciddi zərbə vururdular.

Bu cür zərərli meyllərə qarşı təkbaşına mübarizə apara bilməyib ümidsizliyə qapılan Səhhətə Şamaxıda keçirilən həmin Novruz bayramı təntənəsi xeyli ümid verib onun mübarizə əzmini artırdı. Bu hadisədən sonra Səhhət, qələm dostu Sabir kimi, milli-mənəvi simasızlaşmaya olan meyllərin tənqidi və və onun aradan qaldırılması yolları uğrunda mübarizəyə atıllı. Təsadüfi deyil ki, Səhhətin növbəti

məqaləsi - «Bizdə millət uyğusu olur»[401] məhz bu mövzuya - milli mənlik ruh və şüurunun qorunması və inkişaf etdirilməsi məsələsinə, həmin işə mane olan nöqsanların tənqidinə həsr edilmişdir.

Məqalədə millətin milli varlığının qorunub inkişaf etdirilməsində onun dil və ədəbiyyatının, adət-ənənəsinin oynadığı rol haqqında A. Səhhət yazır: «Lisan və ədəbiyyat hər millətin mayeyi-nicatıdır hər millətin yaşaması ədəbiyyatına bağlı olduğu bədihidir. Burnumuzun dibində qonşu millətlər buna nə qədər əhəmiyyət verdikləri gün kimi aşkardır. Milli məktəblərdə ana dili və milli ədəbiyyat oxutmaqda nə qədər fəaliyyət ilə çalışırlar; uşaqlıqdan balalarının ruhuna, qəlbinə, qanına millətçilik ruhu doldurmağa nə qədər səy edirlər. Nə qədər təəccüb ilə insanlarına, ədəblərinə, adətlərinə müraat edirlər. Bunların arasında bir nəfər də olsun öz dilinə, adətinə istixfaf ilə baxan yoxdur. Lakin biz əsla bunu müraat etməyirik, hər şeydə avropalılara təqliddən bütün varlığımızı unutmağa, hürriyyəti-milliyyətimizi qaib etməyə mailik».

C. Məmmədquluzadə, M. Ə. Sabir, Ə. Haqverdiyev, A. Şaiq və başqa klassiklərimiz kimi, A. Səhhət də belə hesab edirdi ki, vətən övladlarının tərbiyəsinin tamamilə yad ruhda aparılması onları, özləri də hiss etmədən, get-gedə mənsub olduqları xalqa yadlaşdırır və çox vaxt xalqla onlar arasındakı yadlıq səddini heç bir tədbirlə aradan qaldırmaq mümkün olmur. Beləliklə, biz hiss etmədən əslində öz vətəndaşlarımızı itirmiş oluruq. Bu cür ağrılı, faciəli itkilərlə əlaqədar məqalədə oxuyuruq: «Məsum balalarımızı hələ göz açmamış xarici mürəbbiələrə təslim edirik. Bədbəxt balalarımızı dünyanı bilməmişdən, tanımamışdan ruhunu zəhərləyib öldürürük. Doğrudur, övladımız zahirdə ölüb qəbrə getməyir, lakin həqiqətdən ruhu ölür, vücudu canlı bir məzar şəklini alır. Çünki insanın həqiqi ruhu dəyanət və millətdir: o zəhərləndikdən sonra, o, məhv olduqdan sonra yerdə nə qalır? Ruhsuz bir qəlb, cansız bir cəsəd! Biz bununla mədəniləşmirik, fəqət avropalılara bir nəfər də avropalı qazandırırıq, «biz» isə yox oluruq!».

Bütün bu milli mənəvi itkilər müqabilində dərin vətəndaşlıq yanğısı ilə Səhhət sanki nalə çəkir. Hövsələsi daralıb, səbri əndazədən çıxan vətənpərvər öz hisslərini cilovlaya bilmərrək deyir: «Canım! Bu qədər laqeydlik olarmı? Kim ki, iki kəlmə NET ilə YESTİ bildi, dırnaqlarını uzadıb, Başına altı şayılıq şapka keçirdib daha islamiyyəti, milliyyəti tanımır».

Beləələri nə öz dillərini bəyənir, nə də milli ədəbiyyat və adətlərini. Onlar rusca və başqa dillərdə danışmaqla özlərini mədəni, yüksək səviyyəyə malik ziyalı kimi göstərməyə can atırlar. Bu üzdəniraq «ziyalılar» milli ədəbiyyatla bərabər, milli dildə qəzet oxumağı da öz çürük mənliklərinə, Azərbaycan qəzetlərində məlumatın azlığı bəhanəsi ilə sığışdırmırlar. Səhhət üzünü belələrinə tutaraq yana-yana deyir:

[401] "Bəsirət" qəz., 10 may 1914.

« - A canım! Əlbəttə, sən oxumayanda, o oxumayanda daha qəzetçi o məlumatı əcinnələr üçün, pərilər üçün yazmayacaqdırki!.. Hər mətahın tərəqqisi müştərisinə bağlıdır. Müştəri olmayanda mətah nə ilə rəvac tapar? Hər şeydə Avropa adabına təqlid edirik. Bəs millətpərvərliyi, vətənpərəstliyi üçün olardan görüb götürməyirik?! Görəlim, sair qonşu millətlər də oxumuşları böylədirmi? Xeyr, erməni, gürcü ariflərinin kəndi ədəbiyyatlarına verdikləri rövnəqlərini görəndə əql heyran olur. Kəndi mətbuatların nə qədər atəşin həvəslə sürmə eləyib gözlərinə çəkirlər».

A. Səhhət milli ruhdan, milli hiss və duyğudan məhrum «inteligentlərin» Azərbaycan qəzetlərinin dilinin ağırlığını bəhanə edib özlərinə bəraət qazandırmaq cəhdlərini də əsassız sayaraq, onlara «Molla Nəsrəddin» jurnalını misal çəkib bu jurpalın dilini «kor da oxuya biləcəyi» qədər asan olduğunu söyləyir. Deməк, bəhanələr əsassızdır. Həmin nöqsanların əsl səbəbi ilə inteligentlərin milli mənlik ruhundan hələ uşaqkən məhrum edilmələridir. Bu, əslində milli faciədir.

Darülfünun qurtarmışlarımızın da milli zəmindən məhrum olaraq «evlərində əcnəbi mürəbbilər saxlamağı, adab və adət millini unutmağı insaniyyət saymalarını» görən A. Səhhət onları misgin bir varlıq kimi damğalayır. «Ümumən təqdir etdiyi sevgili Sabirimizin kitabının təbi üçün bir doktor, bir injiner, bir advokat»ın bir qəpik belə ianə etmədiyini milli mənəvi etinasızlıq və puçluq hesab edən şair-publisist onların milli dil və mənəviyyata etinasızlığa heç bir haqları olmadığını göstərir. «Axır bircə deyən yox, canım! Bu dünyanı biz lisanımız vasitəsilə öyrəndik. Dilimiz vasitəsilə tərbiyə tapdıq. Onu sevməmək olarmı? Bəs, nə səbəbə yabancı gözlə baxırıq? Ziyalılar, ariflər böylə olduğu halda bəs millətimiz nə ilə qaim olar? Onu istiqbala götürəcək, yaşadacaq kim qalır? Milləti kiçik görən insanlar yaşamağa deyil, ölməyə məhkumdurlar.

Heç yaşarmı böylə millət, heç olurmu paydar,
Millətin əfradı tədricən edirkən intihar?»

Deməli, millətin yaşaması, milli-mənəvi möhkəmliyi, əbədiliyi və istiqlalı birinci növbədə onun ziyalılarının, vətəndaşlarının öz xalqına, milli mənlik şüur və mənəviyyatına münasibətinin xarakterindən asılıdır. Nümayəndələri, ziyalıları tədricən mənən ölən, daha doğrusu, xalqına yadlaşan millət ölümə və məhvə, zülmə və sitəmə, məhrumiyyətlərə məhkumdur. Millətin yaşaması, möhkəmliyi, işıqlı, azad gələcəyi və bəşər cəmiyyətində şərəfli mövqe tutması onun fərd və ziyalılarının vətənpərvərliyindən, milli təəssübkeşliyindən, milli şüur və ləyaqətinin yüksəkliyindən və s. acılıdır. Bunu dərindən dərk etdiyi üçündür ki, Səhhət millətinin uğurlu taleyi və işıqlı gələcəyi naminə məktəblərimizdə ana dili və ədəbiyyatın tədricinə ayrılan vaxtın artırılmasını, ana dili müəllimlərinin peşə hazırlığı və əmək haqlarının yüksəldilməsini, milli musiqiyə, nəğməyə, xalq mahnı və rəqslərinin, milli adət-ənənələrin öyrədilməsinə xüsusi fikir verilməsini mühüm

vəzifə kimi irəli sürürdü. Həmin fikirlər onun yuxarıdakı haqqında bəhs etdiyimiz əsərlərindən əlavə «Dərs kitabları»,[402] «Edadi məktəblərində milli tərbiyə»,[403] «Məktəblərdə ana dili»,[404] «Sovqat oxucularına»,[405] «Musiqi və nəğmənin məktəblərdə əhəmiyyəti»,[406] «Millət məclisi»[407] və s. məqalələrində təbliğ olunur. Birinci dünya müharibəsi illərində qələmə alınan bu əsərlərdə xalq, həm də mədəni tərəqqiyə və azadlığa səslənilirdi.[408]

Əlbəttə, bütün bu çağırışlar da maarifçilik kimi öz mənbəyini həyatdan alırdı. İctimai və ideoloji mənbələri qovuşuq olduğu üçün, estetik kateqoriya, yaradıcılıq metodu və s. fərqlərə baxmayaraq, Azərbaycan maarifçi-realist ədəbiyyatı ilə romantik ədəbiyyat bir çox cəhətdən yaxınlaşır, birləşirdi. Bunu biz yuxarıda Sabir və Hadi arasında ideya-estetik müşavirədə də gördük.

Ümumiyyətlə, Azərbaycanda realizmlə romantizm ictimai-siyasi və ideya-estetik məsələlərin əsas istiqamətlərində qovuşuq şəkildə inkişaf etmişdir. Çünki dövrün həm realist, həm də romantik sənətkarları öz fəaliyyətlərinin bütün sahələrində zamanın tələblərinə cavab verməyə çalışırdılar. Belə ki, zülm və ətalətin tənqidi, humanizm və tərəqqiyə çağırış, milli qırğına qarşı etiraz və xalqlar dostluğunun təbliği ictimai bərabərsizliyə nifrət, inqilabi-demokratik fikir və hərəkata rəğbət və çağırış, vətənpərvərlik ideyası, maarif və mədəniyyətin tərəqqisi uğrunda əməli fəaliyyət qabaqcıl sənətkarların əsas maraq dairəsinə daxil idi. Onların ədəbi-estetik katoqoriyasının qovuşuqluğu da birləşdirirdi. Biri romantik-realist idisə, digəri realist-romantik idi. Həmin sənətkarları qovuşduran ideya-bədii amillərdən biri də onların maarifçirealist ədəbiyyatın çeşməsindən su içmələri, bir çox hallarda bu ədəbiyyatın dayaqlarına söykənmələri idi.

Realist Sabirlə romantik Səhhətin ictimai-siyasi və ədəbi-estetik baxışları yuxarıda saydığımız nöqtələrdə birləşirdi. Hər iki sənətkarı şəxsi dostluq əlaqələri də bir-birinə bağlayırdı. Sabirlə Səhhət məslək dostu kimi ömürlərinin sonunadək bir-birinə sadiq qalmışdır; Səhhət öz şair dostunun vəsiyyətlərini, yarımçıq qalmış arzularını (kitabın nəşri və s.) həyata keçirmək üçün qarşıya çıxan bütün çətinliklərə mərdliklə sinə gərmişdir. Sonrakı illərdə də Səhhətin Sabirin ailəsinə göstərdiyi qayğı və diqqətlə əlaqədar faktlar vardır.[409]

Sabirlə Səhhət və Hadini birləşdirən cəhətlər onların maarifçi baxışları ilə daha çox bağlıdır. Maarifçi dünyagörüşünə görə isə millətə xidmət göstərməyin əsas yolu onun maarifləndirilməsidir. Səhhət Nasehə mənzum məktubunda bu fikri

---

402 "Yeni İqlab" qəz., 18 iyun 1915.
403 "Açıq söz" qəz., 28 dekabr 1915; A. Səhhət. Əsərləri II c., Bakı, 1976, səh. 37-40.
404 Yenə orada, 22 fevral 1916; A. Səhhət. Əsərləri II c., Bakı, 1976, səh. 41-43.
405 "Sovqat" qəz., 26, 30 sentyabr 1916.
406 Yenə orada, 4 noyabr 1916; A. Səhhət. Əsərləri II c., Bakı, 1976, səh. 46-49.
407 Yenə orada, 4 fevral 1917; A. Səhhət. Əsərləri II c., Bakı, 1976, səh. 55-57.
408 Bax: İramin İsayev. Abbas Səhhətin təlim və tərbiyə haqqında fikirləri. Pedoqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 1974, səh. 9.
409

ifadə edərək yazırdı:

Fikrimiz tərbiyeyi-millətdir,
Qəsdimiz millətə bir xidaətdir.

Deməli, XX əsr Azərbaycan ədəbiyyatının həm realist, həm də romantik qolunun ideya bağlarının əsasında maarifçilik dünyagörüşü də dururdu. Bunu dövr, mühit tələb edirdi. Odur ki, bu dövr Azərbaycan ədəbiyyatının simalarının əksəriyyəti, o cümlədən Sabirlə Səhhət ədəbi və ictimai fəaliyyətlərində maarifçi kimi çalışırdılar.

Təsadüfi deyil ki, elmi ədəbiyyatda hər iki şairin həm əməli fəaliyyətlərində, həm də bədii yaradıcılıqlarında maarifçilik xəttinin, məktəbdarlığın aparıcı istiqamətlərdən olması diqqət mərkəzinə çəkilmişdir.

Sabir tənqidi realist ədəbiyyatın görkəmli nümayəndəsi, inqilabi satiranın banisi kimi daha çox ictimai həyatın eybəcərliklərini diqqət mərkəzində saxlayıb, Səhhət mütərəqqi romantizmin tanınmış nümayəndəsi kimi təbiətlə bağlı olsa da, hər iki sənətkarın yaradıcılığı xalqın, millətin tərəqqisi, vətənin laləzara çevrilməsi uğrunda çalışan vətəndaş - şair yanğısının qabarıq təzahürü kimi diqqəti cəlb edir. Lakin bu yanğı Sabirdə ictimai həyatın eybəcərliklərinin tənqid hədəfinin mərkəzinə çəkilməsi şəklində meydana çıxırsa, Səhhət yaradıcılığında, daha çox romantik planda və təbiət təsvirlərinin fonunda əks olunur. Onu da qeyd edək ki, realist ədəbiyyatın, mollanəsrəddinçilərin və bilavasitə Sabirin təsiri ilə Səhhət yaradıcılığında sonralar satiraya meyl qüvvətlənmiş və şairin «Kəlniyyat» satiraları» meydana çıxmışdır.

Maraqlıdır ki, A. Səhhət yaradıcılığında satira 1912-ci ildən sürəkli inkişafa başlamışdır. Bu, bizcə, onun öz dostu Sabirin əsərlərini çapa hazırlaması ilə çox bağlıdır.

«Hophopnamə»nin birinci çapı 1912-ci ilin sonunda çıxsa da, Səhhət mərhum məslək dostunun əsərlərini, təbii ki, ən geci həmin ilin əvvəlindən küll halında yenidən və diqqətlə oxuyub çapa hazırlayır. Bu zaman Sabir satirasının ictimai kəsəri və poetik gücü, yəqin ki, Səhhətə daha çox təsir etmiş, nəticədə o, Sabiranə şerlər qələmə almağa başlamışdır. Əlbəttə, burada ictimai eybəcərliklərin, ümumən mühitin təsirini inkar etmək fikrindən uzağıq.

Qeyd edək ki, Sabir satirasının təsiri altına məhz bu şəkildə düşmək təkcə Səhhətə aid məsələ deyil; C. Cabbarlı da satiraya təxminən Səhhətin başladığı şəraitdə keçmişdir. Məlumdur ki, 1915-ci ildə «Qurtuluş» jurnalı müsabiqə elan edərək bildirmişdi ki, «Qürub çağı bir yetimin hali-məhzubanəsini... təsvir edə biləcək şəxs idarəmiz tərəfindən bir illik abunəmizlə Sabirin «Hophopnamə»sini alacaqdır».[410]

[410] "Qurtuluş" jurnalı, 1915, № 2.

Gənc Cabbarlı bu müsabiqədə iştirak edib birincilik qazanmışdı Şübhəsiz, o, Sabirin «Hophopnamə»sini (yəqin ki, 1914-cü il çapını) «Qurtuluş» jurnalı idarəsindən mükafat kimi almışdı. Maraqlıdır ki, Cabbarlıya müsabiqədə birincilik qazandırmış şer «Qurtuluş»da 1915-ci ilin fevralında, onun ilk satirik, özü da Sabiranə şeri olan «Əl götür» isə həmin ilin iyununda «Babayi-Əmir»də çıxmışdır.[411]

A. Səhhət yaradıcılığında meydana çıxan satirik qol ilk çağlarda həm ictimai dəyərinə, həm də bədii keyfiyyətinə görə zəif olsa da, getdikcə ruhən Sabir satirasına yaxınlaşır.

Özünün ideya-nəzəri görüşündə Sabir poeziyasına, ümumiyyətlə realist ədəbiyyata yüksək qiymət verən Səhhət yaradıcılığında üzə çıxan bu yeni keyfiyyət təkcə iki məsləkdaşın əməli şəkildə bağlılığını bildirməklə qalmayıb, ümumiyyətlə, XX əsrin əvvəlləri Azərbaycan realist ədəbiyyatı ilə romantizmin vəhdətini göstərmək və demokratik ictimai fikrin başında duran mollanəsrəddinçilərin ədəbi-ictimai mühitdəki nüfuzunu və təsir gücünü əks etdirmək baxımından da əhəmiyyətlidir. Bununla belə, realistlərə, o cümlədən mollanəsrəddinçilərə romantiklərin göstərdikləri təsiri də unutmaq olmaz. Təkcə A. Şaiq, A. Səhhət və Sabirin ayrılıqda yazdıqları «Yad et!» şerlərinin yaranma tarixini xatırlamaq və Sabirin həmin əsərində romantik xəttin aparıcılığını etiraf etmək kifayətdir. Buraya Sabirin Ə. Səhhəti, N. Kamal, M. Hadi və b. romantik sənətkarlara yazdığı cavab satiralarındakı romantik ruhun qabarıqlığını və Sabirin romantik-realistliyini də əlavə etsək, fikrimizə şübhə yeri qalmaz.

Digər tərəfdən hər iki şairin yaradıcılığında gənc nəslin tərbiyəsinə həsr edilmiş bir sıra əsər vardır. Bu şerlər, ayrı-ayrı müəlliflərin qələminə məxsus olsa da, mövzu və ideyaca çox yaxındır. Məsələn, Sabir «Ağacların bəhsi», «Uşaq və pul», «hörümçək və ipək qurdu» və s. əsərləri qələmə aldığı kimi, Səhhət də «Güllərin bəhsi», «Oğru və anası», «Qarışqa və milçək» və s. şerlər yazmışdır. Adlarından da görünür ki, bu əsərlərin mövzusu və ideyası bir-birinə çox yaxındır. Lakin ideyanın bədii ifadəsinə gəldikdə birincidə realist, ikincidə romantik metod aparıcıdır. Burada sənətkar fərdiliyi və sənətkarın məxsus olduğu ədəbi metod baxımından fərq olsa da, ictimai ideya və mövzu vəhdəti mövcuddur. Məsələn, Sabirin «Şirvan» satirasında tərəqqi və inkişafdan uzaq bir ictimai mühit ifşa hədəfinə çevrildiyi kimi, həmin mövzu Səhhətin «Ölü şəhər» əsərində də bədii tədqiqat obyekti seçilmişdir. Hər iki müəllif Şamaxının məktəb, kitabxana-qiraətxana, klub və b. mədəni-maarif ocaqlarından xali olduğu halda, meyxana, çayçı, çıxırçı dükanları ilə doluluğunu, əhalinin böyük hissəsinin ətalət və səfalət içində yaşadığını ürək ağrısı ilə təsvir etmişdir. Lakin «Şirvan» şerində varlıq realist lövhə və cizgilərla satirik ifşa hədəfinə çevrildiyi və şair-vətəndaş kədəri bu qəhqəhələr fonunda qabarıqlığı ilə canlandığı halda, «Ölü şəhər»də obyektiv

[411] Orada, 1915, №3.

aəmin tənqidi əsasən müəllif mənəviyyatını bədii taqdimetmədən doğur; özü də bu əsərdə müəllif «mən»i öldürücü qəhqəhələr əvəzinə kədərli, məntiqi planda görünür.

Səhhətin tərcümələri də onu həm romantik, həm də maarifçi baxışlı sənətkar kimi səciyyələndirir.

Azərbaycan ədəbiyyatında tərcümə başqa xalqların ədəbiyyatından qabaqcıl ruhlu, ictimai məzmunlu və xalqımızın sosial-mənəvi problemləri ilə bu və ya başqa dərəcədə səsləşən əsərlərin çevrilməsi diqqət nərkəzində olmuşdur. Bununla belə bədii tərcümə işini müstəqil yaradıcılıq kimi qəbul edib onu sistemli və elmi şəkildə ədəbi ictimaiyyətə çatdıran Abbas Səhhətdir.

Doğrudur, Avropa ədəbiyyatından tərcümə nümunələrinə hələ «Kəşkül» jurnalı səhifələrində, özü də əsasən S. Ünsizadənin səmərəli fəaliyyətinin nəticəsi kimi rast gəlirik. S. Ünsizadə etdiyi tərcümələrlə yanaşı, ədəbi ictimaiyyətin diqqətini Qərb ədəbiyyatına cəlb etmək üçün məqalələr də yazırdı.[412] Bu yazılarda Qərb ədəbiyyatı Şərqə nümunə göstərilirdi. Bununla belə, şərq ənənələri və ona baqlılıq ədəbi-ictimai fikrimizdə öz hökmranlığını saxlamaqda idi. Fikrimizə S. Ə. Şirvani, S. Ünsizadə, M. Hadi, M. Ə. Sabir və başqalarının Şərq ədəbiyyatı nümunələrindən etdikləri tərcümələr dayaqdır.

Avropa birgə yaşayış qaydası dünyaya hakim kəsildikcə Qərb ədəbiyyatına şərqin maraq və diqqəti artmağa başladı. Bu ehtiyacı Azərbaycan ictimai-ədəbi fikrinin tərkib hissəsi olan Şamaxı ədibləri də dərk edirdilər. Həmin ehtiyacın ödənməsi işində A. Səhhət daha fəal idi. O, bu sahədə özündən əvvəl mövcud olan ənənələri inkişaf etdirərək tərcüməçilik ədəbi məktəbi yaratdı. Bu məktəbin «manifesti» şairin «Məğrib günəşləri» kitabında və onun müqəddiməsində özünün elmi və təcrübi əksini tapmışdır.

A. Səhhət xalqın ictimai-milli şüurunun oyanması və formalaşmasında digər xalqların əldə etdiyi nailiyyətlərdən, yəni bəşər təfəkkürü xəzinəsindən şüurlu şəkildə bəhrələnmənin də xüsusi rol oynadığını dərk edərək fikrini əsaslandırmaq üçün avropalıları milli oxucuya nümunə göstərib yazırdı:

«Qərbin tarixi-ədəbiyyatı bizə göstərir ki, onların ədəbiyyatda bu dərəceyi-kamalə yetişməsinin səbəbi qədim Roma və Yunan ədəbiyyatını öz dillərinə; tərcümə etmələri olmuşdur.

Avropalıların öz ədəbiyyatı o qədər vase olluğu halda yenə ərəb və farsın məşhur ədib və şairlərinin əsərlərini öz dillərinə təmamən tərcümə etmişlər. Belə olan surətdə biz nə üçün avropalıların əsərlərini öz lisanlarımıza tərcümə etməyək? Bilmədiyimizi nə üçün öyrənməyək?»[413]

A. Səhhət ədəbiyyatımızın daha da rövnəqlənməsi üçün inkişaf etmiş xalqların təcrübəsindən öyrənməyimizi vacib hesab edib, bizdə bu sahənin indiyədək arxa planda olduğundan, tərcümə və yaradıcılıq işinə birtərəfli

---

[412] Ətraflı bax: A.Zeynalov. “Kəşkül”də bədii ədəbiyyat, Bakı, Elm, 1978, səh. 90, 94-95, 96-101 və s.
[413] A. Səhhət. Əsərləri iki cilddə, II c., Bakı, 1976, səh. 34, 35.

yanaşılmasının bədii-estetik fikrimizə vurduğu ziyandan təəssüflənərək kədərlə bildirirdi ki: «...Bizlər isək, hər şeydə olduğumuz kimi, ədəbiyyatımızda da həmin qüruni-vüsətayə yavuq bir hala qalmışıq. Bunun yeganə səbəbi odur ki, Avropa lisanlarına aşina olanlarımız türkcə (Azərbaycan türk dilində - A. B.) bilməyə tənəzzül etməmişlər və həmçinin türkcə kamil bilən şairlərimiz əcnəbi lisanlarını öyrənməyə etina etməmişlər. Odur ki, haman məhdud bir dairədən kənara çıxa bilməmişik».[414] Səhhət həmin etinasızlığın səbəbini ədib və şairlərimizin bir qisminin öz soydaşlarının dilində deyil, başqa millətin dilində yazıb-yaratmasında görürdüsə, digər səbəbini başqa bir qrup yazıçılarımızın heç bir xarici dil bilmədiyi üçün qonşu xalqların belə ədəbi-bədii nailiyyətlərindən bixəbər qalmalarında axtarırdı. O, ədəbiyyatımızdakı bu boşluğu doldurmaq, xalqımızın milli-mədəni şüur səviyyəsinin daha yüksək səviyyəyə çatmasına nail olmaq üçün tərcüməyə əhəmiyyət verməklə yanaşı, xarici millətlərdən nəyi gəldi kor-koranə öyrənməyə çalışmağın zərərli olduğunu da nəzərə çatdırıb, bildirirdi ki, yalnız möhkəm milli zəminə əsaslanmaqla xalqımızın milli xarakterinə uyğun gələn cəhətləri və əsərləri təbliğ və tərcümə etmək lazımdır. Əks təqdirdə öz milli mənliyimizdən də məhrum olar, tərəqqi etmək əvəzinə simasızlaşarıq.

«Elm heç bir millətin malı deyildir! Hər kəs yiyələnmək istəsə, onundur»[415] - prinsipini xalqların milli inkişafı, mənəvi tərəqqisi üçün əsas meyarlardan hesab edən vətəndaş şair bu işdə tərcümənin oynadığı rol haqda yazırdı ki, qoy dünya xalqlarının ədəbiyyatlarından edilən uğurlu tərcümələrdən bəhrələnməklə «xarici lisanlarına aşina olmayan şairlərimiz onlara nəzirə yazmaqla yeni-yeni, gözəl-gözəl əsərlər meydana gətirsin. Bununla bizim də ədəbiyyatımız dövlətlənsin və tərəqqi etsin».[416]

Səhhət ədib və şairlər qarşısında, ədəbi-estetik fikrimizin daha da inkişafı naminə, irəli sürdüyü vəzifələri ilk öncə özü peşəkarlıqla həyata keçirmişdir. Onun rus və Qərbi Avropa ədəbiyyatından tərcümə üçün seçib dilimizə çevirdiyi əsərlər mövzu və ideya baxımından dövrün ictimai-tarixi proseslərinə və xalqımızın qarşısında duran sosial-siyasi məsələlərə o qədər yaxın, milli-etik düşüncə tərzimizə elə doğmadır ki, sanki onlar tərcümə deyil, Səhhətin - Azərbaycan şairinin orijinal əsərləridir.

Tərcümələrin bədii səviyyəsinə gəldikdə isə akad. M. Arifin sözlərinə nəzər salmağı lazım bilirik: «Bu şairin (A. Səhhətin - A. B.) tərcümələrini diqqətlə gözdən keçirdikdə görürük ki, o qətiyyən mexaniki tərcümə etmir, yəni yalnız sözlərin tərcüməsilə məşğul olmur. Bu və ya başqa sözün qarşılığını tapıb yan-yana düzməklə kifayətlənmir. O, əsərin ruhunu, əsas fikrini ideyanı alır, onu düzgün və orijinalına müvafiq bədii bir qüvvətlə ifadə etməyə çalışır. Buna görə də onun tərcümələrində bəzən bu və ya başqa bir söz yerində olmaya bilər, bir söz artıq və

---

[414] A. Səhhət. Əsərləri iki cilddə, II c., Bakı, 1976, səh. 34.
[415] Orada, səh. 35.
[416] A. Səhhət. Əsərləri iki cilddə, II cild, Bakı, 1976, səh. 35.

ya əskik ola bilər, amma fikir və ideyaya zərər toxunmaz. Abbas Səhhətin tərcümələri bədin tərcümədir».

Bütün bunlar göstərir ki, Şamaxı ədəbi mühiti özündə dövrün ədəbi cərəyanlarının, bədii-estetik prinsiplərinin, ictimai-milli və mənəvi problemlərinin əsas cəhətləri ilə yanaşı, ədəbiyyatımızın inkişaf problemlərinə dair həlli vacib olan ədəbi-nəzəri prinsipləri də kifayət qədər təcəssüm etdirə bilmişdir.

* * *

Şamaxı ədəbi mühitinin yetirmələrn dövrün ictimai-siyasi hadisələrinə fəal münasibət göstərərək onları ümumtürk mənafeyindən və insanpərvərlik baxımından həll etməyə çalışırdılar. Bu cəhətdən Birinci Dünya müharibəsi zamanı rus ordusuna əsir düşən türk əsgərlərinin saxlanma şəraiti və onların vəziyyətlərinin insanpərvərlik baxımından yaxşılaşdırılması məsələlərinə həsr edilmiş yazıları içərisində S. M. Qənizadənin dərin vətəndaşlıq yanğısı və insanlıq duyğusu ilə aşılanmış «Yeni əsir haqqında» məqaləsi maraq doğurur. Bu yazıda «Nargin» adasında saxlanan türk əsirlərinin vəziyyətinin yungülləşdirilməsi üçün lazım gələn konkret tədbirlərdən bəhs olunur.[417]

Birinci Dünya müharibəsinin axırlarında Rusiyada hakimiyyət bolşeviklərin əlinə keçdi. Çarizmin devrilməsindən sevinən zəhmətkeşlər azadlıq və istiqlaliyyət nəşəsindən vəcdə gəlmişdilər. Bu hal çarizmin müstəmləkə zülmünə məruz qalan xalqlar arasında xüsusilə qabarıq idi. Çünki onlar ikiqat zülm və əsarətdən azad olmuşdular. Təbii ki, xalqın milli özünüdərk prosesinin milli mənlik şüurunun formalaşdırılması istiqamətində inkişafında xüsusi rolu olan Şamaxı ictimai və ədəbi fikri bütün bu proseslərdən kənarda qala bilməzdi.

A. Səhhətin o zaman «Açıq söz» qəzetində dərc etdirdiyi müxbir məktublarından məlum olur ki, «Böyük Rusiya inqilabını» Şamaxı əhli «qəribə haləti-ruhiyyələr»lə qarşılayıb. Bu xəbərdən qaragüruh və hökumət nümayəndələrinin bəzisi mütəəssir olsa da, əhalinin əksər hissəsi onu böyük çoşqunluqla qarşılayıb, şadyanalıq məclis və yığıncaqları keçirir. Bu xəbərin şəhərdə doğurduğu əhvali-ruhiyyəni Səhhət belə təsvir edir:

«Böyük Rusiyanın möcüznüma inqilab xəbəri şəhərimizə yetişdikdə ümumi əhalidə qəribə haləti-ruhiyyələr törətdi. Bəzi kimsələr böht və heyrət aləminə dalmış, inanmaq istəmədi. Bəzi kəsrəti-fərəh və sürurundan çıldırmaq dərəcəsinə gəldi. Qaragüruh firqəsinə mənsub bəzi hökumət məmurları çaşıb iztiraba düşdülər. Sonra Bakı və Tiflis qlavalarından peydərpey gələn teleqraflar vüquatın nə yolda cərəyan etdiyini ümuma elan etdi. Müztərib könüllər təskin tapdı. İnanmayanlar inandılar. İşin belə olmasını sevməyənlər yasa batdılar»[418] hətta camaatın hürriyyətpərvər çıxışlarına və şadlığına dözə bilməyən özü də mürtəce əməlləri ilə məşhur olan Şamaxı şəhər naçalniki Jupranski özündən gedib

---

[417] Bax: Ağarəfi Zeynalzadə. Çar Rusiyası, türk əsirləri və Azərbaycan ziyalıları. «Yeni Müsavat» qəz., 4 fevral 1993.

[418] A. Səhhət. Əsərləri. İki cilddə, II c., Bakı, 1976, səh. 61.

yıxılır.[419]

Xalqın azadlıq eşq və sevincindən vəcdə gələn Səhhət bu günün uğrunda ədib və şairlərimizin illərdən bəri inadla mübarizə aparıb, çox məhrumiyyətlərə dözdükləri barədə yazırdı: «Hər kəsin ağzından elə söz, elə kəlmələr eşidilir ki, beş gün bundan irəli o sözlər onun qanının bahasıydı.

Bunun səbəbi nədir? Hürriyyət!

Ey böyük şairlərin, ədiblərin pərəstideyi-ruhu! Ey frişteyi-asimani! Günlər, aylar deyil, ey illər ilə həsrəti-cəmalı ilə qara günlərdə qalan millətin işıqlı sitarəsi! Ey hürriyyəti mələki!

Ey tari-zülfünə dili-divanələr fəda
Canlar deyil, qudumuna cananələr fəda,
Mən görmədən cəmalını qurban olmuşam,
Şəmi görüb olursa da pərvanələr fəda.

Sən nə fitneyi-cahanaşubsan! Sən nə neməti-səmavi, nə feyzi-sübhanisən!»[420]

Şəhərin mötəbər xadimləri və ziyalıları əhali arasında təbliğat və izahat işi aparmaqla bərabər, yeni idarəçilik aparatı yaratmağa cəhd edir. Lakin bir tərəfdən Şamaxıda yaşayan ermənilərin, digər tərəfdən də burada qulluqda olan əsgərlərin iddiaları, həm də əhalinin sosial vəziyyətinin son dərəcə aşağı olması və digər səbəblər şəhərdə və ətraf kəndlərdə sabitlik yaranmasına mane olur.[421]

Bununla belə, şəhər ziyalıları əhalini savadlandırmaq üçün «türkcə darülmüəllimin» açırlar. Burada M. Mahmudbəyov, Ə. Əminzadə və A. Səhhət işləyir. Eyni zamanda teatr tamaşaları təşkil olunur, Köhnəpərəstlər bu cür tədbirlərin qarşısını müxtəlif vasitə və üsullarla almağa çalışsalar da, müvəffəq olmurlar.[422]

Məlumdur ki, bu dövrdə Bakıda hakimiyyəti fitnəkar Şuamyanın başçılıq etdiyi komissarlar ələ almışdılar. Şamaxı da bu quberniyaya daxil idi. Yerli əhali şəhərdə əmin-amanlıq yaratmağın ən düzgün yolunu təbliğat üçün yerlərə gedən inqilabçılara bu cür izah etmişdi: «Əfəndilər, od ilə plov olmaz, yağ ilə düyü gərək. Əmnü asayiş istəyirsiniz isə ac camaatın dərdinə qalınız; buğda, arpa, un istəyirik, əqəllən darı və ya qarğıdalı unu veriniz də xalqın qarnını doyurunuz. Elə kəndlər var ki, altı aydan bəri bir girvənkə un, yaxud bir çetver qənd verilməyibdir. Xalq aclıqdan özünü oda-közə vurur; bacarıqlı bacarıqsızı çapıb talayır. Bunun üçün ciddi tədbirlər, lazımi sərəncamlar etməlidir. Yoxsa, təbiidir ki, ac qılınca çapar. Quru sözlər ilə heç zaman əmnü asayiş təmin olunmaz... Təbiidir ki, oğurluq,

[419] Orada, səh. 63.
[420] A. Səhhət. Əsərləri. İki cilddə, II c. Bakı, 1976, səh. 62.
[421] Orada, səh. 67-68.
[422] Yenə orada, səh. 66-67.

quldurluq, qətlü qarət get-gedə artacaqdır...»[423]

Doğrudan da aclıq və ehtiyac qaçaqçılığın, talançılığın, beləliklə də qarmaqarışıqlığın artmasına səbəb olurdu. Yollarda adamları, hətta qadınları belə soyurdular. Yerli inzibati hökumət bir çox halda: quldurları tutsa da, A. Səhhət, doğru olaraq, yazırdı ki: «Əmnü asayişi təmin etməkdən ötəri ərzaq məsələsinin asanlıqla həll olunması qeydində olmaq gərəkdir».[424]

Təəssüf ki, komissarlar hökumətinin Şamaxı ərzaq komitəsinə komissar təyin etdiyi «Atabekyan Şamaxıya gələr-gəlməz sabiqdə az çox Bakıdan gələn ərzağın da yolunu kəsdi».[425] Onun quberniya mərkəzinə verdiyi fitnəkar hesabatın nəticəsi olaraq, əhalinin maddi kömək almaq üçün quberniya mərkəzinə etdiyi müraciətlər cavabsız qalır. Nəhayət, mərkəzə gedən nümayəndə heyəti müraciətlərin cavabsız qalma səbəbini və Atabekyanın Şamaxı əhalisinin ziyanına verdiyi məlumatları xalqa çatdırmışdı. Qeyd edək ki, aclıq və qıtlıq Şamaxıda və ətraf kəndlərdə əmin-amanlığın pozulmasında əsas rol oynamışdır. Ən acınacaqlısı isə odur ki, yaranmış vəziyyətdən istifadə edən pozucu qüvvələr təxribat xarakterli məlumatlar yayaraq Şamaxıda müsəlmanların hökumətə və qeyri millətlərə qarşı silahlandıqlarını bildirib əhali arasında həyəcanın artmasına çalışırdılar, Onlar məkrli bir plan hazırlayırdılar. Bu hərəkətlərin bəd niyyətini qabaqcadan duyan A. Səhhət narahatlıqla yızırdı: «...Fəqət bunların (yəni, aclıq və qaçaqçılıq, quldurluq - A. B.) hamısından bədtəri provakatorluq bəlasıdır ki, onunla mübarizə etmək hər şeydən müşküldür. Onun əlindən təxlisi-kiriban etmək bir əmri-məhal kimi görünür.

Qafqasiyanın qeyri şəhərlərində, bərəkət versin, müqtədir camaat xadimləri, fəal demokratiya firqələri mövcud olduğundan provakatorluğun qabağını ala bilirlər. Lakin bizim bədbəxt Şamaxımızda nə karaşina millət başçıları, nə həvəskar fəhlə firqələri var ki, o mənhus provakatorluğun önünü ala bilsinlər. Zavallı müsəlmanlar bir neçə sərsəri qasiblərin əlində baçizə qalmışlar».[426]

Səhhət uzaqgörənlik və vətəndaş ayıqlığı ilə başa düşürdü ki, bu şaiyələr müsəlmanlara qarşı düşünülmüş hansısa məkrli bir planın başlanğıcıdır. Odur ki, oxucuları və əlaqədar adamları ayıqlığa, tədbirə çağıraraq xəbərdarlıq edirdi ki: «Provakatorlar müfsideyi-şeytanətkaranələrindən bir an olsun qəflət etmirlər. Biçarə müsəlmanların özlərinə növ-bənöv iftira və böhtanlar yağdırmaqdan çəkinmirlər, «müsəlmanlar silahlanır» - deyə saldatları iqna etmişlər, inandırmışlar. Binaənileyh bu günlərdə saldatlar öz aralarında bir nəfər nümayəndə intixab edib Tiflisə göndərmişdilər ki, qüvveyi-imdadiyyə alıb Şamaxıya gətirsin və bununla bərabər yenə də öz şuralarında qərar qoymuşlar ki, şəhəri əlli altı hissəyə bölüb bir gündə, müəyyən saatda qəflətən haman təqsim edilmiş məlum hissələrdə ümumi

423 A. Səhhət. Əsərləri. İki cilddə, II c. Bakı, 1976, səh. 69.
424 Orada, səh. 70.
425 Yenə orada, səh. 69.
426 A. Səhhət Əsərləri. İki cilddə. II cild, Bakı, 1976, səh. 71-72.

axtarış etsinlər. Hankı evdə silah və ərzaq, məkulat və məlbusat buldularsa, fövrən həcza etsinlər. Bunun da nəticəsi nə olduğu məlumdur. İştə qara ürəkli provakatorların da istədiyi budur».[427]

Hadisələrin inkişafının növbəti mərhələsi Səhhətin bu narahatlıq və xəbərdarlıqlarının əsassız olmadığını üzə çıxartdı. Belə ki, üzdəniraq «dənizlərdən-dənizlərə» planı ilə özlərinin müsəlmanlara qarşı hazırladıqları genosid proqramlarını həyata keçirməyə fürsət tapmış erməni daşnakları 1918-ci il martın son günlərində Bakıda və onun ətrafında müsəlman əhalisini qırmağa başladılar. Eyni zaman da Qarabağ, Qazax, Göyçə, Zəngəzur və başqa yerlərdə də azəri türkləri amansızlıqla məhv edilir, yaşayış yerləri, tarixi abidələr dağıdılırdı. Məlum olurdu ki, «müsəlmanlar silahlanırlar» - deyə aləmə car çəkməklə ermənilər öz məkrli, işğalçılıq niyyətlərini həyata keçirməyə zəmin hazırlayırlarmış.

Bakıda və onun ətrafında bu işin həyata keçirilməsinə Şuamyan rəhbərlik edirdi. O, üzdə Sovet Rusiyasının siyasətini, Leninin tapşırığını yerinə yetirib Bakı quberniyasını Rusiyanın tərkibinə qatmaq üçün zəmin hazırlayırdısa, əslində bu yerləri gələcəkdə ermənilərə vermək məqsədilə onun müsəlman əhalisini məhv etmək, qalanını tarixi yurdlarından didərgin salmaqla Bakı quberniyasını da, erməni məskəninə çevirməyə çalışırdı. Odur ki, erməni qəddarlığı son həddə çatmışdı. M. Ə. Rəsulzadə özünün «Unudulmaz faciə» məqaləsində göstərirdi ki, «Biz Bakıdakı mart hadisələrini yada salarkən, şübhəsizki, o günlərdə icra olunan vəhşətə, zülmə, yaxılan xanimanlara, parçalanıb da divarlara mıxlanan yavrulara, hətək olunan irzü namuslara dəxi ətfi-nəzər edir, insanın bir anda dönüb canavardan da betər bir hala düşmək ləyaqətində dəxi olduğunu böyük bir hissi-infial və şərməndəliklə görürüz.

Fəqət, mart günlərinin əsl martda söylədiklərimizdən və söyləmədiklərimizdən daha böyük, daha şəni, daha mərdud, daha iyrənc bir hadisə vaqe olmuşdu. İctimai bir inqilab nam və pərdəsilə ortaya çıxıb milli bir ədavət icra edilmişdi. Burjuaziyaya elani hərb edilib nəticədə sosialist, bolşevik və müsavat - heç birinə fərq qoyulmadan kəsilmək və atılmaq üçün müsəlman olmaq kafi gəlmişdi.

Daşnaqlar intiqam alıyordu. Bu intiqam hər növ qonşuluq, inqilabdaşlıq, vətəndaşlıq hissini korlatır, yan-yana sülh və müsalimat ilə yaşayan millətləri sənələrlə bir-birindən ayırırdı».[428]

Hiyləgər daşnaklar bu qırğınlara «erməniliyi mühafizə etmək» iddiası ilə haqq qazandırmağa çalışırdılar. Belə çıxır ki, ermənilərin xilası və yaşaması üzün azəri türkləri yer üzündən silinməlidirlər. Onlar bu məqsədlə 1906-cı ildə Şamaxıda nail ola bilmədikləri qırğından da bəlkə daha geniş miqyaslı genosid aktını 1918-ci ilin martında həyata keçirə bildilər. Daşnakların Şamaxını yer üzündən silmək üçün nələrə əl atdıqları haqda ibtidai bir təsəvvür almaq üçün o

[427] Orada, səh. 72.
[428] M.Ə.Rəsulzadə. Unudulmaz faciə. "İstiqlal" qəzeti, 31 mart 1919.

zaman Azərbaycan Demokratik Cümhuriyyətinin parlament üzvlərindən Mehdibəy Hacıbababəyovun hadisə yerindən qayıtdıqdan sonra verdiyi məlumatın* bəzi məqamlarına diqqət yetirək: «Son hadisələr (1918-ci ilin mart qırğınları nəzərdə tutulur. -A. B.) zamanında Şamaxı və ətraf kəndləri tamamilə dağılıb qeyri-məskun bir hala qoyulduğundan, Kürdəmirdən gediş-gəliş tamamilə kəsildiyindən indiki halda heç bir nəqliyyat vasitəsi mövcud deyildi...

Kürdəmirdən Şamaxıya doğru yol üzərində olan kəndlər tamamilə yer ilə yeksan edilmişdir.

Şamaxı şəhəri bir halətdədir ki, onu əsvir etmək mümkün deyildir. Evlər tamamilə yandırılıb uçurulmuşdur. Vəlu bir dənə olsun salamat binaya təsadüf edilməyir. Küçələr dağılmış evlərin ənqazı ilə tutulmuş, İnsan şəhərə girərkən onu vəhşət alır. Səqfi tökülmüş, qapı-pəncərəsi yanmış binalardan yalnız uçuqlar, onların miyanından görünən Pompey xarabazarlığını andıran sütunlardan başqa nəzərə bir şey çarpmaz».[429]

Göründüyü kimi, ermənilər Şamaxıda həyat nişanələrini məhv etmək üçün hər cür qəddarlığa əl atıblar. M. Hacıbababəyov onların bütün qəddarlıqlarını heyrətdə qoyan əməllərinin Şamaxıdakı nəticələrini vaxtilə yaxınlıqdakı dağdan püskürən vulkan lavasının altında qalaraq tamamilə məhv olan qədim Pompey şəhərinin vəziyyəti ilə müqayisə edir. Ermənilər qəbiristanlığı, müsəlmanların müqəddəs ocaqlarını belə təhqir edərək onların yaşadıqları hər bir evə ayrılıqda od vurmuş, lakin öz kilsələrini qoruyub saxlamışlar. Məlumatda bu haqda oxuyuruq: «Şamaxı zəlzələsindən (1902-ci il zəlzələsi nəzərdə tutulur. - A B.) sonra evlər yek-digərindən qayət məsafəli bir halda bina edildiyindən bir evdən digər evə heç bir halda od keçməzdi. Budur ki, iddia etmək olar ki, evlər birər-birər yandırılmışdır. On altı məsciddən birisi də salamat qalmamışdır. Məscidi-Came'in binasında etəş ala biləcək heç bir məvadd olmadığından anlaşılır ki, onun yalnız daşdan olan divar tağlarına neft və mazut sürtməklə və bir çox müşkülat daxilində onu yandıra bilmişlər. Çünki, o məscidi başqa dürlü yandırmaq imkan xaricində idi».[430]

Ancaq bütün bunların müqabilində sonradan şəhərə qayıtmağa başlayan müsəlman əhalisi erməni kilsələrinə toxunmurlar: «Məbədləri böylə təhqir və xarab edilmiş türk və müsəlmanlar sonradan şəhəri isterdad edərkən erməni və rus kəlisalarına məqabelə balməsl etməmişlər. O kəlisalara heç bir toxunulmadan öyləcə salamat qalmışlardır».[431]

Bunun müqabilində, qeyd etdiyimiz kimi, ermənilər müsəlmanların şərəf və ləyaqətini, irzü namusunu hər cür çirkinliklərlə tapdalamışlar. Mətbuatda bu haqda oxuyuruq: «Şamaxı qəzasında olan əhali 18 mart (1918-ci il. - A. B.) facieyi-

---

* Məlumat "Azərbaycan" qəzeti üçün H.S. imzalı müəllif tərəfindən qələmə alınmışdır.
429 H. S. Şamaxı haqqında «Azərbaycan» qəz., 16 təmmuz 1919.
430 Orada.
431 Yenə orada.

əliməsində böyük fəlakətlər və bədbəxtliklərə uğramışdır. Hamıya məlumdur ki, Şamaxı və Şamaxı qəzasının evləri, mülkləri, dövlət və sərvətləri, heyvanları, hətta it və pişikləri də hüdudu erməni çetələri tərəfindən tələf edilmişdir. Allah evinə, insanların, heyvanların diriliyinə xidmət edən bulaqlara, məzarıstanda və adi xamuşanda məskən edən ölülərin, meyitlərin qəbir daşlarına top, tüfəng atıb dağıdan asilərin, yağıların ayaq basdıqları mövqelərdə abadlıq olmayacağı mühəqqətdir».[432]

Müəllif «bir vaxt üdəba-şüərası ilə sair yerlərə sərməşq olan Şamaxı»nın ermənilər tərəfindən xüsusi hazırlanmış məkrli bir plan əsasında dağıldığını təsvir edərək yazırdı: «Şübhəsiz ki, Şamaxının bu qayda ilə uçurulub yandırılması müəyyən plan və pişəzvəqt hazırlanmış proqramına üzrə olmuşdur ki, bunu yapanlar şəhərdə bir daha sükunət, ömrən, asari-həyat olmasın deyə əllərindən gələn xarab və şumluğu icra etməkdə az da olsa, insaf, mürvət və insaniyyət tərəfin gözləməmişlərdir. Daha doğrusu, şu xunin paytaxtı, ürəfa və şüəra məskəni tarixi bir şəhəri xarabazara döndərməkdə kirvələr olmazın alçaqlığa tənəzzül etmişlər. Gözlərini yumub əllərini açmışlardı. Əvət, Şamaxı dağılmışdır».[433]

Ermənilərin bu qəddarlıqları onu göstərir ki, onlar tarixi yurdlarımıza sahib çıxmaq üçün həmin yerlərdə məskunluğumuzun izlərini özündə saxlayan qədim nişangahları, bütövlükdə yaşayış məskənlərini belə yer üzündən silməyə, özümüzü isə genosid yolu ilə məhv etməyə çalışırlar. Ermənilərin Şamaxıda törətdikləri bu vəhşiliklər zamanı şəhərin bütün əhalisi qırılan qırılmış, qaçan qaçmışdı. Abbas Səhhət də genosid aktının qurbanı olaraq, öz vətənindən didərgin düşərək bir sıra əzab-əziyyətdən sonra Gəncədə vəfat etmişdi.[434]

Şairin şəxsi kitabxanasından əsər-əlamət qalmayıb, ermənilər tərəfindən evi ilə birlikdə yandırılmışdır. Bu cür məhrumiyyətlərə əhalinin bütün təbəqələri məruz qalmışdı.

Lakin ermənilər Şamaxının mənəvi aləmini, qədim və tarixi-mədəni ruhunu, həyat və istiqlal eşqini tamamilə məhv edə bilməmişdilər. Osmanlı türklərinin köməyi ilə erməni daşnaqlarının qarşısı alındıqdan sonra sağ qalmış əhali yavaş-yavaş öz dədə-baba yurduna dönməyə, şəhərdə həyat qaynamağa başlamışdı. Bütün bunlara əsaslanıb Şamaxının gələcəyinə, oradakı yüksək milli-mənəvi ab-havanın yenidən dirçələcəyinə ümid bəsləyən müəllif yazırdı ki, Şamaxı cismən dağılsa da, «fəqət buranın ruhu, təbiəti, iqlimi, havası yerindədir.

Şamaxıda bir halət vardır ki, o da daima xarabalıqdan sonra yenə abadlığa meyl edərək abad olmasıdır. Əl'an Şamaxıda üç minə qərib nüfus mövcuddur. Şübhəsiz ki, get-gedə bunun miqdarı artacaqdır».[435]

Hadisələrin sonrakı inkişafı göstərir ki, Şamaxı dirçəlmək üçün öz

---

[432] A. A-zadə Şamaxı qəzasında. "Azərbaycan" qəzeti, 28 təşrini-əvvəl, 1919.
[433] A.A-zadə. Şamaxıdan. Oradan. 18 avqust 1919.
[434] Bax: K. Talıbzadə. Seçilmiş əsərləri. İki cilddə, 1 c., Bakı, 1991, səh. 232-237.
[435] A.A-zadə. Şamaxıdan. "Azərbaycan" qəzeti, 18 avqust 1919.

potensialını tapa bildi. Azərbaycan ədəbiyyatına və dünya mədəni fikrinə böyük dühalar bəxş edib, milli-mənəvi şüurun yüksəldilməsinə müstəsna xidmətləri olan bu qədim diyar yenə mədəni mərkəzlərindən birinə çevrildi...

1993.

# MÜNDƏRİCAT

**GİRİŞ**..........................................................................................................3
**I FƏSİL**
XIX əsrin ikinci yarısında ictimai-ədəbi hərəkat və Şamaxı mühiti........................8
**II FƏSİL**
İctimai-milli və ədəbi-bədii uğurları Şamaxıda ifadə xüsusiyyətləri......................67
**III FƏSİL**
XX əsrin əvvəllərində Şamaxıda ədəbi mühitinin son mərhələsi..........................147

**Redaktoru:** R. Q. Hüseynov

**Bədii redaktoru:** L. M. Hüseynov

**Texniki redaktoru:** Ə. Q. Rəhimov

**Korrektorları:** Z. M. Ələsgərova, N. F. Fərzəliyeva

Yığılmağa verilmişdir 12.05.95. Çapa imzalanmış 13. 01. 97. Nəşrin formatı 84x108 1/32. Ofset kağızı № 2. Ədəbi qarnitur. Yüksək çap. Fiziki çap vərəqi 7,5. Şərti ç. v. 12,6. Şərti rəng-ottisk 12,81. Uçot nəşr. vərəqi 13,1. Tirajı 300. Sifariş № 30. Qiyməti müqavilə yolu ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin "Maarif" nəşriyyatı, Bakı - 370111, Ə. Tağızadə küçəsi, № 4. Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin 3 № - li Bakı Kitab Mətbəəsi, Bakı, Ə. Tağızadə küçəsi, № 4.

**Alxan Bayramoğlu Məmmədov**

**ŞAMAXIDA MAARİF VƏ MAARİFÇİLİK**

(XIX əsrin ortalarından mart 1918-ci ilə qədərki ədəbi mühit).

Azərbaycan Dövlət Pedaqoji Ədəbiyyatı Nəşriyyatı

"Maarif"

BAKI - 1997